İLHAM
ƏLİYEV

# İNKİŞAF –
# MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## ONUNCU KİTAB

## MAY 2005 - İYUN 2005

AZƏRNƏŞR
BAKI - 2012

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2012

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2012, 408 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan bu cildində Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsi münasibətilə Bakıda keçirilən təntənəli mərasimdə nitqi, Qazaxıstan, Gürcüstan və Türkiyə prezidentləri ilə görüşlərin materialları, XII Beynəlxalq «Xəzər neft-qaz, neftayırma və neft kimyası –2005» sərgisinin açılışındakı çıxışı verilmişdir.

Cilddə İlham Əliyevin Varşavada Avropa Şurasının üzvü olan dövlət və hökumət başçılarının III Zirvə görüşündə, Sankt-Peterburqda IX Beynəlxalq iqtisadi forumunda, Kiyevdə «Fövqəladə Ukrayna dəyirmi masası»nın I geniş iclasında dövlət və hökumət başçıları, ictimai-siyasi xadimlərlə görüşləri, çıxışları, söhbətləri, KİV-ə verdiyi müsahibələr toplanmışdır.

Kitabda həmçinin, regionların inkişafına, qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə, Azərbaycan Ali Hərbi Məktəbin məzunları ilə görüşü, Azərbaycan Milli Mətbuatının 130 illik yubileyinin keçirilməsi haqqında sərəncam və respublikanın daxili həyatına aid mühüm sənədlər öz əksini tapmışdır.

**İSBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2012}}$ **ББК - 32**

© Azərnəşr, 2012

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VARŞAVAYA SƏFƏRİ

*15 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti zirvə görüşündə iştirak etmək üçün mayın 15-də Polşanın paytaxtı Varşava şəhərinə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq hava limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola salmışlar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev mayın 15-də Varşavaya gəlmişdir.*

*Dövlətimizin başçısını Varşavanın hərbi hava limanında Polşa Respublikasının rəsmi nümayəndələri qarşıladılar.*

*Azərbaycan prezidenti hava limanından maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha – «Le Rejina» mehmanxanasına gəldi.*

## ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANLA GÖRÜŞ

*Varşava,*
*«Belveder» iqamətgahı*

*15 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Ermənistan Respublikasının prezidenti Robert Köçəryan ilə görüşü olmuşdur. Görüşdə ATƏT-in Minsk qrupu həmsədrləri, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov və Fransanın Xarici İşlər naziri Mişel Barnyö iştirak etmişlər.*

*Azərbaycan və Ermənistanın xarici işlər nazirləri və həmsədrlər dövlət başçılarına Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair apardıqları danışıqların nəticələri, eləcə də Praqa prosesi barədə məruzə etmişlər.*

*Sonra prezidentlər görüşü təkbətək davam etdirmişlər.*

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov jurnalistlərə görüş barədə məlumat verərək bildirmişdir ki, üç saat davam edən görüşdə münaqişənin həlli ilə bağlı bəzi detallar müzakirə olunmuşdur. Müəyyən məsələlərdə irəliləyiş, razılıq əldə olunsa da, ümumi prinsipial məsələlərin müzakirəsinə ehtiyac vardır.*

*Elmar Məmmədyarov demişdir ki, prezidentlər görüşdən sonra Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinə tapşırıq vermişlər ki, xarici işlər nazirləri səviyyəsində danışıqlar, yəni Praqa prosesində razılığa gəlinən məsələlərdən əlavə, bəzi mühüm məqamlar barədə müzakirələri davam etdirsinlər. Bu baxımdan həmsədrlər də öz işlərini davam etdirəcək və fikirlərini yaxın aylar ərzində bildirəcəklər. Ümumiyyətlə, Azərbaycan tərəfi üçün danışıqların formatı o qədər də vacib deyil, əsas nəticədir, yəni Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.*

# TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANLA GÖRÜŞ

*Varşava,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*«Le Regina» mehmanxanası*

*15 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuş, Azərbaycan–Türkiyə dostluq, qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsinə dair fikir mübadiləsi edilmişdir.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan görüşdən sonra mətbuat üçün brifinq keçirmişlər.*

*Prezident İlham Əliyev demişdir ki, hər dəfə beynəlxalq tədbirlərdə görüşərkən hörmətli Baş nazir ilə bütün məsələləri müzakirə edirik. Bu gün də ikitərəfli əlaqələr haqqında geniş fikir mübadiləsi aparılmışdır. Regionda gedən proseslər, təhlükəsizliyin təmin olunması məsələləri də diqqət mərkəzində olmuşdur.*

*Bu gün mən Ermənistan prezidenti ilə də görüşdüm. Görüş haradasa üç saat çəkdi. Mən görüş barədə, müzakirə edilən məsələlər haqqında hörmətli Baş nazirə məlumat verdim və bu məsələ də müzakirə olundu.*

*Bizim aramızda olan əlaqələr çox sürətlə inkişaf edir. Türkiyə və Azərbaycan bölgədə öz mövqelərini möhkəmləndirirlər. Bir neçə gündən sonra bizi birləşdirən böyük enerji layihəsi başa çatır. Bakı–Tbilisi–Ceyhan boru xətti istismara veriləcəkdir və əlaqələrimizin yeni mərhələsi başlayacaqdır. Ümid edirəm*

*ki, iki dost, qardaş ölkə bundan sonra da bir-birini daim dəstəkləyəcək və xalqlarımız həmişə birlikdə olacaqlar.*

*Baş nazir Rəcəb Tayyib Ərdoğan demişdir ki, mən hörmətli cümhur başqanına çox təşəkkür edirəm. Mayın 16-da başlayacaq Avropa Şurasının üçüncü zirvə görüşündən öncə hörmətli İlham Əliyevlə Türkiyə–Azərbaycan əlaqələrini dəyərləndirmək fürsəti əldə etdik. İki qardaş, dost ölkə olaraq Türkiyə ilə Azərbaycan arasındakı bütün məsələləri davamlı müzakirə edirik. Çox sağ olsun, Azərbaycan prezidenti bu gün Ermənistan prezidenti ilə görüşləri haqqında bizi məlumatlandırdı. Biz də buna biganə deyilik və münaqişənin tezliklə aradan qaldırılması yolunda atılan lazımi addımları diqqətlə, həssaslıqla izləyirik. Arzumuz odur ki, bu məsələ tezliklə həll edilsin. Düşünürəm ki, beləliklə, bölgə sülhə, təhlükəsizliyə qovuşmuş olacaqdır.*

*İndiki zirvə görüşünün Avropa Şurasının üzvü olan bütün ölkələr üçün xeyirli və faydalı olacağına ümid edirəm.*

*Sonra jurnalistlər suallarla müraciət etdilər.*

**S u a l: Cənab Baş nazir, Siz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bugünkü görüş barədə nə deyə bilərsiniz?**

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** Hər görüş irəliləyişə doğru bir addımdır.

**S u a l: Cənab Prezident, Ermənistan tərəfinin mövqeyi sərtdir, yoxsa yumşalmağa doğru nəsə gözlənilir?**

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz, mövqelər bəllidir. Artıq bu məsələ uzun illərdir müzakirə olunur və hər bir tərəfin öz mövqeyi var. Bu mövqelər bu gün yenidən müzakirə olundu. Bilirsiniz ki, bizim xarici işlər nazirləri də tez-tez görüşürlər, müxtəlif məsələlər müzakirə olunur. Amma biz bu gün Ermənistan prezidenti ilə belə qərara gəldik ki, aparılmış danışıqlar haqqında mətbuata açıqlama verməyəcəyik. Çünki hələ tezdir. Mən ümid edirəm ki, danışıqlar nəticə ilə sonuclanacaq və aramızda olan məsələlər öz həllini tapacaqdır. Sağ olun.

# AVROPA ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ÜÇÜNCÜ ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞI

*Varşava,*
*Kral sarayı*

*16 may 2005-ci il*

*Mayın 16-da Polşanın paytaxtı Varşava şəhərinin Kral sarayında Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü zirvə görüşü öz işinə başlamışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev zirvə görüşündə iştirak etmək üçün Kral sarayına gəldi. Prezident İlham Əliyevi Polşa prezidenti Aleksandr Kvasnevski, Avropa Şurasının Baş katibi Terri Devis böyük hörmət və ehtiramla qarşıladılar.*

*Avropa Şurasının zirvə görüşü ən mötəbər beynəlxalq tədbirlərdən hesab olunur. Əsası 1949-cu ildə qoyulmuş Avropa Şurası Avropada sülhün, təhlükəsizliyin, insan hüquqlarının qorunması, demokratiyanın inkişafı sahəsində səmərəli fəaliyyət göstərir. 2001-ci ildən AŞ-nın tamhüquqlu üzvü olan Azərbaycan bu təşkilatla sıx əməkdaşlıq edir. Avropa Şurasının birinci zirvə görüşü 1993-cü ildə Vyanada, ikincisi isə 1997-ci ildə Strasburqda keçirilmişdir. Varşava zirvə görüşündə Avropa Şurasına üzv olan 46 ölkənin dövlət və hökumət başçıları, xarici işlər nazirləri iştirak edirlər. Toplantıya Avropa Komissiyasının, BMT-nin nümayəndələri, ABŞ, Kanada və Yaponiyadan müşahidəçilər dəvət olunmuşlar. Nümayəndə heyətləri üzvlərinin zirvə görüşü çərçivəsində görüşlər və yaxud mətbuat konfransları keçirə bilmələri üçün Kral sarayında xüsusi salonlar da ayrılmışdır.*

*Zirvə görüşündə terrorizmlə mübarizə, qanunsuz miqrasiyanın qarşısının alınması, cinayətkarlıqla və çirkli pulların leqallaşdırılması ilə mübarizə üzrə konvensiyalar qəbul olunmalıdır.*

*İştirakçılar Kral sarayında qarşılandıqdan sonra birgə xatirə şəkli çəkdirdilər.*

*Sonra zirvə görüşünün təntənəli açılışı oldu. Polşa Respublikasının prezidenti Aleksandr Kvasnevski iştirakçıları salamladı, XXI əsrdə Avropada və dünyada əmin-amanlığın qorunub saxlanılmasının, möhkəm sülh yaradılması üçün konstruktiv tədbirlərin görülməsinin vacibliyini, bu sahədə Avropa Şurasının rolunu vurğuladı və zirvə görüşünə uğurlar dilədi.*

*Sonra Avropa Şurası Parlament Assambleyasının sədri Rene Vander Linden, Avropa Şurasının Baş katibi Terri Devis, Ukrayna, Norveç, Lüksemburq, Portuqaliya, Finlandiya, İsveçrə, İsveç, Avstriya, Belçika, Rumıniya, İslandiya, Böyük Britaniya və Türkiyənin dövlət, hökumət başçıları çıxış etdilər. Çıxışlarda Avropa Şurasının üçüncü zirvə görüşü Avropanın siyasi həyatında mühüm hadisələrdən biri kimi vurğulandı, müzakirə edilən məsələlərin üzv olan ölkələr üçün faydalı olacağı bildirildi.*

## AVROPA ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ÜÇÜNCÜ ZİRVƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*Varşava,*
*Kral sarayı*

*16 may 2005-ci il*

Hörmətli cənab Sədr!
Xanımlar və cənablar!
Öncə, bu sammitin yüksək səviyyədə təşkil olunmasına və bizə göstərilmiş qonaqpərvərliyə görə Polşanın rəhbərliyinə minnətdarlığımı bildirmək istərdim. Əlamətdar haldır ki, belə bir tədbir son on beş il ərzində fundamental demokratik dəyişiklikləri yaşamış regionun əsas ölkəsi sayılan Polşada keçirilir və bu ölkə hazırda ümumi Avropanın ayrılmaz bir hissəsinə çevrilmişdir.

On beş il bundan əvvəl Azərbaycan da ayrı bir sistemdə yaşamışdır. Son illər ərzində siyasi və iqtisadi islahatlar yolunda həyata keçirdiyimiz siyasət aşağıdakı sahələr üzrə bir çox nailiyyətlərin əldə olunmasını mümkün etmişdir: siyasi və iqtisadi dəyişikliklər; cəmiyyətimizin müasirləşməsi; demokratiyanın inkişaf etdirilməsi; insan hüquqlarının qorunması; söz azadlığı və plüralizm. Bu baxımdan, qazandığımız nailiyyətlərdə Avropa Şurasının oynadığı rol yüksək olmuşdur.

2001-ci ildə Avropa Şurasına qəbul olunduqdan sonra Azərbaycanın demokratik inkişafında gözəçarpan dəyişikliklər baş vermişdir. Avropa Şurasına tamhüquqlu üzv olduqdan sonra üzərimizə götürdüyümüz bütün öhdəliklər yerinə yetirilməkdədir. Ölkəmizdə qəbul edilmiş yeni qanunlar, yeni qanunvericilik Avropa standartlarına və dəyərlərinə uyğundur. Apardığımız si-

yasi və iqtisadi islahatlar siyasəti iqtisadiyyatımızın inkişaf etdirilməsi üçün imkanlar yaratmışdır. Bizim çox yaxşı iqtisadi göstəricilərimiz var. Lakin biz onu da başa düşürük ki, demokratik cəmiyyət qurmadan bu yolda uğur qazana bilmərik. Yəni vətəndaşlarımız üçün demokratik proseslərdən yararlanmaq üçün eyni imkanların təmin olunmasına nail ola bilməyəcəyik.

Ölkəmiz Avropaya inteqrasiya prosesinə tam sadiqdir. Biz Avropa İttifaqının Yeni qonşuluq siyasətinə daxil olmağımızdan çox şadıq və bu siyasətin inkişaf etdirilməsi istiqamətində Avropa İttifaqı ilə sıx əməkdaşlıq etmək əzmindəyik. Azərbaycanın Avropaya inteqrasiya olunması ölkəmizə bir çox üstünlüklər verir. Lakin biz onu da başa düşürük ki, regionumuzda sülh və sabitlik olmadan tam inteqrasiya çox çətin olacaqdır. Əfsuslar olsun ki, Cənubi Qafqaz regionunda sülh təhlükə altındadır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi böyük sayda insan tələfatına səbəb olmuşdur və bu münaqişənin nəticəsində bu gün Azərbaycan ərazisinin 20 faizi işğal altındadır. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Həmçinin Avropa Şurasının ən başlıca prinsiplərindən biri – insan hüquqlarının qorunması prinsipi pozulmuşdur. Bir milyondan çox azərbaycanlı qaçqın-köçkünün insan hüquqları kobudcasına pozulmuşdur. Avropa Şurasının bu məsələyə dair mövqeyi bizdə böyük ümidlər yaradır. Avropa Şurası Parlament Assambleyasının yanvar ayında qəbul etdiyi qətnamə bu münaqişənin artıq qeyd etdiyim əsas nəticələrini aydın şəkildə əks etdirir. Ona görə də biz hesab edirik ki, bu qətnamənin yerinə yetirilməsi münaqişənin dinc yolla həllinə gətirə bilər və regionda davamlı sülhün bərqərar olunmasına zəmin yaradar.

Münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi hər zaman beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanıbdır. Yəni, hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır və əgər o pozulubsa, bərpa olunmalıdır. Təbii ki, XXI əsrdə biz Avropa Şurasına üzv olan bir ölkənin digər üzv ölkənin ərazisini işğal al-

tında saxlaması faktını qəbul edə bilmərik. Biz öz torpaqlarımızın qaytarılmasını, ərazi bütövlüyümüzün bərpasını tələb edirik.

Biz kompromislərə də hazırıq. Hesab edirik ki, uzun illər ərzində Azərbaycan tərəfindən Dağlıq Qarabağ ermənilərinə mümkün olan ən yüksək muxtariyyət statusunun verilməsi təklifi kifayət qədər ciddi güzəştdir. Bununla yanaşı, biz həmin regionda yaşayan hər kəsin təhlükəsizliyinə zəmanət veririk. Bu təklif hərtərəfli nizamlanma üçün çox vacib element kimi hesab edilə bilər. Lakin eyni zamanda, Azərbaycanın Dağlıq Qarabağ üzərindəki suverenliyi kompromis mövzusu ola bilməz. Biz ərazi bütövlüyümüz ilə bağlı heç bir güzəştə gedə bilmərik. Biz bütün dünya ölkələrinin ərazi bütövlüyünə hörmətlə yanaşırıq və əlbəttə ki, Azərbaycanın ərazi bütövlüyünə də hörmətlə yanaşılmasını istəyirik.

Hesab edirəm ki, beynəlxalq ictimaiyyətin bu məsələyə diqqəti münaqişənin həllinə nail olmaqda bizə yardımçı olacaqdır. Biz prezidentlər və xarici işlər nazirləri səviyyəsində aparılan sülh danışıqlarını faydalı hesab edirik. Azərbaycan münaqişənin dinc yolla aradan qaldırılmasına sadiqdir. Bizim fikrimizcə, bütün müvafiq təşkilatlar, yəni münaqişənin həlli ilə bağlı səlahiyyətli olan ATƏT-in Minsk qrupu, Avropa Şurası və Avropa İttifaqı bu cür vacib məsələyə daha böyük diqqət yetirə bilər. Bu münaqişə yaşadığımız regionda sabitlik və inkişafa böyük təhlükədir və bizim Avropaya inteqrasiya yolumuzda olan əsas maneədir.

Mən bu tədbirin lazımi səviyyədə təşkil olunmasına görə Polşanın hakimiyyət orqanlarına bir daha minnətdarlığımı bildirirəm və qeyd etmək istəyirəm ki, biz Avropa Şurası ilə münasibətlərimizi və əməkdaşlığımızı çox yüksək qiymətləndiririk və bu təşkilata qəbul olunduqdan etibarən üzərimizə götürdüyümüz bütün öhdəliklərin tam yerinə yetirilməsini davam etdirəcəyik.

Çox sağ olun.

## LİTVA PREZİDENTİ VALDAS ADAMKUSLA GÖRÜŞ

*Varşava,*
*Kral sarayı*

*16 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Varşavada Avropa Şurasının üçüncü sammiti çərçivəsində bir sıra görüşlər keçirmişdir.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 16-da Varşavada Kral sarayında Litva Respublikasının prezidenti Valdas Adamkusla görüşmüşdür. Görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsinin zəruriliyi vurğulandı. Cənab Adamkus bu yaxınlarda Moldovanın paytaxtı Kişinyovda GUAM ölkələri dövlət başçılarının zirvə görüşündə prezident İlham Əliyevin dərin məzmunlu nitqini məmnunluqla xatırladaraq bildirdi ki, burada toxunulan məsələlər onda böyük təəssürat yaratmışdır.*

*Görüşdə regional əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı və prezident Valdas Adamkus bir daha vurğuladı ki, əməkdaşlığın daha da genişləndirilməsi hər iki tərəf üçün faydalıdır.*

*Prezident İlham Əliyev Azərbaycanın Avratlantik strukturlarına, Avropa ailəsinə inteqrasiyaya böyük əhəmiyyət verdiyini bildirərək dedi ki, Azərbaycan Avropa Birliyinin yeni qonşuluq siyasətinə və NATO-nun fərdi əməkdaşlıq üzrə fəaliyyət planına qoşulmuşdur və bu sahədə artıq müəyyən nəticələr vardır. Ölkələrimiz arasında siyasi-iqtisadi sahələrlə yanaşı, digər istiqamətlərdə də əlaqələri genişləndirmək üçün yaxşı imkanlar mövcuddur.*

*Dövlətimizin başçısı Cənubi Qafqazın Avropaya inteqrasiyasına ən böyük maneənin Ermənistanın Azərbaycana təcavüzü*

*olduğunu bildirdi və bu münaqişənin ağır nəticələrindən ətraflı söhbət açdı.*

*Azərbaycan və Litva prezidentləri bir-birilərini öz ölkələrinə rəsmi səfərə dəvət etdilər. Dəvətlər məmnunluqla qarşılandı.*

## Avropa Birliyinin xarici əlaqələr və yeni qonşuluq siyasəti üzrə komissarı Benita Ferrero-Valdner ilə görüş

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 16-da Varşavada Kral sarayında Avropa Birliyinin xarici əlaqələr və yeni qonşuluq siyasəti üzrə komissarı xanım Benita Ferrero-Valdner ilə görüşmüşdür.*

*Xanım Benita Ferrero-Valdner prezident İlham Əliyev ilə əvvəlki görüşlərini məmnunluqla xatırlatdı, Azərbaycanın Avropa qonşuluq siyasətində fəal iştirakını yüksək qiymətləndirdi, ölkəmizlə Avropa Birliyi arasında müxtəlif sahələrdə əməkdaşlığın yaxşı inkişaf etdiyini vurğuladı. Azərbaycanın Avropa ailəsinə daha da yaxınlaşması planı üzərində konkret işlər görüldüyünü bildirən Benita Ferrero-Valdner Azərbaycanı strateji əhəmiyyəti olan ölkə kimi səciyyələndirdi.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq, bu problemin bölgənin Avropaya inteqrasiyasına, Cənubi Qafqazda və ümumən regionda sabitliyin, təhlükəsizliyin bərqərar olmasına böyük zərbə vurduğunu bildirdi. Dövlətimizin başçısı ölkəmizdə həyata keçirilən iqtisadi islahatlardan, nəhəng enerji layihələrində Azərbaycanın rolundan da söhbət açdı.*

*Xanım Benita Ferrero-Valdner Azərbaycanda aparılan uğurlu islahatlardan xəbərdar olduğunu söyləyərək dedi ki, Avropa Birliyi bu islahatların daha da geniş formada həyata keçirilməsində yardım göstərməyə hazırdır.*

*Görüşdə Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətli olduğu vurğulandı.*

*Dövlətimizin başçısı Azərbaycanda keçiriləcək qarşıdakı parlament seçkiləri ilə bağlı bu günlərdə imzaladığı sərəncamı xatırlatdı, ölkəmizin Avropaya inteqrasiya prosesinə sadiq qaldığını, yeni qonşuluq siyasətində daha da fəal iştirak edəcəyini bildirdi.*

**Avropa Şurası Parlament Assambleyasının sədri Rene Vander Linden ilə görüş**

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 16-da Varşavada Kral sarayında Avropa Şurası sammiti çərçivəsində Avropa Şurası Parlament Assambleyasının sədri Rene Vander Linden ilə görüşmüşdür.*

*Görüş zamanı Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlıq məsələləri və əlaqələrin inkişaf perspektivləri müzakirə olunmuşdur.*

**Albaniya prezidenti Alfred Moisiu ilə görüş**

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 16-da Varşavada Kral sarayında Albaniya Respublikasının prezidenti Alfred Moisiu ilə görüşmüşdür.*

*Siyasi sahədə ölkələrimiz arasında əlaqələrin mövcudluğunu vurğulayan prezidentlər iqtisadi münasibətlərin əslində olmadığını bildirdilər. Bunun səbəbini Azərbaycan və Albaniyanın bir-biri haqqında yetərincə məlumatının olmaması ilə əlaqələndirən dövlət başçıları belə qərara gəldilər ki, müxtəlif nümayəndə heyətlərinin Bakıya və Tiranaya səfərləri təşkil edilməlidir. Bu istiqamətdə görüləcək tədbirlər hər iki tərəf üçün faydalı olacaqdır.*

**Norveç Krallığının Baş naziri Kyel Maqne Bundevik ilə görüş**

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 16-da Varşavada Norveç Krallığının Baş naziri Kyel Maqne Bundevik ilə görüşmüşdür.*

*Görüş zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın inkişafı, o cümlədən «Statoyl» neft şirkətinin Azərbaycandakı uğurlu fəaliyyəti məmnunluqla vurğulandı.*

*Kyel Maqne Bundevik Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin tezliklə istismara verilməsinin çox böyük hadisə olacağını söylədi və bu layihəni dünyanın ən nəhəng layihələrindən biri kimi qiymətləndirdi. Baş nazir məşhur alim, səyyah Tur Heyerdalın Azərbaycan–Norveç əlaqələrinin inkişafındakı rolunu da vurğuladı və onun Azərbaycanla bağlı bir çox xatirələrinin olduğunu söyləyərək, elmi sahədə də əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin inkişafından söhbət açaraq, neft-qaz sahəsindəki fəal əməkdaşlığı xüsusi vurğuladı. Eyni zamanda bildirdi ki, təkcə enerji sektorunda yox, iqtisadiyyatın digər sahələrində də əlaqələri genişləndirmək üçün imkanlar vardır.*

* * *

*Avropa Şurasının üçüncü zirvə görüşünün birinci iş gününün sonunda Polşa Respublikasının prezidenti Aleksandr Kvasnevskinin adından dövlət və hökumət başçılarının şərəfinə ziyafət verildi. Prezident İlham Əliyev ziyafətdə iştirak edirdi.*

## Finlandiya Prezidenti Tarya Halonen ilə görüş

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 16-da Varşavada Finlandiya Respublikasının prezidenti xanım Tarya Halonen ilə görüşmüşdür.*

*Səmimilik şəraitində keçən söhbət zamanı prezidentlər Azərbaycanla Finlandiya arasında ikitərəfli əlaqələrin yaxşı səviyyədə olduğunu vurğuladılar, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığını yüksək qiymətləndirdilər.*

*Görüşdə regional, beynəlxalq məsələlər haqqında ətraflı fikir mübadiləsi aparıldı.*

## Avropa Şurasının Baş katibi Terri Devis ilə görüş

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 16-da Varşavada, onun üçün ayrılmış iqamətgahda Avropa Şurasının Baş katibi Terri Devis ilə görüşmüşdür.*

*Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın müxtəlif sahələri müzakirə olundu, ölkəmizin Avropa ailəsinə inteqrasiyası barədə fikir mübadiləsi aparıldı.*

## Çexiya prezidenti Vatslav Klaus ilə görüş

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 17-də Varşavada Çexiya Respublikasının prezidenti Vatslav Klaus ilə görüşmüşdür.*

*Prezidentlər ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə ikitərəfli əməkdaşlığın uğurla inkişafından məmnunluqlarını bildirdilər. Vurğulandı ki, yaxın zamanlarda Azərbaycanın Praqada səfirliyinin açılması ikitərəfli əlaqələrin daha da inkişafına və yeni mərhələyə çatmasına xidmət edəcəkdir.*

*Tərəflər iqtisadi əlaqələrin inkişafı üçün yaxşı perspektivlərin olduğunu, turizm sektorunda əməkdaşlığın əhəmiyyətini vurğuladılar.*

*Prezident İlham Əliyev Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və onun ölkəmiz üçün ağır nəticələrindən danışdı və bildirdi ki, bütün bunlara baxmayaraq, Azərbaycan bu problemin sülh yolu ilə, beynəlxalq hüquq normaları çərçivəsində həllinin tərəfdarıdır.*

*Çexiya prezidenti Vatslav Klaus Azərbaycanın haqq işini dəstəklədiyini və ölkəmizdə gedən uğurlu iqtisadi inkişaf proseslərinin maraqla izlənildiyini xüsusi vurğuladı.*

*Prezidentlər müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyini söylədilər, regional, beynəlxalq və tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi apardılar.*

## Səfər başa çatdı

*Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü zirvə görüşündə iştirak edən Azərbaycan prezidenti İlham Əliyev mayın 17-də Vətənə yola düşdü.*

*Dövlətimizin başçısını Varşavanın hərbi hava limanında Rolşa Respublikasının rəsmi nümayəndələri yola saldılar. Azərbaycan prezidenti İlham Əliyev həmin gün axşam Bakıya gəldi.*

## UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRİ BORİS TARASYUK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 may 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev əmin olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında həm ikitərəfli, həm də regional məsələlər ətrafında geniş fikir mübadiləsi aparılması üçün yaxşı şərait yaradacaqdır. Azərbaycan ilə Ukrayna müttəfiq dövlətlərdir, ikitərəfli və regional səviyyədə sıx əməkdaşlıq edir və biz münasibətlərimizin inkişafından məmnunluq duyuruq. İqtisadi əlaqələrimizin, regional və beynəlxalq təşkilatlarda əməkdaşlığımızın daha da genişləndirilməsi üçün böyük perspektivlər mövcuddur.*

*Azərbaycanın və Ukraynanın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirən prezident İlham Əliyev ölkələrimizin GUAM təşkilatında mühüm rol oynadıqlarını vurğuladı. Xalqlarımız arasında həmişə yaxşı münasibətlərin mövcud olduğunu xatırladan dövlətimizin başçısı bildirdi ki, Azərbaycan və Ukrayna dövlət müstəqilliyi qazandıqdan sonra bu dostluq hissləri ölkələrimizin münasibətlərinin inkişafına təkan vermişdir. Prezident İlham Əliyev dedi ki, Ukrayna Azərbaycan üçün mühüm tərəfdaş və dost ölkədir.*

*Ukrayna prezidenti Viktor Yuşşenko ilə bir neçə görüş keçirdiyini xatırladan prezident İlham Əliyev bu görüşlərin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etməsinə təkan verəcəyinə əmin olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı ölkələrimizin siyasi, iqtisadi, humanitar, hərbi-texniki və digər sahələrdə əlaqələrinin daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlərin mövcud olduğunu bildirdi.*

*Prezident İlham Əliyev dedi ki, Azərbaycanda Ukrayna, Ukraynada Azərbaycan diasporları əlaqələrimizin inkişafında mühüm rol oynayır. Ukraynada yaşayan azərbaycanlılar orada özlərini rahat hiss edir və Ukrayna cəmiyyətinə fəal inteqrasiya olunurlar.*

*Azərbaycana səfər etməsindən böyük məmnunluq duyduğunu söyləyən cənab Boris Tarasyuk birinci səfəri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşmək şərəfinə nail olduğunu xatırlatdı və həmin görüşün onda böyük təəssürat yaratdığını vurğuladı.*

*Prezident Viktor Yuşşenkonun səmimi salamlarını və xoş arzularını prezident İlham Əliyevə çatdıran qonaq Ukrayna prezidentini Azərbaycana səfərə dəvətə görə dövlətimizin başçısına bir daha minnətdarlığını bildirdi.*

*Cənab Boris Tarasyuk bildirdi ki, Azərbaycan ilə Ukrayna strateji müttəfiqlərdir, ölkələrimiz arasında tarixi dostluq əlaqələri vardır. O dedi ki, ölkələrimizin münasibətlərinin daha da inkişaf etdirilməsində diasporlar çox mühüm rol oynayırlar. Qonaq Ukrayna icmasına Azərbaycanda göstərilən dövlət qayğısından çox məmnun olduğunu bildirdi.*

*Boris Tarasyuk ölkəmizdə apardığı danışıqlar zamanı GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyov zirvə görüşündə bu qurumun beynəlxalq, regional təşkilata çevrilməsi, strukturlarının yaradılması və digər məsələlər barədə qəbul edilmiş qərarların konkret reallaşdırılması məsələlərinin müzakirə ediləcəyini söylədi.*

**GÜRCÜSTAN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ**

Hörmətli Mixeil Nikolayeviç!

Milli bayramınız – Dövlət müstəqilliyi günü münasibətilə Sizi və bütün dost Gürcüstan xalqını ürəkdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Gürcüstan dövlətçiliyin möhkəmlənməsi, demokratiyanın genişlənməsi, dərin sosial-iqtisadi dəyişikliklərin, Dünya Birliyinə daha yaxından inteqrasiyanın təmin edilməsi istiqamətində qətiyyətli addımlar atır.

Azərbaycanla Gürcüstan arasında çoxəsrlik tarixi kökləri olan dostluq və əməkdaşlıq münasibətləri bu gün yeni məzmunla dolğunlaşır. Ölkələrimiz regional və beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edir, irimiqyaslı transmilli layihələrin həyata keçirilməsində uğurla qarşılıqlı fəaliyyət göstərir.

Əminəm ki, Azərbaycan–Gürcüstan dövlətlərarası münasibətlər, strateji tərəfdaşlıq xalqlarımızın rifahı naminə, regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Gürcüstan xalqına isə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 may 2005-ci il*

**İORDANİYANIN KRALI ƏLAHƏZRƏT II ABDULLAYA**

Əlahəzrət!

İordaniya Haşimilər Krallığının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimiqəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–İordaniya münasibətləri üçün səciyyəvi olan qarşılıqlı rəğbət və dostluq münasibətlərinə əsaslanaraq əlaqələrimizin hərtərəfli genişlənməsi üçün bundan sonra da ardıcıl şəkildə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İordaniya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 may 2005-ci il*

# TÜRKİYƏ RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAH RƏİSİNİN MÜAVİNİ, ORDU GENERALI ÜLKƏR BAŞBUĞ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə münasibətlərin çox sürətlə inkişaf etdiyini bildirdi. Bu yaxınlarda Varşavada Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla görüşünü məmnunluqla xatırlayan və onun çox gözəl şəraitdə keçdiyini vurğulayan prezident İlham Əliyev dedi ki, bu, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da gücləndiyini göstərir.*

*Azərbaycan ilə Türkiyə arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın mövcud olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizə göstərilən bütün yardımlara görə Türkiyə hökumətinə bir daha minnətdarlığını bildirdi.*

*Ölkələrimiz arasında hərbi sahədə çox yaxşı əlaqələr yarandığını nəzərə çatdıran prezident İlham Əliyev dedi ki, bu əməkdaşlıq bu gün də uğurla davam edir. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, qonağın səfəri bu istiqamətdə atılmış önəmli addım olacaq və hərbi sahədə əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcəkdir.*

*Qardaş Azərbaycana ilk səfərindən və burada gördüklərindən sonsuz sevinc duyduğunu bildirən cənab Ülkər Başbuğ Türkiyə prezidenti Əhməd Necdət Sezərin və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hilmi Özkökün*

*ən səmimi salamlarını və dərin ehtiramlarını prezident İlham Əliyevə çatdırdı.*

*Azərbaycan prezidenti İlham Əliyev səmimi salamlara görə minnətdarlığını bildirdi, Prezident Əhməd Necdət Sezərə və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hilmi Özkökə onun ən səmimi salamlarını və dərin ehtiramını çatdırmağı xahiş etdi.*

## BEYNƏLXALQ VALYUTA FONDUNUN AZƏRBAYCAN ÜZRƏ MİSSİYASININ RƏHBƏRİ VİTALİ KRAMARENKO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 18-də Prezident sarayında Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Vitali Kramarenkonu qəbul etmişdir.*

*Missiyanın işinin başa çatması, səmərəli görüşlər keçirməsi barədə məlumatı olduğunu bildirən dövlətimizin başçısı Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığının son illər uğurla inkişaf etdiyini və bu təşkilatın ölkəmizin iqtisadi inkişafına çox mühüm kömək göstərdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycanda siyasi, iqtisadi və digər sahələrdə genişmiqyaslı islahatlar həyata keçirildiyini bildirdi. Bir sistemdən digər sistemə keçidin müəyyən çətinliklə müşayiət olunduğunu nəzərə çatdıran dövlətimizin başçısı bu baxımdan Beynəlxalq Valyuta Fondunun tövsiyələrinə və ölkəmizlə birgə proqramların həyata keçirilməsinə Azərbaycanın böyük əhəmiyyət verdiyini vurğuladı. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Azərbaycanın bu təşkilatla əməkdaşlığı bundan sonra da genişlənəcəkdir.*

*Cənab Vitali Kramarenko dövlətimizin başçısı ilə görüşün və ölkəmizin iqtisadiyyatının hazırkı inkişafı barədə müzakirənin çox əhəmiyyətli olduğunu söylədi. O, missiyanın işi haqqında prezident İlham Əliyevə məlumat verdi, hazırda Azərbaycanda*

*yoxsulluğun azaldılması və iqtisadi inkişaf proqramı üzərində birgə işlərin həyata keçirildiyini vurğuladı.*

*Vitali Kramarenko daha sonra dedi: Son dörd ildə biz Azərbaycanda iqtisadi inkişaf sahəsində böyük uğurların şahidi olmuşuq. Ümumi daxili məhsulun artımı sabit olaraq 10 faizdən çoxdur. İnvestisiya qoyuluşu görünməmiş sürətlə artır və ümumi daxili məhsulun 50 faizini təşkil edir. İqtisadi inkişaf öz nəticələrini verir. Misal üçün, bu özünü yoxsulluğun azaldılmasında da göstərir. Azərbaycanda yoxsulluq 49 faizdən 40 faizə enmişdir. Bir sıra istiqamətlərdə, struktur islahatları sahəsində əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur. Ölkədə neft gəlirlərindən səmərəli şəkildə istifadə olunması üçün institusional əsasın yaradılması sahəsində fəal hazırlıq işləri aparılmışdır. Neft Fondunun yaradılması buna yaxşı nümunədir. Neft gəlirlərinin idarə olunması üzrə uzunmüddətli proqram qəbul edilmişdir. Biz eyni zamanda, inflyasiya sürətinin artmasından sizin narahatlığınızı tam bölüşürük və bu məsələnin çox yaxın zamanda həll edilməsi ilə bağlı hökumət strukturlarınızla səmərəli müzakirələr aparmışıq. Digər məsələlərin həlli istiqamətində də təşkilatımızla hökumət strukturları arasında qarşılıqlı anlaşmaya nail olunmuşdur.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏYƏ SƏFƏRİ

*19 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 19-da səhər Gəncə şəhərinə gəlmişdir. Dövlətimizin başçısını hava limanında şəhər icra hakimiyyətinin başçısı Eldar Əzizov, şəhərin digər rəhbər işçiləri, ictimaiyyətin nümayəndələri böyük səmimiyyətlə qarşıladılar. Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül-çiçək dəstələri təqdim olundu.*

*Azərbaycan prezidenti Gəncə hava limanında gedən yenidənqurma işləri ilə tanış oldu. «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoru Cahangir Əsgərov məlumat verdi ki, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində Gəncə hava limanının beynəlxalq standartlar səviyyəsində yenidən qurulması layihəsinin dəyəri 39,5 milyon dollardır. Yenidənqurma işlərində 1000–1500 nəfər çalışacaqdır.*

*Konsernin Baş direktoru daha sonra bildirdi ki, 1996-cı ildə beynəlxalq status verilmiş Gəncə hava limanı müasir tələbləri ödəmir. 1964-cü ildən istismar olunan uçuş-enmə zolağı orta tipli təyyarələr üçün nəzərdə tutulub, sovet dövründə qurulmuş işıqlandırma-siqnalizasiya sistemi, radionaviqasiya və meteoroloji avadanlıqlar tamamilə köhnəlmişdir.*

*Yeni zolağın uzunluğu 3 min metr olacaq və ağır tipli təyyarələri qəbul etməyə imkan verəcəkdir. Hava limanının bütün texniki avadanlığı yeniləşdiriləcək, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaqdır. 2006-cı ilin mayında hava limanında tikinti işləri başa çatdırılacaq, istifadəyə verildikdən sonra*

*200-dən çox iş yeri açılacaqdır. Buradan A-319 aerobusları və AN-140 təyyarələri ilə Moskvaya, Kiyevə, Sankt-Peterburqa, Bakıya, Naxçıvana, Təbrizə, Qarsa, Rostova, Volqoqrada və Mineralnıye Vodı şəhərlərinə uçuşların təşkili nəzərdə tutulur.*

*Zəruri hallarda İL-76 və AN-12 təyyarələri ilə yük daşımaları da həyata keçiriləcəkdir.*

*Azərbaycanda fəaliyyət göstərən xarici aviaşirkətlərə Gəncə hava limanından müxtəlif reyslər açmaq təklif olunacaqdır. Gəncə hava limanı həm də Avropa və Asiyaya uçuşları həyata keçirən Azərbaycanın və xarici dövlətlərin aviaşirkətlərinin təyyarələri üçün tranzit və ehtiyat hava limanı kimi istifadə ediləcəkdir.*

*Prezident İlham Əliyev uçuş-enmə zolağına, hava limanının yeni layihəsinə baxdı.*

# GƏNCƏ BEYNƏLXALQ HAVA LİMANININ YENİDƏN QURULMASINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*19 may 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından Gəncə Şəhər İcra Hakimiyyətinin binasına gəldi. İcra Hakimiyyətinin binasının foyesində Gəncə beynəlxalq hava limanının layihəsi, yenidən qurulacaq və inşa ediləcək binaların fotoşəkilləri, eləcə də tikintidə istifadə ediləcək materiallardan ibarət sərgi ilə tanış oldu.*

*Sonra Gəncə beynəlxalq hava limanının yenidən qurulmasına həsr olunmuş müşavirə keçirildi.*

**İlham Əliyev:** Salam əziz dostlar!

Mən yenidən Gəncəyə gəlmişəm. Bizim görüşlərimiz mütəmadi xarakter daşıyır. Mən çox şadam ki, hər dəfə Gəncəyə gələndə burada yeniliklər görürəm. Görürəm ki, şəhər abadlaşır, quruculuq işləri gedir və şəhər müasirləşir. Bu məni çox sevindirir. Çünki Gəncə bizim hamımız üçün əziz, doğma şəhərdir, Azərbaycanın qədim şəhəridir, ölkəmizin ikinci şəhəridir və gərək biz hamımız çalışaq ki, Gəncədə gedən quruculuq, abadlıq işlərinə öz köməyimizi göstərək. Hər halda, mən bunu edirəm və çox şadam ki, görülən işlərin çox gözəl nəticələri də vardır. İş olan yerdə həmişə nəticə də olur.

Mən xatırlayıram ki, Gəncədə son illər ərzində ilk yeni müasir bina Milli Olimpiya Komitəsi tərəfindən tikilmişdi və 2002-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyev Olimpiya kompleksinin açılışında iştirak etmişdir. Bəlkə də xatırlayırsınız, o vaxt Gəncədə vəziyyət o qədər də ürəkaçan deyildi. Şəhər çox bərbad vəziyyətdə idi və heç bir quruculuq, abadlıq işlərin-

dən, ümumiyyətlə, söhbət də getmirdi. Onu da yəqin xatırlayırsınız ki, bu mənzərə bizim hamımızı çox məyus etdi və ondan sonra burada rəhbərlikdə dəyişiklik edildi, icra hakimiyyətinin yeni başçısı təyin olundu və demək olar, Gəncənin inkişafında yeni dövr başladı.

Mən çox şadam ki, burada gedən işlər yüksək səviyyədədir. Gəncənin bütün əhalisi də bu quruculuq işlərinə qoşulur. Əsas odur ki, görülən işlər xalq tərəfindən dəstəklənir. Bu məni çox sevindirir. Ona görə Gəncəyə və burada gedən işlərə kömək etmək mənim üçün çox xoşdur. Kömək o yerə edilir ki, orada bundan səmərəli istifadə olunur, insanlar ürəklə işləyirlər, öz əməyi ilə, fəaliyyəti ilə yeni binalar tikir, xiyabanlar, parklar salırlar. İndiki mərhələdə, ölkəmiz öz inkişaf dövrünü yaşadığı bir vaxtda, əlbəttə, mən istəyirəm ki, Azərbaycanın hər bir bölgəsi bu inkişafdan bəhrələnsin.

Azərbaycanda keçən il qəbul edilmiş regionların sosial-iqtisadi inkişaf proqramının uğurlu icrası da məni çox sevindirir. Demək olar ki, Azərbaycanın hər bir bölgəsində canlanma özünü büruzə verir. O cümlədən bu bölgədə də.

Bildiyiniz kimi, keçən il mənim təşəbbüsümlə burada yeni aeroportun tikilməsi məsələsi öz həllini tapdı və biz bu müşavirədə tikintinin gedişatı ilə tanış olacağıq. Düzdür, təklif olunmuşdu ki, biz bu müşavirəni Bakıda keçirək. Onu da edə bilərdik, bu müşavirəni Bakıda da keçirmək mümkün olardı. Amma mən istəyirdim ki, bunu məhz burada, Gəncədə keçirək ki, bir tərəfdən, mən yenidən sizinlə birlikdə olum, digər tərəfdən, Gəncə ictimaiyyəti də bu məsələyə öz münasibətini bildirsin.

Biz çox istəyirik ki, bu aeroport müasir standartlara cavab versin. Ən yüksək dünya standartlarına uyğun olsun və bu aeroportdan həm sərnişinlər səmərəli və rahat istifadə etsinlər, həm də o, şəhərə yaraşıq versin.

Gəncə inkişaf edir, müasirləşir. Amma eyni zamanda, öz qədim simasını saxlayır və belə də olmalıdır.

## YEKUN NİTQİ

Həqiqətən bu gün Heydər Əliyevin siyasəti Azərbaycanda yaşayır və onun qoyduğu ənənələr davam etdirilir. Bu çox vacibdir və Azərbaycanın gələcəyi üçün yeganə yoldur.

Bilirsiniz ki, mən prezident seçkiləri ərəfəsində bunu bəyan etmişdim və bu gün də bəyan edirəm ki, bu yola sadiq olacağam. Əgər seçkilər ərəfəsində bu, sadəcə bir bəyanat idisə, artıq bu gün reallıqdır, görülən işlərdə öz əksini tapır, yanaşmalarda öz əksini tapır. Mənim də fəaliyyətimdə əsas prinsip odur ki, doğma xalqıma ləyaqətlə xidmət edim. Mənim başqa amalım yoxdur. Bütün səylərimi buna yönəldirəm. İstəyirəm ki, Azərbaycan daha da inkişaf etsin, güclənsin, xalqımız daha da yaxşı yaşasın. Azərbaycan hərtərəfli inkişaf etsin, bölgələr inkişaf etsin.

Hər dəfə haradasa bir yenilik, abadlıq, inkişaf görəndə mən çox sevinirəm. Sevinirəm ki, inkişaf var. Bu bizim müstəqilliyimizi də gücləndirir, iqtisadi gücümüzü də artırır. Dünyadakı mövqeyimizi də gücləndirir. İnsanda da, dövlətdə də, siyasətdə də güc olmalıdır. Əgər bu olmasa, uğur qazanmaq mümkün olmayacaqdır. Bu həmişə əsrlər boyu belə olubdur. Sadəcə, bunun müxtəlif formaları olubdur. Keçmiş dövrlərdə bu özünü daha da qabarıq formada büruzə verirdi. İndi siyasi formalarda özünü əks etdirir. Amma məna dəyişmir. Ona görə mənim bütün səylərim, bütün fikirlərim bir məqsədə qulluq edir – biz Azərbaycanı necə daha da gücləndirək, iqtisadiyyatımızı necə daha da inkişaf etdirək ki, insanlarımız daha da yaxşı yaşasınlar. Ona görə bu yol mənim yolumdur. Başqa yolum da yoxdur, başqa məqsədim də yoxdur.

Çox şadam ki, son il yarım ərzində görülən işlər artıq öz nəticələrini verməkdədir. Hər bir işin nəticəsini görmək üçün gərək müəyyən bir vaxt keçsin. Əlbəttə, səfərbərlik olmalıdır. Heç kim təkbaşına heç bir işin öhdəsindən gələ bilməz. Ona görə bütün cəmiyyət, cəmiyyətin bütün üzvləri bu işlərə qoşulmalıdır.

Mən bu səfərbərliyi görürəm. Bu gün Azərbaycan cəmiyyətində birlik var. Biz hamımız bilirik ki, nə istəyirik. Hamımızın açıq-aydın məqsədi vardir. Əminəm ki, məqsədyönlü, ardıcıl fəaliyyətimiz nəticəsində biz qarşımızda duran bütün məqsədlərə nail ola biləcəyik.

Əlbəttə, ilk növbədə, bizim hamımızı ən çox narahat edən, qarşımızda duran ən ağır problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Bu istiqamətdə də əlimizdən gələni edirik. Əlimizdə olan bütün imkanlardan istifadə edib bu məsələnin bizim xeyrimizə həll olunması üçün çalışırıq. Bizim xeyrimizə deyəndə, mən onu nəzərdə tuturam ki, bu məsələ ədalətli həll olunmalıdır. Çünki bizim mövqeyimiz ədalətli mövqedir. Biz mövqeyimizi beynəlxalq hüquq normaları əsasında qururuq və bu mövqe artıq böyük dəstəyə malikdir.

Bu yaxınlarda Avropa Şurasının zirvə toplantısında keçirdiyim, demək olar ki, bütün görüşlərimdə mən bunu hiss etdim və gördüm. Çünki bizim mövqeyimiz məntiqə əsaslanır, beynəlxalq hüquqa əsaslanır, normal insani davranışa əsaslanır. Belə olan halda, bu mövqe düzgün, hərtərəfli təqdim olunanda bu, qəbul edilir. Mən inanıram ki, biz bu məsələni ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edəcəyik. Yenə də deyirəm, bunu etmək üçün gərək biz öz iqtisadi potensialımızı gücləndirək. Əgər danışıqlarda biz indi müsbət dinamikanı görürüksə, bunun müxtəlif səbəbləri var.

Əlbəttə, sadaladığım məsələlər də çox önəmlidir. Həm siyasi, həm diplomatik səylərimiz davam etdirilir və öz bəhrəsini verir. Avropa Şurasının yanvar ayında qəbul etdiyi qətnamə də bunun əyani sübutudur. Amma eyni zamanda digər amillər də az rol oynamır. O cümlədən iqtisadi potensial. Bu potensialı yaratmaq üçün biz çalışmalıyıq və çalışırıq. Bu potensialı yaratmaq üçün bütün bu işlər də görülür. Regional inkişaf proqramı həyata keçirilir, digər proqramlar, yoxsulluqla mübarizə ardıcıl şəkildə aparılır. İşsizliyin aradan götürülməsi üçün işlər görülür və artıq nəticələr də göz qabağındadır.

Əlbəttə, bütün bu məqsədlərə qulluq edən amillər çox vacibdir. O cümlədən nəqliyyat infrastrukturunun inkişafı. Gəncə aeroportunun tikintisi məhz bu konsepsiyanın tərkib hissəsidir. Azərbaycan gərək öz nəqliyyat infrastrukturunu sürətlə gücləndirsin. Çünki bizim coğrafi vəziyyətimiz çox əlverişlidir. İqtisadi inkişaf da gedir. Nəhəng enerji layihələri ölkəmizi bölgədə lider dövlətə çeviribdir. Biz bütün amillərdən istifadə etməliyik. Ona görə bu gün Azərbaycanda aeroportlar tikilir, yeni müasir magistral yollar tikilir və tikiləcəkdir.

Nəqliyyatın digər sahələri – dəmir yolları, gəmiçilik inkişaf etdirilir. İqtisadiyyatın bu sektoru Azərbaycana uzunmüddətli gəlirlər gətirəcəkdir. Bu, necə deyərlər, neft, qaz deyil ki, bir gün tükənib qurtarsın. Bu həmişə ölkəmizə xidmət edəcəkdir. Bu gün Şərq–Qərb, Şimal–Cənub dəhlizlərində bizim fəaliyyətimiz də bu məqsədi güdür.

Biz istəyirik ki, bütün yükdaşımaları ərazimizdən keçsin. Bunun həm siyasi, həm də iqtisadi tərəfi aydındır. Əlbəttə, bunu etmək üçün imkanlar lazımdır, maliyyə resursları lazımdır. Biz bunu da edirik. Azərbaycanın dövlət büdcəsi sürətlə artır. Yəqin ki, biz bu yaxınlarda büdcəyə yenidən baxacağıq və onu yenidən artıracağıq. Məqsəd odur ki, büdcəmiz ildən-ilə yüksək sürətlə artsın.

Bildiyiniz kimi, bu yaxınlarda 2006-cı ilin büdcəsinin formalaşdırılmasına başlayacağıq. Hədəf də odur ki, 2006-cı ilin büdcəsi 3 milyard dollar təşkil etsin. Bu artım davam etdiriləcəkdir. Biz bunu artıracağıq və Azərbaycan çox qısa müddət ərzində zəngin dövlətə çevriləcəkdir.

Mövcud olan problemlər də az deyildir. Biz onları da bilirik. Yenə də qeyd etdiyim kimi, ilk növbədə, yoxsulluq. Sözün düzü, bu problem məni həm çox narahat edir, həm də incidir. Çünki mən istəmirəm, heç kim də istəmir ki, ölkəmizdə yoxsulluq şəraitində yaşayan olsun. Düzdür, biz yoxsulluğun səviyyəsini aşağı salırıq, 49 faizdən 40 faizə düşübdür. Amma 40 faiz böyük rəqəmdir. Bizim insanlarımız nə üçün yoxsulluq şəraitində yaşamalıdır?! Nəyə görə, hansı səbəbə görə?!

Biz bunu aradan götürəcəyik. Mən əminəm ki, yoxsulluq şəraitində yaşayanların sayı qısa müddət ərzində kəskin şəkildə azalacaq və Azərbaycanın hər bir vətəndaşı yaxşı yaşayacaqdır. Gərək biz bunu təmin edək.

Əhalimizi narahat edən problemlərdən biri də elektrik enerjisi ilə və qazla təchizatdır. Burada problemlər var. Biz bunları bilirik və aradan qaldırmaq üçün tədbirlər planı hazırlanıbdır. Onu da bilməliyik ki, son illər ərzində Azərbaycanda «Şimal» elektrik stansiyasından başqa, heç bir elektrik stansiyası tikilməmişdir. Ancaq inkişaf sürətlə gedir, yeni binalar tikilir, müəssisələr açılır. Onların hamısı işıqla təmin olunur. Ona görə bizdə bir az qıtlıq yaranıbdır.

Artıq böyük elektrik stansiyasının tikintisinə başlanır. Ancaq o, bir-iki il vaxt aparacaqdır. Ona görə biz bu məsələni operativ qaydada həll edəcəyik. Kiçik həcmli elektrik stansiyalarının alınması nəzərdə tutulubdur və bu ilin sonuna qədər ilk belə stansiyalar cənub bölgəsində quraşdırılacaqdır. Demək olar ki, bundan sonra cənub bölgəsində elektrik enerjisi ilə bağlı problem olmamalıdır. 2006-cı ildə isə Azərbaycanın müxtəlif yerlərində bu stansiyaların quraşdırılması nəzərdə tutulubdur. Belə olan halda, bizim əsas enerji mənbəyimizə  Mingəçevir elektrik stansiyalarına düşən yüklər azalacaq və həmin stansiyalar qərb bölgəsini daha böyük həcmdə təmin edəcəkdir.

Təbii qazın verilməsi məsələsi də həll olunmalıdır. Bu günlərdə «Azəri» yatağından səmt qazının hasilatına başlanmalıdır. «Şahdəniz» qaz yatağının istismara verilməsindən sonra bu məsələ də öz həllini tapmalıdır. Mən bu yaxınlarda demişəm ki, neft ölkəsi olan Azərbaycanda elektrik enerjisi ilə problem olmamalıdır. Hər bir vətəndaş Azərbaycanın hər bir yerində hər an düyməni basıb işığı almalıdır. Biz bunu etməyə çalışırıq.

Qeyd etmək istəyirəm və çox sağ olun, siz də dediniz ki, Gəncəyə mənim münasibətim həmişə çox əziz olubdur. Gəncə mənim üçün əziz, doğma şəhərdir. Mən bundan sonra da əlimdən gələni edəcəyəm ki, burada gedən işlərə öz köməyimi göstərim. Ancaq onu da bilirik ki, yerlərdə işləyən məmurlardan,

insanlardan çox şey asılıdır. Mən Bakıda oturub nə qədər çalışsam ki, bura daha da çox inkişaf etsin, nə qədər vəsait ayırsaq da, əgər yerlərdə bu vəsaitdən səmərəli istifadə etmirlərsə, məsələyə biganə yanaşırlarsa, heç bir nəticə ola bilməz. Ona görə ancaq bu prinsiplərin birləşməsi nəticəsində uğurlar ola bilər.

Mən çox şadam ki, Gəncənin rəhbərliyi və şəxsən Eldar Əzizov çox ləyaqətlə, vicdanla işləyir. O bizim iş prinsiplərimizin, demək olar, hamısını burada tətbiq edir, daim xalqla əlaqədədir. İnsanların problemləri ilə məşğul olur. O, Bakıya gələrkən mən həmişə görüşürəm, soruşuram, maraqlanıram. Həmişə soruşuram ki, sizə daha nə lazımdır, mənə deyin. Buraya gəlməzdən əvvəl də soruşdum, nə lazımdır? Dedi ki, yox, biz özümüz edirik.

Ona görə, bilirsiniz ki, bu çox vacibdir və xalq da bunu görür. Xalqdan heç bir şeyi gizlətmək mümkün deyildir. Xalq yaxşını da görür, pisi də görür, yaxşı rəhbəri də görür, pisini də görür və nəticə də çıxarır. Bizim iqtidarımızın dayağı da xalqdır. Bu, xalq hakimiyyətidir. Vəzifədə olan şəxslər sadəcə, xalqın xidmətçiləridir, o cümlədən də mən. Əgər bütün yerlərdə belə olsa, sizi inandırım ki, çox qısa müddət ərzində çox böyük müsbət dəyişikliklər baş verəcək, inkişaf daha da sürətlə gedəcəkdir.

Bilirsiniz ki, mən kadr siyasətinə çox böyük diqqət verirəm. Son müddət ərzində Azərbaycanın müxtəlif yerlərində yeni kadrlar işə cəlb olunubdur. Onların hamısını deyə bilmərəm, amma tam əksəriyyəti öz vəzifə borclarını yerinə yetirirlər. Mənim də onların qarşısında qoyduğum vəzifələr bundan ibarətdir ki, xalqın qayğıları ilə yaşasınlar, mövcud olan problemləri həll etsinlər və vicdanla işləsinlər.

Mən əminəm ki, bundan sonra Gəncədə proseslər daha da sürətlə gedəcəkdir. Mənə verilən məlumata görə artıq müasir, çoxmərtəbəli binaların tikintisinə də başlanılır. Bu, inkişafın ən gözəl göstəricisidir. Əgər hansısa şəhərdə yeni, müasir, çoxmərtəbəli bina tikilirsə, deməli, o yer inkişaf edir. Gəlin uzağa getməyək, qonşu ölkələrə nəzər salaq, əsas şəhərlərdə belə hallara rast gəlmək mümkündür. Mən Bakını demirəm. Bakı inşaatın

sürətinə görə, bəlkə də dünyada indi aparıcı şəhərdir. Amma hər şey də Bakıda cəmləşməməlidir. Bakı bizim paytaxtımızdır, əziz şəhərimizdir. Amma bizim başqa yerlərimiz, şəhərlərimiz də var. Əgər bu şəhərlərdə də Bakıda gedən proseslər təkrarlanırsa, demək, bir neçə ildən sonra bu şəhərlər də sürətlə inkişaf edəcəkdir.

Yeni infrastrukturun yaranması, yolların salınması, abadlıq, quruculuq işləri, yeni binaların tikilməsi – inkişaf budur. Əlbəttə, belə olan halda insanlarımız da bizdən razı qalacaqlar. Mən buna şübhə etmirəm. Biz hamımız bundan sonra da doğma xalqımıza qulluq edəcəyik, Azərbaycanın müstəqilliyini möhkəmləndirəcəyik, ölkəmizi gözəl, zəngin, müasir dövlətə çevirəcəyik. Bu işdə hamımıza uğurlar arzulayıram. Sağ olun.

## GƏNCƏDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏ-MUZEY KOMPLEKSİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*19 may 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 19-da Gəncənin baş meydanında ümummilli liderimiz Heydər Əliyevin abidə-muzey kompleksinin tikintisi ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, tikinti işləri hələ davam edir. 3 hektar sahəni əhatə edən meydanın hələlik bir hissəsində yenidənqurma işləri aparılmışdır. Təsdiq olunmuş layihəyə əsasən burada ulu öndərin 4 metrlik postament üzərində 7 metr hündürlüyündə heykəli ucaldılacaqdır. Abidənin müəllifi tanınmış heykəltəraş Şərif Şərifovdur. Kompleksdə dahi şəxsiyyətin ömür yolundan bəhs edən müzey yaradılmışdır.*

*Prezident İlham Əliyev muzeydə ulu öndərin həyatının bütün dövrlərini, siyasi fəaliyyətini, respublikamıza və xarici ölkələrə səfərlərini əks etdirən şəkillərə baxdı.*

### Cavad xanın məqbərəsini ziyarət

*Mayın 19-da prezident İlham Əliyev və xanımı işğalçılara qarşı mübarizədə qəhrəmancasına həlak olmuş Cavad xanın xatirəsinə ucaldılmış məqbərəni ziyarət etdilər.*

*Məqbərənin qarşısında professor Mübariz Yusifov və Xalq artisti Şahnaz Haşımova dövlətimizin başçısını və onun xanımını səmimiyyətlə salamladılar, Azərbaycan ziyalılarına – elm, ədəbiyyat, mədəniyyət, incəsənət işçilərinə göstərdiyi diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirdilər.*

*Azərbaycan prezidentinə xatirə olaraq, Heydər Əliyev Fondunda saxlanılması üçün Gəncənin Cavad xan dövründəki emblemi hədiyyə olundu.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Cavad xanın məzarı üzərinə gül qoydular.*

*Məqbərədə son tamamlama işləri başa çatdırılmışdır. Aran memarlıq məktəbinə xas üslübda, əsasən qırmızı kərpicdən və taxta şəbəkədən istifadə edilməklə ucaldılan məqbərəni yerli sənətkarlar tikmişlər.*

## Dekorativ-tətbiqi sənət mərkəzi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Gəncədəki dekorativ-tətbiqi sənət mərkəzində də oldu, XII əsrə aid müxtəlif eksponatlara, yerli ustaların burada hazırladıqları sənət nümunələrinə baxdı. Dövlətimizin başçısına məlumat verildi ki, mərkəz qədim el sənətini yaşadır, keçmişin nümunələrini bərpa edib gələcək nəsillərə çatdırır.*

*Mərkəzin direktoru Qalib Bağırov dövlətimizin başçısına suvenir xəncər təqdim edərək, balaca Heydərə çatdırmağı xahiş etdi.*

*Yol boyu Azərbaycan prezidentinin pişvazına çıxan gəncəlilər dövlətimizin başçısını böyük hörmət və ehtiramla, «İlham, İlham!» nidaları ilə salamlayırdılar.*

*Prezident İlham Əliyev maşından düşərək şəhər sakinləri ilə səmimi görüşdü, problemləri ilə maraqlandı, şikayətlərini dinlədi, onları narahat edən hər bir məsələnin araşdırılıb tədbir görüləcəyini bildirdi.*

*Şəhər sakinləri prezidentə minnətdarlıq dolu ürək sözlərini çatdırdılar, xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərini xatırladaraq, onun Gəncəyə göstərdiyi diqqət və qayğısının unudulmayacağını söylədilər, ulu öndərin layiqli davamçısına Allahdan uzun ömür, cansağlığı arzuladılar.*

## Şah Abbas məscidini ziyarət

*Prezident İlham Əliyev mayın 19-da Gəncənin müqəddəs yerlərindən olan Şah Abbas məscidini ziyarət etdi.*

*Burada dövlətimizin başçısına Qurani-Kərim hədiyyə olundu.*

*Məscidin axundu məlumat verərək bildirdi ki, 1606-cı idə azərbaycanlı alim və memar Şeyx Bəhaəddin tərəfindən tikilmiş və xalq arasında Şah Abbas məscidi adlanan bu cümə məscidi Azərbaycan memarlığının ən gözəl nümunələrindəndir. 1985-ci ildə burada bərpa işləri aparan erməni ustaları qədim memarlıq elementlərinin izini itirməyə çalışmışlar. Günün istənilən saatında məscidin içərisinə düşən günəş şüasının qarşısını almaq üçün mühüm pəncərələri bağlamışlar. Hazırda əvvəlki vəziyyətində bərpa olunmuşdur. Rus qoşunları Gəncəyə hücuma hazırlaşarkən Cavad xan buradan şəhər əhalisinə müraciətlər edərmiş.*

*Axund dindarlara, Gəncəyə göstərdiyi diqqətə, məscid binasının dam örtüyünün təmirinə köməyinə görə prezidentə təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev məscidin otaqlarına, buradakı qədimi əşyalara baxdı, çilçıraqların köhnəldiyini vurğulayaraq, məscidə kifayət qədər çilçıraq hədiyyə edəcəyini söylədi.*

*Gəncənin Baş axundu Hacı Tahir dövlətimizin başçısına müraciətlə dedi:*

*– Cənab Prezident, mən millət adından danışan bəzi insanlara deyirəm: ey nankorlar, haqqı görməyi bacarın. Onları buradan, Allahın evindən haqqa dəvət edirəm. Bütün gəncəlilər ürək sözlərini Sizə çatdırmağı məndən xahiş ediblər. Onlar Sizə ona görə təşəkkür edirlər ki, Gəncəni abadlaşdırırsınız, Cavad xanın məqbərəsi, türbələr tikilmiş, küçələr abadlaşmış, iş yerləri açılmışdır, böyük tikinti, quruculuq işləri gedir. Bunlar məhz Sizin xidmətinizdir. Allah Sizi yetirən o ataya, o ali rəhbərimizə, o böyük liderimizə, o böyük öndərimizə rəhmət eləsin, ruhu şad olsun!*

*Allah-təala Sizi xəta və bəlalardan hifz etsin. Sizə Vətənimiz, Azərbaycanımız, azadlıq və istiqlaliyyətimizin möhkəmlənməsi*

*naminə, Qarabağ torpağının alınması uğrunda fəaliyyətinizdə, balalarımızın gələcəyi, üçrəngli bayrağımızın daim ucalması, qüdrətli ordumuzun yaranması naminə uğurlar diləyirik.*

*Mən bəzi ünsürlərə üzümü tutub deyirəm ki, biz gəncəlilər onları 1992–1993-cü illərdə yaxşı tanıdıq. Bu gün Azərbaycanı yenidən iğtişaşlara, qırğınlara, ölkəmizi geriyə sürükləmək istəyənlərə ar olsun. Amerikada olan erməni mafiyası bu gün də Azərbaycanda fəaliyyət göstərən bəzi müxalifət liderlərinin əli ilə respublikamızda qarışıqlıq salmaq istəyir. Biz onlara nifrət edirik. Qarabağ müharibəsi iştirakçılarının, qəhrəman Cavad xan yetirmələrinin, mərd oğul və qızlarımızın adından deyirəm ki, onlar tövbə etməli, haqqı görməlidirlər.*

*Yaradan Allah Sizə qüvvət versin, xalqımıza bərəkət versin, millətimizi bütün bəlalardan saxlasın! Uca qamətli, qürurlu və vuqarlı, dünyaya səsimizi çatdıran Prezidentimizi hifz etsin! Qoy mənim bütün duama Azərbaycan xalqı amin desin! Biz hamımız Sizin əsgərinizik.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva məscidin xidmətçiləri ilə xatirə şəkli çəkdirdilər.*

## Olimpiya İdman Kompleksinin üzgüçülük hövuzunun tikintisi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin iştirakı və xeyir-duası ilə fəaliyyətə başlamış Gəncə Olimpiya İdman Kompleksində üzgüçülük hovuzunun tikintisi ilə tanış oldu.*

*Kompleksin direktoru Sahib Rzayev məlumat verdi ki, kompleksin genişləndirilməsi Azərbaycan Milli Olimpiya Komitəsinin regionlarda idmanın inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır. Yeni korpusun layihəsində idmançılar üçün 25 nəfərlik istirahət otaqları, kafe və həkim otağı və sair də nəzərdə tutulmuşdur. Tikinti işlərini aparan AZƏRSUN Holdinq şirkəti obyekti ilin axırınadək istifadəyə verməyi qərara almışdır.*

*Prezident İlham Əliyev tikintinin gedişi ilə tanış oldu və dedi ki, gənclərdə üzgüçülüyə çox böyük maraq var. Elə təşkil edin ki, hovuzdan hamı istifadə edə bilsin. Əlbəttə, idmançılar burada məşğul olacaqlar, eyni zamanda gərək əhali də, yəni kim istəyirsə istifadə etsin.*

*Dövlətimizin başçısı kompleksin ətrafındakı binaların təmir olunması barədə də müvafiq tapşırıqlar verərək dedi ki, bir halda burada gözəl binalar tikilir, ətraf binaları da təmir etmək lazımdır. Olimpiya kompleksinin genişləndirilməsi ilə bağlı nə problem olsa, Milli Olimpiya Komitəsinə müraciət edin, həll etsinlər.*

*Prezident İlham Əliyev burada beşulduzlu hotelin tikilməsi təşəbbüsünü də yüksək qiymətləndirdi.*

## Gəncə Gil-Torpaq İstehsalat Birliyi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Gəncənin ən böyük müəssisəsi olan Gil-Torpaq İstehsalat Birliyinə gəldi. Müəssisənin kollektivi dövlətimizin başçısını gül-çiçəklə qarşıladı.*

*Birliyin icraçı direktoru Əli Özkurt «Tərəqqi» medalı ilə təltif edildiyinə görə prezidentə təşəkkür etdi və müəssisənin işi barədə məlumat verərək dedi ki, hazırda gün ərzində 900 ton alüminium oksidi istehsal olunur. İl ərzində istehsal 450 min tona çatacaq ki, bu da sovet dövründəkindən çoxdur. 2000-ci ilə qədər əla keyfiyyətli məhsul istehsal etmək mümkün olmamışdır. Amma bu il yüz faiz keyfiyyətli məhsul ixrac edirik.*

*Prezident İlham Əliyev verilən məlumatdan razılığını bildirərək dedi ki, bu məni çox sevindirir. Mən hər dəfə belə gözəl dəyişiklikləri görəndə çox sevinirəm. Sizin fəaliyyətinizdən çox razıyam.*

*Ona görə sizi «Tərəqqi» medalı ilə təltif etdim. 2003-cü ildə buraya gəlmişdim, onda çox şey dəyişməmişdi, lakin il yarım keçib, vəziyyət başqadır. Bax, inkişaf budur.*

*Dövlətimizin başçısı fəhlələrlə səmimi görüşüb, onların vəziyyəti ilə maraqlandı. Onlar dedilər ki, burada görülən bütün işlər Sizin qayğınızın nəticəsidir. Müəssisəyə sərmayə*

*qoyulduqdan sonra istehsal 1,6 dəfə artmışdır. Bu çox böyük göstəricidir. Aprel ayından əmək haqqımız 850–900 min manat olmuşdur. Xatirimizdədir, 2000-ci ildə ümummilli liderimiz zavodumuzda əməkçilər qarşısında çıxışında demişdi ki, sizin zavodunuz gələcəkdə yaxşı olmalıdır. Sizin sayənizdə zavodumuz Avropa standartlarına uyğundur. Gələcəkdə bundan da yaxşı olacaqdır. İnşallah, növbəti dəfə gələndə bundan da yaxşı görəcəksiniz. Hazırda pulsuz yeməklə təmin olunmuşuq, pulsuz nəqliyyat da veriləcəkdir. Demək olar, sosial problemlərimiz həll olunub, maaşımız vaxtında verilir, elə bir çətinliyimiz yoxdur. Sizin bütün daxili və xarici siyasətinizi dəstəkləyirik, həmişə Sizinlə bir yerdəyik. Bütün respublikamızda gedən quruculuq işlərini görürük. Gəncə sonrakı dövrdə tam dəyişibdir. Gördüyünüz işlər hamı tərəfindən yüksək qiymətləndirilir.*

**İ l h a m Ə l i y e v:** Çox gözəl, çox razıyam. Gərək hər yerdə belə olsun ki, camaat razılıq etsin. Bizim siyasətimizin nəticəsi bunlardır. Siyasət əməli – praktiki işlərdir. Bu, söz deyil, böyük işdir.

Sonra dövlətimizin başçısı müəssisə üçün tikiləcək yeni inzibati binanın və digər sahələrin layihələrinə baxdı, Hollandiyanın «Fondelmetal» şirkətinə uzunmüddətli icarəyə verilmiş bu istehsal müəssisəsinin ərazisini, istehsal sahələrini avtobusla gəzdi. Ümumi ərazisi 170 hektar olan, 3 min işçinin çalışdığı müəssisədə orta aylıq əmək haqqı 800 min manatdır. Hazırda MDB məkanında belə bir müəssisə yoxdur.

**Nizami Gəncəvinin məqbərəsini ziyarət**

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Gəncəyə səfərinin sonunda Nizami Gəncəvinin məqbərəsini ziyarət edərək, dünya ədəbiyyatı xəzinəsinə əvəzsiz incilər bəxş etmiş dahi şairin məzarı üstünə gül qoydular.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GORANBOY RAYONUNDA

*19 may 2005-ci il*

### Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 19-da Goranboy rayonuna gəldi.*

*Böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşılanan prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək gül qoydular.*

*Buraya toplaşan minlərlə sakin dahi şəxsiyyətin ideyalarına daim sadiq qalacaqlarını, onun arzularının gerçəkləşməsinin ölkəmizə daha böyük uğurlar gətirəcəyini vurğuladılar. Xalqımızın müdrik oğlunun xatirəsini əziz tutan goranboylular ulu öndərin anadan olmasının 82-ci ildönümü ərəfəsində rayon mərkəzində onun qranit heykəlini ucaltdıqlarını bildirdilər.*

### Tarix muzeyi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sonra rayon mərkəzindəki Tarix muzeyinə gəldi.*

*İcra hakimiyyətinin başçısı Novruz Novruzov ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 82-ci ildönümü günlərində açılmış və 3 minədək eksponatı olan muzeyin yaradılmasına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin tikintisini aparan Beynəlxalq Əməliyyat Şirkətinin maliyyə dəstəyini razılıqla vurğuladı.*

*Muzeyin əməkdaşları dövlətimizin başçısına burada toplanmış materiallar barədə ətraflı məlumat verdilər, ulu öndər Heydər Əliyevin tariximizə, mədəniyyətimizə, milli-mənavi dəyərlərimizə daim böyük qayğı göstərdiyini vurğuladılar. Bu*

*baxımdan rayonlarda tarix-diyarşünaslıq muzeylərinin fəaliyyət göstərməsi çox əhəmiyyətlidir.*

*Prezident İlham Əliyev muzeyin qədim eksponatlarına, o cümlədən arxeoloji qazıntılar zamanı tapılmış əşyalara, habelə müasir dövrümüzə, ümummilli liderimiz Heydər Əliyevin Goranboya, xarici ölkələrə səfərlərinə aid guşələrə baxdı.*

## Rəsm qalereyası ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev rayonun rəsm qalereyası ilə tanış oldu, burada saxlanılan yüzlərlə əl işinə, o cümlədən məktəbli Kəmalə Qasımovanın ötən il Səttar Bəhlulzadə adına Sərgi salonunda nümayiş etdirilən əsərlərindən ibarət sərgiyə baxdı.*

*Dövlətimizin başçısına məlumat verildi ki, uşaq və gənclərdə rəssamlığa böyük həvəs var, respublika miqyaslı müsabiqələrdə yer tuturlar. Onların rəngkarlıq, qrafika, portret və digər janrlarda çəkdikləri rəsmlər maraq doğurur. Burada yeniyetmələrə tikiş və toxuma sənəti də öyrədilir.*

*Prezident İlham Əliyev gənclərin yaradıcılığını yüksək qiymətləndirdi, nümayiş etdirilən əsərlərin onda xoş təəssürat yaratdığını bildirərək dedi ki, Azərbaycanda istedadlı gənclərə həmişə qayğı göstəriləcəkdir.*

# GÖRANBOY RAYON AĞSAQQALLARI İLƏ GÖRÜŞ

*19 may 2005-ci il*

**K ə r ə m İ b r a h i m o v** (*Rayon ağsaqqallar şurasının sədri)*: Hörmətli Prezident!

Siz qədim oğuz yurdu Goranboy torpağına ikinci dəfə xoş gəlmisiniz. Azərbaycan xalqının ümummilli lideri, bizim hörmətli atamız Heydər Əliyev Goranboyu və goranboyluları çox sevirdi. Ona görə üç dəfə – 1978, 1982 və 2002-ci illərdə Sizinlə birlikdə Goranboya gəldi. Onun hər bir gəlişinin rayonumuzun iqtisadi inkişafına, tikintisinə, abadlığına çox böyük təsiri olmuşdur. Goranboy Heydər Əliyevin – Allah ona rəhmət eləsin – sayəsində bu səviyyəyə gəlmişdir və daha da inkişaf edir.

Azərbaycanın iqtisadi yüksəlişinə, regionların sosial-iqtisadi inkişafına dair qərarlarınızın, imzaladığınız sənədlərdə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi gələcəyimiz üçün yaxşı zəmin yaradır.

Sizin tez-tez regionlara getməyiniz bizdə böyük ümid yaradır və istər respublika daxilində, istərsə də xarici ölkələrdəki tədbirlərdə çıxışlarınızda, Azərbaycanın iqtisadi potensialının güclənməsi, gələcəkdə respublikamızın zəngin dövlətə çevriləcəyi barədə inamla söylədiyiniz fikirlər iftixar doğurur. Yeni iş yerlərinin yaranması, qazanılan nailiyyətlər bizi sevindirir. Bizim ən böyük arzumuz Qarabağ məsələsinin həllidir. Sizin cəsarətli addımlarınız bizdə böyük ümid yaradır.

Hörmətli İlham müəllim, bu gün yağış yağmasının rəmzi mənası var. Goranboy həmişə sudan əziyyət çəkən rayon olmuşdur. Bu rəmzi məna odur ki, baharın bu gözəl çağında yağış altında buraya gəlməyiniz gələcəkdə Goranboy torpağına kanal çəkilməsinin vacibliyini Sizin yadınıza salır.

Mən bütün ağsaqqallar adından Sizə bildirmək istəyirəm ki, goranboylular Heydər Əliyevi necə sevirdilərsə, Sizi də elə sevirlər. Həmişə Sizin ideyalarınız ətrafında birləşmişlər və gələcəkdə də Sizin arxanızla gedəcəklər. Biz Sizə böyük ümid bəsləyirik. Sizin hər bir çıxışınız, məzmunlu fikirləriniz qəlbimizdə qürur doğurur. Allah-təala Sizə bu yolda yar olsun! Sizə bütün goranboylular adından uğurlar arzulayıram.

**İ l h a m  Ə l i y e v**: Təşəkkür edirəm. Deməliyəm ki, Heydər Əliyev də goranboyluları çox sevirdi, mən də goranboyluları çox sevirəm. Bu sevginin əlaməti olaraq mən bu gün buraya gəlmişəm, sizin qonağınızam.

Mən 2002-ci ilin o gününü çox yaxşı xatırlayıram. O görüş çox səmimi keçdi. Biz Gəncədən qayıdırdıq. Yadımdadır ki, xalqımızın lideri Heydər Əliyev Goranboyda görülən işlərlə əlaqədar öz fikirlərini, razılığını bildirmiş və demişdi ki, Goranboy çox sürətlə inkişaf edir. Xatırlayıram ki, o vaxt icra hakimiyyətinin başçısını da çox tərifləmişdi. Sonra aramızda olan söhbətdə də bunu qeyd etdi. O vaxt Gəncənin vəziyyəti o qədər də ürəkaçan deyildi. Demək olar ki, Gəncədə inkişaf getmirdi. Gəncədən buraya gələrək, vəziyyəti tam başqa cür görəndə, o çox sevinmişdi.

Mən çox şadam ki, burada gedən proseslər davam edir, rayon inkişaf edir. Quruculuq, abadlıq işləri gedir. Regionların sosial-iqtisadi inkişaf proqramı da burada öz həllini tapır. Bu gün burada gedəcəyim bəzi müəssisələr artıq işə başlayıbdır, bəzilərinin isə təməli qoyulacaqdır. Bu o deməkdir ki, Azərbaycan inkişaf edir. Azərbaycanın regionlarının inkişafı bizim üçün ən prioritet məsələlərdən biridir. Gərək Azərbaycanın hər bir yerində şərait yaxşı olsun, insanlar daha yaxşı yaşasınlar, gözəl şərait yaradılsın, abadlıq, quruculuq işləri getsin. Biz bu işləri görürük.

İndi Azərbaycanın hər bir yerində inkişaf göz qabağındadır. Mən çalışıram ki, bunu daha da sürətləndirək. Çalışıram ki, sahibkarlıq, fermerlik daha da sürətlə inkişaf etsin. Yəqin bilirsiniz ki, bu yaxınlarda «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyətinin

yaradılması bu istiqamətdə atılmış çox mühüm addımdır. Onun vasitəsilə böyük həcmdə kənd təsərrüfatı texnikası gətiriləcək və rayonlara paylanacaqdır. İndi texnikanın gətirilməsi prosesi başlamalıdır ki, kənddə işləyən insanlar əziyyət çəkməsinlər. Mənim məqsədim budur ki, Azərbaycanın hər bir bölgəsi, hər bir vətəndaşı ölkədə gedən inkişaf proseslərindən bəhrələnsin, daha yaxşı, rahat yaşasın, sülh, sabitlik, asayiş olsun və ölkəmiz daha da zənginləşsin.

Mən hər dəfə bölgələrə gedəndə hansısa bir yenilik, inkişaf görəndə çox sevinirəm. Bu gün səhərdən Gəncədə idim. Orada tikilən böyük aeroportun layihəsi ilə tanış oldum, sonra başqa görüşlər keçirdim. İstədim ki, sizin də yanınıza gəlim, görüşüm, öz hörmətimi sizə bildirim.

Çox sağ olun.

## Heydər Əliyev parkında gəzinti

*Prezident İlham Əliyev daha sonra Heydər Əliyev parkını gəzdi. Rayon mədəniyyət evinin uşaq rəqs və mahnı kollektivləri, aşıqlar prezidenti və onun xanımını musiqi ilə qarşıladılar, maraqlı konsert proqramı ilə çıxış etdilər. «Gənc Heydərçilər» Azərbaycan, xalqımızın ümummilli lideri haqqında seirlər söylədilər.*

*Prezident İlham Əliyev və Mehriban Əliyeva onlara dərin minnətdarlıq etdilər və xatirə şəkli çəkdirdilər.*

## GÖRANBOY MƏRKƏZİ STADİONUNUN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*Mayın 19-da prezident İlham Əliyev Goranboy mərkəzi stadionunun təntənəli açılışı münasibətilə keçirilən mərasimdə iştirak etdi.*

*Dövlətimizin başçısı əvvəlcə stadionla tanış oldu, idmançıların nümunəvi çıxışlarına baxdı. Prezidentə məlumat verildi ki, rayonun daxili imkanları hesabına inşa olunan bu stadionda yarışları 1500 tamaşaçı izləyə bilər. Rayonda bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirilir, futbol, voleybol, basketbol və digər növlər üzrə komandalar yaradılır.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli idmançılar!

Sizin hamınızı ürəkdən salamlayıram. Mən bu gün sizin yanınıza gəlmişəm. Çox şadam ki, biz yenidən birlikdəyik.

Üç il bundan əvvəl, 2002-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyev Goranboy rayonunda olanda burada görülən işlərlə yaxından maraqlandı və çox razı qaldı. Bu gün də mən görürəm ki, Goranboy inkişaf edir. Burada yeni müəssisələr yaranır, abadlıq işləri gedir, rayonda ictimai-siyasi vəziyyət çox yaxşıdır, əhval-ruhiyyə yaxşıdır. Baxmayaraq ki, hava bir az imkan vermir ki, daha da yaxından ünsiyyətdə olaq, amma bununla belə, burada yığışmış insanlar bir daha öz duyğularını, öz hisslərini ifadə edirlər.

Mən çox şadam ki, Azərbaycanın bütün bölgələri, o cümlədən Goranboy da inkişaf edir. Goranboy Azərbaycanın qədim torpağıdır, tarixi yerdir. Biz hamımız çalışmalıyıq ki, burada quruculuq, abadlıq işləri daha da sürətlə getsin. Regional inkişaf proqramı burada icra olunur və proqram çərçivəsində nəzərdə tutulmuş bütün tədbirlər yerinə yetiriləcəkdir. Mən bu gün icra hakimiyyətinin başçısı ilə söhbətimdə qeyd elədim ki, burada

mövcud olan bütün problemlər, məsələlər öz həllini tapmalıdır. Bəzi problemlər yerindəcə həll oluna bilər, bəzilərini isə biz Bakıda həll edəcəyik. İcra hakimiyyətinin başçısı mənə rəsmi məktubla müraciət edəcək və bütün məsələlər öz həllini tapmalıdır.

Mən bundan sonra da Azərbaycanın hər bir bölgəsinə kömək göstərəcəyəm. Mən istəyirəm ki, Azərbaycanın bölgələri inkişaf etsin. Hər bir rayon inkişaf etsin, insanlar daha yaxşı yaşasınlar. Paytaxtla rayonlar arasında fərq azalsın və bəlkə də bir gün tamamilə aradan götürülsün. Yoxsulluq aradan götürülsün, işsizliyə son qoyulsun. Sülh olsun, əmin-amanlıq olsun, rifah olsun, insanlar yaxşı yaşasınlar, uşaqlarımız yaxşı tərbiyə alsınlar. İdmançılarımız Azərbaycanın bayrağını daim yüksəklərdə tutsunlar, Azərbaycanın idman şöhrətini ucaltsınlar.

Bir sözlə, biz hamımız istəyirik ki, ölkəmiz öz mövqelərini daha da gücləndirsin. Dünyada öz yerini möhkəmləndirsin, regionda öz liderlik mövqelərini saxlasın. Bunu etmək üçün hər bir imkan var, bütün şərait var. İqtisadi inkişaf sürətlə gedir. Bu il Azərbaycan iqtisadi inkişafın sürəti baxımından dünyada birinci ölkə olacaqdır.

Bu yaxınlarda istismara verəcəyimiz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində ölkəmizin iqtisadiyyatının, infrastrukturun, bölgələrin inkişafına böyük imkan yaranacaqdır. Mən şübhə etmirəm ki, yaxın zamanlarda Azərbaycan zəngin dövlətə çevriləcəkdir. Azərbaycanın hər bir vətəndaşı bu fürsətdən istifadə etməlidir, bu imkanlardan bəhrələnməlidir. Bunu etmək üçün gərək hamımız – həm hökumət, yerlərdə icra orqanları, həm sahibkarlar, həm də vətəndaşlar birlikdə çalışaq. Bizim məqsədimiz, amalımız birdir. Doğma Vətənimizi daha da gücləndirmək, Azərbaycanın mövqelərini möhkəmləndirməkdir.

Əlbəttə, bizim qarşımızda duran ən başlıca vəzifə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz buna çalışırıq, bütün imkanlardan istifadə edirik. Siyasi, diplomatik və sair addımlar atılır və son zamanlar müşahidə olunan

mənzərə onu göstərir ki, Azərbaycanın haqq səsi eşidilir. Azərbaycanın mövqeyi dəstəklənir və beynəlxalq ictimaiyyət də bunu artıq açıq-aydın dərk edir və ən önəmlisi də odur ki, bu mövqei qəbul edir. Biz bu səyləri davam etdirəcək və bütün beynəlxalq tədbirlərdə, beynəlxalq təşkilatlarda, ikitərəfli danışıqlarda öz mövqeyimizdən çəkilməyəcəyik. Çünki bizim mövqeyimiz ədalətlidir və beynəlxalq hüquq normalarına əsaslanır.

Amma eyni zamanda, biz onu da bilməliyik ki, yalnız güclü ölkə öz istədiyinə nail ola, öz maraqlarını təmin edə bilər. Ona görə biz güclü olmalıyıq, heç kimin yardımına arxalanmamalıyıq, heç kimin köməyinə ümid etməməliyik. Bizim gücümüz var. Azərbaycan xalqı güclü xalqdır. Azərbaycan torpağı zəngin torpaqdır. Bizim çox güclü kadr potensialımız, təbii ehtiyatlarımız var. Vətənpərvərlik var. Bütün bu amilləri səfərbər edərək, biz gərək güclənək.

Buna görə də bizim iqtisadi inkişaf proqramlarımız həyata keçirilir, regional proqramlar həyata keçirilir, Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara verilir. Bütün bunlar Azərbaycanı gücləndirəcək, Azərbaycanda güclü iqtisadi potensial yaradacaq və nəticədə bizim ölkəmiz bölgədə daha da güclü olacaqdır.

Biz ordu quruculuğuna da böyük diqqət göstəririk və bunu davam etdirəcəyik. Bu il orduya ayrılan xərclər 36 faiz artıbdır. Bu yaxınlarda büdcəyə yeni dəyişikliklər ediləcəkdir. Mən göstəriş vermişəm ki, ordu xərclərinə yenidən baxılsın və lazımi səviyyədə artırılsın. Biz ordumuzu daha da gücləndirməliyik və düşmənlər bilməlidirlər ki, Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri istənilən vaxt yerinə yetirə bilər.

Bir sözlə, Azərbaycan uğurla inkişaf edəcəkdir. Bunun üçün gərək biz bir olaq. Cəmiyyətdə birlik olmalıdır. Bizim bir məqsədimiz, bir amalımız var: torpaqlarımızı qaytarmaq, ərazi bütölüyümüzü bərpa etmək və Azərbaycan xalqını daha yaxşı şəraitlə təmin etmək.

Mən sizin hamınıza bütün bu işlərdə uğurlar arzulayıram. Arzu edirəm ki, Goranboy rayonu daha da gözəlləşsin, abadlaşsın, burada quruculuq işləri daha da sürətlə getsin. Mən burada

görülən işlərdən çox razıyam. Tanışam, bilirəm ki, işlər burada yaxşı gedir. Yerli icra orqanları da işləyir. Sizi Milli Məclisdə təmsil edən deputat çox gözəl işləyir. Bir sözlə, burada gedən proseslər məni çox qane edir. Ona görə mən bu gün gəlmişəm ki, sizinlə birlikdə olam və sizə öz dərin məhəbbətimi, dərin hörmətimi ifadə edim. Sizi əmin edim ki, mən Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün, iqtisadi potensialının güclənməsi üçün bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm, həmişə sizinlə birlikdə olacağam. Bizim gələcəkdə görəcəyimiz işlər imkan verəcək ki, Azərbaycan daha da möhkəmlənsin, qüdrətli olsun, müstəqilliyimiz əbədi, dönməz olsun.

Sizi bir daha salamlayıram, bağrıma basıram. Sağ olun, təşəkkür edirəm.

* * *

*Sonra prezident İlham Əliyev idmançılarla səmimi görüşüb söhbət etdi. Goranboy gəncləri respublika əhəmiyyətli və beynəlxalq yarışlarda iştirak etmək arzusu ilə yaşadıqlarını, bunun üçün belə stadionların, idman meydançalarının, olimpiya komplekslərinin yaradılmasının əhəmiyyətindən danışdılar, ölkəmizdə idmana göstərilən qayğıya, idmançılara yaradılmış şəraitə görə minnətdarlıq etdilər. Dövlətimizin başçısı idmançılarla xatirə şəkli çəkdirdi.*

## Rayon bazarı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Goranboyun mərkəzində yeni tikilən bazara da baş çəkdi, inşaat işləri ilə maraqlandı.*

*Yerli iş adamı tərəfindən tikilən bazarda onlarca yeni iş yeri açılacaq, rayon sakinləri məhsullarını burada çatmaq imkanı qazanacaqlar.*

*Dövlətimizin başçısı sahibkarlığın inkişafı üçün dövlət tərəfindən bundan sonra da hər cür kömək göstəriləcəyini vurğulayaraq dedi ki, biz iş adamlarına verilən kreditlərin həcmini artıracağıq. Bölgələr inkişaf etməlidir. Əlbəttə, sahibkarların*

*öz vəsaiti də mühüm rol oynayır. Amma böyük işlərə kredit lazımdır.*

*Rayon icra hakimiyyətinin başçısı Novruz Novruzov Goranboyda 20 dəyirmanın fəaliyyət göstərdiyini, taxılla bağlı heç bir problemin olmadığını, keçən il 50 min ton məhsul yığıldığını bildirərək dedi ki, bu il daha çox məhsul gözlənilir. Taxılın bazarı var, satılır. Pambıqçılıq da inkişaf edir, iki özəl zavodumuz vardır. Bu il 3 min hektar sahədə pambıq əkilmişdir. Keçən il isə 1500 hektar idi. Bir hektar pambıq əkib-becərmək iki daimi iş yeri deməkdir. Meyvəçilik də inkişaf etdirilir. Bir iş adamı 400 hektar nar bağı salmışdır və zavod tikir. Heyvandarlığın və tərəvəzçiliyin dirçəldilməsi üçün tədbirlər görülür. Rayon sakinləri Rusiyaya da məhsul aparırlar.*

*Prezident İlham Əliyev Goranboyda süd və konserv zavodlarının işə salınması, yerli məhsulların xarici bazarlara çıxarılması üçün şəraitin yaradılması, sahibkarlığın inkişafına mane olan problemlərin aradan qaldırılması və digər məsələlərlə bağlı müvafiq orqanlara tapşırıq və göstərişlər verdi.*

## «OPLAS» Məhdud Məsuliyyətli Cəmiyyətdə

*Azərbaycan prezidenti İlham Əliyev «Oplas» Məhdud Məsuliyyətli Cəmiyyətin istehsal sahələri ilə tanış oldu, burada hazırlanan məhsulların keyfiyyəti ilə maraqlandı.*

*Məlumat verildi ki, Türkiyə–Azərbaycan birgə müəssisəsi olan «Oplas»da 20 nəfər çalışır. Əsasən lambrin, içməli su, kanalizasiya boruları və onların aksessuarları istehsal olunur. Yerli və xarici bazarlara müasir standartlara cavab verən 20 adda məhsul çıxarılır. Gələcəkdə istehsal sahələrini genişləndirmək və yeni iş yerləri açmaq üçün planlar hazırlanmışdır.*

## Yağlı boya zavodu ilə tanışlıq

*Mayın 19-da prezident İlham Əliyev Goranboyda fəaliyyət göstərən Yağlı boya zavodunda da oldu.*

*Dövlətimizin başçısını səmimiyyətlə qarşılayan zavodun işçiləri bildirdilər ki, 2002-ci ildən işləyən müəssisədə 25 çeşiddə boya, mismar, məftil tor və metlax istehsal olunur. Yerli iş adamlarına məxsus zavodda 25 nəfər işləyir və onların əmək - haqqı 400–450 min manatdır.*

*Prezident İlham Əliyev məhsulların hazırlanması proseslərini izlədi, texniki avadanlıqla, ixrac olunan məhsulların keyfiyyəti ilə maraqlandı, görülən işləri yüksək qiymətləndirdi.*

## Goranboy Gips zavodunun təməlinin qoyulması mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Goranboya səfərinin sonunda Gips zavodunun təməlinin qoyulması mərasimində iştirak etdi. Mərasimə toplaşanlar dövlətimizin başçısını mehribanlıqla qarşıladılar.*

*Prezident İlham Əliyev zavodun layihəsi ilə tanış oldu. Respublikamızın rəhbərinə məlumat verildi ki, tikintiyə 50 nəfər cəlb olunmuşdur. Gələn ilin martında istifadəyə veriləcək zavodda işçilər 120–250 dollar əmək haqqı alacaqlar. Müəssisənin işə düşməsi regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsinə kiçik bir töhfə olacaqdır.*

*Prezident İlham Əliyev fəhlələrlə səmimi görüşdü, zavodun bünövrəsinə beton tökdü, müəssisənin xeyirli və uğurlu olmasını arzuladı.*

## Azərbaycan prezidenti İlham Əliyevin Gəncəyə və Goranboya səfəri ilə bağlı jurnalistlərə verdiyi müsahibə

**S u a l: Cənab Prezident, Gəncə və Goranboyda müəyyən məsələlərdə Sizi qane edən və etməyən məqamlar hansılardır? Ümumiyyətlə, bu bölgələrdə inkişaf necədir?**

**C a v a b:** Bəli, vəziyyət məni qane edir. Gəncədə vəziyyət çox yaxşıdır, işlər gedir. Görürsünüz ki, Gəncə günbəgün gözəlləşir, şəhər abadlaşır, yeni müəssisələr yaradılır. O cümlədən Goranboy rayonunda da istehsal sahələrinin açılması, fəaliyyətə başlaması yaxşı göstəricidir. Yəni bizim regional inkişaf proqramımız icra olunur və bu çox sevindirici haldır. Məsələn, burada istehsal olunan bütün mallar, qabdan tutmuş xammala qədər Azərbaycanda istifadə edilir.

**S u a l: Cənab Prezident, qarşıdan Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin açılış mərasimi gəlir. Ümumiyyətlə, hesab etmək olar ki, Bakı–Tbilisi–Ceyhanla bağlı bütün təhlükələr artıq arxada qaldı. Kəmər istifadəyə verildikdən sonra onun qorunması ilə bağlı hansısa təhlükə ola bilərmi?**

**C a v a b:** Mən şübhə etmirdim ki, biz Bakı–Tbilisi–Ceyhan layihəsini uğurla başa çatdıracağıq. On ildir, Azərbaycan öz neft strategiyasını həyata keçirdikcə, bu hadisə yaxınlaşırdı və artıq reallığa çevrilir. Mən heç bir təhlükə gözləmirəm. Hesab edirəm ki, bütün təhlükələr arxada qalıb. Bilirsiniz ki, keçmiş illərdə müəyyən çətinliklər var idi, süni maneələr var idi. Ölkə daxilində və ölkənin xaricində bu layihəyə qarşı güclü müqavimət var idi. Hətta xoşagəlməz hallar da baş veribdir. Amma bütün bunlar arxada qalıb və hesab edirəm hamı bilir ki, artıq bunun qarşısını almaq mümkün deyildir.

Bundan sonra əsas vəzifəmiz ondan ibarətdir ki, bu kəmər lazımi səviyyədə qorunsun. Bilirsiniz ki, Azərbaycanda bu kəmərin mühafizəsi ilə bağlı heç vaxt problem, xoşagəlməz hadisə olmamışdır və biz bu barədə heç bir narahatlıq hissi keçirmirik. Yaxşı olardı ki, başqa tranzit ölkələrdə də vəziyyət bu cür olsun. Mən şübhə etmirəm, müvafiq hökumətlər əlindən gələni edəcəklər ki, bu kəmərin təhlükəsizliyi təmin olunsun.

**S u a l: Cənab Prezident, Ermənistan prezidenti ilə axırıncı danışıqlardan sonra belə bir rəsmi açıqlama oldu ki, artıq Ermənistan tərəfi rayonların qaytarılmasına razılıq veribdir. Sadəcə olaraq, zaman problemi var. Ümumiyyətlə, belə bir nikbinliyə əsas varmı?**

**C a v a b:** Yox, belə bir nikbinliyə hələ ki, əsas yoxdur. Söhbət ondan gedir ki, bizim mövqeyimiz dəyişməz olaraq qalır. O da bundan ibarətdir ki, bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır, işğal olunmuş torpaqlar qaytarılmalıdır. Mən Varşavada zirvə görüşündəki çıxışımda bunu bir daha qeyd etdim. Bizim tərəfimizdən ediləcək ən böyük güzəşt Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə zəmanət və dünyada mövcud olan ən yüksək muxtariyyət statusunun verilməsidir.

Əlbəttə ki, danışıqlar çətin gedir. Əgər belə olmasaydı, artıq çoxdan saziş imzalanardı. Bu, asan məsələ olsaydı, çoxdan öz həllini tapardı. Amma mən hesab edirəm ki, hər bir addım bizi sülh sazişinin bağlanmasına yaxınlaşdırır. Ona görə mən danışıqlar prosesinə müsbət baxıram. Hesab edirəm ki, əgər ehtiyac olarsa, bu proses daha da sürətləndirilməlidir. Əgər hər iki tərəf həqiqətən, səmimi şəkildə bu razılaşmanı istəyirsə, biz müəyyən nəticəyə gələ bilərik. Amma bizim mövqeyimizdə heç bir dəyişiklik olmayıb və olmayacaq da.

**S u a l: Cənab Prezident, qarşıdan mayın 28-i gəlir. Xalq Cümhuriyyəti ilə bağlı prezident Heydər Əliyevin fərmanı olmuşdu. Amma onun yerinə yetirilməsində hələ bir irəliləyiş görünmür. Bu istiqamətdə Sizin hansısa tapşırıqlarınız olacaqmı? Türkiyədə Məmməd Əmin Rəsulzadənin qəbrinin yeri dəyişdirilib, onun cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi məsələsi barədə nə deyərdiniz?**

**C a v a b:** Haradasa, 7-8 ay bundan əvvəl abidənin layihəsi mənə göstərilmişdi. Sözün düzü, məni qane etmədi. Çünki o layihə heç bir şeyi əks etdirmirdi, rəmzi xarakter daşıyırdı. Mən təklif etdim ki, bunun üzərində yenidən işlənilsin və gözəl bir təklif irəli sürülsün. İndi eşitdiyimə və bildiyimə görə, bu istiqamətdə iş gedir. Layihə hazır olan kimi, təqdim olunacaq və biz buna baxacağıq.

Sağ olun.

## BAKIDA KEÇİRİLƏN II ÜMUMDÜNYA GÖMRÜK SƏRGİSİ VƏ FORUMUNDA İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 may 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev qonaqları salamlayaraq, bu günlərdə Bakıda «Gömrük və beynəlxalq ticarətin təhlükəsizliyi» mövzusunda konfransın uğurlu keçməsindən məmnunluğunu söylədi. Belə tədbirlərin gələcəkdə əməkdaşlığımıza güclü təkan verəcəyini söyləyən prezident İlham Əliyev bunların işgüzar əlaqələr yaradılması, ölkəmizlə daha yaxından tanışlıq baxımından xüsusi önəm daşıdığını vurğuladı. İqtisadi cəhətdən sürətlə inkişaf edən Azərbaycanın Dünya Birliyinə inteqrasiya istiqamətində uğurlu addımlar atıldığını bildirən dövlətimizin başçısı dedi ki, bu proses daha da sürətlə davam etdiriləcəkdir. Son 10 il ərzində Azərbaycanda ümumi daxili məhsulun həcmi təxminən ildə 10 faiz artırdı. Bu il isə Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatın artımı baxımından dünyada lider ölkəyə çevriləcəkdir. Artıq 2005-ci ilin ilk 4 ayında iqtisadi artım 14 faizdir. Güman olunur ki, ilin sonuna qədər bu rəqəm azı 18 faizə çatacaqdır. Bu, ölkəmizdə gedən iqtisadi islahatların, beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığımızın nəticəsidir. Biz istəyirik ki, əlaqələrimiz daha da güclənsin və Azərbaycan bütün dost ölkələrlə səmərəli iqtisadi münasibətlərini möhkəmləndirsin.*

*Dövlətimizin başçısı ölkənin iqtisadi təhlükəsizliyinin ciddi şəkildə qorunması məsələsinə də toxundu, bu mənada Bakıda*

*keçirilən tədbirin müəyyən tövsiyələr verilməsi baxımından dəyərli olduğunu söylədi. Prezident İlham Əliyev iqtisadi inkişafımızın davamlı olması üçün ölkəmizin iqtisadi təhlükəsizliyinin lazımi səviyyədə təmin ediləcəyinə əminliyini vurğuladı.*

*Dünya Gömrük Təşkilatının (DGT) Baş katibi* ***Mişel Dane*** *səmimi qəbula görə prezident İlham Əliyevə təşəkkür edərək bildirdi ki, İnterpolla birlikdə təşkil etdikləri tədbirdə məqsəd qloballaşan dünya üçün prioritet olan beynəlxalq ticarətin təhlükəsizliyindən ötrü yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi imkanları ilə tanış olmaq və Azərbaycanın müvafiq orqanları ilə bu ehtiyacları öyrənməkdir.*

*«Biz məqsədimizə nail olduq» – deyən Mişel Dane bu beynəlxalq tədbirdə müxtəlif ölkələrdən 50-dən çox rəsmi nümayəndələrin iştirak etdiyini söylədi. O, Azərbaycana hər gəlişində ölkənin inkişaf etməsinin şahidi olduğunu vurğulayaraq, burada istehsal olunan məhsulların keyfiyyətini yüksək qiymətləndirdi. Qonaq dedi ki, Azərbaycanın kənd təsərrüfatı məhsullarını gördük, meyvə-tərəvəzin dadına baxdıq, çox keyfiyyətlidir. Biz onu da bilirik ki, bu ayın sonunda Azərbaycandan Türkiyənin limanınadək uzanacaq böyük boru kəməri istismara veriləcəkdir. Bu isə o deməkdir ki, Azərbaycanda davamlı iqtisadi inkişaf üçün yeni imkan yaranır.*

*Tədbirin Bakıda keçirilməsi təşəbbüsünü dəstəklədiyinə görə dövlətimizin başçısına minnətdarlıq edən cənab Mişel Dane dedi ki, biz qarşıda duran layihələrin həyata keçirilməsi üçün Azərbaycan hökuməti ilə birgə işləməyə çalışırıq.*

*İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Asxat Orazbay dünya gömrük ailəsi ilə birgə İƏT-in üzvü olan ölkələr arasında da iqtisadi əməkdaşlığın vacibliyini vurguladı, təmsil etdiyi təşkilat adından Azərbaycanda gedən iqtisadi proseslərdən məmnunluğunu söylədi.*

*Rusiya Federal Gömrük Xidməti rəhbərinin müavini, DGT Baş katibinin müavini Leonid Lozbenko bildirdi ki, dəyişən dünyanın ciddi iqtisadi təhlükəsizliyinə ehtiyac olduğu bir vaxt-*

*da dünya dövlətlərinin belə mötəbər tədbirlərdə yekdil qərarı çox şeyi həll edə bilər.*

*DGT-nin Baş katibi Mişel Dane görüş iştirakçılarının Azərbaycana xoş məramla gəldiklərini söylədi və onların adından dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Bakıda keçirilən tədbirdə müzakirə edilən məsələlərin çox aktual olduğunu söylədi və qonaqlarla xatirə şəkli çəkdirdi.*

## TÜRKİYƏNİN «SAMANYOLU» TELEVİZİYASININ BAŞ DİREKTORU HİDAYƏT QARACAYA VERDİYİ MÜSAHİBƏ

*Prezident sarayı*

*20 may 2005-ci il*

**D i k t o r:** Azərbaycan prezidenti, həyatını dövlət rəhbərliyinə həsr etmiş güclü bir atanın oğlu, gənc bir lider 1961-ci ilin dekabr ayında anadan olmuşdur. Oğlaq bürcündəndir. Moskvada beynəlxalq münasibətlər üzrə təhsil alıb, aspiranturaya daxil olub, rus, ingilis, fransız dillərini mükəmməl bilir. Yüksək intellektual potensiala malik dövlət adamıdır. Hər bir lider kimi, o da çox məşğuldur. Ölkəsinə faydalı olmaq istəyir, işğal altındakı Dağlıq Qarabağ məsələsində çox həssasdır. Erməniləri həqiqəti təhrif etməkdə günahlandırır, oyunlarını yaxşı bilir. Atasından ölkəyə qalan ən mühüm miras Bakı–Tbilisi–Ceyhan neft kəməridir. Ölkədəki ab-havanı dəyişdirəcək milyardlarla dollarlıq bu layihəyə böyük əhəmiyyət verir. Zamanı və texnologiyanı yaxından izləyir. Şəxsi internet saytı da var. Demokratiyaya əhəmiyyət verir. Xalqından ayrı düşən liderlərin itirəcəyini bildirir. İdmana olduqca böyük həvəsi var. Eyni zamanda, ölkəsinin Olimpiya Komitəsinin prezidentidir. Xalqı kimi, o da futbola daha çox maraq göstərir. Həm Türkiyədə, həm də öz ölkəsində pərəstiş etdiyi bir klub var. Adlarını sirr kimi gizlədir. Canı qədər sevdiyi üç övladı var. Xoşbəxt bir ailəsi var. Ölkəsinin xoşbəxt gələcəyinə dair də güclü ümidləri var.

Prezident İlham Əliyev 25 may ərəfəsində «Özəl gündəm»in özəl qonağıdır.

Azərbaycan dövlət başçısına ilk sualı «Samanyolu» televiziyasının baş əlaqələndiricisi Hidayət Qaraca verir. Sual xarici siyasətlə bağlıdır.

**S u a l: İzlədiyimiz kimi, dünyanın mühüm mərkəzlərinə çoxlu xarici səfərlərdə olmusunuz. Müsbət nəticələr əldə etdiyiniz məlumdur. Bu səfərlərdən nə gözləyirsiniz? Dünyanın ölkənizə baxışlarında nə kimi dəyişikliklər baş verdi? Hazırda Azərbaycanın yeri hansı nöqtədədir?**

**C a v a b:** Xarici siyasət daxili siyasətin davamıdır və onun əsas məqsədi ölkənin milli maraqlarını daha da dolğun və hərtərəfli şəkildə təmin etməkdir. Biz də bunu etməyə çalışırıq. Azərbaycan çox sürətlə Dünya Birliyinə inteqrasiya edir. Bizim müxtəlif beynəlxalq təşkilatlarla çox sıx əlaqələrimiz var, çox gözəl işbirliyi edirik. Beynəlxalq təşkilatlarda bizim mövqeyimiz möhkəmlənir. Birləşmiş Millətlər Təşkilatında, Avropa Birliyində Azərbaycanın mövqeləri daha da güclənir. Mən də öz xarici səfərlərimdə bütün bu məsələləri geniş müzakirə edirəm. Mənim çoxlu rəsmi səfərlərim olub, dünyanın müxtəlif ölkələri ilə, habelə beynəlxalq təşkilatlarla əlaqələrimizi müəyyən edən çoxlu görüşlər keçirmiş, danışıqlar aparmışam. İndi əminliklə demək olar ki, Azərbaycan dünyadakı mövqelərini möhkəmləndirib, bölgədə çox önəmli bir ölkəyə çevrilibdir. Biz çox istəyirik ki, Azərbaycan Dünya Birliyində özünəlayiq yerini möhkəmləndirsin və biz öz haqq səsimizi mötəbər kürsülərdən dünya ictimaiyyətinə çatdıra bilək. Biz istəyirik ki, bütün dünya ictimaiyyəti Azərbaycanın reallıqlarını bilsin, ölkəmizin uğurlarını və problemlərini dərk etsin.

**S u a l: 5–10 il sonra Siz Azərbaycanı hansı mövqedə görmək istəyirsiniz?**

**C a v a b:** Bu il Azərbaycanda ümumi daxili məhsulun, yəni iqtisadiyyatın artımı 18 faiz təşkil edəcəkdir. Bu, rekord göstəricidir. İlin ilk 4 ayında iqtisadiyyatımız 14 faiz artmışdır. Əlbəttə, belə sürətli irəliləyiş imkan verəcək ki, ölkədə mövcud olan problemlər daha da tezliklə öz həllini tapsın. Biz yoxsulluqla ciddi mübarizə aparırıq və yoxsulluq Azərbaycanda kəskin şə-

kildə aşağı düşür. İşsizliyin aradan götürülməsi ən önəmli məsələlərdən biridir və böyük qürur hissi ilə deyə bilərəm ki, bizim son il yarım ərzində apardığımız iqtisadi islahatlar nəticəsində Azərbaycanda 200 mindən artıq yeni iş yeri açılıbdır. Bu, 8 milyon əhalisi olan ölkə üçün çox böyük göstəricidir. Azərbaycanda demokratikləşmə prosesləri sürətlə gedir və biz ümid edirik ki, bu siyasətin nəticəsində Avropa Birliyinə inteqrasiya olunmağımız daha sürətlə gedəcəkdir. Azərbaycan 2008-ci ildə yeniləşmiş, müasirləşmiş, zənginləşmiş ölkə kimi, dünyada öz sözünü deyəcəkdir. Mənim məqsədim bundan ibarətdir.

**S u a l: Mayın 25-də dörd ölkənin prezidentlərinin iştirakı ilə BTC neft kəmərini açacaqsınız. Neft bir həyat suyu kimi buradan axacaqdır. Bu prosesi necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bu boru xəttinin, neft kəmərinin istismara verilməsi tarixi bir hadisədir. 1994-cü ildə Azərbaycanda Heydər Əliyevin təşəbbüsü ilə ilk müqavilə imzalandı. Sonra ona «Əsrin müqaviləsi» adı verdilər. Biz çox şadıq, çox sevinirik, çox fəxr edirik ki, bu neft kəməri istismara verilir. Təsadüfi deyil ki, bu neft kəməri Heydər Əliyevin adını daşıyır.

Bu kəmərin işə düşməsindən sonra bölgədə həm iqtisadi, həm siyasi mənzərə tamamilə dəyişəcəkdir. Mən əminəm ki, bölgədə təhlükəsizlik sisteminin möhkəmlənməsi üçün bu kəmərin fəaliyyəti də mühüm rol oynayacaq, burada təhlükəsizliyin təminatına gözəl dəstək olacaqdır. Regional əməkdaşlıq baxımından da bu kəmərin rolu çox böyükdür. Bizim iki ölkə – Türkiyə və Azərbaycan arasında olan ənənəvi dostluq, qardaşlıq münasibətlərinin də yeni bir səhifəsi açılır və kəmərin uzunmüddətli fəaliyyəti xalqlarımıza həm rifah gətirəcək, həm də yeni imkanlar yaradacaqdır. Yəni bu boru xəttinin Azərbaycana və bizə dost olan ölkələrə təsiri çoxtərəfli olacaqdır.

**S u a l: Üç layihə ilə bölgədə fərqli bir mənzərə yaranır, sanki bir qaynaşma, yenidən o dostluğu, qardaşlığı bərpa etmək üçün mübarizə var...**

**C a v a b:** Siz tamamilə haqlısınız. Bakı–Tbilisi–Ərzurum qaz layihəsi də artıq uğurla icra edilir. Deyə bilərəm ki, bəlkə də

bu, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, bir növ, kölgəsində qalmışdır. Ona görə bu layihə haqqında o qədər də məlumat yoxdur. Amma əslinə baxanda, bu çox önəmli bir layihədir. Bu, Azərbaycan qazını Gürcüstan vasitəsilə Türkiyəyə gətirəcək və ondan sonra Türkiyədən Avropanın digər ölkələrinə aparılacaqdır. Bunun çox böyük əhəmiyyəti var. Bu da çox sərmayə tələb edən layihədir və bütün işlər 2006-cı ilin sonuna qədər başa çatmalı, kəmər Ərzuruma qədər çəkilməlidir.

Qars–Axalkalaki–Bakı dəmir yolu da bu qəbildən bir layihədir. O bizi Türkiyə ilə dəmir yolu vasitəsilə birləşdirəcəkdir. Əlbəttə ki, bu bizim xalqlarımızı daha da sıx birləşdirəcək və Türkiyə ilə Azərbaycanın bölgədəki və bəlkə də dünyadakı rolu və önəmi qat-qat artacaqdır.

**S u a l: Qazaxıstan prezidenti Nursultan Nazarbayev də mərasimdə iştirak edəcəkdir. Qazaxıstan neftinin də BTC vasitəsilə daşınması üçün işlər davam edir. Bu layihə nə kimi mənfəətlər gətirəcək?**

**C a v a b:** Əgər belə bir imkan yaranarsa, əlbəttə ki, Qazaxıstan da bu kəmərdən istifadə edə bilər. Hər halda, bunu təmin edəcək anlaşma artıq hazırlanır və bu, Qazaxıstan üçün də gözəl alternativ olacaqdır. Gələcəkdə əgər ehtiyac olarsa, Bakı–Tbilisi–Ceyhan kəmərinin buraxılış qabiliyyətinin artırılması da mümkündür. Əgər indi gündə 1 milyon barel neftin nəqli nəzərdə tutulursa, biz onu əlavə texniki yollarla təxminən iki dəfə qaldıra bilərik. Biz hamımız – Azərbaycan, Türkiyə, Gürcüstan və Qazaxıstan bu kəmərdən faydalanacağıq.

**Ə h m ə d B ö k ə n** (*xəbər əlaqələndiricisi*): Azərbaycanın ən kiçik bir sevinci Türkiyənin də sevinci olur. Biz bunu ekranlarımız vasitəsilə insanlara çatdırırıq. Bir çətinliyiniz olanda, biz də Türkiyədə üzülürük.

Sosial sahədə, ictimai sahədə əməkdaşlığı qənaətbəxş hesab edirsinizmi?

**C a v a b:** Əlbəttə, biz istəyirik ki, iqtisadi əlaqələrimiz siyasi əlaqələr səviyyəsinə gəlib çatsın. Amma bu da hələ mümkün

deyildir. Çünki siyasi əlaqələr o qədər yüksəkdədir ki, buna çatmaq çox çətindir.

Bizim ticarət əlaqələrimiz, mal dövriyyəsi ilbəil artır. Azərbaycanda çoxlu layihələr var ki, Türkiyə şirkətləri onları icra edir. Məsələn, hava limanlarının tikintisində Türkiyə şirkətləri çox fəal iştirak edirlər. Mən dünən Gəncədə idim. Gəncədə yeni bir müasir hava limanı tikiləcək. Naxçıvanda, Bakıda olduğu kimi, Türkiyə şirkətləri bunu icra edəcəkdir. Yeni yolların salınmasında da türk şirkətləri işləyir. Yəni növbəti illərdə Azərbaycanda çoxlu işlər olacaqdır. Bəlkə də milyardlarla dollarla ölçülən işlər olacaq və biz çox istəyirik ki, bizim türk qardaşlarımız, dost firmalarımız burada iştirak etsinlər – həm sərmayə qoysunlar, həm də müxtəlif layihələrdə işləsinlər.

**S u a l: Türkiyə Avropa Birliyinə daxil olmaq üçün yeni səylər göstərdi, addımlar atdı. Bu prosesə Azərbaycan necə baxır?**

**C a v a b:** Biz çox sevinirik ki, Türkiyə son zamanlar Avropa Birliyi ilə çox səmimi münasibətlər qurur və böyük uğurlar əldə edibdir. Hesab edirəm ki, bu, böyük başarıqdır, diplomatiyanın, siyasətin böyük uğurlarıdır. Digər tərəfdən, onu da görürük ki, müəyyən ədalətsizliklər də mövcuddur. Mən şəxsən əminəm və hesab edirəm, siz də mənim fikrimə şəriksiniz ki, Türkiyə çoxdan Avropa Birliyinin üzvü olmalıydı. Buna haqqı çatır. Türkiyədən sonra müraciət etmiş ölkələr artıq üzv olublar və o ölkələr nə iqtisadi, nə siyasi, nə də başqa cəhətlərdən Türkiyədən irəlidə deyillər. Ona görə Türkiyəni bu məsələdə, necə deyərlər, bir az geridə saxlamaq böyük ədalətsizlikdir. Bu, ikili standartlar siyasətinin təzahürüdür və bizi çox üzür, Türkiyəni çox üzür. Amma bütün bunlara baxmayaraq, bu, qaçılmaz bir prosesdir. Türkiyə Avropa Birliyinin üzvü olacaq, mənim buna heç bir şübhəm yoxdur. Sadəcə, biz istəyirik ki, bu daha tez olsun.

**S u a l: Hörmətli Baş nazirimizin və ya Türkiyə hökumətinin, türk diplomatiyasının Türkiyənin Avropa Birliyinə daxil olmaq prosesində Sizdən Ermənistanla münasibətləri-**

**nizi dəyişdirmək, mehriban səviyyəyə gətirmək barədə hər hansı tələbi oldumu?**

**C a v a b:** Xeyr, heç bir dəyişiklik yoxdur. Heç bir tələb, yaxud da ki, heç bir xahiş olmamışdır. Bu məsələ, ümumiyyətlə, müzakirə olunmur. Azərbaycanda, Türkiyədə və başqa ölkələrdə bəzi dairələr bizim aramızı bir az soyutmaq üçün, münasibətlərimizə mənfi təsir etmək üçün belə şayiələri ortaya atırlar. Belə bir məsələ yoxdur. Bu barədə Azərbaycanın rəhbərliyi dəfələrlə bəyan edibdir. Türkiyənin müxtəlif qurumları və ən yüksək vəzifəli şəxsləri – Xarici İşlər naziri, Baş nazir, cümhur başqanı bəyan etmişlər ki, bu məsələdə heç bir dəyişiklik yoxdur və biz də bunu heç vaxt hiss etməmişik.

Biz bilirik, bəziləri Türkiyəyə güclü təzyiqlər edirlər ki, sərhəd açılsın, Ermənistanla münasibətlər qurulsun. Amma biz bilirik ki, bu məsələdə Türkiyənin mövqeyi dəyişməz olaraq qalır. Bu məsələdə həm iqtidarda, həm insanlarda, həm də ictimai qurumlarda, Türkiyə cəmiyyətində heç bir fikir ayrılığı yoxdur.

**S u a l: Ermənistanla əlaqələrin düzəlməsi hansı şərtlə ola bilər, yəni sağlam prosesin başlanması üçün Ermənistan nə etməlidir?**

**C a v a b:** Ermənistan bizim torpaqlarımızdan çıxmalıdır, işğal olunmuş torpaqlarımızı boşaltmalıdır. Bu təcavüzə son qoyulmalıdır və 1 milyon azərbaycanlı öz doğma dədə-baba torpaqlarına qayıtmalıdır. Bunun müqabilində biz Dağlıq Qarabağa yüksək muxtariyyət statusu vermək fikrindəyik.

Əgər hansısa bir xalq başqa xalqın torpağında, başqa dövlətdə yaşayırsa, o demək deyil ki, onu parçalayıb qopartmalıdır. Dağlıq Qarabağda, haradasa, cəmi 60–70 min adam yaşayır. Ermənilərin başqa yerdə yaşaması da bizə bəllidir. Gürcüstanda təxminən 400 min erməni var. Rusiyada bəlkə bir milyondur, Fransada, Amerikada yaşayırlar. Nə üçün onlar bizdən torpaq istəyirlər? Bu heç bir məntiqə də sığmır. Dağlıq Qarabağ həmişə Azərbaycan torpağı olubdur. Qarabağ sözü özü türk sözüdür. Ermənidən soruş Qarabağ nədir, onun dilində belə bir ifadə

yoxdur. İndi dünyanın qanunları var, hər bir dövlət gərək bu qanunlarla yaşasın.

**S u a l: Ermənilərin işğalına məruz qalmış bir ölkənin prezidenti olaraq qondarma soyqırımı iddialarına münasibətiniz necədir? Bunu necə şərh edirsiniz?**

**C a v a b:** Bu məsələ bizi çox incidir. Bu da ədalətsizliyin bir təzahürüdür. Tarix təhrif olunur, ermənilər tərəfindən dünya ictimaiyyətinə yanlış məlumatlar çatdırılır. Bu işdə xüsusilə erməni lobbisinin çox mənfi fəaliyyəti var. Əsrlər boyu ermənilər bizə qarşı soyqırımı ediblər. Həmişə, XX əsrdə də. Xocalı soyqırımı bunun, necə deyərlər, ən bariz nümunəsidir. 600 insan – qoca, uşaq, qadın qətlə yetirilmişdir. Başqa hadisələr də olubdur. Ona görə ermənilərin bu təbliğatı, sadəcə olaraq, bu məsələni bilməyən qurumlara yönəldilibdir.

Onların bütün siyasəti yalan üzərində qurulubdur. Bu, əvvəllər də belə olubdur. Biz də bunu görmüşük və görürük. Baxmayaraq ki, bizə, Azərbaycana qarşı təcavüz ediblər, bizim torpaqlarımızı işğal ediblər, günahsız insanları öldürüblər, çalışırlar ki, dünyada Azərbaycanı bir işğalçı dövlət kimi təqdim eləsinlər. Dünya Birliyini çaşdırır və tamamilə yanlış bir təsəvvür yaratmaq istəyirlər. Ona görə biz buna qarşı öz təbliğatımızı aparmalıyıq. Bizim təbliğatımız ancaq həqiqət üzərində qurulub, xülya, yaxud da fantaziya üzərində qurulmayıbdır.

**S u a l: Bir tərəfdə Rusiya, digər tərəfdə «Bir millət, iki dövlət» olaraq qəbul etdiyiniz Türkiyə, sonra ABŞ və İran. Bu dörd ölkə arasında Azərbaycan necə bir xarici siyasət aparır və xarici siyasətdə əsas istiqamətiniz hansılardır? Xarici siyasətdəki prioritetləriniz nədir?**

**C a v a b:** Bizim xarici siyasətimizin əsas istiqaməti ondan ibarətdir ki, Azərbaycanın milli maraqları tam şəkildə qorunsun və təmin olunsun. Bizim başqa amalımız yoxdur. Rusiya, İran, Gürcüstanla bizim qarşılıqlı surətdə faydalı əlaqələrimiz var. Ticarət əlaqələrimiz inkişaf edir. Nəqliyyat layihələri həyata keçirilir. Əlbəttə, Türkiyə ilə bizim münasibətlərimiz tam başqa zəmində qurulubdur. Siz qeyd etdiyiniz kimi, biz bir millət, iki

dövlətik və əlaqələrimiz bu prinsiplər üzərində qurulmuşdur. Azərbaycan öz müstəqilliyini bərpa etdiyi vaxtdan bu günə qədər Türkiyə həmişə bizimlə bərabər olubdur. Bu birlik, qardaşlıq əbədi yaşayacaqdır.

Dünyada rəqabət istəyən qüvvələr, yaxud da ki, ölkələr bu rəqabəti aparmaq üçün başqa bir yer tapa bilərlər. Amma biz ölkəmizi buna sövq etməyə imkan verə bilmərik. Biz istəyirik ki, işbirliyi olsun, inkişaf olsun, xoş münasibətlər olsun və siyasətimizi də bu istiqamətdə qururuq.

Digər tərəfdən də, Azərbaycan öz müstəqilliyini çox qiymətləndirir. Çünki biz uzun illərdən bəri müstəqillikdən məhrum idik. Ona görə müstəqillik bizim üçün çox böyük məna daşıyır. Müstəqillik hansısa rəsmi atributlarla ölçülmür, müstəqillik gərək həqiqi olsun. Dünyada bir çox ölkə var ki, onun bayrağı da var, dövlət himni də var, müstəqilliyi əks etdirən digər əlamətləri də var, amma müstəqil siyasət apara bilmir. Bəzi ölkələr başqa ölkələrin iradəsi ilə idarə olunur, bəziləri digər ölkələrin yedəyində gedir, biz bunu bilirik. Azərbaycanın xoşbəxtliyi ondadır ki, biz bundan azadıq.

**S u a l: Əvvəllər Türkiyədəki təhsil ocaqları şagirdlərinin uğur qazanması ilə bağlı xəbərlər hazırlayırdıq. İndi yavaş-yavaş azərbaycanlı gənclərin beynəlxalq olimpiadalarda uğurlarının şahidi oluruq. 130 medal əldə edildiyini öyrəndik.**

**C a v a b:** Bəli, mən bunu çox yüksək qiymətləndirirəm.

**S u a l: «Çağ» Öyrətim Şirkətinin ölkənizdə açdığı tədris müəssisələrini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Yüksək dəyərləndirirəm. Mən çox razıyam, görürəm ki, orada təhsil alan gənclər dünya olimpiadalarında, başqa müsabiqələrdə yüksək yerlər tuturlar. Çox gözəl təhsil alırlar, mən bunu çox bəyənirəm və dəstəkləyirəm.

«Çağ» Öyrətim Şirkəti burada çox böyük işlər görür və mən bu fəaliyyətdən çox razıyam.

**S u a l: Vaxtilə ümummilli lider Heydər Əliyevin baxdığı bir sərgidə hər bir şirkət öz məhsullarını nümayiş etdirirdi.**

**«Çağ» Öyrətim Şirkətinin də stendi vardı, onlar da medalları nümayiş etdirmişlər.**

**C a v a b:** Bəli, o da dəyərli bir məhsuldur.

**S u a l: Ölkəmizin Baş naziri Rəcəb Tayyib Ərdoğanla və Ermənistan dövlət başçısı Köçəryanla görüşləriniz oldu. Bu görüşlərin nəticələri haqqında nə deyə bilərsiniz?**

**C a v a b:** Hörmətli Baş nazirlə bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Biz bütün beynəlxalq tədbirlərdə görüşürük, bütün məsələləri səmimi şəkildə müzakirə edirik. Bu dəfə də belə səmimi görüş oldu və ikitərəfli münasibətlər müzakirə olundu, regiondakı vəziyyət, əlbəttə ki, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri müzakirə edildi.

O ki qaldı Ermənistanın prezidenti ilə görüşümə, bu, artıq dördüncü görüş idi. Xarici işlər nazirləri daha tez-tez görüşürlər və nizamlama məsələləri müzakirə olunur. Bu görüşdə hansısa bir nəticəyə gəldiyimizi deyə bilmərəm. Hər iki tərəfin mövqeyi kifayət qədər sərtdir. Ümid edirik ki, bu danışıqlar nəticə verə bilər. Əgər bu ümid olmasa, o zaman danışıqların aparılmasına da ehtiyac qalmayacaqdır. Bir halda ki, biz bu danışıqları aparırıq, deməli, hansısa bir ümid var.

Amma yenə də bütün məsələlər, xüsusilə belə mürəkkəb məsələlər ancaq və ancaq prinsiplər üzərində qurula bilər. Ancaq hansı prinsiplər? Ermənistan istəyir ki, bizim torpaqlar onlara keçsin. Amma onun istəyi ilə deyil ki. Birincisi, biz buna razı ola bilmərik, ikincisi, gərək bu razılaşma beynəlxalq hüquq əsasında əldə olunsun. Ermənistanın mövqeyi isə o prinsiplərdən tamamilə kənardadır, yalnız və yalnız onların istəyindən, onların arzularından və xülyalarından qaynaqlanır. Ona görə bu, ziddiyyət təşkil edir. Biz beynəlxalq hüququn tərəfindəyik və buna əsaslanırıq. Onlarsa, sadəcə olaraq, öz ideyalarına və yanlış yanaşmalara güvənirlər.

**S u a l: Türkiyənin Dağlıq Qarabağ məsələsində tutduğu mövqeyindən məmnunsunuzmu?**

**C a v a b:** Məmnunam.

**S u a l: Sizcə, Türkiyənin mövqeyi istəyinizcədirmi?**

**C a v a b:** Bəli, bəli. Türkiyə birmənalı şəkildə öz mövqeyini ortaya qoyubdur və heç bir dəyişiklik yoxdur. Biz də bu mövqedən çox razıyıq və əminəm ki, bu mövqe belə də qalacaqdır.

**S u a l: Baş nazir və ya Xarici İşlər naziri ilə telefonla danışırsınız?**

**C a v a b:** Bəli, danışırıq. Çox sıx-sıx əlaqə saxlayırıq və biz dostuq.

**S u a l: Baş nazir Azərbaycana gəldimi?**

**C a v a b:** Gözləyirik.

**S u a l: Azərbaycanın gələcəyi baxımından parlament seçkilərini necə görür və necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bu seçkilərə çox böyük önəm veririk. Hesab edirəm ki, parlament seçkiləri Azərbaycanda demokratiyanın inkişafında mühüm rol oynayacaqdır. Mən şübhə etmirəm ki, seçkilər ədalətli, şəffaf keçəcəkdir. Hər halda, biz öz tərəfimizdən hər şeyi edirik ki, buna nail olaq. Bu yaxınlarda mənim tərəfimdən müvafiq fərman imzalandı ki, seçkilərdə inkişaf olsun və seçki praktikası daha da təkmilləşsin. Yəni daha da mükəmməl olsun. Hər bir namizədə eyni şərait yaradılsın, mediaya da tövsiyə olundu ki, hər bir namizədin proqramını insanlara çatdırsın və heç bir ayrı-seçkilik olmasın. Hər bir namizəd eyni hüquqa malik olsun. Mən ümid edirəm ki, biz buna nail olacağıq.

Dünyada məşhur olan «Gellap İnternational» təşkilatı bu yaxınlarda burada rəy sorğusu keçirib və nəticə belə olub ki, əhalinin 77 faizi Azərbaycan prezidentinə inanır və onu dəstəkləyir. Bəlkə də bu mənim üçün o qədər də yaxşı deyil ki, bunu deyirəm. Amma bu həqiqətdir. Ona görə, belə dəstək olan halda, əlbəttə, bütün islahatları da aparmaq mümkündür. Bütün planları da həyata keçirmək mümkündür. Amma gərək seçkilər elə keçsin, heç kimdə şübhə olmasın ki, bu seçkilər ədalətli keçib və xalqın iradəsi öz əksini tapıbdır.

**S u a l: Gürcüstanda, Qırğızıstanda, Özbəkistanda məlum hadisələr baş verdi. Azərbaycan Orta Asiya üçün çox**

**önəmli qapı rolunu oynayan tranzit ölkədir. Baş verənləri necə qiymətləndirirsiniz, narahatlıq keçirirsinizmi?**

**C a v a b:** Bizim siyasətimizin əlamətlərindən biri də odur ki, heç vaxt başqa ölkənin daxili işinə qarışmırıq. Hesab edirəm ki, əgər bütün ölkələr bu prinsipi rəhbər tutarsa, dünyada müharibə olmaz, savaş olmaz, münaqişə olmaz. Biz bu prinsiplərə sadiqik. Yalnız və yalnız ölkədə gedən proseslərə öz diqqətimizi yetiririk və istəyirik ki, daxildə inkişaf daha da sürətlə getsin. Ona görə başqa ölkələrdə baş verən hadisələr bizi o qədər də maraqlandırmır.

**S u a l**: **Amma izləyirsiniz?**

**C a v a b:** Əlbəttə, izləyirik, axı biz təcrid olunmuş vəziyyətdə yaşamırıq. Bir bölgədə yaşayırıq. Əlbəttə, biz istəmirik ki, bölgədə vəziyyət gərginləşsin. Amma bu hadisələri təhlil edərkən bir nəticəyə gəlirik ki, bütün bu hallarda iqtidarla xalq arasında böyük uçurum, inamsızlıq var idi. İqtisadi problemlər də çox ciddi idi. Ola bilər ki, bu hadisələri doğuran amillərdən biri də budur. Hakimiyyətin əsas mənbəyi xalqdır. Xalqın dəstəyi olmasa, heç bir hakimiyyət öz yerində otura bilməz. Mən bütün məmurlara, bizim rayonlarda, yerlərdə olan bütün icra hakimiyyəti başçılarına da birinci belə göstəriş vermişəm ki, gedin, xalqın qayğıları ilə məşğul olun, kömək edin, yaradın, qurun. Əgər belə münasibət olarsa, insanlar bunu duyur, hiss edirlər. Prezident, yaxud başqa məmurun vəzifəsi budur. Biz xalqın xidmətçiləriyik.

**S u a l: Rəhbərlik xalqdan ayrı düşməməlidir?!**

**C a v a b:** Bəli. Heç vaxt rəhbərlik düşünməməlidir ki, o, xalqdan üstündür, yaxud da o, necə deyərlər, hər şey edə bilər. Belə olan halda birlik olmur. Birlik olmayan yerdə ölkələr çox pis vəziyyətə düşür.

**S u a l: Dünyada Milli Olimpiya Komitəsinə rəhbərlik edən yeganə dövlət başçısı Sizsiniz. Başqası da varmı?**

**C a v a b:** Başqa ola bilər, amma onların bu vəzifəyə gəlmə tarixi başqadır. Onlar prezident olurlar, sonra Olimpiya Komitəsinə rəhbərlik edirlər.

**S u a l: Siz aşağıdan gəldiniz?**

**C a v a b:** Bəli, mən aşağıdan gəldim.

**S u a l: Bilirsiniz ki, bazar günü Türkiyədə «Fənərbaxça» və «Qalatasaray» komandaları arasında oyun var. Baxa bilirsinizmi?**

**C a v a b:** Vaxt imkan versə, baxaram.

**S u a l: Türkiyədə hansısa komandaya azarkeşlik edirsinizmi?**

**C a v a b:** Azarkeşlik edirəm.

**S u a l: Hansına?**

**C a v a b:** Onu deyə bilmərəm. Çünki mən burada da bir komandaya azarkeşlik edirəm. Amma mən onu deyə bilmərəm. Türkiyə də mənim vətənimdir.

**S u a l: Son sual, «Fənərbaxça» – «Qalatasaray» oyununda qalib gələn çempion olacaq. Sizcə qalib kim olacaq?**

**C a v a b:** Güclü qalib gələcək.

**J u r n a l i s t:** Belə bir önəmli gün ərəfəsində «Samanyolu» televiziyasının əməkdaşlarını qəbul etdiyiniz, bizə vaxt ayırdığınız üçün bir daha təşəkkür edirik. Yenidən görüşənədək.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən sizə təşəkkür edirəm.

## MƏTBUAT ŞURASININ III QURULTAYINA

Hörmətli mətbuat işçiləri və ictimaiyyət nümayəndələri!

Sizi – bu gün öz növbəti ümumrespublika forumuna toplaşmış Azərbaycan jurnalistlərini səmimiyyətlə salamlayır və qurultayın işinə uğurlar arzulayıram.

Söz və mətbuat azadlığı demokratik cəmiyyətin prioritet dəyərlərindən biridir. Zəngin tarixi və mütərəqqi ənənələri olan Azərbaycan mətbuatı ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda demokratiya və siyasi plüralizmin mühüm vasitəsi kimi çıxış edir. Cəmiyyətdə aşkarlığın və şəffaflığın təmin edilməsində, aktual ictimai problemlərin ümumxalq müzakirəsinə çıxarılmasında, sosial ədalət prinsiplərinin müdafiəsində Azərbaycan mətbuatının rolu xüsusi qeyd olunmalıdır.

Son illərdə Azərbaycan dövləti tərəfindən söz, fikir və məlumat azadlığının bərqərar olması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının və maliyyə imkanlarının yaxşılaşdırılması, mətbuat işçilərinin fəaliyyətinə lazımi şərait yaradılması üçün xeyli tədbirlər görülmüşdür.

Azərbaycanda bütün postsovet məkanında və Şərqi Avropada ən demokratik, liberal qanunvericilik bazası, çoxşaxəli mətbuat və informaiya sistemi yaradılmışdır. Yaxın vaxtlarda müstəqil mətbuatın inkişafı, jurnalistlərin maneəsiz informasiya əldə etmək hüquqlarının təmin olunması üçün yeni qanunlar qəbul olunacaq. Azərbaycan rəhbərliyinin prinsipial mövqeyi, siyasi iradəsi belədir ki, mətbuatın, azad sözün müdafiəsinə yönəlmiş tədbirlər bundan sonra da davam etdirilməli, xüsusən müstəqil mətbuatın formalaşmasına, jurnalistlərin informasiya əldə etmək və yaymaq imkanlarının genişlənməsinə hər cür köməklik göstərilməlidir.

Hazırda Azərbaycanda mətbuatın hər hansı formada dövlət tənzimlənməsindən imtina edilmişdir. Lakin həyat göstərir ki,

bu sahədə mövcud olan bir çox problemlərin ictimaiyyətin iştirakı və müdaxiləsi ilə həllinə, mətbuat-dövlət, mətbuat-vətəndaş və mətbuat orqanlarının öz aralarında münasibətlərinin sivil, demokratik yolla tənzimlənməsinə ehtiyac vardır. Bu gün Azərbaycan cəmiyyətində nüfuzlu qurum kimi özünü təsdiq etmiş Mətbuat Şurası məhz belə bir ehtiyacdan yaranmışdır.

Artıq indi demək olar ki, Mətbuat Şurası media-dövlət və media-cəmiyyət münasibətlərində əsas tənzimləyici qurum funksiyasını uğurla yerinə yetirir, kütləvi informasiya vasitələri ilə bağlı proseslərin nizamlanmasında, mətbuat işçilərinin peşəkarlığının yüksəldilməsində, jurnalist etikasına əməl olunmasında mühüm rol oynayır. Mətbuat Şurasının təcrübəsi həm də ona görə qiymətlidir ki, bu orqan vətəndaşların müəyyən qruplarının ilk ictimai özünüidarə nümunələrindən biridir. Mətbuat Şurası bir çox dövlət strukturları ilə konstruktiv, səmərəli əməkdaşlıq mexanizmləri qurmuş, jurnalistlərin hüquqlarının müdafiəsində, informasiya azadlığının təmin edilməsində öz prinsipial mövqeyini formalaşdırmışdır. Təqdirəlayiq haldır ki, Mətbuat Şurası fəaliyyət göstərdiyi müddətdə siyasi baxışlarından asılı olmayaraq, ayrı-ayrı şəxslərə və mətbu orqanlara münasibətdə eyni tələbkarlıq göstərmiş, müstəqil mətbuat prinsiplərini, jurnalist etikasını daim yüksək tutmuşdur. Biz gələcəkdə də Mətbuat Şurasından belə ardıcıl prinsipiallıq və peşəkarlıq gözləyirik.

Bir daha qurultay iştirakçılarını təbrik edir, Azərbaycanda milli mətbuatın yaranmasının 130-cu ildönümünə təsadüf edən 2005-ci ildə hər bir jurnalistə müvəffəqiyyət və cəmiyyət üçün faydalı fəaliyyətlərində uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 may 2005-ci il*

**MONQOLUSTANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB NAMBARİN ENXBAYARA**

Hörmətli cənab Prezident!

Monqolustanın prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Monqolustan arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Monqolustan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2005-ci il*

## RABİTƏ SAHƏSİNDƏ REGİONAL ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAKIDA KEÇİRİLƏN 33-cü İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 may 2005-ci il*

*Ölkəmizin regional əməkdaşlığa böyük əhəmiyyət verdiyini, eyni zamanda beynəlxalq təşkilatlarla müxtəlif sahələrdə əməkdaşlıq baxımından çox yaxşı təcrübə topladığını bildirən prezident İlham Əliyev Azərbaycanın dünya əhəmiyyətli iri regional layihələrin təşəbbüsçüsü və iştirakçısı olduğunu xatırlatdı. Dövlətimizin başçısı dedi ki, belə layihələr respublikamıza böyük məbləğdə xarici sərmayə axınını təmin edir.*

*Azərbaycan prezidenti rabitə sahəsində əməkdaşlıqda da böyük perspektivlər olduğunu söylədi, ölkəmizdə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradıldığını, ümumiyyətlə, bu sahənin dünyada ən dinamik inkişaf edən istiqamətlərdən biri olduğunu vurğuladı. Bildirdi ki, Azərbaycan bu sahədə də dünya təcrübəsindən bəhrələnməyə, regional əməkdaşlığı genişləndirməyə böyük əhəmiyyət verir.*

*Dövlətimizin başçısı qarşılıqlı surətdə faydalı əməkdaşlıq sahəsində səylərin artırılmasına təkan verəcək iclasın iştirakçılarına uğurlar arzuladı.*

*Səmimi qəbul üçün minnətdarlıq edən Rusiya Federasiyasının İnformasiya Texnologiyaları və Rabitə naziri Leonid Reyman informasiya-kommunikasiya texnologiyalarının inkişafının rolunu vurğulayaraq bildirdi ki, hazırda dünyada neft sahəsində inkişafın sürəti 1 faizə bərabər olduğu halda, rabitə sahəsində bu göstərici 8 faizdir. Nazir 1999-cu ildə ümummilli*

*lider Heydər Əliyevin növbəti görüş üçün Bakıya toplaşan rabitəçiləri qəbul etdiyini və onun hələ Moskvada ölkə rəhbərlərindən biri kimi çalışdığı illərdə rabitə sisteminin inkişafındakı xidmətlərini, rabitəyə xarici sərmayə yönəltməsini məmnunluqla xatırladı.*

*Ümumdünya Poçt İttifaqı (ÜPİ) Beynəlxalq bürosunun Baş direktoru Eduard Dayan onun təmsil etdiyi sahənin ənənəvi xarakter daşıdığını, informasiya texnologiyalarının inkişafının poçt rabitəsinin fəaliyyətinə yeniliklər gətirdiyini vurğuladı. ÜPİ-nin məqsədinin bu sahədə dünya şəbəkəsi yaratmaqdan ibarət olduğunu söyləyən qonaq, bu məqsədin reallaşmasında yüksək xidmətin, keyfiyyətin, elektronikanın və insan amilinin əhəmiyyətini qeyd etdi. Eyni zamanda bildirdi ki, yeni texnologiyalar ənənəni unutmağa əsas vermir və göstərilən məqsədə nail olmaqda regional əməkdaşlıq mühüm rol oynayır.*

*Cənab Eduart Dayan prezident İlham Əliyevə ümumdünya Poçt İttifaqının 125 illiyinə həsr olunmuş albomu hədiyyə etdi. Dövlətimizin başçısı alboma Azərbaycan markalarının da daxil olunmasından məmnunluğunu bildirdi.*

*Prezident İlham Əliyev qonaqlara müraciətlə dedi ki, hər belə tədbir ölkəmizə yenilik gətirir. Biz əhalinin etibarlı rabitə ilə təmin edilməsi, Azərbaycana yeni texnologiyaların gətirilməsi və səmərəli əməkdaşlıq üçün bundan sonra da səylərimizi əsirgəməyəcəyik.*

*Rusiyanın Rabitə və İnformasiya Texnologiyaları naziri Leonid Reyman prezident İlham Əliyevə xatirə hədiyyəsi və Qələbənin 60 illiyinə həsr olunmuş poçt xidməti ilə bağlı albom hədiyyə etdi.*

*Azərbaycan prezidenti görüş iştirakçıları ilə xatirə şəkli səkdirdi.*

# QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*24 may 2005-ci il*

*Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizə rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Qazaxıstanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayevi Azərbaycanın Baş naziri Artur Rasizadə, Xarici İşlər naziri Elmar Məmmədyarov, Azərbaycanın Qazaxıstandakı səfiri Lətif Qəndilov, Qazaxıstanın Azərbaycandakı səfiri Andar Şukrutov, digər rəsmi şəxslər qarşıladılar.*

*Milli geyimli uşaqlar Qazaxıstan rəhbərinə gül təqdim etdilər.*

*Qarşılanma mərasimindən sonra Qazaxıstan prezidenti Nursultan Nazarbayevlə Azərbaycanın Baş naziri Artur Rasizadə arasında qısa protokol görüşü oldu.*

*Prezident Nazarbayev fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə hava limanından onun üçün ayrılan iqamətgaha yola düşdü.*

## Prezident sarayında rəsmi qarşılanma mərasimi

*Mayın 24-də Prezident sarayında Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın həyatindəki rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Qazaxıstan prezidenti Nursultan Nazarbayevi böyük hörmət və səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Qazaxıstan prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Qazaxıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və Nursultan Nazarbayev fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Qazaxıstan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Qazaxıstan prezidenti Nursultan Nazarbayevə, Qazaxıstan nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim olundu.*

## AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*24 may 2005-ci il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyev və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin təkbətək görüşü oldu.*

*Sonra dövlət başçıları nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev Qazaxıstan prezidenti Nursultan Nazarbayevi Bakıda salamlamaqdan məmnun olduğunu söylədi və bu səfəri 2004-cü ilin mart ayında özünün Astanaya uğurlu rəsmi səfərinin məntiqi davamı kimi səciyyələndirdi.*

*Dövlətimizin başçısı xalqlarımız arasında tarixən mövcud olan dostluq əlaqələrindən bəhs edərək bu əlaqələrin indi də uğurla davam etdiyini vurğuladı. İstər ikitərəfli formatda, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan – Qazaxıstan əməkdaşlığının yüksək səviyyədə olduğunu xatırladan prezident İlham Əliyev iqtisadi sahədə əlaqələrin hazırkı səviyyəsindən, habelə iki ölkə arasında mal dövriyyəsinin ildən-ilə artmasından məmnunluğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, hökumətlərarası komissiyanın Qazaxıstan prezidentinin səfəri ərəfəsində keçirilmiş 3-cü iclası, imzalanmış protokolun müddəaları iqtisadi əlaqələrin böyük perspektivlərindən xəbər verir.*

*Prezident İlham Əliyev mayın 25-də təntənəli açılış mərasimində iştirak edəcəkləri Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin iki ölkə arasında uğurlu iqtisadi əməkdaşlığa daha güclü təkan verəcəyini vurğuladı.*

*Bu çox mühüm hadisəyə Azərbaycanın onillik bir müddətdə ardıcıl və məqsədyönlü fəaliyyət sayəsində gəlib çatdığını bildirən dövlətimizin başçısı Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istifadəyə verilməsi münasibətilə hazırlanmış xüsusi xatirə hədiyyəsini prezident Nursultan Nazarbayevə təqdim etdi.*

*Azərbaycana rəsmi səfərə dəvətə görə prezident İlham Əliyevə təşəkkürünü bildirən Qazaxıstan prezidenti Nursultan Nazarbayev bu səfərin iki ölkə arasında durmadan inkişaf edən uğurlu əməkdaşlığın davamı olduğunu söylədi. O bildirdi ki, ikitərəfli münasibətlərin daha yüksək səviyyəyə qalxması üçün böyük potensial vardır və ümumilikdə hər iki ölkənin geosiyası mövqeyi bu əlaqələrin inkişafını daha zəruri edir. Xüsusilə Xəzər dənizində təhlükəsizlik, enerji daşıyıcılarının nəqli sahəsində əməkdaşlığın perspektivləri daha böyükdür.*

*Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinə ilk neftin doldurulması mərasimində iştirakından məmnunluğunu söyləyən Nursultan Nazarbayev bu kəmərin Qazaxıstan üçün də çox vacib olduğunu, onun istismarı zamanı Azərbaycanla sıx əməkdaşlıq edəcəklərini vurğuladı.*

*Qazaxıstan prezidentilə iqtisadi əlaqələrin səviyyəsindən razılığını ifadə etdi və 2004-cü ildə ölkələrimiz arasında mal dövriyyəsinin 1,6 dəfə artaraq 246,2 milyon dollara çatmasını yüksək qiymətləndirdi. Qazaxıstanın 17 şirkətinin Azərbaycan iqtisadiyyatında iştirakını və 6 birgə müəssisənin yaradılmasını, habelə ötən il Azərbaycan ərazisi ilə 3 milyon tondan çox Qazaxıstan neftinin daşınmasını xatırladan prezident Nursultan Nazarbayev bu əməkdaşlığın gələcəkdə daha da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.*

* * *

*Mayın 24-də geniş heyətdə görüş başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Qazaxıstan prezidenti Nursultan Nazarbayev Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilə imzaladılar.*

*Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası hökuməti ilə Qazaxıstan Respublikası hökuməti arasında neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında 1997-ci il 10 iyun tarixli sazişə dəyişikliyin edilməsi haqqında protokol, Azərbaycan Respublikası hökuməti ilə Qazaxıstan Respublikası hökuməti arasında azad ticarət haqqında 1997-ci il 10 iyun tarixli sazişə əlavə və düzəlişlərin edilməsi haqqında protokol, Azərbaycan Respublikasının hökuməti ilə Qazaxıstan Respublikasının hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası hökuməti ilə Qazaxıstan Respublikası hökuməti arasında terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, mütəşəkkil və digər növ cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında saziş imzalandı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT NURSULTAN NAZARBAYEVİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*Prezident sarayı*

*24 may 2005-ci il*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bu gün biz Azərbaycan xalqının böyük dostu, Qazaxıstan prezidenti Nursultan Abişeviç Nazarbayevi qəbul edirik. Deməliyəm ki, biz bir-birimizə çox böyük qardaşlıq hissləri bəsləyirik. Ölkələrimiz arasında tarixən çox yaxın münasibətlər, dostluq, qardaşlıq münasibətləri mövcud olmuşdur. Çox xoşdur ki, bu münasibətlər indi də inkişaf edir və yeni məna ilə dolğunlaşır.

Nursultan Abişeviçi Azərbaycan xalqının lideri Heydər Əlirza oğlu Əliyevlə böyük şəxsi dostluq telləri bağlayırdı. Bir çox illər, onilliklər ərzində onlar birlikdə çox fəal işləmişlər. Onlar müstəqil ölkələrə – Qazaxıstana və Azərbaycana rəhbərlik etməyə başladıqda da xalqlarımızı daha da yaxınlaşdırmaq, daha böyük inteqrasiyaya və münasibətlərin daha yüksək səviyyəsinə nail olmaq üçün çox sıx qarşılıqlı fəaliyyət göstərirdilər və məqsədlərinə də çatdılar.

Ölkələrimiz arasında münasibətlərin bugünkü səviyyəsi müstəqil dövlətlərimizin prezidentləri vəzifəsində onların onil-

lik birgə fəaliyyətinin nəticəsidir. Mənə çox xoşdur ki, bu ənənələr saxlanılmışdır və davam edir. Qazaxıstana ötənilki rəsmi səfərimi böyük səmimiyyətlə xatırlayıram. Aparılmış danışıqlar və imzalanmış sənədlər sübut edir ki, əlaqələrimiz möhkəmlənir.

Qazaxıstan prezidentinin Azərbaycana bugünkü səfərinin də çox böyük əhəmiyyəti var. Biz tərəfdaş ölkələrik, qardaşıq. Biz regionda bu gün mühüm rol oynayan və gələcəkdə getdikcə daha mühüm rol oynayacaq ölkələrik. Regionumuzda baş verən proseslər də xeyli dərəcədə qarşılıqlı fəaliyyətimizin səviyyəsindən, əməkdaşlığımızın səviyyəsindən asılı olacaqdır.

Bu gün biz siyasi əməkdaşlığın ən yüksək səviyyəsinə malikik, iqtisadi əlaqələri də genişləndirmək istəyirik. Əmtəə dövriyyəsi artımının çox böyük olması və faiz nisbəti ilə çox kəskin şəkildə artması ilə yanaşı, hesab edirik ki, bu əməkdaşlığı genişləndirmək üçün çox böyük potensial var. Bu məsələlər, habelə regional siyasət, ikitərəfli münasibətlər, Xəzər üzrə əməkdaşlıq məsələləri bugünkü təkbətək danışıqlarımızın və görüşlərimizin diqqət mərkəzində olmuşdur.

Biz bir daha əmin olduq ki, ölkələrimiz arasında qarşılıqlı əlaqələrin səviyyəsi çox yüksəkdir. Qazaxıstan və Azərbaycan yəqin elə ölkələrdir ki, onlar qonşuların, dost, qardaş dövlətlərin necə əməkdaşlıq etməli olduqlarına nümunə ola bilərlər. Bu əməkdaşlıq dərin tarixi köklərə, ənənələrə əsaslanır, habelə dövlətlərimizin təşəkkülü və möhkəmlənməsi, regionun iqtisadi cəhətdən güclü, siyasi cəhətdən fəal ölkələrinə çevrilməsi ilə şərtlənən bugünkü məna ilə dolğunlaşmışdır. Zənnimcə, ölkələrimizin bu istiqamətdə – həm regional işlərdə, həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlarda əməkdaşlıq çərçivəsində birgə fəaliyyətinin istər ölkələrin daxilində proseslərin inkişafı üçün, istərsə də regional siyasət, əməkdaşlıq və regional təhlükəsizlik məsələləri üçün çox böyük əhəmiyyəti olacaqdır.

Dəvətimizi qəbul edib ölkəmizə səfərə gəldiyinə görə hörmətli Nursultan Abişeviçə böyük təşəkkürümü bildirmək istəyirəm. Həm də çox xoşdur ki, bu səfər Azərbaycanda tarixi hadisə

ərəfəsində – Bakı–Tbilisi–Ceyhan boru kəmərinin istifadəyə verilməsi ərəfəsində keçir. Sabah biz bu tarixi hadisədə birlikdə iştirak edəcəyik. Mənə çox xoşdur ki, Qazaxıstan prezidenti bu bayramda qonaqlarımız arasında olacaqdır. Qazaxıstan prezidentinə, bütün dost və qardaş qazax xalqına bir daha sülh, firavanlıq, tərəqqi arzulamaq istəyirəm və ümidvaram ki, əlaqələrimiz bundan sonra da belə fəal surətdə möhkəmlənəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

## Qazaxıstan prezidenti Nursultan Nazarbayevin bəyanatı

İlham Heydəroviç, indicə dediyiniz səmimi sözlərə görə Sizə təşəkkür edirəm. Mən bu fikirlərlə tamamilə razıyam. Biz məhdud dairədə və nümayəndə heyətlərimizlə görüşlərdə də bu barədə söhbət etdik. Biz dəvətinizi məmnuniyyətlə qəbul etdik və Siz Azərbaycan Respublikasının prezidenti vəzifəsinə başladıqdan sonra buraya rəsmi səfər edirik. Nümayəndə heyətimizə hökumətimizin aparıcı nazirləri daxildirlər. Bu, ciddi niyyətlərdən və ənənəvi, çoxdankı dostluq və əməkdaşlıq münasibətlərimizi daha da möhkəmlətmək istəyindən xəbər verir.

İmzaladığımız sənəd nadir bir sənəddir, çünki biz hələ dostluğumuzun dərin köklərinin və XXI əsrdə gələcək müttəfiqlik münasibətlərimizin qeyd olunduğu strateji xarakterli sənəd imzalamamışdıq.

Hesab edirəm ki, Mərkəzi Asiyada Qazaxıstan Azərbaycan üçün, bizim üçünsə Qafqazda Azərbaycan əsas dövlətdir. Məsələ təkcə bunda deyildir, hərçənd bu da çox vacibdir, biz ümumi tarixi, ümumi böyük əcdadları, ümumi dili, mədəniyyət və ənənələri olan qohum xalqlarıq.

Qazax xalqının və şəxsən mənim Azərbaycan xalqına böyük hörmətimiz, məhəbbətimiz və ehtiramımız var. Bəlkə də uşaqlıqda azərbaycanlılarla birlikdə boya-başa çatmağım şəxsən mənim üçün çox mühüm idi, kəndimizdə çox böyük Azərbaycan diasporu vardı. Bütün xalqımızın da münasibəti belədir. Dedik-

lərim tarixdir, bugünkü həyat isə bizi daha da yaxınlaşdırır. İndi Xəzər bizi bir-birimizdən ayırmır, əksinə, birləşdirir, əslində biz qonşuyuq, həmsərhədik. İndi bizim iki dövlət bu regionda dünya bazarı üçün neftin əsas hasilatçısıdır. Biz birlikdə çox səylə işləyə, dünya əmək bölgüsünün mühüm iştirakçısı ola bilərik. Əvvəla, bu regionda terrorizmlə və digər təzahürlərlə mübarizə aparılması, sabitliyin bərqərar edilməsi məsələlərində, ikincisi, öz enerji daşıyıcılarımızla dünya məkanında olmağımızla. Bu da yaxın on il üçün sanballı töhfə olacaqdır.

İndi Bakı–Tbilisi–Ceyhanı ədalətlə, ayrı-seçkilik etmədən Aktau–Bakı–Tbilisi–Ceyhan adlandırmaq lazımdır. Bu həcmi ildən-ilə daha çox artacaq Qazaxıstan neftinin dünya bazarlarına çıxarılmasının bizim üçün mühüm variantlarından biridir.

Zənnimcə, bu gün imzalanmış 6 sənəd – növbədə digər mühüm sənədlərimiz durur – göstərir ki, biz siyasi məsələləri bütün istiqamətlərdə həll edirik. Hökumətlərarası qarşılıqlı münasibətlər, dövlətlərimizin iqtisadi komissiyalarının iclasları sübut edir ki, kənd təsərrüfatı məsələlərində əməkdaşlıq, o cümlədən Qazaxıstandan ərzaq, taxıl göndərilməsi və Azərbaycandan neft hasilatı, neft emalı üçün avadanlıq alınması, mütəxəssislər mübadiləsi, mədəni mübadilə, müştərək müəssisələr yaradılması, tikinti sənayesi ölkələrimiz arasında əmtəə dövriyyəsini bir neçə dəfə artırmağa imkan verir. Əlaqələr, turizm, gənclərin, ziyalıların mədəni mübadiləsi münasibətlərimizdə mühüm amillərdir. Sizə demək istəyirəm ki, Qazaxıstan Azərbaycanla belə yaxın əməkdaşlığa açıqdır və biz bütün istiqamətlərdə əməkdaşlıq etməyə hazırıq. Hesab edirik ki, bütün istiqamətlərdə münasibətlərimizin inkişafı üçün heç bir maneə yoxdur.

Səmimi, qardaşcasına qəbula, nümayəndə heyətimizə göstərilən qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Ümidvaram ki, görüşlərimiz, danışıqlarımız dövlətlərimizin rifahı naminə gələcək əməkdaşlığa güclü təkan verəcəkdir.

* * *

**S u a l: Bir halda ki, Qazaxıstanın və Azərbaycanın əməkdaşlığında karbohidrogenlərin nəqli ən mühüm cəhətlərdən biridir, Aktau–Bakı–Tbilisi–Ceyhandan savayı, yeni tranzit yollarının meydana gəlməsi də planlaşdırılırmı?**

**N u r s u l t a n N a z a r b a y e v:** Gəlin əvvəlcə bu işi normal surətdə görək. Qazaxıstanın mövqeyinə gəldikdə, mən çoxvektorluğu ona görə əsas tutmuram ki, bu bizim çox möhkəm və qəti mövqeyimizdir, sadəcə olaraq ona görə ki, bu, proqnoz deyildir, hesablanmış enerji məsələləridir. Məsələn, 2010-cu ildə 100 milyon, 2015-ci ilədək təxminən 150 milyon ton neft çıxaracağıq. İqtisadiyyatımızın inkişafı baxımından daxili tələbat 25–30 milyon ton olacaqdır. Gördüyünüz kimi, böyük həcmdə neft ixrac ediləcəkdir. Odur ki, bu neftin tam nəqlini nə Bakı–Tbilisi–Ceyhan, nə də Şimali Xəzər Boru Kəməri təmin edə biləcəkdir. Yəqin sizə məlumdur ki, dekabrda biz Çinə gedən və gücü 20 milyon ton olan 1000 kilometrlik neft kəmərinin tikintisini başa çatdıracağıq, Xəzəri Qərbi Çinlə birləşdirmək üçün daha 700 kilometrlik hissəni inşa etmək qalır. Zənnimcə, gələcəkdə Fars körfəzinə çıxmaqla İran variantı da mümkündür. Biz Atrau–Samara vasitəsilə Baltik dənizinə çıxmaq üçün Rusiya ilə işləyirik. Bir sözlə, bütün bunlar həcmlərlə və zərurətlə müəyyən ediləcəkdir. Bu gün Bakı–Tbilisi–Ceyhan Qazaxıstan neftinin nəqli üçün çox mühüm variantlardan biri olaraq qalır.

**İ l h a m Ə l i y e v:** Uzun illər ərzində bizim mövqeyimiz də ixrac yollarının çoxvariantlığına əsaslanmışdır. Həmişə hesab etmişik və bu gün də həmin yanaşmanın düzgünlüyünü yəqin etdik ki, nəqletmənin alternativ yolları nə qədər çox olarsa, mənafelərimizin maksimum təmin edilməsi üçün imkanlar bir o qədər çox olacaqdır. Artıq bu gün Azərbaycanda iki boru kəməri mövcuddur, onlar Azərbaycan neftini Rusiyanın və Gürcüstanın Qara dəniz limanlarına nəql edir. Bakı–Tbilisi–Ceyhan boru kəməri istifadəyə verildikdən sonra üçüncü bazar – Aralıq dənizi bazarı meydana gələcəkdir. Əlbəttə, lazım gələrsə, bizim nəqliyyat infrastrukturu Qazaxıstanın neft hasilatçılarının da istifa-

dəsinə veriləcəkdir ki, bu məsələ maksimum səmərə ilə öz həllini tapa bilsin.

Qazaxıstan iri neft hasilatçısına çevrilir. Əlbəttə, hesab edirik ki, neftin ərazimiz vasitəsilə nəqli çərçivəsində Qazaxıstanla Azərbaycan arasında fəal əməkdaşlığın çox mühüm iqtisadi nəticələri ola bilər. Bir daha demək istəyirəm ki, ehtiyac yaranarsa, biz bütün nəqliyyat infrastrukturumuzu qardaşlarımızın tam ixtiyarına verəcəyik.

**S u a l: Hazırda Xəzəryanı dövlətlərin bütün başçılarının görüşməsi və Xəzərin statusu məsələsinə dair tammiqyaslı konsensus haqqında razılığa gələ bilməsi üçün bütün ilkin şərtlər varmı? Əgər indi bu dövlətlərin bütün başçıları həmin problemin həlli üçün ciddi siyasi iradələrinin olduğunu bəyan edirlərsə, bu problemin tam həllinə nə mane olur?**

**N u r s u l t a n  N a z a r b a y e v:** Biz, bütün Xəzəryanı dövlətlər Xəzər dənizi haqqında pakt imzalanması üzərində çoxdan işləyirik. Bildiyiniz kimi, biz orta xətdən, sahilyanı sulardan və açıq dənizdən danışdıqda Rusiya, Qazaxıstan və Azərbaycan arasında mövqe yaxınlığı mövcuddur. İranın mövqeyi bir qədər fərqlənir. İndi danışıqlar aparan nümayəndələrimiz konsensus tapmaq üçün bu istiqamətdə intensiv surətdə işləməkdə davam edirlər. Ona görə də mən bu fikirdəyəm ki, biz beş Xəzəryanı dövlət kənardan müdaxilə olmadan həmin məsələni özümüz həll etməliyik. Çünki bu bizim mənafelərimizdir və bu dəniz hamımızı birləşdirməlidir, o, dostluq, əməkdaşlıq və ticarət dənizi olmalıdır. Düşünürəm ki, Türkmənistan da, İran da məsələyə bu cür yanaşmada maraqlıdır. Əvvəl-axır ölkələrin mənafeləri üstünlük təşkil etməlidir və biz buna gəlib çıxmalıyıq. İndi ancaq danışıqlar prosesindən söz aça bilərəm. Növbəti görüşümüz Tehrana təyin olunub, onun müddəti hələ müəyyən edilməyibdir. Yəqin ki, İran prezidentinin seçkilərindən sonra biz danışıqlar aparmaq üçün görüşlərimizin daha konkret tarixini gözləyəcəyik.

**İ l h a m  Ə l i y e v:** Biz Xəzərin məsələlərinin tənzimlənməsinə dair çoxtərəfli danışıqlar aparılmasına böyük əhəmiyyət

veririk. Bu məsələnin tənzimlənməsinə töhfəmizi vermək üçün öz tərəfimizdən bütün mümkün işləri görürük. Bu məsələyə müxtəlif yanaşmalar mövcuddur. Lakin bizim yanaşmamız həmişə beynəlxalq hüququn, indiki halda dəniz hüququnun norma və prinsiplərinə, habelə dünya praktikasına əsaslanmışdır. Düşünürəm ki, Qazaxıstanla Azərbaycan, Qazaxıstanla Rusiya, Rusiya ilə Azərbaycan arasında əldə edilmiş sazişlər bütün Xəzəryanı ölkələrin çoxtərəfli sazişi üçün yaxşı əsas ola bilər. Bu üç ölkə öz aralarında bütün danışıqlar proseslərini tamamilə başa çatdırmışlar. İmzalanmış sazişlər milli sektorları dəqiq delimitasiya edir. Bu, hərtərəfli tənzimləmə üçün yaxşı əsasdır və zənnimcə, bu yanaşmadan istifadə edilərsə, məsələnin həllinə çox tez nail olmaq mümkündür.

Həmçinin demək istərdim ki, tənzimləmə məsələlərinin hələ tamamilə həll edilməməsinə baxmayaraq, bu, Xəzər dənizinin Azərbaycan sektorunda işləyən əcnəbi sərmayəçilər üçün maneə olmamışdır. Buraya milyardlarla dollar sərmayə qoyulmuş, müasir neft infrastrukturu yaradılmışdır, karbohidrogen ehtiyatlarının kəşfiyyatı, hasilatı işləri aparılır, boru kəmərləri çəkilir. Başqa sözlə, Xəzərin statusunun tənzimlənməməsi məsələsi iqtisadi layihələrimizin həyata keçirilməsində ləngitmələrə gətirib çıxarmadı. Lakin çox istərdik ki, bu məsələ, nəhayət, öz hüquqi həllini tapsın ki, Xəzərdə bütün mübahisələrə son qoyulsun və Xəzər əməkdaşlıq, sülh və təhlükəsizlik zonasına çevrilsin.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV HEYDƏR ƏLİYEV FONDUNDA

*Mayın 24-də Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Qazaxıstan rəhbərini böyük səmimiyyətlə qarşıladılar.*

*Prezident Nursultan Nazarbayevə və nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.*

*Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətratlı söhbət açdı.*

*Prezident Nursultan Nazarbayev və Qazaxıstan nümayəndə heyətinin üzvləri fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular. Nursultan Nazarbayev dünyanın nüfuzlu siyasi, elm, mə-*

*dəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, ümummilli liderimizlə müxtəlif görüşlərdə birgə çəkdirdikləri fotoşəkillərə, habelə onun Avropa, Asiya ölkələrinin liderləri ilə şəkillərinə böyük maraqla baxdı. Qazaxıstan prezidenti Fondla tanış olduqdan sonra xatirə kitabına qazax dilində öz ürək sözlərini yazdı: «Heydər Əliyevin xatirəsi xalqın qəlbində daim yaşayacaq. O, bütün həyatını xalqının rifahına, millətinin dirçəlişinə həsr etdi və ölməzlik qazandı».*

*Prezident Nursultan Nazarbayev öz ölkəsinin azadlıq rəmzi olan abidənin maketini Fondun prezidenti Mehriban xanım Əliyevaya təqdim etdi.*

*Mehriban xanım Əliyeva prezident Nursultan Nazarbayevə xatirə hədiyyələri bağışladı.*

*Ali qonaq Fonddan xoş təəssüratla ayrıldığını bildirdi.*

* * *

*Mayın 24-də Azərbaycan prezidenti İlham Əliyev Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə plaketini Heydər Əliyev Fondunda saxlanmaq üçün onun prezidenti Mehriban Əliyevaya təqdim etdi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Bakı Əyləncə Mərkəzi*

*24 may 2005-ci il*

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Əziz dostlar!

Dost, qardaş Qazaxıstanın prezidenti Nursultan Abişeviç Nazarbayevi Azərbaycanda salamlamaqdan böyük məmnunluq duyuruq. Ölkələrimizi ümumi tarix, ümumi köklər bağlayır, bizi uzun illərdən bəri birgə həyat bağlayır. Çox dəyərli haldır ki, indi, Qazaxıstanın və Azərbaycanın müstəqil dövlətlər kimi fəal inkişaf etdiyi dövrdə xalqlarımız arasındakı ənənəvi dostluq əlaqələri saxlanır, möhkəmlənir və yeni forma alır.

Ölkələrimiz öz aralarında güclü qarşılıqlı əlaqə saxlayır, çox yüksək səviyyəli siyasi münasibətlərə malikdir, beynəlxalq təşkilatlarda bir-birini daim dəstəkləyir, bir-birinin mövqeyinə həmişə səs verirlər. Əlbəttə, bütün bunlar iqtisadi, humanitar müstəvidə, qalan bütün sahələrdə hərtərəfli münasibətlərin inkişafına çox əlverişli zəmin yaradır.

Prezidentlərin, hökumət rəhbərlərinin, nazirlərin, deputatların, ictimai xadimlərin tez-tez keçirilən görüşləri də ölkələrimiz və xalqlarımız arasında daha sıx münasibətlər yaradılmasına yönəldilmişdir. Biz bu münasibətləri çox qiymətləndiririk, Qazaxıstanın dəstəyini çox dəyərləndiririk. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində bu dəstəyi həmişə duymuşuq və duyuruq. İqtisadi əlaqələ-

rimizi çox qiymətləndiririk. Əlbəttə, bundan sonra da çalışacağıq ki, ölkələrimiz arasında strateji münasibətlər möhkəmlənsin, Qazaxıstan və Azərbaycan regional əməkdaşlığın, nəqliyyat münasibətlərinin inkişafında və ümumən regionun iqtisadi inkişafında gələcəkdə də mühüm rol oynasınlar.

Bu gün görüşümüz əsnasında dedim ki, bu qardaşlıq, dostluq münasibətlərinin əsasını xalqlarımızın iki lideri – Qazaxıstanın lideri Nursultan Nazarbayev və Azərbaycanın lideri Heydər Əliyev qoymuşlar. Münasibətlərimizin belə müstəvidə bugünkü inkişafını əsasən onların müdrikliyi, uzaqgörənliyi, siyasi təcrübəsi, habelə ölkələrimizin xalqları tərəfindən dəstək verilməsi öncədən müəyyənləşdirmişdir. İndi Azərbaycanda bu ənənələr davam etdirilir. Heydər Əliyev siyasəti davam edir və əlbəttə, yeni meyllərlə, cəmiyyətin və ölkəmizin yeni tələbləri ilə təzə formalar alır. Biz bu münasibətlərə – ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinə tərəfdarıq. Bu münasibətləri əməli işlərlə çox şey dolğunlaşdırır. Karbohidrogen ehtiyatlarının nəqli sahəsində münasibətlərimiz, Şərq–Qərb dəhlizi, TRASEKA proqramı çərçivəsində münasibətlər, özəl qurumlarımızın daha fəal əməkdaşlığı bu qəbildəndir. Təsadüfi deyil ki, əmtəə dövriyyəsinin müşahidə etdiyimiz artımı potensialımıza cavab verməsə də, onun artım sürəti xeyli böyükdür və ölkələrimiz arasında əmtəə dövriyyəsinin iki dəfə, bəlkə də üç dəfə artacağına ümid bəsləyirik.

Bir neçə ildən sonra Qazaxıstan və Azərbaycan karbohidrogen ehtiyatlarının çıxarılması səviyyəsinə görə neftin çox mühüm hasilatçısı olan ölkələrə çevriləcəklər. Bu, üzərimizə həm də böyük məsuliyyət qoyur. Bu, yaxşı perspektivlər açır. Qarşılıqlı yardımın, dəstəyin və əməkdaşlığın belə bir səviyyəsində, əsla şübhə etmirəm ki, biz nəzərdə tutulmuş bütün planları reallaşdıracağıq.

Biz siyasi və iqtisadi islahatların aparılması işində Qazaxıstanın uğurlarına çox sevinirik. Qazaxıstanın indiyədək apardığı islahatlar öz həyatiliyini əyani surətdə nümayiş etdirdi, Qazaxıstan rəhbərliyinin xəttinin düzgünlüyünü əməli surətdə göstərdi və bu bizi çox sevindirir.

Mən Azərbaycan xalqının böyük dostu Nursultan Abişeviç Nazarbayevi Azərbaycanda səmimi-qəlbdən salamlamaq istəyirəm. Qazaxıstan prezidentinin sağlığına, qardaş Qazaxıstan xalqının tərəqqisi, firavanlığı şərəfinə badə qaldırmağı təklif edirəm.

## Qazaxıstan prezidenti Nursultan Nazarbayevin nitqi

Azərbaycan Respublikasının hörmətli prezidenti İlham Heydər oğlu!

Bu rəsmi səfərə dəvətə və görüşümüzün gözəl təşkilinə görə, qardaşcasına böyük qonaqpərvərliyə görə bir daha ürəkdən təşəkkür etmək istəyirəm.

Mən buraya həmişə doğma evimə gəldiyim kimi gəlirəm. Xalqınızın qazax xalqına, Qazaxıstana münasibətini bilirəm. Bu da obyektivdir, çünki bizim aramızda tarixi yaxınlıqdan və həmişəki yaxınlıqdan, qarşılıqlı etimad və yardımdan savayı heç nə olmamışdır. Əvvəllər də belə olub, indi də belədir. Öz siyasətini, heç kimdən asılı olmayan və yalnız xalqlarımızın, dövlətlərimizin mənafelərinə yönəldilmiş siyasətini yeridən iki dövlət kimi, biz bu münasibətləri müstəqillik şəraitində inkişaf etdirməliyik.

Mən 25 il ərzində yaxından tanıdığım müdrik insanın – Heydər Əliyeviçin həmkarı olmuşam. Bu müdriklik son illər çox şeydə təzahür etmişdir. O, MDB çərçivəsində harada olurdusa-olsun, həmişə öz biliyi və çox böyük nüfuzu ilə sakitlik, müdriklik mühiti yaradırdı. Onun haqqında çox danışmaq olar. Lakin mən çox şadam, onun sonuncu hünəri bundan ibarət oldu ki, o, hakimiyyətin varisliyini təmin etdi. Başa düşürəm ki, Heydər Əliyev kimi çox böyük təcrübəyə, bütün dünyada belə nüfuza malik olmayan varis üçün necə çətin idi.

Lakin məmnunluqla, xoşbəxtliklə, sevinclə demək istəyirəm ki, İlham Heydər oğlu idarəçiliyi layiqincə davam etdirir, idarəetmənin sükanını təmkinlə qəbul etmişdir və ölkəni tərəqqi yolu ilə aparır. Biz bunu son illərin göstəricilərində görürük. Mən Azərbaycan dövləti, Azərbaycan xalqı üçün mühüm hadisədə – Bakı–Tbili-

si–Ceyhan neft kəmərinin istifadəyə verilməsi mərasimində iştirak etməyə məmnuniyyətlə gəlmişəm. Bilirik ki, ondan səmərəli istifadə olunmasında Qazaxıstana mühüm yer verilir və bu, ölkəmiz üçün sərfəlidir. Bu, neftin nəqli üçün yeni çıxış, yeni yollardır. Biz hamımız xalqlarımızın böyük gələcəyini, tərəqqisini bununla bağlayırıq.

Bu gün mən demək istəyirəm ki, Qazaxıstan həmişə Azərbaycanla olacaq və qəlbimizdə qardaşlıq duyğuları heç zaman sönməyəcəkdir. Azərbaycan prezidentinin burada dediyi kimi, biz əl-ələ verib səylərimizi birləşdirməklə dünya əmək bölgüsündə layiqli yer tuta bilərik və əminəm ki, neft hasilatı sahəsində dünyanın ilk beş dövləti ilə bərabər səviyyədə dünya bazarına enerji daşıyıcıları göndərən hörmətli dövlətlər olacağıq.

Belə gələcək dövlətlərimizi sevindirməlidir. Burada razılaşdırılmış fəaliyyət, birgə iş çox vacibdir. Düşünürəm ki, biz heç də təkcə bu sahədə əməkdaşlıq etməməliyik. Bizim maşınqayırmada, tikinti kompleksində, kənd təsərrüfatında, infrastruktur layihələrində istifadə edilməmiş ehtiyatlarımız çoxdur. Odur ki, azərbaycanlı biznesmenləri Qazaxıstanda həyata keçirdiyimiz sənayeləşdirməyə qoşulmağa dəvət edirik.

Hörmətli İlham Heydər oğlu!

Biz buraya qardaş kimi gəlmişik. Mən buraya Azərbaycan xalqını və şəxsən Sizi çox yüksək qiymətləndirən insan kimi gəlmişəm.

Biz bütün təcrübəmizi, islahatlarımızı, dövlətiniz və xalqınız üçün Qazaxıstanın görə biləcəyi bütün işləri təqdim etməyə hazırıq. Əminəm ki, bu səfər, imzalanmış sənədlər yeni mərhələ olacaqdır. Növbəti görüşlər zamanı deyəcəyik ki, münasibətlərimiz, ilk növbədə ticarət əlaqələrimiz yüksək səviyyəyə qalxmışdır.

Xalqlarımızın şərəfinə, xalqlarımızın dostluğu şərəfinə, xalqlarımızın qardaşlığı şərəfinə, xalqlarımızın tərəqqisi şərəfinə, Azərbaycan prezidenti İlham Heydər oğlunun sağlığına badə qaldırmaq istəyirəm.

## GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC NEFT KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*24 may 2005-ci il*

*Mayın 24-də Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur.*

*Dövlətimizin başçısı ali qonağı səmimiyyətlə qarşıladı, prezident İlham Əliyev Gürcüstan prezidenti Mixeil Saakaşviliyə Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış plaketi təqdim etdi.*

*Görüşdən sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Siz Bakı–Tbilisi–Ceyhan boru kəmərinin istifadəyə verilməsinin əhəmiyyətini necə qiymətləndirirsiniz?**

**İ l h a m  Ə l i y e v:** Dostluğumuz əbədidir və əbədi də olacaqdır. Bu boru kəməri isə ölkələrimiz arasında münasibətləri daha da möhkəmləndirəcək, Gürcüstanla Azərbaycanı daha sıx birləşdirəcəkdir. O, ölkələrimizə firavanlıq, regiona təhlükəsizlik gətirəcəkdir. Bu bir daha nümayiş etdirir ki, siyasi iradə, regional əməkdaşlıq və qarşılıqlı anlaşma olduqda, hətta inanılmaz kimi görünən layihələr, dünyanın ən iri energetika layihəsi – Bakı–Tbilisi–Ceyhan boru kəməri öz həqiqi təcəssümünü tapır. Bir sözlə, biz çox şadıq ki, dostum, Gürcüstan prezidenti Mixeil Saakaşvili bu tarixi gündə bizimlə birlikdə mərasimdə iştirak edəcəkdir.

**M i x e i l  S a a k a ş v i l i:** Bu layihə bizim üçün çox vacibdir. Neft kəməri, gələn il isə qaz kəməri bütün regionu, o cümlədən Gürcüstanı enerji cəhətdən tam müstəqil edəcəkdir. Bu, müstəqilliyimizin möhkəmlənməsi, ölkələrimizin inkişafı üçün çox vacibdir. Biz həqiqətən öz qardaşlarımızın yanına gəlmişik. Buraya gələndə həmişə Azərbaycan üzərində buludsuz səma görürük. Buraya səfərləri rəsmi səfərlər kimi qəbul etmək mənim üçün çətindir. Çünki münasibətlərimiz kimi, qeyri-rəsmi olan heç nə yoxdur. Çünki bu, qardaşlar arasında olan münasibətlərdir. Biz qapıbir qonşuyuq, yox, sadəcə qonşu deyil, qardaşıq. Mən bunu həqiqətən tarixi hadisə sayıram, çünki region dəyişir, dünya dəyişir. Dünyanın bu çox mürəkkəb dövründə onun üçün tamamilə yeni perspektivlər açılır. Bütün məsələlərdə bizim aramızda tam anlaşma var.

* * *

*Sonra Gürcüstan prezidenti Mixeil Saakaşvili Azərbaycan prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC NEFT KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*24 may 2005-ci il*

*Mayın 24-də Prezident sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur. Dövlətimizin başçısı İlham Əliyev prezident Əhməd Necdət Sezəri səmimiyyətlə qarşıladı, onu Bakıda görməsindən məmnunluğunu bildirdi.*

*Prezident Əhməd Necdət Sezər Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin açılışı mərasimində iştirak etməyin tarixi hadisə olduğunu bildirdi, bu münasibətlə prezident İlham Əliyevi ürəkdən təbrik etdi, bu kəmərin və digər iqtisadi layihələrin ölkələrimizin iqtisadi tərəqqisində əvəzsiz rol oynayacağını vurğuladı.*

*Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin də tikintisinin başa çatmasının təntənə ilə qeyd olunacağını söyləyən Türkiyə dövlətinin başçısı bu nəhəng layihələrin həyata keçirilməsində türk dünyasının böyük oğlu, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müstəsna rolunu, ardıcıl səylərini və əzmkarlığını bir daha yada saldı və onun bu xidmətlərinin heç zaman unudulmayacağını bildirdi.*

*Səmimi sözlərə görə təşəkkür edən prezident İlham Əliyev qardaş ölkənin mövqeyini yüksək qiymətləndirdi, siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimizin gündən-günə inkişafından söhbət açdı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli sahəsində Azərbaycanın mövqeyinin Türkiyə tərəfindən bundan sonra da dəstəklənəcəyi vurğulandı.*

*Prezidentlər ikitərəfli və regional münasibətlərə dair bir sıra məsələlər haqqında ətraflı fikir mübadiləsi apardılar.*

*Azərbaycan prezidenti İlham Əliyev Türkiyə prezidenti Əhməd Necdət Sezərə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xüsusi plaket təqdim etdi.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASI BUNDESTAQININ VƏ FEDERAL KƏŞFİYYAT XİDMƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 may 2005-ci il*

*Prezident İlham Əliyev Azərbaycan ilə Almaniya arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladı.*

*Almaniyaya ötən səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev orada federal kansler Gerhard Şröderlə keçirdiyi görüşlərin, apardığı danışıqların ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi və genişlənməsi işinə xidmət etdiyini bildirdi.*

*Azərbaycanın Avropa və Avratlantik strukturlarına, o cümlədən Avropa Şurasına, Avropa Birliyinə və digər təşkilatlara uğurla inteqrasiya edildiyini bildirən dövlətimizin başçısı Avropa Birliyinin yeni qonşuluq siyasətində ölkəmizin fəal iştirak etdiyini vurğuladı.*

*Azərbaycanın Almaniya ilə həm ikitərəfli səviyyədə, həm də Avropa Birliyi çərçivəsində uğurlu əməkdaşlığını nəzərə çatdıran prezident İlham Əliyev ölkələrimizin parlamentləri arasında da əlaqələrin yaxşı inkişaf etdiyini bildirdi.*

*Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən dövlətimizin başçısı dedi ki, bu münaqişə bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına ciddi maneə törədir.*

*Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, nümayəndə heyətinin bu səfəri Azərbaycan ilə Almaniya arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət edəcəkdir.*

*Bundestaqın büdcə komissiyasının sədri, nümayəndə heyətinin rəhbəri Manfred Karstens Azərbaycan üçün çox əlamətdar bir gün ərəfəsində vaxt tapıb onları qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan qonaq prezident İlham Əliyevin AFR-ə səfəri zamanı kansler Gerhard Şröder ilə keçirdiyi görüşün Almaniyada çox müsbət əks-səda doğurduğunu söylədi.*

*Cənab Manfred Karstens Azərbaycana gələrkən dost bir ölkəyə səfər etdiklərinə əmin olduğunu vurğuladı . O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət etdiklərini və onların xatirəsini ehtiramla andıqlarını, sonra isə Şəhidlər xiyabanında olduqlarını, Qarabağ müharibəsində həlak olanların da xatirəsini ehtiramla yad etdiklərini bildirdi.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə onun ölkəsinin, federal kansler Gerhard Şröderin mövqeyinin aydın olduğunu bir daha nəzərə çatdıran cənab Manfred Karstens bu münaqişənin tezliklə sülh yolu ilə həll olunmasının vacibliyini vurğuladı.*

*Azərbaycanın Avratlantik strukturlarına inteqrasiyasını müsbət dəyərləndirən qonaq əmin olduğunu bildirdi ki, ölkələrimiz arasındakı əlaqələr bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.*

## XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN KEÇİRDİYİ MƏTBUAT KONFRANSI

*Prezident sarayı*

*24 may 2005-ci il*

**İlham Əliyev**: Hər vaxtınız xeyir, xanımlar və cənablar!

Azərbaycana xoş gəlmisiniz!

Ölkəmizdə və bütün regionda böyük bir mərasimin keçirilməsi ərəfəsində istərdim ki, Azərbaycan hökuməti adından sizi burada bir daha salamlayım. Sabah biz Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin açılış mərasimini keçirəcəyik. Boru kəməri ölkəmizi böyük neft ixracçısına çevirəcəkdir. Bu, tarixi bir hadisədir və mən əminəm ki, boru kəməri ölkəmizə və regionun bütün digər ölkələrinə sülh, tərəqqi, təhlükəsizlik və inkişaf gətirəcəkdir. Artıq 10 ildən çoxdur ki, Azərbaycan davamlı olaraq öz neft sənayesini inkişaf etdirir və bunun nəticəsində bəzi şəxslərə xülya kimi görünən bu boru kəməri reallığa çevrilməkdədir. Hesab edirəm, ölkəmizin gələcək inkişafı onu nümayiş etdirəcəkdir ki, neft ehtiyatlarımızın işlənilməsi və neftin dünya bazarlarına çıxarılması üçün ölkəmizdə bütün lazımi işlər proqram və cədvələ uyğun olaraq yerinə yetirilmişdir. Bu işlər ölkəmizi çiçəklənən və inkişaf edən məkana çevirəcəkdir.

Mən giriş sözlərimlə sizin vaxtınızı çox almaq istəmirəm. Hesab edirəm ki, suallarınızı versəniz, daha yaxşı olar. Sağ olun.

**Emma Simpson** (*BBC TV–Radio*)**:** Boru kəmərinin Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli olması haqqında mülahizələrinizi bilmək istərdik.

**İ l h a m  Ə l i y e v:** Boru kəmərinin əhəmiyyətli olması bir neçə amilə əsaslanır. İlk növbədə, boru kəməri dünya bazarlarına böyük həcmdə neft ixrac etmək imkanları açacaqdır. Mövcud olan boru kəmərləri neft yataqlarımızdan maksimum miqdarda çıxarılacaq neftin ixracını mümkün etmir. Bakı–Tbilisi–Ceyhan boru kəməri gündə ən azı bir milyon barel nefti ixrac etməyə imkan verəcəkdir. Bununla belə, müəyyən texniki məsələlər həll olunsa, onun gücünü artırmaq da mümkündür.

İkincisi, layihənin reallaşması ölkəmizə böyük həcmdə maliyyə vəsaitləri, nağd pullar əldə etmək imkanını açacaq, əldə olunmuş gəlirlər iqtisadiyyatımızın inkişafına, onun şaxələndirilməsinə, qeyri-neft sektorunun möhkəmləndirilməsinə və əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasına kömək edəcəkdir. Mən həmçinin hesab edirəm ki, regional inkişaf yeni mərhələyə daxil olacaqdır. Çünki bu boru kəməri digər ölkələr və şirkətlər üçün yaxşı bir nümunəyə çevriləcəkdir. Eyni zamanda, ümidvaram ki, layihə regionda təhlükəsizliyi möhkəmləndirəcək və hadisələrin proqnozlaşdırılmasını mümkün edəcəkdir. Regionumuz bu gün tam təhlükəsiz məkan sayılmır. Bütün bunlar bizim gözlədiyimiz nəticələrdir. Hesab edirəm ki, biz öz proqnozlarımızda yanılmayacağıq.

**E m m a  S i m p s o n:** Boru kəməri təhlükəsizliyi hansı formada möhkəmləndirəcək?

**İ l h a m  Ə l i y e v:** Fikrimcə, bu boru kəməri böyük beynəlxalq layihədir. O, açıq dənizləri, müxtəlif ölkələri və xalqları birləşdirir. Təbii ki, boru kəməri sosial və iqtisadi inkişaf üçün yeni perspektiv açacaqdır. Zənn edirəm ki, insanlar iqtisadi baxımdan daha müstəqil olacaqlar və onların həyat tərzi daha da yaxşılaşacaqdır. Belə olsa, vətəndaş cəmiyyətinin inkişafı, demokratik islahatların geniş şəkildə həyata keçirilməsi üçün daha geniş imkanlar olacaqdır. Çünki yoxsul ölkələrdə bu istiqamətdə inkişafa tez bir zamanda nail olmaq mümkün deyildir.

Eyni zamanda, biz bilirik ki, regionda bir çox münaqişələr mövcuddur. Azərbaycanın və qonşu Gürcüstanın ərazi bütövlüyü kobudcasına pozulub və beləliklə, beynəlxalq hüququn bütün

norma və prinsipləri də pozulubdur. Biz separatizmin qurbanıyıq. Təcavüzkar separatizmdən və ərazimizin işğalından əziyyət çəkirik. Əminəm ki, boru kəməri davamlı sülhün bərqərar edilməsində vacib bir element olacaqdır. Bu bizim imkanlarımızı genişləndirəcək, Azərbaycanın regiondakı rolunu daha da artıracaqdır. Əgər biz hazırda tikilən qaz kəmərini də nəzərə alsaq – ümid edirik ki, onun inşası 2006-cı ilin sonunda başa çatacaq – onda gələcəkdə hansı proseslərin baş verəcəyini daha aydın görəcəyik. Hesab edirəm ki, iqtisadi baxımdan güclü olan Azərbaycan regiondakı mövqeyini daha da möhkəmləndirəcək və öz məqsədlərinə nail ola biləcəkdir.

**İ s i k a v a İ t i y e (***NHK Yaponiya***):** Rusiyanın bu boru kəmərinə olan münasibətilə bağlı mövqeyinizi bilmək istərdik. Onun tikintisinin münasibətlərə müəyyən təsiri ola bilərmi?

**İ l h a m Ə l i y e v:** Bizim bütün qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz var. Hesab edirəm ki, 1990-cı illərin ortalarında Rusiya ilə olan anlaşılmazlıq keçmişdə qalmışdır. O vaxtlar Rusiyadakı müxtəlif siyasi dairələr Rusiyanın rəsmi mövqeyinə uyğun olmayan siyasi addımlar atmışlar. Bu günlərdə isə biz Rusiya dövlətinin və hökumətinin yürütdüyü ümumi yekdil siyasəti görürük. İkitərəfli əlaqələrimiz çox yüksək səviyyədədir. Bizim çox yaxşı iqtisadi əməkdaşlığımız var.

Mən sizə deyə bilərəm ki, ticarət dövriyyəsi çox sürətlə artır. Məhz buna görə də biz boru kəmərinin tikintisi ilə bağlı heç bir narahatlıq hissi keçirmirik və heç nədən çəkinmirik. Bizim üçün bu boru kəməri hər zaman məqsədlərimizə nail olmaq üçün bir alət olubdur. Boru kəməri bizim üçün iqtisadi baxımdan cəmiyyətimizin inkişaf etdirilməsi və müstəqilliyimizin möhkəmləndirilməsi üçün bir vasitədir. Neft son məqsədimiz deyil, güclü ölkəyə çevrilmək, müstəqilliyimizi dönməz etmək üçün istifadə olunan vasitələrdən biridir. Mən çox şadam ki, bizim qonşularla çox yaxşı və dostluq münasibətlərimiz var. Bir sıra qonşu ölkələrdən fərqli olaraq Azərbaycan öz ərazisində heç bir xarici hərbi qüvvə və baza saxlamır və bunu planlaşdırmır. Hesab edirik ki, indiki dövrdə düşmənçilik yox, əməkdaşlıq etmək daha va-

cibdir. Azərbaycan öz siyasətini məhz bu istiqamətə yönəldir. Biz istəyirik ki, Azərbaycan əməkdaşlıq ölkəsinə çevrilsin və hesab edirəm ki, buna kifayət dərəcədə nail olmuşuq. Regionda təhdidlər də var. Mən onları artıq sadaladım. Gələcəkdə də yeni təhlükələr ola bilər. Heç kəs nəyin baş verəcəyini əvvəlcədən deyə bilməz. Lakin biz vətəndaşlarımızın və ölkəmizin təhlükəsizliyini öz imkanlarımız sayəsində təmin etməyə qadirik.

**Alberxt Raynxardt (***Almaniyanın ARD kanalı***):** Mənim sualım neft ixracından əldə olunacaq gəlirlərin idarə edilməsi ilə bağlıdır. Çünki bir çoxları deyir ki, neftdən gələn gəlirlər yalnız müəyyən maraqlara xidmət edəcəkdir.

**İlham Əliyev:** Bilirsiniz, belə fikirdə olan insanların ölkəmizin reallıqlarından xəbəri yoxdur. Artıq bir neçə ildir ki, Azərbaycanda Dövlət Neft Fondu fəaliyyət göstərir. Azərbaycanın xarici şirkətlər vasitəsilə neft layihələrinin həyata keçirilməsindən əldə etdiyi bütün gəlirlər Neft Fondunda cəmləşir. Fond çox şəffaf strukturdur. O, beynəlxalq audit şirkətləri, o cümlədən «Ernst ənd Yound» şirkəti və «Pricewaterhouse» şirkəti tərəfindən auditdən keçirilir. Fonda yığılan bütün vəsaitlər haqqında məlumat müntəzəm olaraq mətbuatda dərc edilir. Fondun xətti ilə hər hansı vəsait büdcə vasitəsilə xərclənir. Büdcə qəbul edildiyi zaman bizim parlament Fonddan ölkəmizin tələbatı üçün hansı həcmdə vəsaitlər cəlb olunacağı haqqında qərar verir. Buna görə də Azərbaycanın hər bir vətəndaşı orada nə qədər pulun olmasını və nəyə xərcləndiyini dəqiq bilir. Əgər hansısa dairələr və yaxud şəxslər buna görə narahatlıq keçirirsə, bunun heç bir əsası yoxdur. Bizim reallıqlarımızla tanış olan hər kəs bilir ki, neftdən gələn gəlirlər lazımi qaydada qorunur.

Mən sizə digər misal çəkə bilərəm. Bir neçə il bundan əvvəl Böyük Britaniya yeni bir təşəbbüs irəli sürmüşdü. O, neft və qaz sənayesində şəffaflıq təşəbbüsü adlanır. Azərbaycan ilk ölkələr sırasında bu təşəbbüsə qoşuldu və bizim bu sahədə çox yaxşı nəticələrimiz var. Bu gün Azərbaycan şəffaflıq baxımından regionumuzda aparıcı ölkədir. Siz bunu burada işləyən şirkətlərdən, Beynəlxalq Valyuta Fondundan, Dünya Bankından və bu

məsələ ilə məşğul olan digər fondlardan soruşa bilərsiniz. Bir sözlə, belə bir narahatlığa heç bir əsas yoxdur. Müəyyən şəxslər və siyasi qüvvələr yanlış təəssürat yaradılmasına çalışırlar. Lakin bunu anlamaq üçün ən yaxşı yol ölkəyə gəlib görmək və şəxsən bu məsələni öyrənməkdən ibarətdir.

**A r k a d i D u b n o v** *(«Azadlıq» radiosu)***:** Cənab Prezident, neft kəmərinin mühafizəsi problemi necə həll ediləcək, Bakı–Novorossiysk şimal boru kəməri necə işləyəcəkdir? Rusiya bu boru kəməri ilə hər iki başa neft nəql etməyə icazə verəcəkmi?

**İ l h a m Ə l i y e v:** Neft kəmərinin mühafizəsi baxımından onun ərazisindən keçdiyi hər bir ölkə mühafizənin təmin olunması üçün öz üzərinə müvafiq öhdəliklər götürmüşdür. O ki qaldı ölkəmizə, Bakı–Novorossiysk boru kəmərinin və Bakı–Supsa boru kəmərinin mövcudluğunun bütün illəri ərzində Azərbaycanda bu kəmərlərin təhlükəsizliyini pozan heç bir hadisə baş verməyibdir. Bu, böyük əminliklə güman etməyə əsas verir ki, BTC-nin mühafizəsi ilə bağlı bizim tərəfimizdən bizim ərazimizdə problem olmayacaqdır. Ərazisindən boru kəmərlərinin keçdiyi digər ölkələr də öz üzərlərinə müvafiq öhdəliklər götürmüşlər. Biz etibarlı mühafizəni öz qüvvələrimizlə təmin etməyə qadirik və düşünürəm ki, son illər bunu nümayiş etdirmişik.

Biz boru kəmərləri sistemlərinin çoxvariantlılığına tərəfdar olmuşuq və həmişə tərəfdarıq, onu əsas tuturuq ki, alternativlər, nəqliyyat yolları nə qədər çox olarsa, ölkəmiz bir o qədər əlverişli şəraitdə olacaq, manevr üçün daha böyük imkanlarımız olacaq, əlbəttə ki, sərfəli tarif siyasətinin təmin edilməsi üçün daha böyük imkanlar olacaqdır.

Bakı–Novorossiysk boru kəmərinə gəldikdə, deməliyəm ki, iqtisadi baxımdan o, Bakı–Supsa boru kəməri, xüsusən də Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə rəqabətə tab gətirmir. Bakı–Novorossiysk boru kəməri ilə bir ton neftin daşınması üçün nəqliyyat tarifi, əgər səhv etmirəmsə, 15,64 dollar olduğu halda, Bakı–Supsada 3 dollardan azdır. Onu da nəzərə alsaq ki, yüksək keyfiyyətli Azərbaycan nefti Bakı–Novorossiysk boru kə-

mərində Ural nefti ilə qarışdırılır, Bakı–Supsa ilə isə Brend markasından daha qiymətli olan Azəri Layt nefti nəql edilir, deyə bilərik ki, təkcə Azəri Layt ilə Ural qatışığı arasındakı fərqə görə və tarifdə də çox böyük məbləğdə pul itiririk.

Azərbaycanın hər il bu qədər vəsait itirməsinə baxmayaraq, biz Bakı–Novorossiysk boru kəmərinin işini dayandırmadıq və hesab edirik ki, «Transneft» tərəfindən tariflər üzrə müəyyən düzəlişlər olarsa, habelə keyfiyyət bankı yaradılarsa, bu boru kəməri səmərəli işləyə bilər. Ümidvarıq ki, neftimiz bu boru kəməri ilə daşınmaqda davam edəcəkdir. İki başa neft nəqli məsələsi də müzakirə edilməyə başlanır. Belə məsələ qaldırılarsa, əlbəttə, biz ona baxacağıq. Çünki boru kəməri əzəldən bu məqsədlə çəkilmişdir, yəni neft bu boru kəməri ilə Rusiyadan Azərbaycana nəql olunmuşdur. Sovet dövründə Azərbaycanda ildə maksimum 15-16 milyon ton, Sovet İttifaqının son illərində daha az neft çıxarılırdı, zavodlarımızın emal gücü isə 22 milyon ton idi. Yəni, bu boru kəməri həmişə bu istiqamətdə işləmişdir. Ona görə də bu məsələyə baxmaq olar.

**D m i t r i  D r i z e (***RBK teleşirkəti***):** Cənab Prezident, Rusiya şirkətləri Bakı–Tbilisi–Ceyhan layihəsində hansı şərtlərlə iştirak edə bilər və onlar buna hazırdırmı?

**İ l h a m  Ə l i y e v:** Rusiya şirkətlərinin bu layihədə iştirakı ancaq onların öz arzusundan asılıdır. Biz Rusiya şirkətlərinə, eləcə də bütün digər şirkətlərə bu layihəyə qoşulmağı həmişə təklif etmişik. «BTC kompani»nin tərkibi formalaşanda qapı hamının üzünə açıq idi. Amma təəssüf ki, Rusiya şirkətləri bunu özləri üçün cəlbedici bilmədi və bu layihədə iştirak etmirlər. Bilirsiniz, 1994-cü ildə «Əsrin müqaviləsi» imzalanarkən Rusiyanın «LUKoyl» şirkətinin orada 10 faiz payı vardı və onu nisbətən bu yaxınlarda Yaponiya şirkətinə satdı. Beləliklə, o, layihədən çıxdı. Lakin bu hər şirkətin öz hüququdur və xarici şirkətlərlə birgə fəaliyyətimizin son 10 ili ərzində belə hallar baş vermişdir. Şirkətlər almışlar, satmışlar. İlk vaxtlar Azərbaycanda bunu heç də adekvat şəkildə qarşılamırdılar, elə görünürdü ki, kimsə buradan gedir, kimsə layihəni tərk edir. Lakin biz dünya

iqtisadi proseslərinə daha yaxından inteqrasiya etdikcə, aydın oldu ki, bu, normal kommersiya prosesidir. Bu, kommersiya layihəsidir və biz ona həmişə ancaq kommersiya layihəsi kimi baxmışıq, hərçənd bəziləri buna siyasi rəng verməyə çalışırdılar. Əgər bu, siyasi layihə olsaydı, yəqin ki, xarici şirkətlər buraya milyardlarla dollar qoymazdı. Bir sözlə, qapı açıqdır, bu layihədə iştirak etmək istəyənlər üçün imkanlar var, danışıqlar aparmaq olar. Hər şey istəkdən asılıdır.

**Emma Simpson:** Amerika Birləşmiş Ştatları ilə əlaqələrinizi necə təsvir edə bilərsiniz? Azərbaycan daha çox Qərbə, yoxsa Şərqə bağlıdır?

**İlham Əliyev:** Mən boru kəməri ilə bağlı suala cavab verərkən bu məsələyə də toxundum və bildirdim ki, biz həmişə boru kəmərini sırf iqtisadi bir layihə kimi qəbul etmişik. Çünki əgər siz iqtisadi göstəricilərə nəzər salsanız, onda görərsiniz ki, bu layihə kommersiya baxımından çox faydalı və gəlirlidir. Ona görə də layihənin həyata keçirilməsi üçün şirkətlərin ayırdığı milyardlarla dollar bir daha sübut edir ki, bu, siyasi layihə deyildir. Bizim Birləşmiş Ştatlarla münasibətimiz olduqca yüksək səviyyədədir. Biz müttəfiqik və müxtəlif məsələlər ətrafında sıx əməkdaşlıq edirik. Enerji sektorunda da çox möhkəm əlaqələrimiz vardır. Birləşmiş Ştatlar bizim enerji inkişafımızı və xüsusən də Bakı–Tbilisi–Ceyhan boru kəmərinin çəkilməsini hər zaman lazımınca dəstəkləyib və dəstəkləyir. Təhlükəsizlik sahəsində Birləşmiş Ştatlarla çox sıx münasibətlərimiz var. Biz antiterror koalisiyasında birgə mübarizə aparırıq. Dünyanın müxtəlif yerlərində sülhü mühafizə əməliyyatlarında bir yerdəyik. Azərbaycanın xarici siyasətinin düzgün istiqamətdə olduğu göz qabağındadır. Biz Avratlantik strukturlarına inteqrasiya sahəsində həmişə çox fəal olmağa çalışmışıq. Bu, sadəcə sözlərdə yox, bizim praktiki addımlarımızda və faktlarda hiss olunur. Lakin eyni zamanda, biz xarici siyasətimizi elə qururuq ki, maksimum dərəcədə maraqlarımızı qoruyaq. Biz qonşularımızla çox yaxşı münasibətlər qurmuşuq. Birləşmiş Ştatlarla yaxşı əlaqələrimiz var. Bunlar bir-birilə heç bir ziddiyyət təşkil etmir. Müdrik siya-

sət sayəsində səmimi əməkdaşlıq qurmaq mümkündür. Bu əməkdaşlıq çərçivəsində müxtəlif ölkələrin şirkətləri yan-yana işləyə bilər və həm fəaliyyət göstərdiyi ölkənin, həm də öz maraqlarına qulluq edə bilər.

**P i t e r F i ş e r** *(«Neue Zurcher Zeitung», İsveçrə)***:** Cənab Prezident, Siz burada qeyd etdiniz ki, bir müddətdən sonra işləyəcək Bakı–Tbilisi–Ceyhan boru kəməri böyük miqdarda nağd pulun gəlməsinə, milyardlarla dolların əldə edilməsinə imkan yaradacaqdır. Bu yolla gedən bir sıra ölkələr makroiqtisadi sabitliyin qorunub saxlanmasında müəyyən çətinliklərlə üzləşmişlər. Siz necə hesab edirsiniz, bu boru kəməri ölkənizə qısamüddətli, yoxsa uzunmüddətli gəlirlər gətirəcək və bütün əhali bu gəlirlərdən nə dərəcədə yararlanacaqdır?

İcazənizlə, ikinci sualım da var. Bildiyiniz kimi, Qazaxıstan prezidenti Azərbaycanda səfərdədir və mən bildiyimə görə, Qazaxıstan bu günədək Bakı–Tbilisi–Ceyhan boru kəmərində iştirak etməmişdir. Onlar üçün hansı perspektiv vardır?

**İ l h a m Ə l i y e v:** Sizin qaldırdığınız birinci məsələ bizi narahat edən məsələdir. Çünki sürətli iqtisadi inkişaf bizim makroiqtisadi vəziyyətimizdə bir az gərginlik yaradır. Son on il ərzində Azərbaycanda ümumi daxili məhsulun artımı ildə orta hesabla 10 faiz olmuşdur. Bu il ümumi daxili məhsulun artımı 18 faiz səviyyəsində olacaqdır.

Beynəlxalq Valyuta Fondunun proqnozuna görə, bu statistik göstərici baxımından Azərbaycan dünyada aparıcı ölkəyə çevriləcəkdir. 2005-ci ilin ilk dörd ayı ərzində sənayedə artım 15 faiz və ümumi daxili məhsulun artımı 14 faiz olmuşdur. Biz minimum əməkhaqqının və pensiyaların səviyyəsini iki dəfədən çox artırmışıq. 2005-ci ilin birinci rübündə əhalinin gəlirləri təqribən 30 faiz artmışdır. Büdcənin artımı təqribən 35 faiz olmuşdur. Bütün bunlar, şübhəsiz ki, makroiqtisadi sabitliyə əlavə təzyiqdir və bu il əvvəllər ölkəmizdə olmayan inflyasiya müşahidə edilmişdir. Hazırda inflyasiyanın azaldılması üçün ciddi tədbirlər görürük. Hesab edirəm ki, neft gəlirlərini özündə cəmləşdirən Neft Fondu şəffaflıq və etimadın yaradılmasından əla-

və, hadisələrin arzuolunmaz məcrada cərəyan etməsinin qarşısını almağa imkan verəcəkdir. Biz neft hasil edən ölkələrin təcrübəsini, xüsusən də onların neft sənayesinin inkişafının keçdiyi müxtəlif mərhələləri lazımınca öyrənmişik. Şübhəsiz, biz yaxşı bilirik ki, lüzumsuz addımlar atmaq və digər ölkələrin buraxdığı səhvləri təkrarlamaq lazım deyildir. Bu vəziyyətə düşməmək üçün əlavə element bizim Beynəlxalq Valyuta Fondu ilə sıx əməkdaşlığımızdan ibarətdir. Biz fəal qaydada məsləhətləşmələr aparırıq. Bu qurumla sıx münasibətlərimiz var və onların bizə verdiyi məsləhətlər çox faydalıdır. Əgər sənin pulun yoxdursa, sən yoxsulsansa, böyük problemlərin də çoxdur. Amma getgedə varlanırsansa, yenə də problemlər və çətinliklər üzə çıxır. Lakin hesab edirəm ki, biz bu tarazlığı saxlaya biləcəyik. Çünki insanların bəslədiyi ümidlər çox böyükdür. Bu boru kəmərini xalq on ildir ki, gözləyirdi. İndi bir çoxları hesab edir ki, boru kəməri istismara verildikdən dərhal sonra hamı pullanacaq, varlı olacaq və ölkədə heç bir problem olmayacaqdır. Lakin biz başa düşürük ki, boru kəməri insanlara, özəl sektora, qeyri-neft bölməsinin inkişafına, ölkənin ümumi rifahına yeni imkanlar açacaqdır.

O ki qaldı ikinci sualınıza, bəli, bu gün Qazaxıstan prezidenti Azərbaycana rəsmi səfərini başlayır. Bizim ikitərəfli danışıqlarımız və müzakirələrimiz olacaqdır. Sabah o, açılış mərasimində də iştirak edəcəkdir. Bakı–Tbilisi–Ceyhan boru kəmərini planlaşdıranda biz hər zaman öz resurslarımıza arxalanmışıq. Bizim öz mənbələrimiz Bakı–Tbilisi–Ceyhan boru kəmərinin istismarı üçün tamamilə kifayət qədərdir. Əgər Xəzər dənizinin şərq sahilindən əlavə neftin ixracına ehtiyac olarsa, təbii ki, biz daşınma əməliyyatları üçün öz infrastrukturumuzun istifadəsinə hazırıq. Lakin bu, Qazaxıstandakı şirkətlərin proqramından, Qazaxıstan hökumətinin bu məsələyə münasibətindən asılı olacaqdır. Biz üçüncü ölkələr üçün bütün infrastrukturumuzdan müvafiq istiqamətdə istifadə edilməsinə hazırıq.

**Piter Fişer:** Bu boru kəmərinin o qədər ötürmə qabiliyyəti varmı?

**İ l h a m  Ə l i y e v:** Bəli, indi var. Hazırda Bakı–Supsa kəmərinin ötürmə qabiliyyəti 6 milyon tondan çoxdur. Müəyyən vəsait sərf etsək, bu boru kəmərinin ötürmə qabiliyyətini 15 milyon tona qədər çatdırmaq olar. Eyni həcmdə, yəni ildə 15 milyon ton xam nefti Bakı–Tbilisi–Ceyhan boru kəməri vasitəsilə ötürə biləcəyik. Bu il ərzində hasil edəcəyimiz xam neftin həcmi 20 milyon tona çatacaqdır. Bakı–Tbilisi–Ceyhan boru kəmərinin tam ötürmə qabiliyyətindən 2008-ci ildə istifadə etmək mümkün olacaqdır. Lakin əgər lazım gələrsə, texniki əməliyyatlar sayəsində Bakı–Tbilisi–Ceyhan boru kəmərinin ötürmə qabiliyyətini təqribən iki dəfə artırmaq olar. Əgər hazırda Azərbaycandan gündə bir milyon barel neft göndərilməsi mümkündürsə, müəyyən texniki işlərin yerinə yetirildiyi təqdirdə bu göstərici 1,8 milyon barelə çatdırıla bilər. Bir sözlə, əgər neft olsa, onun daşınması üçün infrastruktur var.

**A l b r e x t  R a y n x a r d t:** Cənab Prezident, Siz qeyd etdiniz ki, sabah tarixi bir gün olacaqdır. Lakin eyni zamanda, bütün mitinqlərə qadağa qoyulubdur. Nə səbəbə görə?

**İ l h a m  Ə l i y e v:** Mən elə deməzdim ki, bütün mitinqlərə qadağa qoyulubdur. Azərbaycanda 2003-cü ildə prezident seçkilərindən sonra biz baş vermiş hadisələrdən əziyyət çəkdik və bu gün bir çoxları onları yaddan çıxarır. Həmin vaxt xaosun, dağıdıcı fəaliyyətin və hücumların şahidi olduq. Seçkilərdən sonra baş vermiş iğtişaşlar və zorakılıq halları yadımızdadır. O vaxt mitinqlərə gedən şəxslər ciblərini daşla doldurmuş, əllərinə metal dəyənəklər almışdılar. İğtişaş zamanı onlar polisə hücum etmiş, maşınları günahsız insanların üstünə sürmüş, avtobusları dayandırmış, maşınları vurub dağıtmış və yandırmışdılar. Beləliklə, bu, dinc nümayiş deyildi. Buna görə də bizim cəmiyyət sarsıntı keçirmişdir. Çünki keçmişdə, 1990-cı illərin əvvəllərində Azərbaycanda hər il dövlət çevrilişi cəhdi var idi. Hər il düşmənçilik və vətəndaş müharibəsi təhlükəsi müşahidə olunurdu.

Son on il ərzində isə Azərbaycan xalqı əmin-amanlıq şəraitində yaşamışdır. Ona görə də 2003-cü ilin sonunda baş vermiş hadisələr əhalini şok vəziyyətinə saldı. Cəmiyyətimiz bu ünsür-

ləri pislədi. Hazırda isə belə bir tarixi hadisə ərəfəsində nümayiş keçirmək niyyəti bizdə narahatlıq doğurur. Biz bu möhtəşəm hadisənin əhalinin etimadını tamamilə itirmiş müəyyən siyasi qüvvələr tərəfindən zorakılıq hallarına çevrilməsinə yol verə bilmərik. Məhz buna görə biz mərasimin başa çatmasına qədər nümayişlərin keçirilməsinin təxirə salınmasını düzgün hesab etdik. Mərasim başa çatandan sonra heç bir məhdudiyyət qoyulmayacaqdır.

**M a t i a s  B r y u q m a n** *(«Handelsblatt» qəzeti, Almaniya)*: Cənab Prezident, Siz xarici siyasətiniz haqqında danışarkən qonşu ölkələri, o cümlədən Rusiyanı xatırladınız. Lakin Siz neftin əsas ixrac istiqaməti olan Avropanı niyə qeyd etmədiniz? Avropanın bu regiondakı siyasəti Sizi qane edirmi?

**İ l h a m  Ə l i y e v:** Əgər siz söhbətimizi diqqətlə dinlədinizsə, onda görərdiniz ki, mən yalnız verilən suallara cavab verdim. Mən Rusiya haqqında, Azərbaycan – ABŞ münasibətləri haqqında suallara cavab verdim. Avropa ilə əlaqələrimizə gəldikdə, mən sizə eyni səmimiyyətlə cavab verəcəyəm. Bizim Avropa Birliyi ilə çox gözəl münasibətlərimiz var. Uzun illər ərzində biz bir çox layihələr çərçivəsində birgə işləmişik və Avropa Birliyinin bizə yardımı kifayət qədər böyük olmuşdur. Mən xüsusən müstəqilliyimizin ilk illərini nəzərdə tuturam. O vaxt bizə maliyyə dəstəyi lazım idi. Hazırda Azərbaycan Avropa Birliyinin yeni qonşuluq siyasətinə daxil edilmişdir. Ümidvarıq ki, bu siyasət bizim Avropa Birliyinə daha yaxın olmağımız üçün yeni imkanlar yaradacaqdır. Artıq dörd ildən çoxdur ki, Azərbaycan Avropa Şurasının üzvüdür və ötən illər ərzində mən nümayəndə heyətimizin rəhbəri olmuşam. Bizim bu təşkilatla yaxşı münasibətlərimiz var. Ölkəmiz Avropa Şurasına qəbul olunduqda öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirməkdədir. Bizim Avropanın aparıcı ölkələri ilə də yaxşı əlaqələrimiz var və onları yüksək qiymətləndiririk.

Son il yarım ərzində mən bir çox Avropa ölkələrində rəsmi səfərdə olmuşam: Paris, London, Roma, Berlin, Brüssel. Brüsseldə mənim Avropa Komissiyası ilə geniş danışıqlarım olub-

dur. Bir sözlə, münasibətlərimiz çox yüksək səviyyədədir və mən əminəm ki, daha da inkişaf edəcəkdir.

Mən əvvəldə qaz layihəmiz haqqında danışdım. Hesab edirəm ki, bu element bizim Avropa Birliyi ilə apardığımız enerji dialoqu üçün vacibdir. Bir neçə ildən sonra Avropa istehlakçıları Azərbaycan qazından istifadə edə biləcəklər. Çünki biz Türkiyənin ərazisinə qədər boru kəməri çəkəcəyik. Hazırda Yunanıstanla danışıqlar prosesi gedir. Beləliklə, qaz Türkiyədən Yunanıstana, sonra isə digər Avropa ölkələrinə çatdırıla bilər. Bu, əlaqələrimizin yeni amili olacaqdır. Əlbəttə ki, ölkəmizdə apardığımız siyasi islahatlar Avropada böyük dəstək qazanır və mən əminəm ki, gələcəkdə də biz işlərimizi fəal şəkildə davam etdirəcəyik.

**J u r n a l i s t:** Cənab Prezident, bizə vaxt ayırdığınıza görə Sizə minnətdarıq. Sual vermiş jurnalist həmkarlarımıza da minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Ümid edirəm ki, siz ölkəmizdə özünüzü rahat hiss edəcəksiniz. Hava da yaxşıdır, hətta biz gözlədiyimizdən də istidir. Sabah açılış mərasimimiz olacaqdır. Sizin hamınıza uğurlar arzulayıram.

# HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MÜNASİBƏTİLƏ SƏNGƏÇAL TERMİNALINDA KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ* NİTQ

*25 may 2005-ci il*

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gözəl bayram münasibətilə ürəkdən təbrik edirəm. Bu gün tarixi bir gündür. Bu gün Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi münasibətilə Bakıda gözəl bir mərasim keçirilir. Mərasimdə iştirak etmək üçün Bakıya gəlmiş bütün yüksək qonaqları səmimi-qəlbdən salamlayıram. Bizimlə bərabər bu mərasimdə Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər iştirak edir. Gürcüstanın prezidenti Mixeil Saakaşvili iştirak edir. Qazaxıstanın prezidenti Nursultan Nazarbayev iştirak edir. Əlahəzrət York hersoqu iştirak edir. Amerika Birləşmiş Ştatlarının Energetika naziri cənab Bodman iştirak edir. Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı cənab Pibalqs iştirak edir. *bp* şirkətinin prezidenti lord Braun da bu gün bizim qonağımızdır.

---

* Тцркийя президенти Ящмяд Неъдят Сезяр, Эцръцстан президенти Михеил Саакашвили, Газахыстан президенти Нурсултан Назарбайев, АБШ-ын Енерэетика назири Самуел Бодман, Бюйцк Британийанын, Франсанын, Украйнанын, Йапонийанын, Норвечин вя диэяр юлкялярин йцксяк вязифяли шяхсляри мярасимдя иштирак едирдиляр.

Mən çox şadam ki, bu tarixi gündə biz hamımız birlikdə Bakıda yığışmışıq, bu gözəl bayramı birlikdə qeyd edirik. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanda Heydər Əliyevin neft strategiyasının icra olunması başladı. 1994-cü il bizim hamımızın xatirindədir. O ağır, çətin şəraitdə xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti nəticəsində bu müqavilə imzalandı və Azərbaycan öz neft-qaz yataqlarını xarici şirkətlərlə birlikdə istismar etməyə başladı.

O vaxtdan 10 ildən çox zaman keçir. Bu illər ərzində qarşıda duran bütün vəzifələr öz həllini tapdı, Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda xarici şirkətlərlə çox səmərəli işbirliyi, əməkdaşlıq qura bildi. Azərbaycana böyük həcmdə sərmayə gəldi, Azərbaycanın neft-qaz sektoruna milyardlarla dollar sərmayə yatırıldı. Bu illər ərzində ölkədə gedən proseslər, iqtisadi islahatlar, inkişaf onu göstərdi ki, Azərbaycan 1994-cü ildə düzgün seçim etmişdir. Çox böyük təzyiqlər olmasına, süni maneələr yaradılmasına baxmayaraq, bizi bu yoldan heç kim və heç nə döndərə bilmədi. Heydər Əliyevin neft strategiyası Azərbaycana böyük uğurlar gətirdi. Azərbaycanın iqtisadiyyatının bütün sektorları inkişaf etməyə başladı. Azərbaycanda aparılmış iqtisadi islahatlar nəticəsində bu gün ölkəmizin həm neft sektoru, həm də qeyri-neft sektoru uğurla inkişaf edir. Ölkəmiz son 10 ildə öz iqtisadi potensialını gücləndirərək, hər il təxminən 10 faiz səviyyəsində iqtisadi artıma nail ola bildi. 2005-ci ilin ilk dörd ayında Azərbaycanda sənaye istehsalı 15 faiz, ümumi daxili məhsul 14 faiz artmışdır. Bu ilin sonuna qədər Azərbaycanda ÜDM ən azı 18 faiz artacaqdır ki, bu da Beynəlxalq Valyuta Fondunun verdiyi bəyanata görə dünyada ən yüksək göstəricidir.

Neft amilindən məharətlə istifadə edərək, iqtisadiyyatımızı şaxələndirir, qeyri-neft sektoruna böyük diqqət göstəririk. Keçən il qəbul edilmiş regionların sosial-iqtisadi inkişaf proqramı da uğurla icra edilir. Böyük qürur hissi ilə deyə bilərəm ki, son il yarım ərzində görülmüş tədbirlər nəticəsində Azərbaycanda

iki yüz mindən artıq yeni iş yeri açılmış, onların tam əksəriyyəti qeyri-neft sektorunda yaradılmışdır. Yoxsulluğun səviyyəsi son il yarım ərzində 9 faiz aşağı düşmüşdür və biz qarşımıza vəzifə qoymuşuq ki, Azərbaycanda yoxsulluq tamamilə aradan götürülsün. Əminəm ki, biz buna nail olacağıq.

Bütün bu işləri görmək üçün, əlbəttə ki, möhkəm iradə lazım idi, müdriklik lazım idi. İqtisadi və siyasi islahatlar aparmaq lazım idi. Amma onu da bilirik ki, həlledici rolu neft amili, «Əsrin müqaviləsi»nin imzalanması oynamışdır. Həmin müqavilə, ondan sonrakı dövr ərzində görülən işlər Azərbaycanın inkişafına böyük təkan vermişdir və biz bunu bu gün də hiss edirik.

Ölkəmiz yeniləşir, müasirləşir, inkişaf edir və əminəm ki, yaxın zamanlarda Azərbaycan iqtisadi cəhətdən çox qüdrətli dövlətə çevriləcəkdir.

Nefti hasil etmək, əlbəttə ki, bizim problemlərimizin hamısının həlli demək deyildir. Nefti nəql etmək lazımdır. Çünki Azərbaycanın coğrafi vəziyyəti belədir ki, bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Bunu etmək üçün neft kəmərləri lazım idi və bu istiqamətdə də ardıcıl siyasət aparılmışdır. Azərbaycan çoxvariantlı neft kəmərləri strategiyasını həyata keçirir və artıq iki kəmər fəaliyyətdədir: Bakı–Novorossiysk və Bakı–Supsa neft kəmərləri Azərbaycan neftini dünya bazarlarına çıxarır. Amma bizim neft strategiyamızı tam həcmdə həyata keçirmək üçün, əlbəttə ki, böyük gücə malik neft kəmərinin tikintisi lazım idi və biz də bunu bacardıq, bunu etdik. Bəziləri buna inanmırdı, şübhə ilə yanaşırdı, bəziləri buna maneçilik törətmək istəyirdilər. Amma bunların heç biri baş tutmadı. Azərbaycan öz dostları, qonşu dövlətlər ilə birlikdə məqsədinə nail oldu. Türkiyə–Gürcüstan–Azərbaycan birliyi, Amerika Birləşmiş Ştatlarının bu layihəyə və ümumiyyətlə, bütün enerji layihələrinə verdiyi dəstək, *bp* şirkəti başda olmaqla xarici şirkətlərin çox səmərəli fəaliyyəti, Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyəti imkan verdi ki, biz bu əfsanəni reallığa, gerçəkliyə çevirdik.

Mən şübhə etmirəm ki, bundan sonra da Bakı–Tbilisi–Ceyhan Azərbaycan xalqına, bizim qonşu, dost ölkələrimizə çox bö-

yük səmərə, fayda gətirəcəkdir. Bu kəmər, əlbəttə ki, ilk növbədə bizim iqtisadi problemlərimizin həlli üçün bizə kömək edəcəkdir. Sosial problemlərin həlli də öz əksini tapmalıdır. Amma eyni zamanda, biz onu da gözəl bilirik ki, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsi işində bu kəmərin rolu çox böyük olacaqdır. Buna ehtiyac var. Hələ ki, bölgədə sülh, əmin-amanlıq, təhlükəsizlik tam mənada bərqərar olunmayıbdır. Bölgədə təhlükələr var.

Onlardan biri də Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz, bu təcavüzün nəticəsində torpaqlarımızın 20 faizinin işğal altına düşməsi və bir milyondan artıq azərbaycanlının qaçqın və köçkün vəziyyətində yaşamasıdır. Biz əminik ki, bütün imkanlardan istifadə edərək ədaləti bərpa edəcəyik. Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək və bizim suverenliyimiz tam bərpa olunacaqdır. Bölgədə buna bənzər digər separatçılıq hərəkətləri mövcuddur. Ona görə də Bakı–Tbilisi–Ceyhan neft kəmərinin bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində mühüm rolu olacaqdır.

Bu kəmər eyni zamanda regional əməkdaşlıq baxımından da çox gözəl nümunədir, örnəkdir. Bu kəmər dünyanın ən iri, ən nəhəng enerji layihəsidir. Yalnız və yalnız üç ölkənin birgə fəaliyyəti, əməkdaşlığı və dostluğu nəticəsində biz bu kəməri bu gün istismara veririk. Türkiyə, Gürcüstan və Azərbaycanın rəhbərləri, vəzifəli şəxsləri, mütəxəssisləri vahid bir komanda kimi, bir ailə kimi, bu kəmərin tikilməsi üçün fəal işləmişlər və onun istismara verilməsi gələcək regional əməkdaşlıqdan ötrü çox böyük əhəmiyyət kəsb edəcəkdir.

Kəmərin fəaliyyətindən əldə olunacaq gəlirlərin səmərəli istifadə edilməsi də bizi çox düşündürür. Azərbaycan hökuməti bu sahədə şəffaflığın təmin olunması üçün əlindən gələni edir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin qərarı ilə Azərbaycanda Neft Fondu yaradılmışdır və neft əməliyyatlarından əldə olunan bütün gəlirlər o Fondda cəmləşir. Fondda çox açıq, şəffaf şəkildə beynəlxalq audit keçirilir və Azərbaycan vətəndaşları dəqiq məlumat əldə edirlər. Biz hesab edirik ki, Azər-

baycan iqtisadiyyatına bu layihələrdən gələcək böyük vəsait səmərəli istifadə olunmalıdır, hər bir Azərbaycan vətəndaşı bu gözəl imkanlardan faydalanmalıdır və neft gəlirləri Azərbaycanda ədalətli bölünməlidir. Bizim hökumətimiz bunu təmin etmək üçün əlindən gələni edir və əminəm ki, buna nail olacağıq.

Mən bu gün Amerika Birləşmiş Ştatlarının dəstəyini xüsusi qeyd etmək istəyirəm. Hamımız gözəl bilirik ki, əgər bu dəstək olmasaydı, bizim planlarımız həyata keçə bilməzdi. Biz bu dəstəyi 1994-cü ildən başlayaraq bu günə qədər hiss edirik. Amerika Birləşmiş Ştatları hökumətinin bizim bütün enerji layihələrimizi dəstəkləməsi bu kəmərin istismara verilməsinə böyük kömək göstərdi. Biz çox şadıq ki, aramızda çox gözəl əməkdaşlıq var. Amerika və Azərbaycan müxtəlif sahələrdə çox səmərəli işləyirlər. Biz tərəfdaşıq, dünyada gedən proseslərə eyni baxışlarla yanaşırıq. Amerika Birləşmiş Ştatlarının Energetika nazirinin bugünkü tədbirdə iştirak etməsi də göstərir ki, bu layihə ABŞ-ın maraqlarının təmin olunması üçün böyük əhəmiyyət kəsb edir.

Bu gün mən xüsusilə *bp* şirkətinin və onun prezidenti lord Braunun fəaliyyətini qeyd etmək istəyirəm. Buraya gəlməzdən əvvəl biz muzeydə nümayiş etdirilən ekspozisiya ilə tanış olduq, 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması münasibətilə təşkil olunmuş mərasimdə çəkilmiş şəkilləri də gördük. Orada gördük ki, hörmətli lord Braun Heydər Əliyevlə birlikdə müqavilənin imzalanmasında iştirak edirlər. Lord Braunun fəaliyyəti həlledici rol oynamışdır və dünyanın aparıcı neft şirkəti olaraq *bp* şirkəti Azərbaycana, Azərbaycan iqtisadiyyatına çox böyük həcmdə sərmayə qoyubdur. Bu onu göstərir ki, bizim aramızda çox səmimi əlaqələr, qarşılıqlı hörmət, qarşılıqlı etimad, qarşılıqlı inam var. Biz bunu hiss edirik və görürük ki, *bp* şirkəti Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsinə çevrilibdir. Biz bunu çox yüksək qiymətləndiririk və çox şadıq ki, burada *bp*-ni təmsil edən insanlar bizimlə bərabər çox fəal işləyirlər və bu gün mən cənab Devid Vudvordun da xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Bütün başqa xarici neft şirkətlərinin nümayəndələrinin xidmətlərini qeyd edirəm və birgə fəaliyyətə

görə onlara öz minnətdarlığımı bildirmək istəyirəm. Bizim aramızda çox gözəl münasibətlər var və xarici şirkətlərin Azərbaycanın bu gününə və sabahına da böyük inamı var. Əgər bu inam olmasaydı, heç vaxt Azərbaycana on milyardlarla dollar vəsait qoyulmazdı.

Bu gün Azərbaycan neftçilərinin də böyük bayramıdır. Mən bu bayram günündə bu yüksək kürsüdən Azərbaycan neftçilərini ürəkdən təbrik edirəm. Onlara salamlarımı çatdırmaq, öz hörmətimi bildirmək istəyirəm. Azərbaycan Dövlət Neft Şirkətinin bütün əməkdaşlarına öz səmimi salamlarımı çatdırıram. Layihələrin həyata keçirilməsində Azərbaycan Dövlət Neft Şirkətinin də müstəsna rolu olmuşdur və mən bunu çox yüksək qiymətləndirirəm. Fəxr edirəm ki, mənim də həyatımın böyük hissəsi – 9 ili Azərbaycan Dövlət Neft Şirkətində keçmişdir. Mən bütün neftçilərə, burada iştirak edən neftçilərə, bizim xarici həmkarlarımıza və burada olmayan bütün neftçilərə öz hörmətimi, ehtiramımı bildirmək istəyirəm. O illər mənim həyatımda çox mühüm illər idi, mənim fəaliyyətim üçün çox faydalı idi və mən o günləri heç vaxt unutmayacaq, yaddan çıxarmayacağam. Fəxr edirəm ki, 1994-cü ildən mən də bu layihələrin həyata keçirilməsində öz əməyimi göstərmişəm.

Bu gün bayram günüdür, hamımız sevinirik. Amma eyni zamanda, kədərli hisslər də keçiririk. Çünki Bakı–Tbilisi–Ceyhan neft kəmərinin memarı, təşəbbüskarı, Azərbaycanın neft strategiyasının təşəbbüskarı, müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev bizim aramızda deyildir. Onun uzaqgörənliyi, qətiyyəti, onun fəaliyyəti olmasaydı, əminəm ki, biz bütün bu uğurlara nail ola bilməzdik. O çox istəyirdi, çox gözləyirdi ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri nə vaxt istismara veriləcəkdir. 2002-ci ilin sentyabr ayında elə bu Səngəçal terminalının ərazisində Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməlqoyma mərasimi keçirilmişdir. O günü biz çox yaxşı xatırlayırıq. Heydər Əliyev ondan sonra dəfələrlə maraqlanırdı, soruşurdu ki, nə vaxt kəmər istismara veriləcək, hansı tarixdə işə başlayacaqdır. Ancaq tale ona nəsib etmədi ki, bu

gün bizimlə bərabər olsun və bu günə sevinsin. Amma onun ideyaları yaşayır, siyasəti yaşayır, bu siyasət bu gün davam etdirilir, Azərbaycan xalqına böyük uğurlar gətirir və gələcəkdə də uğurlar gətirəcəkdir. Memarı, təşəbbüskarı Heydər Əliyev olan Bakı–Tbilisi–Ceyhan neft kəməri bu gün istismara verilir.

Əziz dostlar, bu gözəl bayram münasibətilə sizin hamınızı, Azərbaycan xalqını, türk xalqını, gürcü xalqını, bütün bizim dostlarımızı bir daha ürəkdən salamlayıram, sizə öz təbriklərimi çatdırıram. Arzu edirəm ki, bu kəmərin həyatı, fəaliyyəti uğurlu olsun, xalqlarımıza, bizim bölgəyə sülh, əmin-amanlıq, rifah, firavanlıq, xoşbəxtlik gətirsin. Sağ olun.

* * *

*Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə mayın 25-də Səngəçal terminalında keçirilən təntənəli mərasim çərçivəsində iki mühüm tarixi sənəd imzalandı.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər Azərbaycan, Gürcüstan və Türkiyə arasında Qars–Axalkalaki–Tbilisi–Bakı birləşdirici dəmir yolu xətti layihəsi haqqında Bəyannaməni imzaladılar.*

*Şərq–Qərb enerji nəqliyyat dəhlizinin inkişaf etdirilməsi və genişləndirilməsi haqqında Bakı Bəyannaməsini isə Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Gürcüstan tərəfindən Xarici İşlər naziri xanım Salome Zurabişvili, Qazaxıstan tərəfindən Xarici İşlər naziri Qasımcomərd Tokayev, Türkiyə tərəfindən Energetika və Təbii Sərvətlər naziri Hilmi Gülər, ABŞ tərəfindən Energetika naziri Samuel Bodman imzaladılar.*

## İmzalanma mərasimi başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mərasim başa çatır. Sizin hamınıza bu mərasimdə iştirak etdiyiniz üçün bir daha öz təşəkkürümü, minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün çox önəmli sənədlər də imzalandı. Əminəm ki, Bakı Bəyannaməsi bizim gələcək əməkdaşlığımız üçün çox gözəl şərait yaradacaqdır. Qars–Axalkalaki–Tbilisi–Bakı dəmir yolu isə regionda gedən əməkdaşlıq meyllərini daha da gücləndirəcəkdir.

Bu gün burada çıxış edən bütün şəxslərə dərin minnətdarlığımı bildirirəm. Eyni zamanda, bizi təbrik etmiş dostlarımıza da öz təşəkkürümü bildirirəm. Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Corc Buşa, Fransa prezidenti cənab Jak Şiraka, Ukrayna prezidenti cənab Viktor Yuşşenkoya, Böyük Britaniyanın Baş naziri cənab Toni Bleyrə, İtaliya Nazirlər Şuasının Sədri cənab Silvio Berluskoniyə, Norveç Krallığının Baş naziri cənab Kyel Maqne Bundevikə, Yaponiyanın Baş naziri cənab Dzünitiro Koidzumiyə öz təşəkkürümü bildirirəm.

Eyni zamanda, bildirmək istəyirəm ki, bizim ünvanımıza çoxlu digər təbrik məktubları da gəlmişdir. Bütün bu məktublara görə mən Azərbaycan dövləti adından öz minnətdarlığımı bildirirəm.

Ümumiyyətlə, bu gün bu sevinci bizimlə bölüşən bütün insanlara minnətdaram. Bu gün Azərbaycan nefti Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan boru kəməri vasitəsilə Heydər Əliyevin adını daşıyan Ceyhan terminalı istiqamətinə göndərilir.

Uğurlu olsun, xeyirli olsun.

Sizi bir daha ürəkdən təbrik edirəm. Sağ olun.

* * *

*Sonra Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər, bp şirkətinin prezidenti lord Con Braun Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinə ilk nefti doldurmaq üçün dəvət olundular. Onlar ulu öndərin adını daşıyan neft kəmərinin sürgüsünü açdılar və ilk neft boruya axdı.*

*Azərbaycanın dövlət himni əzəmətlə səsləndi.*

*Bununla da üç dənizin əfsanəsi – Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri gerçəkləşdi. Ümummilli lider Heydər Əliyevin işləyib hazırladığı Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsində ən əlamətdar hadisələrdən biri tarixin səhifəsinə qızıl hərflərlə yazıldı.*

## XƏZƏR ENERJİ MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİ

*25 may 2005-ci il*

*Bakı yaxınlığında yerləşən Səngəçal terminalında Xəzər Enerji Mərkəzinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Əhməd Necdət Sezər, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, ABŞ-ın, Böyük Britaniyanın və digər ölkələrin yüksək vəzifəli şəxsləri mərasimdə iştirak edirdilər.*

*Məlumat verildi ki, Xəzər Enerji Mərkəzi Azərbaycanın gələcək nəsillərinə və xarici qonaqlara Xəzərin zəngin neft və qaz sərvətlərinin işlənilməsi tarixini əks etdirmək üçün yaradılmışdır. London Elm Muzeyinin hazırladığı eksponatlar neftin və qaz yataqlarının kəşf olunmasının tarixindən, həllini tapmış texnoloji problemlərdən, yataqların işlənilməsi, boru kəmərləri layihələrindən söhbət açır. Bunların hamısı regionun mədəniyyəti kontekstində əks etdirilir.*

*Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Əhməd Necdət Sezər, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Qazaxıstan prezidenti Nursultan Nazarbayev və digər qonaqlar mərkəzlə tanış oldular, 1994-cü ildən 2005-ci ilin mayınadək Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng layihələrin həyata keçirilməsini, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən hazırlanmış neft strategiyası əsasında görülmüş işləri, «Əsrin müqaviləsi»nin və digər müqavilələrin imzalanmasını, ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin iştirakı ilə platformaların, qazma qurğularının istifadəyə verilməsini əks etdirən fotolara, vidiomateriallara maraqla baxdılar.*

*Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord bildirdi ki, əsas sərgi binasından, qəbul, sinif və qonaq otaqlarından, xidmət sahələrindən ibarət olan mərkəz, ilk növbədə Azərbaycan gəncləri üçün faydalı olacaqdır. ABƏŞ-in rəhbəri dünya şöhrətli siyasi xadim Heydər Əliyevin tarixi xidmətlərini xatırlatdı, onun neft strategiyasının bütün dünya üçün böyük əhəmiyyətini və müəllifi olduğu Bakı–Tbilisi–Ceyhan neft kəmərinin Azərbaycan–Gürcüstan və Türkiyənin gələcək inkişafında oynayacağı böyük rolu vurğuladı.*

*Sonra prezidentlər və digər qonaqlar «1994–2005: Azərbaycanın neft strategiyası» adlı videosüjetə tamaşa etdilər.*

*Mərkəzin həyətində Aralıq dənizindən gətirilmiş tısbağaların qoruq yeri də böyük maraq doğurdu.*

*Dövlət başçıları xüsusi hazırlanmış materialın üzərinə əl izlərini qoydular, birgə xatirə şəkli çəkdirdilər.*

## ABŞ-ın ENERGETİKA NAZİRİ SAMUEL BODMAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ABŞ-ın Energetika naziri Samuel Bodmanı qəbul etmişdir.*

*Söhbət zamanı Azərbaycan ilə Amerika arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etməsi vurğulandı, ikitərəfli münasibətlər, energetika sahəsində, o cümlədən qlobal və regional layihələrin reallaşdırılmasında əməkdaşlıq məsələləri müzakirə olundu.*

*Görüşdə Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin əhəmiyyəti qeyd edildi və bu kəmərin Azərbaycanın gələcək inkişafına, ümumiyyətlə, regionda sülhün, təhlükəsizliyin təmin olunması işinə xidmət edəcəyinə əminlik vurğulandı.*

*Cənab Samuel Bodman Azərbaycan prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

*Dövlətimizin başçısı İlham Əliyev isə qonağa Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalı təqdim etdi.*

# BÖYÜK BRİTANİYANIN KRAL AİLƏSİNİN ÜZVÜ, YORK HERSOQU ŞAHZADƏ ENDRUYU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında Böyük Britaniyanın kral ailəsinin üzvü, York hersoqu şahzadə Endruyunu qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndiyini vurğuladı, iqtisadi sahədə, xüsusilə energetika sahəsində əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyi bildirildi.*

*York hersoqu şahzadə Endruyu şəxsən kraliça ailəsi adından Azərbaycan prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

*Dövlətimizin başçısı İlham Əliyev isə York hersoqu şahzadə Endruyuya Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalı təqdim etdi.*

## *bp* ŞİRKƏTİNİN PREZİDENTİ LORD CON BRAUN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında bp şirkətinin prezidenti lord Con Braunu qəbul etmişdir.*

*Son illər Azərbaycanda müxtəlif sahələrdə əldə olunmuş uğurlardan, neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində ölkəmizin böyük inkişafa nail olmasından, qlobal layihələrin uğurla reallaşmasından bəhs edən dövlətimizin başçısı bütün bunların əsasının 1994-cü ilin sentyabrında imzalanmış «Əsrin müqaviləsi»ilə qoyulduğunu vurğuladı. Prezident İlham Əliyev dedi ki, həmin müqavilənin imzalanmasından keçən dövr ərzində Azərbaycan müxtəlif sahələrdə sürətli inkişaf yoluna çıxmış, əhalinin sosial məsələlərinin həll edilməsi işində böyük uğurlar qazanılmış, ölkədə möhkəm sabitlik yaranmışdır.*

*Dövlətimizin başçısı Azərbaycanda qlobal layihələrin, o cümlədən Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin reallaşdırılmasında bp şirkətinin rolunu çox yüksək qiymətləndirdi, Azərbaycanın neft sahəsində fəaliyyətinə görə şirkətə minnətdarlığını bildirdi.*

*Lord Con Braun Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsini Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin neft strategiyasının uğurlu nəticəsi kimi dəyərləndirdi və ulu öndərimizin bu işdə müstəsna rolu olduğunu bildirdi. O, 1994-cü ildən bəri Azərbaycanda böyük irəliləyişlərin şahidi olduğunu söylədi və hazırda bu işlərin uğurla davam*

*etdirildiyini vurğuladı. Lord Con Braun ulu öndər Heydər Əliyevin neft strategiyasının uğurla həyata keçirilməsində prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan hökumətinin fəaliyyətini yüksək qiymətləndirdi.*

*Azərbaycanda neft sahəsində yüksək səviyyədə platformaların, infrastrukturların yaradıldığını vurğulayan qonaq xalqımızın yüksək intellektuala malik olduğunu söylədi. O, ölkədə görülən bütün bu uğurlu işlərin Azərbaycan xalqının inkişafına xidmət edəcəyinə əmin olduğunu bildirdi.*

*Cənab Con Braun Azərbaycan prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

*Dövlətimizin başçısı İlham Əliyev isə cənab Con Brauna Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalı təqdim etdi.*

# AVROPA KOMİSSİYASININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİBALQS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 may 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Andris Pibalqsı qəbul etmişdir.*

*Azərbaycanın Avropa strukturlarına sürətlə inteqrasiya olunduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin nüfuzlu beynəlxalq təşkilatlarla, xüsusən Avropa Birliyi ilə müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığının möhkəmləndiyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın Avropa Birliyinin yeni qonşuluq siyasətində fəal iştirak etdiyini xatırlatdı və əmin olduğunu bildirdi ki, ölkəmizin Avropa Birliyi ilə əlaqələri bundan sonra da daim möhkəmlənəcəkdir.*

*Azərbaycan ilə Avropa Birliyi arasında əməkdaşlığın gündən-günə genişləndiyini nəzərə çatdıran cənab Andris Pibalqs Avropa Birliyinin yeni qonşuluq siyasətində Azərbaycanın misli görünməmiş irəliləyişə nail olduğunu vurğuladı. O, əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Avropa Birliyi arasındakı əməkdaşlıq bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.*

*Cənab Andris Pibalqs Azərbaycan prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

*Dövlətimizin başçısı İlham Əliyev isə cənab Andris Pibalqsa Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalı təqdim etdi.*

## HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN NEFT BORU KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN TİKİNTİSİNİN TAMAMLANMASI VƏ AÇILIŞ MƏRASİMİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN PREZİDENTİ ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*«Gülüstan» sarayı*

*25 may 2005-ci il*

*Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin tikintisinin başa çatması münasibətilə Azərbaycan prezidenti İlham Əliyevin adından «Gülüstan» sarayında rəsmi ziyafət təşkil edilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Türkiyə prezidenti Əhməd Necdət Sezər, xarici qonaqlar əvvəlcə sarayın foyesində «Əsrin müqaviləsi» ilə başlayan Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi ilə bağlı ən mühüm hadisələri, artıq tarixin yaddaşına əbədi həkk olunmuş məqamları əks etdirən videokadrlara, bp şirkətinin yeni qurğularının maketinə baxdılar.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab prezident Əhməd Necdət Sezər!

Hörmətli qonaqlar!

Əziz xanımlar və cənablar!

Mən sizin hamınızı bir daha ürəkdən salamlayır, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi münasibətilə ürəkdən təbrik edirəm.

Bu gün çox əlamətdar bir gündür, tarixi bir gündür. Mən əminəm ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri bizə imkan verəcək ki, bölgədə iqtisadi inkişaf daha da sürətlə getsin, təhlükəsizlik sistemi daha da möhkəmlənsin.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyəti bölgədə gedən əməkdaşlıq meyllərinə güclü təkan verəcəkdir. Əminəm ki, bölgədə yaşayan xalqlar bundan sonra bir-birilə daha sıx əməkdaşlıq edəcəklər. İqtisadi inkişaf daha geniş vüsət alacaqdır. Azərbaycanın, Azərbaycan xalqının gələcəyi üçün, rifahı üçün Bakı–Tbilisi–Ceyhan neft kəmərinin müstəsna rolu vardır. O bizim iqtisadi müstəqilliyimizi daha da gücləndirəcəkdir.

Hər bir ölkə üçün onun iqtisadi müstəqilliyi böyük əhəmiyyət kəsb edir. Biz istəyirik ki, Azərbaycan daha da güclənsin, öz iqtisadi potensialını möhkəmləndirsin və zəngin, qüdrətli dövlətə çevrilsin. Bu bizim dövlət müstəqilliyimizin möhkəmlənməsinə də çox gözəl töhfə verəcəkdir. Dövlət müstəqilliyimiz bizim ən böyük sərvətimizdir. Uzun illər, əsrlər boyu Azərbaycan xalqı bu müstəqillikdən məhrum idi. Bizim böyük xoşbəxtliyimiz ondadır ki, bu gün Azərbaycan müstəqil dövlət kimi, Dünya Birliyinə inteqrasiya edir, dünyada özünə layiq yerini tuta bilibdir. Biz bundan sonra da çalışacağıq ki, müstəqilliyimizi möhkəmləndirək və gücləndirək.

Bakı–Tbilisi–Ceyhan neft kəməri nadir bir layihədir. Burada üç qonşu, dost, qardaş ölkə dünyanın aparıcı dövləti Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə, dünyanın aparıcı enerji şirkətlərindən olan *bp* şirkətinin rəhbərliyi ilə, tanınmış beynəlxalq neft şirkətlərinin iştirakı, beynəlxalq maliyyə qurumlarının dəstəyi ilə, birgə səylərlə üç dənizi bu kəmərlə birləşdirərək əfsanəni həqiqətə, reallığa çevirdi.

Bu nadir layihə bizim xalqlarımızın gələcəyinə xidmət edəcək, Türkiyədə, Azərbaycanda, Gürcüstanda gedən iqtisadi proseslərə güclü təsir göstərəcəkdir.

Mən şübhə etmirəm ki, bizim xalqlarımız bu layihədən səmərəli istifadə edəcəklər və onların gələcəyi daha da yaxşı olacaqdır.

Bu gün biz gözəl mərasim keçirdik, Bakı–Tbilisi–Ceyhan neft kəmərini istismara verdik. Bu gün biz bu tarixi yazdıq. Bu gün xalqımızın ümummilli lideri, bu layihənin memarı və təşəbbüskarı Heydər Əliyevin xatirəsi də yad edildi. Onun xidmətləri haqqında söhbət açıldı. Hamımız çox yaxşı bilirik ki, Heydər Əliyevin qətiyyəti, müdrikliyi, cəsarəti, uzaqgörənliyi imkan verdi ki, biz bu gün bu tarixi məqamı yaşayırıq. Azərbaycan bu gün müstəqil dövlət kimi, öz mövqelərini bölgədə möhkəmləndirir və gələcəyə böyük inamla baxır.

Mən bu gün bu badəni Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsində iştirak edən bütün insanların şərəfinə, bütün şirkətlərin şərəfinə qaldırmaq istəyirəm.

Bizi dəstəkləyən, daim bizim yanımızda olan dövlətlərin xalqlarına öz minnətdarlığımı bildirir və onların şərəfinə badə qaldırmaq istəyirəm.

Türkiyə, Gürcüstan, Azərbaycan xalqlarının şərəfinə badə qaldırmaq istəyirəm.

Bizim birliyimizin şərəfinə, bizim gələcəyimizin şərəfinə, sülhün, əmin-amanlığın, tərəqqinin şərəfinə!

Sağ olun, Sizin şərəfinizə!

* * *

*Sonra Azərbaycan, Türkiyə və Gürcüstanın incəsənət ustaları maraqlı konsert proqramı ilə çıxış etdilər.*

*Ziyafətdən sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, xarici qonaqlar «Gülüstan» sarayından Bakının, Xəzərin bənzərsiz gecə mənzərəsini, Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan neft kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi şərəfinə bayram atəşfəşanlığını seyr etdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC NEFT KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MÜNASİBƏTİLƏ MİLLİ PARKDA KEÇİRİLƏN ŞƏNLİKDƏ

*25 may 2005-ci il*

*Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə Bakı Şəhər İcra Hakimiyyəti mayın 25-də Milli parkda bayram konserti və atəşfəşanlıq təşkil etmişdir.*

*Bir neçə saat davam edən konsertdə on minlərlə insan respublikamızın tanınmış incəsənət ustalarının ifasında şux mahnılar dinlədilər, gözəl rəqslərə tamaşa etdilər. Ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş şeirlər, mahnılar alqışlarla qarşılandı.*

*Neft Bakısının səmasını al-əlvan rəngə boyayan atəşfəşanlıq bayram şənliyinə xüsusi rövnəq verdi.*

*Paytaxt sakinləri Milli parka gələn Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük sevinclə, alqışlarla qarşıladılar.*

**İlham Əliyev:** Əziz bacılar və qardaşlar!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl gündür, tarixi bir gündür. Bu gün Azərbaycanın xoşbəxt gələcəyi üçün çox mühüm addım atılmışdır. Uzun illər ərzində arzuladığımız, üzərində işlədiyimiz Bakı–Tbilisi–Ceyhan neft kəməri bu gün əfsanədən həqiqətə, gerçəkliyə çevrilibdir. Bu,

böyük tarixi hadisədir, böyük nailiyyətdir. Mən bu bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqını təbrik edirəm.

Bu layihə; görülən bu işlər bizim dövlət müstəqilliyimizi, bizim bölgədəki mövqeyimizi daha da möhkəmləndirəcək, Azərbaycanı dünyada güclü ölkəyə çevirəcəkdir. Mən əminəm və şübhə etmirəm ki, yaxın zamanlarda Azərbaycan qüdrətli dövlətə çevriləcəkdir. Biz qarşıda duran bütün vəzifələri həll edəcək, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik.

Biz bu gün səhərdən bu tədbirləri keçirərkən mən fikirləşirdim ki, istəyirəm bu gün Azərbaycan xalqı ilə birlikdə olum. Bu gün çoxlu qonaqlarımız, mötəbər görüşlərimiz var idi. Dünyanın müxtəlif ölkələrindən gəlmiş dövlət başçıları, rəsmi şəxslər Azərbaycanın qonaqları idi. Mən səhərdən bu vaxta qədər qonaqlarla birlikdə idim. Amma çox arzulardım ki, bu əziz günlərdə sizinlə birlikdə olum. Budur, indi də sizin yanınıza gəlmişəm. Sizi ürəkdən salamlayıram, bağrıma basıram, öpürəm, qucaqlayıram.

Azərbaycan xalqına eşq olsun!

Yaşasın müstəqil Azərbaycan Respublikası!

## UKRAYNANIN YANACAQ VƏ ENERGETİKA NAZİRİNİN BİRİNCİ MÜAVİNİ ALEKSEY İVÇENKO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 may 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin çox böyük əlamətdar hadisə olduğunu, mərasimdə Ukrayna nümayəndə heyətinin iştirak etməsindən və prezident Viktor Yuşşenkonun təbrik məktubu göndərməsindən məmnunluq duyduğunu vurğuladı. Prezident İlham Əliyev Ukrayna rəhbərinə onun dərin təşəkkürünü və ehtiramını çatdırmağı xahiş etdi.*

*Cənab Viktor Yuşşenko ilə müxtəlif tədbirlərdə keçirdiyi görüşləri məmnunluqla xatırlayan prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, ölkələrimiz arasında əlaqələr bundan sonra daha da möhkəmlənəcəkdir.*

*Cənab Aleksey İvçenko Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi mərasimində Ukrayna rəhbərinin təbrik məktubunu oxuduğunu bir daha məmnunluqla xatırladaraq dedi: «Prezident Viktor Yuşşenko mənə tapşırıb Sizə çatdırım ki, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində həyata keçirilmişdir və onun bu xətti yüz il bundan sonra da Azərbaycanın siyasətini müəyyənləşdirəcəkdir. Prezident İlham Əliyev indi bu siyasəti uğurla davam etdirir. Biz Azərbaycanla uzun illərdən bəri möhkəm əsaslar üzərində qurul-*

*muş əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminik».*

*Aleksey İvçenko Ukrayna prezidenti Viktor Yuşşenkonun təbrik məktubunu dövlətimizin başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalını qonağa təqdim etdi və onu Ukrayna prezidentinə çatdırmağı xahiş etdi.*

## NORVEÇ KRALLIĞININ DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ OLUF ULSET İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 may 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə Norveçin Baş naziri Kyel Maqne Bundevikin təbrik məktubu göndərməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev bu böyük boru kəmərinin Azərbaycanın inkişafında, sosial tərəqqisində, xalqın rifah halının yaxşılaşdırılmasında mühüm rol oynayacağına əmin olduğunu vurğuladı.*

*Cənab Oluf Ulset Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirdi. O, son illər Azərbaycanda bütün sahələrdə, o cümlədən neft sahəsində böyük nailiyyətlər əldə edildiyini vurğuladı, bütün bunların ölkədə bazar iqtisadiyyatının, demokratiyanın daha da inkişafına təkan verəcəyinə əmin olduğunu söylədi.*

*Prezident İlham Əliyev Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalını qonağa təqdim etdi və onu Baş nazir Kyel Maqne Bundevikə çatdırmağı xahiş etdi.*

## BNP PARİ BANKININ ENERGETİKA, İXRAC VƏ LAYİHƏLƏR ÜZRƏ RƏHBƏRİ DOMİNİK REMİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 may 2005-ci il*

*Qonaq Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi, kəmərin işə düşməsini çox əlamətdar hadisə adlandırdı. O, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin maliyyələşməsində rəhbərlik etdiyi bankın iştirakını məmnunluqla vurğuladı.*

*Prezident İlham Əliyev Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin tarixi hadisə olduğunu söylədi və bu kəmərin ölkəmizin iqtisadi inkişafının, xalqımızın maddi rifah halının yüksəlməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

**İTALİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB KARLO ADZELYO ÇAMPİYƏ**

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–İtaliya münasibətlərinin bugünkü inkişaf səviyyəsi böyük məmnunluq doğurur. Əminəm ki, xalqlarımızın rifahı naminə dostluq və əməkdaşlıq münasibətlərimizin dərinləşdirilməsi üçün bundan sonra da qarşılıqlı səylərimizi ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2005-ci il*

## İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SİLVİO BERLUSKONİYƏ

Hörmətli cənab Sədr!

İtaliya Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Bu gün ölkələrimiz arasındakı münasibətlərin inkişaf dinamikasından xüsusi razılığımı ifadə etmək istərdim. Bu baxımdan ölkənizə səfərim zamanı əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində apardığımız müzakirələr, imzalanan sənədlər, şübhəsiz ki, yeni-yeni imkanların üzə çıxmasına öz müsbət təsirini göstərməkdədir.

Fürsətdən istifadə edərək, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə səmimi təbrik məktubunuza görə Sizə öz dərin təşəkkürümü bildirirəm.

Ümidvaram ki, zəmanəmizin bu nəhəng və irimiqyaslı enerji layihəsinin gerçəkləşməsi əlaqələrimizin və əməkdaşlığımızın daha intensiv davamına şərait yaradacaqdır.

Bu xoş gündə Sizə ən səmimi arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2005-ci il*

## İSVEÇİN KRALI ƏLAHƏZRƏT
## XVI KARL QUSTAVA

Əlahəzrət!

İsveç Krallığının milli bayramı – İsveç bayrağı günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İsveç arasında inkişaf etməkdə olan dostluq və əməkdaşlıq münasibətləri daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2005-ci il*

**İSVEÇ KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YORAN PERSSONA**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – İsveç bayrağı günü münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, qarşılıqlı əlaqələrimizin hərtərəfli genişləndirilməsi üçün bundan sonra da mövcud imkanlardan səmərəli istifadə etməyə çalışacağıq.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2005-ci il*

## «ERMƏNİ İDDİALARI VƏ AZƏRBAYCAN GERÇƏKLİYİ» İKİNCİ BEYNƏLXALQ SİMPOZİUMUN İŞTİRAKÇILARINA

Hörmətli simpozium iştirakçıları!

Sizi – «Erməni iddiaları və Azərbaycan gerçəkliyi» mövzusunda Bakıda keçirilən İkinci beynəlxalq simpoziumun iştirakçılarını ürəkdən salamlayır, hamınıza ən səmimi arzularımı yetirirəm.

Elmi toplantınız son dərəcə aktual bir məsələyə – ermənilərin son iki əsrdə Azərbaycana qarşı həyata keçirdiyi soyqırımı, etnik təmizləmə və deportasiya siyasətinə həsr olunmuşdur. Onillərdir ki, Azərbaycan və Türkiyə dövlətləri ermənilərin siyasi-ideoloji təxribatları və əsassız ərazi iddiaları ilə üz-üzədir. Milli varlığımıza qarşı böyük bir cəbhədə elmi-ideoloji, siyasi-diplomatik və hərbi-strateji savaş meydanı açılmış, bir vaxtlar tarixi-etnik torpaqlarımızda bərqərar edilən hazırkı Ermənistan Azərbaycan və Türkiyə əleyhinə olan beynəlxalq maraqların koordinasiya mərkəzinə çevrilmişdir.

Mürtəce erməni şovinizmi milli dövlətçiliyimizə, xalqımızın əmin-amanlığına, ərazi bütövlüyümüzə, ümumən bölgədə sülh işinə daim ciddi problemlər və təhlükələr yaratmışdır. Son iki əsrdə təkcə Qafqaz regionunda yüz minlərlə soydaşımız mərhələ-mərhələ həyata keçirilən soyqırımı, etnik təmizləmə və deportasiya siyasətinin qurbanı olmuş, tarixi-etnik torpaqlarımız ilhaq edilmişdir. Bu anti-bəşəri siyasətin 1988-ci ildən başlayan növbəti mərhələsinin hamımız canlı şahidləriyik. Azərbaycanın əzəli və ayrılmaz ərazisi Qarabağda davakar erməni separatizmi, torpaqlarımızın 20 faizinin işğal olunması, 1 milyondan artıq vətəndaşımızın dədə-baba yurdlarından didərgin salınması, kütləvi qətl və qırğınlar, terror aksiyaları, işğal

edilmiş ərazilərimizdə misli görünməmiş erməni vandalizmi – bütün bunlar, təəssüflə qeyd edirəm ki, çağdaş dünyanın gözü qarşısında baş vermişdir. Hazırda Azərbaycanda erməni irticasından zərər çəkməyən ailə təsəvvür etmək qeyri-mümkündür.

Ermənilər tərəfindən məqsədyönlü şəkildə tariximiz, milli toponimlərimiz saxtalaşdırılaraq zaman-zaman maddi-mənəvi abidələrimizə, ərazilərimizə sahib çıxılmış, xalqımıza qarşı törədilən vəhşiliklər, soyqırımı faktları ört-basdır edilmiş və bununla da dünya ictimai fikri çaşdırılmışdır. Bu işdə erməni təbliğat və iftira maşınının onillər boyu ardıcıl fəaliyyəti ilə yanaşı, şübhəsiz ki, beynəlxalq ekspansionist güclərin bölgədəki siyasi-strateji maraqları da mühüm rol oynamışdır.

Bizim tarixi ədalətin bərpası ilə bağlı tələblərimiz, obyektiv elmi-tarixi gerçəklik, mövcud beynəlxalq hüquq normaları bilərəkdən bu qərəzli maraqlara, erməni təəssübkeşliyinə qurban verilir. Bu gün dünyada «erməni soyqırımı» kimi açıq-aşkar bir yalan ayaq tutub yeriməkdə, türk düşmənlərin əlində təsirli təzyiq və təhdid vasitəsinə çevrilməkdədir. Acınacaqlıdır ki, soyqırıma, deportasiya və etnik təmizləmə cinayətlərinə məruz qala-qala bu gün «soyqırımı törədən xalq» kimi bu siyasi böhtanı üzərimizdən atmaq və tarixi-siyasi gerçəkliyi dünyaya sübut etmək zərurəti ilə qarşılaşmışıq.

Hörmətli simpozium iştirakçıları!

Çağdaş dünyada gedən qlobal proseslər, milli kimliyimizi hədəf almış anti-türk maraqlar və işdə üzdəniraq erməni amili bizlərdən ayıq-sayıq olmağı, tarixi-siyasi gedişatı düzgün qiymətləndirməyi, türk dünyasının, xüsusən də Azərbaycan və Türkiyə dövlətlərinin milli-mənəvi və elmi potensialını, siyasi-diplomatik imkanlarını səfərbər etməyi tələb edir. Yalnız birgə əməkdaşlıq əlaqələrimizi gücləndirməklə yüzillik mənfur təcrübəyə malik erməni təbliğatını və qərəzli türk düşmənçiliyini durdura, dünyanı öz haqq işimizə inandıra bilərik.

Türkiyə və Azərbaycan alimlərin, tarixçilərin, siyasətşünas və politoloqların, ziyalıların Ankarada və Bakıda bir araya gəlməsini

ürəkdən təqdir edir, məcburən cəlb edildiyimiz bu problemin həlli yolunda mühüm addım kimi dəyərləndirirəm. Əmin olduğumu bildirirəm ki, toplantınız erməni–türk münasibətlərini obyektiv araşdırmalara cəlb etməklə bu münasibətlərin əsl mahiyyətinin açılmasında öz sanballı sözünü deyəcək, eyni zamanda, Qarabağ münaqişəsi, uydurma «erməni soyqırımı» barədə elmi-tarixi gerçəkliyin dünya ictimaiyyətinə çatdırılması işində ciddi dönüş yaradacaqdır.

Bu yolda hər birinizə möhkəm cansağlığı, sarsılmaz iradə və uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2005-ci il*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Bu gün Sizə xalqımızın dövlətçilik tarixində mühüm yer tutan, onun parlaq və şərəfli səhifəsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının ildönümü – Respublika günü münasibətilə müraciət edirəm.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik tarixi, sosial-iqtisadi və mədəni inkişafının, XX əsrin əvvəlində başlanmış və Rusiya imperiyasının süqutu ilə daha da genişlənən milli azadlıq mübarizəsinin məntiqi nəticəsi idi. Xalq Cümhuriyyəti həmçinin yüksək istedad və qabiliyyəti, özünəməxsus zəngin mədəniyyəti ilə seçilən xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və idarəçilik potensialının göstəricisi oldu.

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini, milli-mənəvi dəyərlərimizi üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Müsəlman ölkəsi olmaqla yanaşı, Azərbaycan bütün tarixi boyu Qərb dəyərlərini, mədəniyyətini məmnuniyyətlə mənimsəmiş, azərbaycanlı ziyalılar və siyasi xadimlər ölkənin gələcəyini müasir təhsildə, elmdə, sivil xalqlar ailəsinə qovuşmaqda görmüşdür.

Gənc respublika tərəfindən həyata keçirilən siyasət müstəqil dövlətçiliyin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, Şərqdə ilk dəfə qadınlar üçün seçki hüququnun tanınması, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı göstərilmə-

si, Bakı Dövlət Universitetinin təsis edilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının yaradılması və sair məhdud zaman çərçivəsində, gərgin daxili və xarici siyasi şəraitdə Xalq Cümhuriyyətinin fəaliyyətinin miqyasını, mahiyyət və mənasını əyani şəkildə sübut edir. Qəbul edilən qərarlar, reallaşdırılan təşəbbüslər və planlaşdırılan işlər azadlıq və müstəqillik qazanmış xalqımızın böyük inkişaf potensialına, cəmiyyət və dövlət həyatının bütün sahələrində geniş perspektivlərə malik olduğunun göstəricisi idi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti xalqımızın dövlətçilik ənənələrinin bərpasına və milli mənlik şüurunun güclənməsinə, vətənpərvərlik hisslərinin və duyğularının yüksəlməsinə böyük təsir göstərdi. Müstəqillik hissləri cümhuriyyət quruluşunun süqutundan sonra da azərbaycanlıları heç zaman tərk etmədi. Məhz cümhuriyyətin timsalında milli dövlətimizin varlığının nəticəsi idi ki, sovet hakimiyyəti dövründə xalqımız formal şəkildə olsa da, öz dövlət müstəqilliyini qoruyub saxladı, müttəfiq respublika kimi, SSRİ-ni təşkil edən subyektlərdən birinə çevrildi.

Azərbaycanın qabaqcıl ziyalılarının, Xalq Cümhuriyyəti qurucularının, ictimai-siyasi xadimlərin həyata keçirməyə başladığı ideyalar, planlaşdırdığı layihələr bu gün müstəqil Azərbaycan Respublikası tərəfindən uğurla gerçəkləşdirilir. XX əsrin sonunda yenidən tarixi şans qazanmış ölkəmiz Xalq Cümhuriyyəti dövründən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz suverenliyini və müstəqilliyini qoruyub saxlamağı bacardı. Başda ümummilli liderimiz Heydər Əliyev olmaqla Azərbaycanın dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərqərar edildi, dövlətimiz strateji inkişaf yoluna çıxarıldı. Nüfuzlu beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq quruldu, müstəqillik üçün əlavə təminatlar yaradıldı. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına, ATƏT-ə, Avropa Şurasına və digər beynəlxalq, regional qurumlara bərabərhüquqlu üzv qəbul olundu, Avropa Birliyi, NATO və başqa təşkilatlarla hərtərəfli əlaqələr yaratdı.

Yaşadığımız 2005-ci il bir çox cəhətdən bizim üçün həlledici əhəmiyyət kəsb edir. Ölkəmizdə aparılan iqtisadi və sosial islahatlar öz bəhrəsini verməkdədir. Bakıda və regionlarda quruculuq və abadlıq işləri geniş vüsət almışdır. İki gün öncə əsrin ən nəhəng iqtisadi-enerji layihələrindən biri olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi oldu. İqtisadi-kommersiya baxımından səmərəliliyi, ekoloji təhlükəsizliyi ilə seçilən və yeni iştirakçı dövlətlər hesabına getdikcə daha da güclənən bu layihənin işə düşməsi xalqımız üçün parlaq perspektivlər açaraq, qeyri-neft sektorunun inkişafına, yoxsulluğun azaldılmasına və əhalinin maddi vəziyyətinin yaxşılaşdırılmasına mühüm imkanlar yaradır. Düşünürük ki, transmilli layihə kimi, Bakı–Tbilisi–Ceyhan neft boru kəməri qısa zaman çərçivəsində bütün regionun simasını dəyişəcək, bölgədə tərəqqiyə, əməkdaşlığa, sülhə və təhlükəsizliyə xidmət edəcəkdir. Əmin ola bilərsiniz ki, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olan müasir Azərbaycan Respublikası onun dövlətçilik ideyalarını və ənənələrini yaşadacaq, müstəqilliyi qoruyub saxlayacaq və möhkəmləndirəcək, ölkəmizi tərəqqiyə qovuşduracaqdır.

Əziz həmvətənlər! Hörmətli vətəndaşlar! Xalqımızın ən əziz milli bayramlarından olan 28 May – Respublika günü münasibətilə Sizin hər birinizi, Vətənimizin bütün oğul və qızlarını, Silahlı Qüvvələrin şəxsi heyətini, müharibə veteranlarını, şəhid ailələrini, qaçqınları və məcburi köçkünləri ürəkdən təbrik edir, xalqımıza sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 may 2005-ci il*

# 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN PREZİDENTİ ADINDAN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*27 may 2005-ci il*

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanın milli bayramı - Respublika günü münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Xalq Cümhuriyyətinin yaranması tarixi bir hadisə idi. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaranmışdı, Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Ölkəmizin Dünya Birliyinin üzvü kimi tanınması prosesi başlanmışdı. Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini və onun qurucularının xidmətlərini həmişə yüksək qiymətləndirmişdir. Ancaq Xalq Cümhuriyyəti cəmi iki ilə yaxın zaman ərzində yaşaya bildi. Sonra Cümhuriyyət süqut etdi və Azərbaycan xalqı öz dövlət müstəqilliyindən məhrum olundu. Uzun illər ərzində Azərbaycan Sovet İttifaqının tərkibində müttəfiq respublika kimi yaşadı. Yalnız Sovet İttifaqı dağılandan sonra, 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi.

Müstəqilliyimizin ilk illəri çox ağır, çətin keçdi. Demək olar ki, başqa müttəfiq respublikalarla müqayisədə Azərbaycan ən ağır, ən çətin vəziyyətdə idi. Azərbaycanda gedən siyasi proseslər, hərc-mərclik, anarxiya, özbaşınalıq ölkəmizi çox çətin vəziyyətə salmışdı. Bir tərəfdən, daxili çəkişmələr, digər tərəfdən, Ermənistanın təcavüzü Azərbaycanın gələcəyini, müqəddəratını

sual altında qoymuşdu. Ölkə idarəolunmaz vəziyyətə salınmışdı. Hamımız yaxşı bilirik ki, o illər Azərbaycanın müstəqilliyi üçün həlledici illər idi. Əgər 1993-cü ildə vəziyyət belə qalsaydı, yəqin ki, Azərbaycan müstəqil dövlət kimi, dünya xəritəsindən silinə bilərdi.

1993-cü ildə dönüş yarandı. Xalqın lideri Azərbaycana rəhbərliyə gələndən sonra vəziyyət tamamilə dəyişdi və böyük səylər nəticəsində Azərbaycanda inkişaf dövrü başladı.

Bu yaxınlarda – iki gün bundan əvvəl qeyd etdiyimiz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılışı bir daha onu göstərir ki, 1994-cü ildə atılmış bütün addımlar Azərbaycanın bu gününə, sabahına və gələcəyinə xidmət edir. 1994-cü ildə bu salonda «Əsrin müqaviləsi» imzalandı. Ondan sonra Azərbaycanda həm daxildə gedən proseslər nizama salındı, həm də Azərbaycanın Dünya Birliyinə inteqrasiya prosesləri sürətlə getməyə başladı. Azərbaycan informasiya blokadasını yara bildi və Dünya Birliyinin çox dəyərli üzvünə çevrildi. İqtisadiyyatda gedən tənəzzül meylləri yavaş-yavaş dayandırıldı, inkişaf başladı və bu gün Azərbaycan müstəqil dövlət kimi, regionda qabaqcıl mövqedədir. Bunu təkcə biz deyil, bütün dünya ictimaiyyəti açıq-aydın bildirir və etiraf edir ki, Azərbaycan regionda liderdir.

Bizim vəzifəmiz ondan ibarətdir ki, son on il ərzində görülmüş işlərə yeni təkan verək. Qarşıda duran yeni məsələləri həll edək, Azərbaycanı hərtərəfli inkişaf etdirək, iqtisadi potensialımızı gücləndirək və ölkədə yaşayan hər bir insanın həyat səviyyəsinin yaxşılaşması üçün əlimizdən gələni əsirgəməyək. Bunu etmək üçün ölkədə proseslər elə getməlidir ki, hər bir vətəndaş öz həyatında, öz həyat tərzində hiss etsin ki, onun yaşayışı, güzəranı yaxşılaşır, ildən-ilə irəliləyiş müşahidə olunur. Bizim vəzifəmiz bundan ibarətdir. Mən çox şadam ki, son illər ərzində iqtisadiyyatda gedən müsbət meyllər daha da gücləndi. Azərbaycan iqtisadi cəhətdən zəngin dövlətə çevrilir. Ölkəmizə qoyulan xarici sərmayələr milyardlarla dollar ilə ölçülür. İqtisadi inkişaf özünü təkcə paytaxtda deyil, regionlarda da göstərir.

Regional inkişaf proqramının qəbul edilməsi və uğurla icra edilməsi artıq 200 mindən çox iş yerinin açılmasına səbəb olmuşdur. Hər bir iş yerinin açılması çox mühüm hadisədir. 200 min ailə bundan son il yarım ərzində faydalanıbdır. Mənim bölgələrə etdiyim mütəmadi səfərlər açıq-aydın göstərir ki, biz düzgün siyasət aparırıq. Bu siyasət əhali, xalq tərəfindən bəyənilir və dəstəklənir. Mən şübhə etmirəm ki, 2006-cı il Azərbaycanın iqtisadi inkişafı üçün çox əlamətdar il olacaqdır. İqtisadiyyata çox güclü təkan veriləcəkdir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyətindən əldə olunacaq gəlirlər yüzlərlə milyon dollar təşkil edəcəkdir. Hər bir vətəndaş bunu öz həyatında hiss etməlidir və hiss edəcəkdir.

Bu gün Azərbaycan iqtisadi inkişafın sürətinə görə dünyada lider ölkədir. Biz artıq bunu dəfələrlə bəyan etmişik və bunu təkcə biz demirik. Beynəlxalq Valyuta Fondu da qeyd edir ki, Azərbaycanda iqtisadi inkişaf, iqtisadi artım 2005-ci ildə 18 faiz təşkil edəcəkdir.

2005-ci ilin dörd ayında gedən proseslər onu göstərir ki, biz bu rəqəmə çatacağıq. Ötən dörd ayda sənaye istehsalı 15 faiz, ümumi daxili məhsul 14 faiz artmışdır. Əhalinin pul gəlirləri təxminən 30 faiz artmışdır. Düzdür, bizi narahat edən məsələlər də var. O cümlədən inflyasiyanın qalxması. Amma görülmüş və bundan sonra da görüləcək tədbirlər nəticəsində inflyasiyanın səviyyəsi aşağı düşməlidir və düşəcəkdir. Bizim bütün fikrimiz, bütün istəyimiz ona yönəlib ki, Azərbaycan xalqı ölkədə gedən müsbət prosesləri hiss etsin, öz yaşayışında, gündəlik həyatında hiss etsin.

Azərbaycanın milli maraqlarının qorunması üçün xarici siyasət də mühüm rol oynayır və bu istiqamətdə son illər ərzində nəzərəçarpacaq dəyişikliklər mövcuddur. Azərbaycan öz haqq səsini yüksək kürsülərdən ucaldır. Azərbaycanın xarici siyasəti bizim milli maraqlarımızın qorunmasına xidmət edir. Biz bütün qonşu ölkələrlə çox işgüzar münasibətlər qura bilmişik. Dünyanın aparıcı ölkələri ilə, beynəlxalq təşkilatlarla çox səmərəli iş-

ləyirik. Bizim xarici siyasətimiz daxili siyasətin davamı olaraq, Azərbaycan xalqının gələcəyinə xidmət edir.

Bizi ən çox narahat edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri də artıq beynəlxalq təşkilatlarda çox fəal surətdə müzakirə olunur. Təkcə müzakirə olunmur, qərarlar qəbul edilir. Birləşmiş Millətlər Təşkilatında uzun fasilədən sonra bu məsələ gündəliyə salınır. Avropa Şurası bu ilin yanvar ayında qəbul etdiyi qətnamədə Ermənistanı təcavüzkar dövlət kimi tanıyır. Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz, etnik təmizləmə siyasəti və bir milyondan artıq qaçqın, köçkünün yaranması orada açıq-aydın göstərilir və pislənilir. Avropa İttifaqı bu məsələyə daha da yaxından maraq göstərir.

Bir sözlə, Azərbaycanın haqq səsi eşidilir. Bizim mövqeyimiz dünyanın aparıcı dövlətləri tərəfindən başa düşülür və mən əminəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapacaq, bizim soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar. Bunu biz tələb edirik. Bunu məntiq tələb edir və dünyada gedən indiki proseslər onu göstərir ki, bu qaçılmazdır. Təcavüzkar, separatist, heç bir hüquqi normaya əsaslanmayan mövqenin heç bir perspektivi yoxdur. Azərbaycanın mövqeyi isə yalnız və yalnız beynəlxalq hüquqa, haqq-ədalətə, məntiqə əsaslanır. Biz bu məsələyə çox böyük diqqət göstərir, danışıqlar aparırıq. Bilirsiniz ki, danışıqlar çətin gedir. Əgər bu məsələ uzun illər həll olunmamış qalıbsa, deməli, əlbəttə, bunun səbəbləri var. Amma yenə də mən bu məsələyə nikbinliklə baxıram. Əminəm ki, biz bunu həll edəcəyik. Bunu etmək üçün bütün amillərdən istifadə edirik. Həm diplomatik, həm siyasi tədbirlər görülür, bunlar bizim mövqeyimizi möhkəmləndirir və artıq dünyada bu məsələyə obyektiv şəkildə yanaşılır.

Digər tərəfdən, onu da bilməliyik ki, yalnız və yalnız güclü iqtisadiyyat bizə imkan verəcək ki, istədiyimizə nail ola bilək. Ona görə bizim bütün səylərimiz iqtisadi potensialın güclənməsinə yönəldilir. Azərbaycanda gedən quruculuq, abadlıq işləri,

regional proqramların icrası, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi, gələn il Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istismara verilməsi Azərbaycanı iqtisadi cəhətdən çox güclü dövlətə çevirəcəkdir.

Biz bilirik ki, öz istəyimizə nail olmaq üçün güc olmalıdır. Biz bunu yaradırıq və bundan sonra da yaradacağıq. Ordu quruculuğuna böyük diqqət göstərilir. Orduya ayrılan xərclər ildən-ilə artır və 2005-ci ilin büdcəsində bu artım təxminən 40 faizdir. Bütünlükdə bütün sahələrə ayrılan xərclər artır və artmalıdır. Təkcə orduya yox, təhsil, səhiyyə xərclərinə və digər xərclərə böyük diqqət göstərilir. Ümumiyyətlə, bizim büdcəmiz artır və 2005-ci ildə 2 milyard dolları keçibdir. Amma bu, son hədd deyildir. Mən hesab edirəm ki, bu yaxınlarda büdcəyə yenidən baxılmalı və lazımi dəyişikliklər edilməlidir. 2006-cı ilin büdcəsi isə 3 milyard dollardan az olmamalıdır. Yəni bu onu göstərir ki, ölkə çox dinamik şəkildə inkişaf edir. Biz öz siyasətimizi düşünülmüş iqtisadi konsepsiya çərçivəsində aparırıq. Burada həm özəl sektorun, həm dövlət sektorunun, həm hökumətin, həm də sahibkarların fəaliyyətindən çox şey asılıdır.

Bilirsiniz ki, sahibkarlara ayrılan kreditlər ildən-ilə artır. Biz bu sahəyə də çox böyük diqqət göstəririk və bilirik, qabaqcıl dövlətlərin təcrübəsi göstərir ki, yalnız və yalnız özəl sektorun inkişafı, orta sinfin yaranması, iqtisadiyyatda liberallaşma ölkəni hərtərəfli inkişaf etdirə bilər. Qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatının inkişafı – bütün bu məsələlər gündəlikdədir. Biz bunları həll edirik və bundan sonra da həll edəcəyik.

Əlbəttə ki, sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Biz fəxr edirik ki, makroiqtisadi göstəricilərimiz – ümumi daxili məhsulun artımı, investisiyaların həcmi və s. yüksək səviyyədədir. Ancaq onu da bilirik ki, adi vətəndaş bütün bunlardan uzaqdır. O, ölkədə gedən prosesləri başqa meyarlarla ölçür. Ona görə bizim vəzifəmiz odur ki, hər bir vətəndaş, hər bir ailə yaxşılığa doğru meylləri hiss etsin. Buna görə maaşlar qaldırılır. Bilirsiniz ki, minimum əməkhaqqı iki dəfə qaldırılmışdır. Yenə də qaldırılmalıdır. Pensiyalar qaldırılır. Hesab edirəm ki, tələbə-

lərin təqaüdü bir neçə dəfə qaldırılmalıdır. Digər ödəmələr, müavinətlər artırılmalıdır.

Bizim məqsədimiz Azərbaycanı inkişaf etdirmək, zəngin dövlətə çevirmək və Azərbaycan xalqının həyat səviyyəsini yaxşılaşdırmaqdır. Biz buna nail olacağıq. Hər halda, həm iqtisadi göstəricilər, həm də transmilli layihələrin həyata keçirilməsi belə deməyə əsas verir.

2005-ci il çox mühüm il olacaqdır. 2005-ci ildə parlament seçkiləri keçiriləcəkdir. Mən şübhə etmirəm ki, parlament seçkiləri şəffaf, ədalətli şəkildə keçiriləcəkdir. Azərbaycan xalqının iradəsi seçkilərin nəticəsində öz əksini tapacaqdır. Əminəm ki, seçkilərdən sonra demokratikləşmə prosesi daha da sürətlə gedəcək, Azərbaycan Dünya Birliyinə daha da fəal inteqrasiya edəcək, bizim inteqrasiya siyasətimiz daha da yüksək sürətlə gedəcəkdir.

Mən bu gün bəlkə də çox nikbin danışıram. Əlbəttə, problemlər də mövcuddur. Biz bu problemləri bilirik. İşsizlik, yoxsulluq, digər problemlər var, amma biz onları həll edirik. İstərdik ki, daha da sürətlə həll edək. İstərdik ki, yeniləşmə, müasirləşmə, yaxşılığa doğru meyllər daha da sürətlə getsin. Amma bilin ki, əlimizdən gələni edirik və bunu bir konsepsiya şəklində həyata keçiririk. Həm xarici siyasətdə, həm daxili siyasətdə, həm də iqtisadi islahatlarda. Ölkəmiz kompleks şəkildə inkişaf edir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsində söylənilən fikirlər, xarici qonaqlarımızın çıxışları, dünyanın aparıcı ölkələrinin dövlət başçılarının təbrik məktubları onu göstərir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir.

Mən əminəm ki, Azərbaycan ildən-ilə güclənəcək, öz iqtisadi potensialını artıracaq, dünyada mövqelərini möhkəmləndirəcək, Dünya Birliyinə inteqrasiya siyasətini uğurla həyata keçirəcək, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində öz mövqelərindən dönməyəcək və nail olacağıq ki, qarşımızda duran bütün məsələlər, vəzifələr öz həllini tapsın.

Əziz dostlar, bu gözəl bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Sağ olun!

* * *

*Xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirləri prezident İlham Əliyevi əlamətdar bayram – Respublika günü münasibətilə təbrik edərək dedilər ki, bu gözəl bayram Azərbaycan xalqının müstəqil dövlət qurmaq əzmini təsdiq edir. Ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş və sabit dövlətə çevrilmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva respublika ictimaiyyətinin nümayəndələri, Milli Məclisin deputatları ilə, idmançılarla görüşüb səmimi söhbət etdilər, onlarla xatirə şəkilləri çəkdirdilər.*

*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva muğam ustaları və digər incəsənət xadimləri ilə Azərbaycan mədəni sərvətlərinin qorunması və təbliği ilə bağlı görülən tədbirlər barədə fikirlərini bölüşdü.*

## İSLAM ÖLKƏLƏRİ ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TUVEYCRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 may 2005-ci il*

*Azərbaycanın bu təşkilatla yaxşı əməkdaşlıq etdiyini bildirən Azərbaycan prezidenti İlham Əliyev doktor Əbdüləziz bin Osman Əl-Tuveycrinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərə gəlməsini elm, təhsil və mədəniyyət sahəsində fikir mübadiləsi aparılması, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, həmçinin birgə proqramların həyata keçirilməsi işində mühüm rol oynayacağını vurğuladı.*

*Azərbaycanda təhsilin, elmin, mədəniyyətin inkişafına böyük əhəmiyyət verildiyini nəzərə çatdıran prezident İlham Əliyev bu sahələrdə ölkəmizə göstərdiyi köməyə görə təşkilata minnətdarlığını bildirdi.*

*Səudiyyə Ərəbistanına səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı orada Kralla və yüksək vəzifəli digər rəsmi şəxslərlə keçirdiyi görüşlərin, apardığı danışıqların ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət göstərdiyini vurğuladı.*

*Cənab Əbdüləziz bin Osman Əl-Tuveycri mayın 25-də Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verildiyi günlərdə və 28 May – Respublika Günü ərəfəsində prezident İlham Əliyev ilə görüşməyindən şərəf duyduğunu bildirdi. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ehtiramla ziyarət etdiyini söylədi.*

*Qonaq Azərbaycanda bütün sahələrdə, o cümlədən elm, təhsil və mədəniyyət sahəsində böyük inkişafın şahidi olduğunu bildirdi. Ölkənin sürətli inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəsna rolu olduğunu söyləyən cənab Əbdüləziz bin Osman Əl-Tuveycri prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini vurğuladı.*

*Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini söyləyən qonaq dövlətimizin başçısının Səudiyyə Ərəbistanına səfərinin bu əlaqələrin daha da inkişaf etməsi işində böyük rol oynadığını bildirdi.*

*Doktor Əbdüləziz bin Osman Əl-Tuveycri Azərbaycan prezidenti İlham Əliyevə İslam elm, təhsil və mədəniyyət təşkilatına İSESCO-ya göstərdiyi köməyə görə bu təşkilatın baş mükafatını təqdim etdi.*

## BEYNƏLXALQ HƏRBİ İDMAN ŞURASININ PREZİDENTİ, BRİQADA GENERALI CİANNİ QOLAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 may 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 25-də Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin çox əlamətdar hadisə olduğunu bildirdi.*

*Son illər ölkəmizin həyatının bütün sahələrində böyük uğurlar qazanıldığını nəzərə çatdıran prezident İlham Əliyev respublikamızda hərbi idman sahəsində də böyük işlər görüldüyünü, çox əhəmiyyətli yarışların keçirildiyini və idmanın inkişafına daim diqqət və qayğı göstərildiyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, idmanın inkişafı ölkədə həm ümumi inkişafa, həm də gənclərin fiziki-mənəvi hazırlığının daha da möhkəmləndirilməsi işinə xidmət edir.*

*Cənab Cianni Qolan 127 ölkəni əhatə edən Beynəlxalq Hərbi İdman Şurası adından Azərbaycan prezidenti ilə görüşdən şərəf duyduğunu bildirdi və 28 May – Respublika günü münasibətilə dövlətimizin başçısı İlham Əliyevi təbrik etdi. Qonaq onun başçılıq etdiyi nümayəndə heyəti üzvlərinin Beynəlxalq Hərbi İdman Şurası adından Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və şəhidlərin məzarlarını ehtiramla ziyarət etdiklərini söylədi.*

*Azərbaycanın qədim tarixə malik olduğunu xatırladan general Cianni Qolan ölkəmizdə çox güclü fiziki hazırlığa malik olan gənc idmançıların yetişdiyini vurğuladı, respublikamızın Beynəlxalq Hərbi İdman Şurasında fəal iştirak etməsindən*

*məmnun qaldığını* bildirdi. *Azərbaycanda çox böyük əhəmiyyətli* idman *tədbirlərinin keçirildiyini söyləyən* qonaq *ölkə idmançılarının* Afina Olimpiadasında *böyük uğurlar qazandıqlarını vurğuladı və bütün bu nailiyyətləri prezident İlham Əliyevin* idmana *göstərdiyi diqqət və qayğının nəticəsi* kimi *qiymətləndirdi. O,* idmanda *qazanılan uğurlara, böyük inkişafa və bu sahəyə göstərdiyi dəstəyə görə şəxsən prezident İlham Əliyevə Beynəlxalq Hərbi İdman Şurasının ehtiramını çatdırdı.*

*Cənab* Cianni Qolan *məlumat* verdi ki, *Beynəlxalq Hərbi İdman Şurası İcraiyyə və* Direktorlar *Şurasının toplantısında bu təşkilatın inkişafına göstərdiyi xidmətlərə görə Azərbaycan prezidenti, Respublika Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Heydər oğlu Əliyev həmin təşkilatın ən yüksək mükafatı* olan Ali orden *ilə təltif olunmuşdur.* Qonaq *yüksək mükafatı dövlətimizin başçısına təqdim etdi.*

*Bu yüksək mükafata görə* minnətdarlığını *bildirən prezident İlham Əliyev* bundan sonra da ölkəmizdə və regionda *idmanın inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini vurğuladı.*

## GORANBOY RAYONU RƏHİMBƏY QULUBƏYOV ADINA ŞƏFƏQ KƏND ORTA MƏKTƏBİNƏ

Hörmətli müəllimlər!

Əziz şagirdlər!

Sizi məktəbinizin 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik, səadət və işlərinizdə uğurlar arzulayıram.

Şəfəq kənd orta məktəbinin yubileyi rayonunuzun mədəni həyatında əlamətdar hadisədir. XIX əsrin ikinci yarısından etibarən Azərbaycanda yeni tipli məktəblərin yaranması ilə bağlı proseslər sizin regionda da geniş vüsət almışdır. 1905-ci ildə Azərbaycan maarifçilərinin qabaqcıl nümayəndələrinin fədakarlıqları nəticəsində fəaliyyətə başlamış məktəbimiz yarandığı ildən bu günədək şərəfli yol keçərək ölkəmizin qabaqcıl təhsil ocaqlarından birinə çevrilmişdir. İftixar hissi ilə qeyd etmək lazımdır ki, vaxtilə məktəbimizdə təhsil almış yüzlərlə məzun öz əməyi ilə ölkə iqtisadiyyatının, elminin və mədəniyyətinin müxtəlif sahələrinin inkişafında xalqa xidmət göstərməkdədir. İnanıram ki, məktəbimizin kollektivi nəsillərin estafetini davam etdirərək gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onların vətənə, xalqa layiqli övlad kimi yetişdirilməsi və savadlanması naminə Azərbaycan təhsilinin inkişafına öz layiqli töhfəsini verəcək, xalqımızın ümummilli lideri Heydər Əliyevin tövsiyələrinə sadiq qalaraq təhsilimizin tərəqqisi üçün səylərini bundan sonra da əsirgəməyəcəkdir.

Bu yubiley günlərində sizi, məktəbinizin məzunlarını, eləcə də respublikamızın bütün pedaqoji ictimaiyyətini bir daha təbrik edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 may 2005-ci il*

## ŞƏKİ RAYONU GÜLARƏ QƏDİRBƏYOVA ADINA BAŞ GÖYNÜK KƏND 1 NÖMRƏLİ ORTA MƏKTƏBİNƏ

Hörmətli müəllimlər!

Əziz şagirdlər!

Məktəbinizin 120 illik yubileyi münasibətilə Sizi və rayonunuzun pedaqoji ictimaiyyətini səmimi-qəlbdən təbrik edirəm.

1884-cü ildən fəaliyyətə başlamış məktəbiniz uzun illər ərzində şərəfli bir yol keçmiş, Azərbaycanda maarifçilik hərəkatının və təhsilin inkişafına öz dəyərli töhfələrini vermişdir. Məktəb mütərəqqi pedaqoji ənənələrinə sadiqliyini bütün dövrlərdə qoruyub saxlaya bilmiş və bunu ölkəmizdə təhsil islahatlarının geniş vüsət aldığı indiki vaxtda da öz əməli fəaliyyəti ilə sübut etmişdir. Siz ilk təhsillərini məktəbinizdə almış və bu gün respublikamızın sosial-iqtisadi və mədəni həyatının müxtəlif sahələrində müvəffəqiyyətlə çalışan ziyalılarla haqlı olaraq fəxr edə bilərsiniz.

İnanıram ki, məktəbinizin pedaqoji kollektivi əsasını Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qoyduğu təhsil islahatları strategiyasına sadiqlik göstərərək müstəqil Azərbaycanda aparılan təhsil quruculuğunun ön cərgələrində addımlayacaq, ölkəmiz üçün dərin bilikli, müasir təfəkkürlü, vətənpərvər gənclər tərbiyə etmək üçün var qüvvəsini əsirgəməyəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə məktəbinizin müəllim və şagirdlərinə, məzunlarına, rayonunuzun bütün təhsil işçilərinə səadət, əmin-amanlıq və böyük nailiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 may 2005-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ ÇIXIŞ

*Prezident sarayı*

*30 may 2005-ci il*

Bir neçə gün bundan əvvəl Azərbaycanda çox böyük tarixi hadisə baş verdi. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi tarixi hadisədir. Dünya miqyaslı enerji layihəsi artıq fəaliyyətə başladı. Biz çox gözəl mərasim keçirdik. Bu münasibətlə, kəmərin istismara verilməsi ilə əlaqədar bütün Azərbaycan xalqını bir daha təbrik edirəm. Mən əminəm ki, kəmər Azərbaycan xalqının gələcəyinə çox səmərəli xidmət edəcək, bizə imkan verəcək ki, öz iqtisadi potensialımızı gücləndirək və Azərbaycanı hərtərəfli inkişaf etdirək.

Mən hesab edirəm, bu vaxta qədər görülən işlər onu göstərir ki, seçilmiş strategiya və siyasət çox düzgün seçilmişdir. Azərbaycanın həm neft sektoru, həm də qeyri-neft sektoru çox uğurla inkişaf edir. İndiyədək görülmüş və gələcəkdə görüləcək işlər imkan verəcək ki, ölkəmiz daha da güclənsin və Azərbaycan xalqının həyat səviyyəsi daha da yaxşılaşsın.

Mən çox şadam ki, iqtisadi islahatlarımız uğurla davam etdirilir və bunu həm özümüz bilirik, görürük və həm də dünyanın aparıcı maliyyə qurumları bunu qeyd edirlər. Bu yaxınlarda Beynəlxalq Valyuta Fondunun verdiyi bəyanata görə, Azərbaycan bu il dünyada iqtisadi artım baxımından lider ölkə olacaqdır. Biz elə etməliyik ki, yaranmış bütün bu yeni şərait Azərbaycan xalqının maraqlarına xidmət etsin. Neftdən əldə olunacaq gəlirlər ədalətli bölünsün, hər bir vətəndaş öz həyat səviyyəsində bunu hiss etsin və görsün.

Aprel ayının sonunda biz 2005-ci ilin birinci rübünün yekunlarını müzakirə etdik. Həm əldə olunmuş uğurları qeyd etdik, həm də mövcud olan problemləri də müzakirə etdik. Deyə bilərəm ki, iqtisadi inkişaf strategiyası uğurla davam etdirilir, 5 ayın yekunları hələ bizə tam təqdim olunmayıb, amma ilkin məlumatlar onu göstərir ki, bu müddətdə göstəricilərimiz yüksək səviyyədədir. Ümumi daxili məhsul 5 ayda ən azı 15 faiz artacaqdır və çox sevindirici haldır ki, onun 9 faizi qeyri-neft sektorunda yaranır. Bizim yüksək iqtisadi sürətimiz bəziləri tərəfindən yalnız neft amili ilə bağlanılır. Amma qeyri-neft sektorunda əldə olunmuş nailiyyətlər və ümumi daxili məhsulun 9 faizinin bu sahənin payına düşməsi onu göstərir ki, ölkə hərtərəfli inkişaf etdirilir.

Sənaye istehsalı 5 ayda təxminən 16 faiz, bəlkə ondan da çox artacaqdır. Bu da Azərbaycanın müasir tarixində görünməmiş bir rəqəmdir. Bizdə son illər ərzində həmişə sənaye istehsalı təxminən 5-6 faiz artmışdır. Çox şadam ki, regionların sosial-iqtisadi inkişaf proqramı da uğurla icra edilir, xüsusilə yeni iş yerlərinin açılması istiqamətində mühüm addımlar atılır. Son rəqəmlər bu gün mənə təqdim olunubdur. 2003-cü ilin oktyabr ayından bu günə qədər Azərbaycanda 217 min yeni iş yeri açılıbdır ki, onların da 113 mini daimi iş yeridir.

Əməkhaqqı qaldırılır. Azərbaycanda minimum əməkhaqqının qaldırılması artıq ənənəvi xarakter alıbdır və əminəm ki, biz bu məsələyə yenidən baxmalıyıq və bunu daha da qaldırmalıyıq. Bu gün Azərbaycanda orta əməkhaqqı 550 min manat və ya 115 dollardır. Şübhə etmirəm ki, bu rəqəm ildən-ilə artacaqdır. Orta əməkhaqqı son zamanlar 25 faiz artmışdır. Eyni zamanda, pensiyalar da orta hesabla 25 faiz artmışdır. Bu onu göstərir ki, ümumi iqtisadi strategiyamız uğurla icra edilir. Ən önəmlisi odur ki, bu siyasətin birbaşa əhalinin həyat səviyyəsinə təsiri vardır. Bizim əsas vəzifəmiz məhz bundadır. Mən bunu bir neçə dəfə demişəm ki, əlbəttə, biz öz makroiqtisadi nailiyyətlərimizlə, göstəricilərimizlə kifayətlənməməliyik. Elə etməliyik ki, hər bir vətəndaş, hər bir ailə bunu öz gündəlik həyatında hiss etsin

və görsün. Mən çox şadam ki, həm ümumi iqtisadi inkişaf uğurla gedir, həm də sosial məsələlər öz həllini tapır.

Keçən müşavirədə bizi narahat edən problemlərə də toxunduq. Onlardan ən önəmlisi qiymətlərin, inflyasiyanın qalxması ilə bağlı idi. Hesab edirəm ki, bu bir ay ərzində görülmüş tədbirlər inflyasiyanın qabağını aldı. Vəzifə də məhz belə qoyulmuşdur ki, inflyasiya dayanmalıdır, nəinki dayanmalı, aşağı düşməlidir. Bu gün hamımız bilirik ki, qiymətlər aşağı düşməyə başladı. İnflyasiyanın sürəti dayandırıldı və əminəm ki, ilin sonuna qədər biz bu istiqamətdə daha da ciddi addımlar atmalıyıq və inflyasiyanın səviyyəsi aşağı düşməlidir. Bunu etmək üçün müxtəlif tədbirlər görülməlidir. Onların bəziləri artıq görülüb, bəziləri görüləcəkdir. Əlbəttə, nəzərdə tutulan fərman da imzalanacaqdır. Mən istəyirəm ki, biz bu gün öz diqqətimizi bu problemə yönəldək və antiinflyasiya tədbirlərinin güclənməsi haqqında imzalanacaq fərmanın layihəsini müzakirə edək. Elə edək ki, Azərbaycanda makroiqtisadi sabitlik pozulmasın, əksinə, möhkəmlənsin və bizim iqtisadi inkişafımız daha da uğurla davam etdirilsin.

Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəndən sonra Azərbaycanda yeni bir şərait yaranacaqdır. Neftdən gələn böyük həcmdə vəsait ölkəmizin hərtərəfli inkişafına, o cümlədən iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına xidmət etməlidir. Biz buna hazır olmalıyıq. Bu böyük vəsaiti səmərəli şəkildə idarə etməliyik. Elə etməliyik ki, həm ölkədə gedən inkişaf meylləri güclənsin, infrastruktur layihələri icra edilsin. Eyni zamanda, bu böyük pul kütləsi bizim makroiqtisadi sabitliyimizə müdaxilə etməsin, qiymətlər qalxmasın və inflyasiyanın səviyyəsini normal səviyyədə saxlaya bilək. Bütün bunları gərək biz bu ilin sonuna qədər edək. Çünki 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyətindən Azərbaycana yüz milyon dollarla vəsait gələcəkdir. Biz gərək buna hazır olaq. Elə edək ki, qısa müddət ərzində ölkəmiz müasirləşsin, müasir infrastruktur yaransın və Azərbaycan xalqı öz gündəlik həyatında bütün bu müsbət dəyişiklikləri tezliklə hiss etsin.

# TÜRKİYƏNİN ATATÜRK KÜLTÜR, DİL VƏ TARİX YÜKSƏK QURUMUNUN SƏDRİ PROFESSOR SADİQ KAMAL TURAL VƏ ATATÜRK ARAŞDIRMALAR MƏRKƏZİNİN SƏDRİ PROFESSOR MEHMED SARAY İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 may 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev «Erməni iddiaları və Azərbaycan gerçəkliyi» mövzusunda Bakıda keçirilən ikinci beynəlxalq simpoziumu yüksək dəyərləndirdi. Onillərdən bəri Azərbaycan və Türkiyə dövlətlərinin ermənilərin siyasi və ideoloji təxribatları və əsassız ərazi iddiaları ilə üz-üzə qaldığını nəzərə çatdıran prezident İlham Əliyev bildirdi ki, yalnız birgə əməkdaşlıq əlaqələrimizi gücləndirməklə, yüzillik mənfur təcrübəyə malik erməni təbliğatının və qərəzli türk düşmənçiliyinin qarşısını ala və dünyanı öz haqq işimizə inandıra bilərik. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu simpozium erməni–türk münasibətlərini obyektiv araşdırmalara cəlb etməklə bu münasibətlərin əsl mahiyyətinin açılmasında öz sanballı sözünü deyəcək, eyni zamanda, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, uydurma erməni soyqırımı barədə elmi-tarixi gerçəkliyin dünya ictimaiyyətinə çatdırılması işində ciddi dönüş yaradacaqdır.*

*Belə tədbirlərin gələcəkdə daha geniş məkanda keçirilməsinin vacibliyini vurğulayan prezident İlham Əliyev Azərbaycan parlamentinin Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinə başçılıq etdiyi zaman və bundan sonra da beynəlxalq təşkilatların tədbirlərindəki çıxışlarında bu məsələlərə daim xüsusi diqqət yetirdiyini nəzərə çatdırdı. Döv-*

lətimizin başçısı bir daha vurğuladı ki, bizim işimiz haqq işidir və bunun bütün dünyada yayılması, təbliğ olunması çox vacibdir.

Azərbaycanda Atatürk Mərkəzinin xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmasından məmnunluqla söhbət açan professor Mehmed Saray dedi ki, ulu öndər Heydər Əliyev Azərbaycan və bütövlükdə türk dünyası haqqında həqiqətlərin beynəlxalq aləmdə yayılması və təbliğ olunması işinə daim böyük önəm verirdi. Türk dünyası qarşısında Atatürkün və Heydər Əliyevin böyük xidmətlər göstərdiyini, onların ideyalarının təbliği və yayılmasının vacibliyini vurğulayan qonaq dedi ki, ulu öndər Heydər Əliyevin «bir millət, iki dövlət» ideyası xalqlarımızı daha da sıx birləşdirir. Mehmed Saray bildirdi ki, prezident İlham Əliyev hazırda bu siyasəti uğurla davam etdirir, xarici ölkələrə bütün səfərləri zamanı Azərbaycan və türk dünyası haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırır və bu, türk dünyasında böyük maraqla qarşılanır.

Professor Sadiq Kamal Tural türk dünyasının böyük şəxsiyyəti Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində yaradılmış Azərbaycanda Atatürk Mərkəzinin yüksək səviyyədə fəaliyyət göstərdiyini bildirdi, onun türkdilli xalqların birliyinə daim xüsusi diqqət yetirməsindən məmnunluqla bəhs etdi. O dedi ki, Heydər Əliyev Atatürk Araşdırmalar Mərkəzi və digər qurumlarla əlaqələrin möhkəmləndirilməsinə böyük əhəmiyyət verirdi və indi biz bunun müsbət nəticələrini görürük. Qonaq Azərbaycanda bu sahədə əlaqələrin genişlənməsi üçün yaradılmış gözəl şəraitə görə prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi.

## RUSİYA FEDERASİYASININ HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2005-ci il*

*Həştərxan əhalisinin ehtiramını və salamlarını Azərbaycan prezidenti İlham Əliyevə çatdıran cənab Aleksandr Jilkin Rusiya Federasiyasında, o cümlədən Həştərxanda ümummilli lider Heydər Əliyevə böyük ehtiram bəslənildiyini vurğuladı. O dedi ki, vaxtilə Heydər Əliyevin köməyi ilə Həştərxanda Azərbaycanın ictimai və dövlət xadimi Nəriman Nərimanovun heykəli ucaldılmış, bir şəhərə və rayona onun adı verilmişdir.*

*Prezident İlham Əliyevin və prezident Vladimir Putinin Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin iki dəfə artırılmasını mühüm vəzifə kimi qarşıya qoyduqlarını nəzərə çatdıran qonaq Həştərxanda bununla əlaqədar konkret işlər görüldüyünü bildirdi.*

*Azərbaycanın müvafiq strukturları ilə Həştərxan arasında çox uğurlu əməkdaşlıq edildiyini vurğulayan qubernator vilayətdə Azərbaycan diasporunun geniş fəaliyyət göstərdiyini söylədi. O, əmin olduğunu bildirdi ki, Həştərxan vilayəti ilə Azərbaycan arasında əlaqələr bundan sonra daha da möhkəmlənəcək və genişlənəcəkdir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Rusiyanın müxtəlif vilayətlərinin uğurlu əməkdaşlığını, ticarət dövriyyəsinin artmasını ölkələrimiz arasında əlaqələrin genişlənməsinin yaxşı nümunəsi kimi qiymətləndirdi.*

*Həştərxanda Azərbaycan diasporunun fəaliyyətinə toxunan dövlətimizin başçısı, ümumiyyətlə, Rusiyada son vaxtlar diasporumuzun strukturlaşması sahəsində irəliyə doğru böyük*

*addımlar atıldığını* bildirdi. *Prezident İlham Əliyev Həştərxan*da da *Azərbaycan* diasporunun *fəaliyyətinin xalqlarımız* arasında *əlaqələrin* daha da *genişləndirilməsi işində mühüm* rol *oynadığını vurğuladı.*

*Dövlətimizin başçısı əmin olduğunu* bildirdi ki, *Azərbaycan ilə* Rusiya, o *cümlədən Həştərxan arasında əməkdaşlıq* bundan sonra da *genişlənəcək və* daha da *möhkəmlənəcəkdir.*

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ÖLKƏLƏRİNİN TİCARƏT VƏ SƏNAYE PALATALARI RƏHBƏRLƏRİ ŞURASININ 3-cü İCLASININ İŞTİRAKÇILARINA

Hörmətli Şura üzvləri!

Sizi, MDB Ölkələri Ticarət və Sənaye Palataları Rəhbərləri Şurasının 3-cü iclasının iştirakçılarını Bakıda böyük məmnunluqla salamlayıram. Ölkələrimizin iş adamları arasında sıx əlaqələrin yaranmasında, mövcud işbirliyinin daha da genişlənməsində və yeni layihələrin həyata keçirilməsində sizə uğurlar arzulayıram.

Bu günlərdə xalqımızın və bütövlükdə regionumuzun müasir tarixində fövqəladə hadisə baş verdi. Şərq–Qərb dəhlizinin ən mühüm elementlərindən olan Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan ixrac neft boru kəmərinin Azərbaycan hissəsi istismara verildi. Eyni zamanda, Azərbaycan Respublikası qeyri-neft sektorunun inkişafına, yoxsulluğun azaldılmasına, yeni iş yerlərinin açılmasına, sahibkarlığın dəstəklənməsinə, əlverişli investisiya mühitinin yaradılmasına və bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olunmasına xüsusi diqqət yetirir.

Respublikamızın MDB ölkələri ilə səmərəli əməkdaşlığın təmin olunmasında və bu sahədə mövcud problemlərin həlli istiqamətində ticarət və sənaye palatalarının üzərinə mühüm vəzifələr düşür. Əminəm ki, bu iclasda çox faydalı fikir mübadiləsi aparılacaq və qəbul ediləcək qərarlar biznes əlaqələrinin inkişafına güclü təkan verəcəkdir.

Hörmətli iclas iştirakçıları!

Bir daha sizi Azərbaycan torpağında salamlayıram, işlərinizdə müvəffəqiyyətlər, ölkələrinizə sülh və əmin-amanlıq diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyun 2005-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Dövlət bayramı – Rusiya Federasiyasının dövlət suverenliyi haqqında Bəyannamənin qəbul olunması günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

İnanıram ki, Azərbaycanla Rusiya arasında dostluğun, mehriban qonşuluğun, qarşılıqlı dəstəyin, zamanın sınağından keçən dərin ənənələri bundan sonra da hərtərəfli əməkdaşlığımız və strateji tərəfdaşlığımız üçün möhkəm bünövrə olacaqdır.

Əminəm ki, bizim aramızda yaranmış qarşılıqlı anlaşma və konstruktiv dialoq mühiti gələcəkdə də Azərbaycan–Rusiya dövlətlərarası münasibətlərinin inkişafına və dərinləşməsinə kömək edəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, bütün rusiyalılara isə sülh, firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyun 2005-ci il*

## FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM QLORİYA MAKAPPAQAL ARROYOYA

Hörmətli xanım Prezident!

Filippin Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Filippin münasibətlərinin inkişafı bundan sonra da dostluq və əməkdaşlıq zəminində davam edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Filippin xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyun 2005-ci il*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında gündən-günə genişlənən əlaqələr, dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafı bundan sonra da xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına sülh və rifah diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyun 2005-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ**

Hörmətli cənab Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Kraliçanın təvəllüd günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Birləşmiş Krallıq arasında yaranmış münasibətlərin inkişaf dinamikasından məmnunluq duyuram. Çox şadam ki, ölkələrimizin qarşılıqlı fayda əsasında həyata keçirdiyi birgə əməkdaşlığında Azərbaycan üçün böyük strateji əhəmiyyəti olan neft və qaz layihələrinin xüsusi yeri vardır.

Fürsətdən istifadə edərək Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə göndərdiyiniz səmimi təbrik məktubuna görə Sizə öz təşəkkürümü bildirirəm.

Əminəm ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasında bərqərar olan tərəfdaşlıq münasibətləri həm ikitərəfli əlaqələrimizin durmadan inkişafına, həm də beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı etimad və dəstək əsasında səmərəli işimizə daim öz müsbət təsirini göstərəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyun 2005-ci il*

## SENATOR ÇARLZ HEYQLİN BAŞÇILIQ ETDİYİ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 iyun 2005-ci il*

*Qonaqların Azərbaycana səfərindən məmnunluğunu, ölkələrimiz arasında ikitərəfli münasibətlərin səviyyəsindən çox razı olduğunu söyləyən prezident İlham Əliyev indiki səfərin qarşılıqlı əlaqələrin daha da inkişafına xidmət edəcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı dedi ki, bizim hökumətlər səviyyəsində çox fəal əlaqələrimiz var, ölkələrimiz arasında enerji, təhlükəsizlik, sülhməramlı əməliyyatlar, demokratik proseslərin inkişaf etdirilməsi sahələrində əməkdaşlıq çox səmərəlidir və gözəl nəticələri var. Bilirəm ki, siz burada neft infrastrukturlarından birinə baş çəkmisiniz.*

*Mayın 25-də Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin əlamətdar hadisə olduğunu nəzərə çatdıran prezident İlham Əliyev bildirdi ki, bu bizim əməkdaşlığımızın parlaq nümunəsidir. Mən açılış mərasimində vurğuladım ki, ABŞ-ın dəstəyi olmadan bu böyüklükdə enerji layihəsinin həyata keçirilməsi mümkün olmazdı.*

*2002-ci ildə Vaşinqtonda senatorla görüşünü məmnunluqla xatırlayan prezident İlham Əliyev dedi ki, o zaman biz bu məsələləri müzakirə etmişdik və indi bu layihə artıq başa çatır. İkitərəfli münasibətlərimizin digər istiqamətləri də çox uğurla inkişaf edir və biz bundan çox məmnunuq. ABŞ və Azərbaycan yaxşı dostdur və mən əminəm ki, bu tərəfdaşlıq davam edəcəkdir.*

*Prezident İlham Əliyevlə görüşdən şərəf duyduğunu söyləyən senator Çarlz Heyql sonuncu görüşlərini xatırlayaraq dedi ki, o zaman Siz hələ prezident deyildiniz və mən Azərbaycan xalqına minnətdaram ki, Sizi prezident seçibdir. Çox məmnunam ki, atanızla tanış idim, o çox həlledici anda ölkənizə rəhbərlik edərək, qətiyyətli liderliyini nümayiş etdirdi. Onun gördüyü işlər dünyada olan müttəfiqləriniz, o cümlədən ABŞ tərəfindən də yüksək qiymətləndirilir.*

*Cənab Heyql bildirdi ki, ölkələrimizin regiondakı mAraqları üst-üstə düşür. Region uzun illər ərzində çətinliklərlə üzləşib, lakin onun böyük potensialı var. ABŞ ilə Azərbaycan arasında münasibətlər nəinki təhlükəsizlik sahəsində, həm də iqtisadi və demokratik sahələrdə də güclənməlidir. Mən bilirəm ki, siz son illər ərzində böyük tərəqqi əldə etmisiniz. Bu yaxınlarda BTC neft kəmərinin Azərbaycan hissəsinin istismara verilməsi regionda müdrik idarəçilik sayəsində necə yüksək nəticələrin əldə olunduğunu sübut edir.*

## DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU XANIM DONNA DOUSET-KOİROLONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 iyun 2005-ci il*

*Prezident İlham Əliyev Azərbaycanın Dünya Bankı ilə səmərəli əməkdaşlığının səviyyəsindən məmnunluğunu və bunun gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu vurğuladı. Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini xatırladan prezident İlham Əliyev eyni zamanda son vaxtlar inflyasiyanın sürətinin artdığını və onun qarşısını almaq üçün tədbirlər görüldüyünü bildirdi.*

*Əhalinin pul gəlirlərinin, orta aylıq əməkhaqqının və adambaşına düşən ÜDM-in həcminin artdığını qeyd edən prezident İlham Əliyev dedi ki, gələcəkdə neftdən gələn gəlirlərin hesabına yoxsulluğun azaldılmasına, əhalinin rifah halının yüksəldilməsinə nail ola biləcəyik.*

*Dövlətimizin başçısı Dünya Bankı ilə əlaqələrin bundan sonra da davam etdiriləcəyini, ölkəmizdə daha yaxşı iqtisadi mühitin yaradılacağını söylədi.*

*Dünya Bankı ilə Azərbaycan hökuməti arasında uğurlu əməkdaşlığın səviyyəsindən məmnunluğunu bildirən xanım Donna Douset-Koirolo təmsil etdiyi qurumun ölkəmizdə bir çox layihələrin həyata keçirilməsini maliyyələşdirdiyini və bu sahədə hökumətə texniki yardım göstərdiyini xatırlatdı. Azərbaycanda ümumdaxili məhsulun artımının sürətini və iqtisadi tərəqqini yüksək qiymətləndirən qonaq prezident İlham Əliyevin bu yaxınlarda antiinflyasiya tədbirləri haqqında imzaladığı sərəncamı alqışladığını bildirdi.*

Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsinin açılışı münasibətilə dövlətimizin başçısını bir daha təbrik edən qonaq Şərq–Qərb nəqliyyat dəhlizinin region ölkələrinin iqtisadi tərəqqisində və infrastrukturun inkişafında mühüm rolunu vurğuladı. O, Dünya Bankının bu sahədə region ölkələrinə, xüsusilə Azərbaycana gələcəkdə də kömək göstərəcəyini, ölkəmizlə faydalı əməkdaşlığın uğurla davam edəcəyinə əmin olduğunu bildirdi.

## ABŞ MÜLKİ TƏDQİQATLAR VƏ İNKİŞAF FONDUNUN PREZİDENTİ TOM OVENSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev cənab Ovensin ölkəmizə üçüncü dəfə səfər etməsindən məmnunluğunu, ABŞ Mülki Tədqiqatlar və İnkişaf Fondunun Azərbaycan Milli Elmlər Akademiyası ilə sıx əlaqələrindən xəbərdar olduğunu vurğuladı.*

*Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətini yüksək qiymətləndirən qonaq ABŞ-ın Azərbaycanla elm sahəsində birgə işlər görməsi üçün şəraitin olduğunu bildirdi, başçılıq etdiyi fondun tarixi barədə məlumat verdi. O, fondun on il əvvəl ABŞ Konqresi tərəfindən yaradıldığını söyləyərək dedi ki, biz keçmiş Sovetlər İttifaqına daxil olan hər bir respublika ilə birgə layihələr həyata keçiririk. Fond müxtəlif ölkələrin elm adamlarının bir araya gələrək əməkdaşlıq etməsinə çalışır, onlara yardım edərək elm ilə kommersiya fəaliyyəti arasında əlaqələr yaradır. İndiyədək Azərbaycanda 2 milyon dollardan artıq həcmdə layihələr həyata keçirilmişdir ki, bu layihələrdən də əsas məqsəd ABŞ-la tərəfdaşlıq yaratmaqdır.*

*Prezident İlham Əliyev ABŞ Mülki Tədqiqatlar və İnkişaf Fondunun çox əhəmiyyətli işlə məşğul olduğunu vurğulayaraq dedi ki, Sovet İttifaqı dağıldıqdan sonra keçmiş respublikalarda elmlə məşğul olan insanlar maddi cəhətdən çox ağır vəziyyətə düşdülər. Halbuki əvvəllər alimlər cəmiyyətin ən hörmətli təbəqəsi kimi, yüksək məvaciblər alırdılar. Bu gün də alimlərin maddi vəziyyəti arzuolunan həddə çatmayıb, lakin Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri xüsusi məvacib alırlar və biz çalışacağıq ki, gələcəkdə onların sosial vəziyyəti daha da yaxşı olsun.*

# LİTVA RESPUBLİKASI SEYMİNİN SƏDRİ ARTURAS PAULAUSKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2005-ci il*

*Qonaqların Azərbaycana səfərinin əhəmiyyətli olacağını, ölkələrimiz arasında daha açıq dialoqa kömək edəcəyini vurğulayan prezident İlham Əliyev bildirdi ki, gələcək əməkdaşlığımız üçün yaxşı zəmin var. Prezident İlham Əliyev dedi ki, son iki ayda Litva prezidenti ilə iki dəfə – Moldovada GUAM-ın və Polşada Avropa Şurasının üzvü olan ölkələrin dövlət başçılarının sammitində görüşmüşük və aramızda yaxşı dialoq olubdur. Litvanın Avropa Atlantik məkanına inteqrasiyasının uğurlarına çox sevinirik və eyni zamanda, Azərbaycanın Avropa inteqrasiyası prosesində ikitərəfli əməkdaşlığımız çərçivəsində sizin dəstəyinizə ümid bəsləyirik. Azərbaycan Avropa strukturlarına fəal inteqrasiya siyasəti həyata keçirir. Ölkəmizin Avropa İttifaqının yeni qonşuluq siyasətinə daxil edilməsi göstərir ki, bu istiqamətdə fəal iş gedir. Azərbaycan NATO ilə münasibətlərində yeni mərhələ olan «fərdi əməkdaşlıq mərhələsinə» keçib və biz bu sahədə də Litvanın dəstəyinə ümid edirik.*

*Dövlətimizin başçısı vurğuladı ki, ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq üçün yaxşı imkanlar var. Beynəlxalq məsələlərdə möqelərimiz uyğun gəlir, iqtisadi sahələrdə əməkdaşlığımızı inkişaf etdirmək üçün ehtiyat imkanlarımız var. Həm Litva, həm də Azərbaycan dinamik inkişaf edən ölkələrdir. Bu yaxınlarda Azərbaycanın Maliyyə naziri Litvada səfərdə olub və orada sosial-iqtisadi sahədə görülən işləri yüksək qiymətləndir-*

mişdir. Hesab edirəm ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlığı gücləndirmək üçün yaxşı perspektivlərimiz var. Parlamentlərarası münasibətlərin fəallaşdırılması da çox əhəmiyyətlidir. Ölkələrimiz arasında bir qədər informasiya boşluğu var. Litvada nə baş verildiyi haqqında bizim məlumatımız az olur, eyni zamanda əksinə. Ona görə də parlamentlər, digər qurumlar və biznesmenlər arasında əlaqələrin olması çox vacibdir. Sizin bu səfərinizi də Azərbaycan və Litva arasında əməkdaşlığın sıxlaşması, yaxınlaşması baxımından yüksək qiymətləndiririk.

Qəbula görə təşəkkürünü bildirən Litva Seyminin sədri Arturas Paulauskas dedi ki, səfərdən məqsəd iki ölkə arasında əməkdaşlığı sıxlaşdırmaq, möhkəmləndirməkdir. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra icra strukturları səviyyəsində əlaqələr, səfərlər olub, amma parlamentlərarası əlaqələrdə müəyyən boşluq var idi. Bu, son 15 ildə Litva parlamenti sədrinin Azərbaycana ilk səfəridir və hesab edirəm ki, parlamentlərarası əlaqələrin fəallaşması baxımından əhəmiyyətli olacaqdır.

Cənab Paulauskas bildirdi ki, son 15 ildə Litva çox dəyişib, həm iqtisadi, həm də siyasi sahədə müəyyən nailiyyətlər vardır. 2007-ci ildə ölkəmiz Avropa valyutasına – avroya keçməlidir. Bu da makroiqtisadi sahədə müəyyən öhdəliklərlə bağlıdır, lakin Litvanın göstəriciləri yaxşıdır. Qonaq dedi ki, Avropa İttifaqına yeni daxil olan üç Baltikyanı ölkə – Estoniya, Latviya və Litva bu meyarlara uyğundur. Biz on illərlə öz iradəmizdən asılı olmayaraq, bir ölkənin tərkibində olmuşuq. İnsanların mentaliteti, tariximiz məcbur edir ki, bir-birimizi asan başa düşək və nailiyyətlərimizi, hətta səhvlərimizi qiymətləndirək. Məni sevindirir ki, Bakını Qafqaz ölkələrinin maliyyə mərkəzi adlandırırlar.

Seymin sədri daha sonra ölkəsinin parlament strukturlarının fəaliyyəti barədə məlumat verdi ki, öz təcrübələrini azərbaycanlı həmkarları ilə bölüşdürməyə hazır olduqlarını bildirdi.

## ÜMUMGÜRCÜSTAN KATOLİKOS-PATRİARXI II İLİAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev zati-müqəddəsləri II İlianın Azərbaycana gəlməsindən məmnun olduğunu bildirərək dedi ki, dost və qardaş Azərbaycana səfəriniz çox əhəmiyyətli olacaqdır. Ölkələrimiz arasında münasibətlər yüksək səviyyədədir. Tarixən belə olub və xalqlarımız müstəqillik əldə edəndən sonra gələcəyimizi birlikdə qururuq. Bütün sahələrdə fəal əməkdaşlıq edirik, siyasi, iqtisadi, humanitar və bütün başqa sahələrdə möhkəm qarşılıqlı etimad mövcuddur.*

*Prezident İlham Əliyev vurğuladı ki, hər iki ölkədə dini dözümlülük yüksək səviyyədədir.*

*Bu, müasir cəmiyyətin inkişafında mühüm amildir və biz buna çox böyük əhəmiyyət veririk. Azərbaycanda bütün dinlərin nümayəndələri mehriban bir ailə kimi yaşayırlar. Bilirik ki, Gürcüstanda da vəziyyət belədir və bu, ikitərəfli əməkdaşlığımızı möhkəmləndirmək üçün çox əhəmiyyətli amildir.*

*Ölkələrimizin rəhbərləri arasında qarşılıqlı anlaşmanın yüksək səviyyədə olduğunu xatırladan dövlətimizin başçısı dedi ki, bu, digər strukturların əməkdaşlığına da müsbət təsir göstərir. Əminəm ki, biz gələcəkdə də dostluq edəcək, bir-birimizə kömək göstərəcək və bir-birimizin nailiyyətlərinə sevinəcəyik.*

*Hörmətli qonağın respublikamızın gürcülər yaşayan bölgəsinə də gedəcəyindən xəbərdar olduğunu söyləyən prezident İlham Əliyev vurğuladı ki, bu çox maraqlı səfər olacaqdır. Gürcülərin Azərbaycanda, azərbaycanlıların Gürcüstanda yaşaması əlaqələrimizdə vacib amildir. Onların yaxşı yaşaması bizim ikitərəfli əməkdaşlığımızın gələcəyindən asılıdır. Mən*

*şadam ki, bu sahədə yaxşı anlaşma və yaxşı nəticələr var. Bu gün mən Sizin Azərbaycanın yüksək mükafatı – «Şöhrət» ordeni ilə təltif olunmağınız barədə Sərəncam imzalamışam və icazənizlə, Sizə təqdim edərdim. Bu mükafat Sizə Azərbaycan ilə Gürcüstan arasında dostluq əlaqələrinin möhkəmlənməsində xidmətlərinizə görə verilir.*

*Prezident İlham Əliyevi gürcü pravoslav kilsəsi, öz adından salamlayan II İlian ona Gürcüstan prezidenti Mixeil Saakaşvilinin səmimi arzularını çatdırdı.*

*Hörmətli qonaq dedi ki, Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlər çox ölkələr üçün həqiqətən nümunədir. Bunun əsasını rəhmətlik atanız, prezident Heydər Əliyev qoymuşdur. Onu şəxsən tanıyırdım və onunla görüşümü həmişə xatırlayıram. Həmçinin Sizin köməyiniz sayəsində ölkələrimiz, xalqlarımız arasında ən yaxşı münasibətlər yaranmışdır. Biz əlimizdən gələni edirik ki, Gürcüstanda yaşayan azərbaycanlılar özlərini yaxşı hiss etsinlər, Prezidentimiz onlara dediyi kimi, dövlət idarəçiliyinin bütün sahələrində iştirak etsinlər. Azərbaycanda yaşayan gürcülərin də vəziyyətinin yaxşı olması atanızın və Sizin xidmətlərinizdir. İndi hər iki dövlətə cavan prezidentlər başçılıq edir və sizin üzərinizə böyük məsuliyyət düşür.*

*Ölkələrimizin din xadimləri arasında əlaqələrdən danışan hörmətli qonaq dedi ki, şeyxülislam Allahşükür Paşazadə ilə münasibətlərimiz çox yaxşıdır. Bir-birimizi çoxdan tanıyırıq, aramızda qarşılıqlı anlaşma və qarşılıqlı hörmət vardır. Şeyx öz fəaliyyətində nə edirsə, Azərbaycan xalqının rifahı, ölkələrimiz, xalqlarımız arasında dostluğun möhkəmlənməsi üçün edir.*

## AVSTRİYALI TARİXÇİ ALİM, PROFESSOR ERİX FAYQL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev qonağa müraciətlə dedi ki, sizi çox yaxşı tanıyırıq və böyük hörmət bəsləyirik. Siz böyük alimsiniz, bütün elmi araşdırmalarınız həqiqətə əsaslanır.*

*Professor Erix Fayql dedi ki, Azərbaycanın gücü həqiqətin və haqqın onun tərəfində olmasındadır. Bütün çətinliklərə baxmayaraq, biz birgə çalışacağıq ki, Azərbaycan öz itirilmiş torpaqlarını geri qaytarsın, qaçqın-köçkünlər öz doğma yurdlarına qayıtsınlar. Mən bu insanların yaşadıqları düşərgələrdə oldum, bu mənim üçün çox dəhşətli mənzərə idi. Biz əlimizdən gələn hər şeyi etməliyik ki, bu insanlar öz torpaqlarına qayıtsınlar. Biz imkanımız daxilində əlimizdən gələni etməyə çalışırıq və bu sahədə bizə xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş aparan qurum çox yaxından kömək göstərir. Onun gördüyü işlər çox yüksək qiymətləndirilməlidir. Azərbaycan səfirliklərinin də bu sahədəki işi barədə çox yaxşı məlumatım var və cəsarətlə deyə bilərəm ki, ölkəniz diplomatları ilə fəxr edə bilər. Mənim Sizə söyləmək istədiyim budur ki, çünki çox yaxşı bilirəm ki, nə qədər probleminiz vardır və Sizə hərdən xoş, ürəkaçan xəbərlər də vermək lazımdır.*

*Prezident İlham Əliyev qonağa minnətdarlıq edərək dedi ki, bizim işimiz də, təbliğatımız da yalnız və yalnız həqiqət üzərində qurulur. Ermənilərdən fərqli olaraq, biz çalışırıq ki, bu həqiqətləri dünyaya olduğu kimi çatdıraq. Bizim torpağımız işğal altındadır, bir milyon qaçqın-köçkün var. Ermənistan*

*azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb, bizim ərazi bütövlüyümüz pozulubdur. Bununla yanaşı, erməni terror təşkilatları Azərbaycanda 30-dan çox terror aktı həyata keçiribdir. Uzun illər ərzində biz informasiya blokadasında yaşayırdıq və ermənilərin güclü lobbisi bu münaqişə ilə bağlı mənzərəni dünyada təhrif olunmuş şəkildə təqdim edirdi. Amma indi vəziyyət dəyişibdir. İndi Avropada, dünyada artıq bu münaqişənin mahiyyəti hamıya aydındır. Avropa Şurası Ermənistanı işğalçı dövlət kimi tanıyıb və əlbəttə ki, çox mühümdür ki, Avropanın, dünyanın tanınmış alimləri bu məsələyə dair öz fikirlərini ortaya qoyublar. Bu tarixi obyektiv şəkildə təhlil etdiyinizə görə mən sizə çox minnətdaram.*

*Professor Erix Fayql dedi ki, nəzərdən keçirdikdə ermənilər Azərbaycanı təbliğat mühasirəsinə almışlar və bu mühasirə heç də Ermənistandan gəlməyib, çünki o, kiçik, əhəmiyyətsiz bir ölkədir.*

*Bu, erməni diasporu tərəfindən gəlibdir. Mənim Sizdən xahişim ondan ibarətdir ki, Azərbaycan diasporu gücləndirilməlidir. Ermənilərin dünyanın hər bir yerində milli kilsələri vardır. Azərbaycan dünyəvi ölkədir və bu o deməkdir ki, bizə dünyanın hər yerində mədəniyyət institutları yaratmaq lazımdır.*

**DAĞISTAN RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ**
**CƏNAB MƏHƏMMƏDƏLİ MƏHƏMMƏDOVA**

Hörmətli Məhəmmədəli Məhəmmədoviç!

Sizi şanlı yubileyiniz – anadan olmağınızın 75 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Siz dost Dağıstana uzun müddət başçılıq edərək sosial-iqtisadi inkişafın və tərəqqinin təmin olunmasına, qanunçuluğun və hüquq qaydasının möhkəmlənməsinə, cəmiyyətdə sabitliyin və həmrəyliyin saxlanılmasına yönəldilmiş siyasəti ardıcıl surətdə aparırsınız.

Xalqın mənafelərinə sadiqliyiniz, zəngin həyat təcrübəniz, öz diyarınızın tərəqqisi naminə yorulmaz fəaliyyətiniz Sizə yüksək nüfuz və hörmət qazandırmışdır.

Azərbaycan və Dağıstan xalqlarını əzəldən möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək telləri bağlayır. Biz bu ənənəvi münasibətlərə böyük əhəmiyyət veririk və əminik ki, birgə səylərimizlə bu münasibətlər xalqlarımızın rifahı naminə, Qafqazda sülh və təhlükəsizlik naminə bundan sonra da möhkəmlənəcək və dərinləşəcəkdir.

Əziz Məhəmmədəli Məhəmmədoviç!

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm can-sağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2005-ci il*

## «XƏZƏR NEFT – QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI – 2005» XII BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*Bakı,*
*Heydər Əliyev adına*
*İdman-Konsert kompleksi*

*7 iyun 2005-ci il*

*Bakıda, Heydər Əliyev adına İdman–Konsert Kompleksində «Xəzər neft-qaz, neftayırma və neft kimyası–2005» XII beynəlxalq sərgi və konfransının təntənəli açılış mərasimi olmuşdur.*

*Cari ildə bu mötəbər tədbirdə dünyanın 30-dək ölkəsindən 331 şirkət iştirak edir. Ötən illə müqayisədə bu il iştirakçıların sayı artmışdır.*

*bp, Eksson–Mobil, Bos Shelf və s. şirkətlərin maliyyə dəstəyi göstərdiyi sərgidə Azərbaycan, ABŞ, Almaniya, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Böyük Britaniya, Ukrayna, Yaponiya, Braziliya, Çin, Danimarka, Finlandiya, Fransa, Gürcüstan, Xorvatiya, İran, İsveçrə, İtaliya, Qazaxıstan, Litva, Lüksemburq, Norveç, Rusiya, Rumıniya, Səudiyyə Ərəbistanı, Bəhreyn, Sinqapur, Yunanıstan və digər ölkələrin şirkətləri iştirak edir. Onlardan bir neçəsinin bu sərgidə ilk dəfə təmsil olunması Avropa və Asiya şirkətlərinin Azərbaycanın neft-qaz sektoruna marağının artmasını göstərir. Ötən illə müqayisədə ekspozisiyanın sahəsi 15 faiz artmışdır.*

*Ənənəvi sərgi-konfransının təşkilatçıları Azərbaycan Ticarət və Sənaye Palatası və Britaniyanın «Kaspian İvents Limited»*

*şirkətidir. Builki sərgidə Bakıda öz nümayəndəliklərini açmış bir neçə xarici şirkət də var. Onlar sərgi iştirakçılarının siyahısına Azərbaycan şirkətləri kimi daxil edilmişlər. Eyni zamanda, sərgidə 40 yerli iri şirkət, 67 kiçik və orta müəssisə iştirak edir. Onların bəziləri sərgidə ilk dəfə təşkil olunmuş Azərbaycan milli pavilyonunda təqdim edilir. Sərgi çərçivəsində iyunun 8-də başlanacaq konfransda 250-yə yaxın nümayəndə iştirak edəcəkdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sərginin açılış mərasimində iştirak etmək üçün İdman–Konsert Kompleksinə gəldilər. Mərasimə toplaşanlar Azərbaycan prezidentini hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Bakıda keçirilmiş əvvəlki neft-qaz sərgilərinin açılışında iştirakından bəhs edən fotostendə baxdı.*

*Mərasimi giriş sözü ilə «Kaspian İvents Limited» şirkətinin sədri Syuzan Krauç açdı.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Sizin hamınızı Xəzər neft–qaz beynəlxalq sərgi və konfransının açılışı münasibətilə ürəkdən təbrik edirəm, sərgiyə və konfransa uğurlar diləyirəm.

Sərginin keçirilməsi artıq ənənəvi xarakter daşıyır. Bu çox gözəl ənənəyə çevrilibdir. Yadımdadır, 1994-cü ildə sərgi ilk dəfə keçiriləndə bu, Azərbaycanın ictimai-siyasi həyatında çox mühüm hadisəyə çevrilmişdi. Çünki o zaman Azərbaycan öz neft strategiyasının həyata keçirilməsində ilk addımlarını atırdı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və uğurla həyata keçirilən Azərbaycanın neft strategiyası artıq 11 ildir ki, ölkəmizə böyük uğurlar gətirir, Azərbaycan öz neft-qaz potensialını sürətlə işə salır. Bütün bu illər ərzində görülmüş işlər onu göstərir ki, 1994-cü ildə edilmiş seçim çox düzgün seçim idi və Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında çox mühüm rol oynamışdır.

Ancaq 1994-cü ildə vəziyyət bir qədər fərqli idi. O vaxt xarici investorları cəlb etmək üçün biz çox böyük səylər göstərirdik. Həqiqətən biz gözəl başa düşürdük ki, Xəzər dənizinin nəhəng enerji potensialını yalnız xarici investorları cəlb etməklə Azərbaycan xalqının xeyrinə işə sala bilərik və buna da nail olduq. Çox şadam ki, xarici investorlar bu illər ərzində bizimlə birlikdə çox böyük işlər görüblər, Azərbaycana inanıblar, bizim gələcəyimizə inanıblar. Bu baxımdan mən xüsusilə xanım Syuzan Krauçun xidmətlərini qeyd etmək istəyirəm. Məhz onun təşəbbüsü ilə 1994-cü ildə sərginin keçirilməsi bütün dünyaya göstərdi ki, Azərbaycanın çox zəngin neft-qaz potensialı var, Azərbaycan xarici sərmayələr üçün cəlbedici bir ölkədir. Azərbaycan öz siyasətini Dünya Birliyinə inteqrasiyada görür və bu siyasətə sadiqdir. Təsadüfi deyil ki, 1994-cü ildən sonra ölkəmizə milyardlarla dollar sərmayə qoyulub, Azərbaycanın neft–qaz yataqları istismara verilib və beləliklə, bu gün ölkəmiz sürətlə inkişaf edir. Bu inkişafın təməlində, təbii ki, neft amili dayandı.

1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycanda yeni dövr başlandı. Ölkə iqtisadi tənəzzülün qarşısını ala bildi, iqtisadiyyatda müşahidə olunan mənfi meyllər aradan götürüldü, Azərbaycana böyük həcmdə xarici sərmayələr gətirilməyə başlandı. Bildiyimiz kimi, neft sənayesinə qoyulan hər bir dollar qeyri-neft sənayesinə də vəsaitin gətirilməsinə şərait yaratmışdır. Azərbaycanda həm neft infrastrukturu yaranmağa başladı və bu gün bizim nəhəng neft qurğularımızın işi onu göstərir ki, həqiqətən bu, böyük bir hadisə idi. Həm də qeyri-neft sektorunun, xidmət sektorunun inkişafının təməlində məhz neft amili dayanmışdır.

Neft amili Azərbaycanın inkişafında hələ uzun illər mühüm və müstəsna rol oynayacaqdır. Əlbəttə, indi bizim vəzifəmiz bundan ibarətdir ki, qeyri-neft sektorunu inkişaf etdirək, ölkəmizin iqtisadiyyatını şaxələndirək. Amma o da sirr deyil ki, neft sektorunun Azərbaycanın inkişafında uzun illər rolu çox böyük olacaqdır. Biz bu amildən məharətlə istifadə edirik.

1994-cü ildən indiyədək Azərbaycanda görülmüş işlər bunun əyani sübutudur. Bu illər ərzində çox güclü neft infrastrukturu yarandı. Düzdür, Azərbaycanda 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış neft infrastrukturu bu gün müqavilələrin icrasında çox böyük rol oynayır. Amma 1994-cü ildən sonra yaradılan neft infrastrukturu artıq dünya standartlarına cavab verir.

Çox şadam ki, qarşıda duran bütün vəzifələr vaxtında öz həllini tapdı. Azərbaycan qısa müddət ərzində, müqavilənin imzalanmasından cəmi üç il sonra xarici şirkətlərlə birlikdə «Çıraq» yatağından ilk nefti hasil edə bildi. Ondan sonra neftin hasilatı artırıldı və bu gün «Azəri» platforması artıq istismardadır. Azərbaycanda neft və qaz hasilatı ildən-ilə artacaq və bu, Azərbaycan xalqının gələcəyinə xidmət edəcəkdir.

Azərbaycanın neft strategiyasının elementlərindən biri də ixrac imkanlarını əldə etmək idi. Azərbaycanın coğrafi vəziyyəti belədir ki, bizim dünya bazarlarına bilavasitə çıxışımız yoxdur. Bu çıxışı əldə etmək üçün, təbii ki, neft kəmərlərinin tikintisi zəruri idi.

Mən o illəri çox yaxşı xatırlayıram. Bu kəmərlərin böyük çətinliklərlə işə salınmasında biz hamımız bərabər işləmişik. Azərbaycan hökumətinin, Azərbaycan Dövlət Neft Şirkətinin, bizimlə bərabər işləyən tərəfdaşlarımızın – xarici şirkətlərin birgə səyləri nəticəsində Bakı–Novorossiysk kəməri istismara verildi, ondan sonra Bakı–Supsa neft kəməri yenidən tikildi. Bu yaxınlarda isə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsini qeyd etmişik. Bütün bunlara nail olmaq üçün böyük iradə lazım idi, uzaqgörənlik, cəsarət və əlbəttə, peşəkarlıq lazım idi. Bütün bunları etmək üçün ölkədə güclü hakimiyyət olmalı idi, sabitlik olmalı idi. Xarici investorlar bizim gələcəyimizə inanmalı idilər.

Çünki əks-təqdirdə milyardlarla dolları heç kim qoymazdı. Bütün bu işlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Məhz onun fəaliyyəti

nəticəsində biz bu günləri yaşayırıq. Bu gün Bakı–Tbilisi–Ceyhan neft kəməri əfsanədən reallığa çevrilibdir. Azərbaycan bölgədə öz mövqelərini möhkəmləndirir, öz iqtisadi potensialını gücləndirir. Azərbaycanın qeyri-neft sektoru inkişaf edir, sosial məsələlər öz həllini tapır. Azərbaycan yaxın zamanlarda çox zəngin dövlətə çevriləcəkdir. Bütün bu nailiyyətlərin təməli məhz o çətin illərdə qoyulmuşdur. 1994-cü il Azərbaycanın tarixində həlledici il idi. O vaxt Azərbaycanda daxili sabitlik tam bərqərar olunmamışdı. Azərbaycan müxtəlif təhlükələrlə, təxribatlarla üzləşirdi və bizi istəməyən qüvvələr müstəqilliyimizi sarsıtmaq üçün müxtəlif planlar hazırlayır və icra etməyə çalışırdılar. O illərdə güclü liderin fəaliyyəti və rəhbərliyi bizim bugünkü uğurlarımızın səbəbi olmuşdur.

Bu gün ölkəmiz çox dinamik inkişaf edir. Biz artıq öz neft–qaz potensialımızı çox səmərəli şəkildə istismara vermişik. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi bölgədə vəziyyəti tamamilə dəyişdirəcəkdir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi bizim neft strategiyamızın son mərhələsi deyil, bu çox mühüm mərhələnin sonu və yeni dövrün başlanğıcıdır. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsindən sonra yeni dövr başlamışdır. Azərbaycanın həm iqtisadi inkişafı daha da sürətlə gedəcək, həm bölgədəki rolu daha da möhkəmlənəcək, həm də bölgədə və dünyada önəmi artacaqdır. Azərbaycan öz qonşuları Gürcüstan ilə birlikdə Bakı–Tbilisi–Ceyhan neft kəmərini istismara verməklə çox gözəl regional əməkdaşlıq nümunəsini bütün dünyaya nümayiş etdirdi. Bu mürəkkəb, bütün təhlükələrin hələ də aradan götürülmədiyi bölgədə nəhəng, dünyanın ən böyük enerji layihəsinin uğurla həyata keçirilməsi üç ölkənin birgə səyləri nəticəsində, Amerika Birləşmiş Ştatları hökumətinin güclü dəstəyi, dünyanın aparıcı maliyyə qurumlarının maliyyə dəstəyi, *bp* şirkətinin və konsorsiumun digər üzvlərinin, Azərbaycan Dövlət Neft Şirkətinin birgə səyləri sayəsində mümkün olmuşdur. Bu, həqiqətən tarixi bir hadisədir və hesab edirəm ki, Azərbaycan xalqı, dost, qonşu xalqlar bu hadisəni yüksək qiymətləndirirlər.

İndi bizim qarşımızda yeni məsələlər, yeni çağırışlar durur. Biz onları da həll edəcəyik. Əminəm ki, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istismara verilməsi də vaxtında başa çatacaqdır. Beləliklə, Azərbaycan qazı Gürcüstana, Türkiyəyə və oradan da Avropanın digər ölkələrinə çatdırılacaqdır. Əminəm ki, Azərbaycan qazı Avropa istehlakçıları üçün əhəmiyyətli rol oynayacaqdır.

İndi bizim qarşımızda duran vacib məsələlərdən biri də odur ki, neftdən əldə edilən və əldə olunacaq gəlirləri səmərəli idarə edək ki, bu, Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, eyni zamanda, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına xidmət etsin. Bunu etmək üçün çox gözəl mexanizm var. Yenə də xalqımızın lideri Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Azərbaycan Dövlət Neft Fondu bu işdə çox mühüm rol oynayır. Neftdən əldə edilən vəsaitlər şəffaf şəkildə bu Fondda saxlanılır və Azərbaycanda lazım olan layihələr üçün istifadə olunur. Gələcəkdə bu vəsait daha da artacaq və bu bizə imkan verəcək ki, ölkəmizi yüksək səviyyədə inkişaf etdirək, iqtisadi potesialımızı gücləndirək, insanlarımızın həyat səviyyəsini yaxşılaşdıraq.

Bir daha demək istəyirəm ki, Azərbaycanın iqtisadi inkişafı çox uğurla davam etdirilir. Beynəlxalq Valyuta Fondunun açıqlamasına görə, bu il Azərbaycanda ümumi daxili məhsulun artımı 18 faiz təşkil edəcək, bəlkə də çox olacaqdır. Bu da dünyada ən yüksək göstəricidir. Azərbaycanın büdcəsi artır, sosial sahəyə ayrılan vəsaitin həcmi artır. Bir sözlə, bizim iqtisadi potensialımız ildən-ilə güclənir və bundan sonra da güclənəcəkdir.

Biz çalışmalıyıq ki, bundan sonra da Azərbaycanda iqtisadi islahatları lazımi səviyyədə aparaq. Qəbul edilmiş bütün proqramları, xüsusilə regional inkişaf proqramını icra edək. Əminəm ki, bu proqramlar icra olunduqca, Azərbaycanda daha böyük işlər görüləcəkdir. Yeni iş yerləri açılacaq, yeni sənaye müəssisələri istismara veriləcək və ölkəmiz hərtərəfli inkişaf etdiriləcəkdir.

Mən çox məmnunam ki, Azərbaycanda növbəti dəfə sərgi, konfrans keçirilir və ona maraq azalmır, əksinə, artır. Adətən, uzun illər ərzində keçirilən ənənəvi tədbirlərin – sərgilərin, konfransların özlərinin də bir dinamikası var. Maraq müəyyən mərhələdə yüksək səviyyəyə qalxır, ondan sonra azalmağa başlayır. Nəzərə alsaq ki, Azərbaycan, demək olar, öz neft–qaz yataqlarının böyük əksəriyyətini artıq işə salıb, nəzərdə tutulmuş bütün nəhəng layihələr ya öz həllini tapıb, yaxud tapmaqdadır, onda sərgi və konfransa marağın azalmaması çox mühüm göstəricidir, çox əhəmiyyətli amildir. Bu onu göstərir ki, Azərbaycan dünya neft aləmində özünəməxsus yerini saxlayır, bölgədə liderlik mövqelərini əldən vermir. Əminəm ki, biz xarici tərəfdaşlarımızla birlikdə nəzərdə tutulmuş bütün layihələri bundan sonra da uğurla icra edəcəyik. Azərbaycanın iqtisadi müstəqilliyini daha da gücləndirəcəyik və beləliklə, Azərbaycanın siyasi müstəqilliyini daha da möhkəmləndirəcək, əbədi, dönməz edəcəyik.

Əziz dostlar, mən sizin hamınızı bir daha ürəkdən salamlayıram. Sərgiyə və konfransa uğurlar diləyirəm. Sağ olun.

## İNGİLTƏRƏ – AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ, BÖYÜK BRİTANİYA PARLAMENTİNİN LORDLAR PALATASININ ÜZVÜ, SABİQ ENERJİ NAZİRİ LORD FREYZER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 iyun 2005-ci il*

*Lord Freyzer prezident İlham Əliyevin Böyük Britaniyaya səfəri zamanı görüşünü məmnunluqla xatırlatdı və dövlətimizin başçısı ilə yenidən görüşməyindən şərəf duyduğunu bildirdi.*

*Rəhbərlik etdiyi cəmiyyətin son illər fəaliyyətinin genişləndiyini nəzərə çatdıran qonaq Azərbaycanda gördükləri xeyriyyə işləri barədə prezident İlham Əliyevə məlumat verdi. O, əmin olduğunu bildirdi ki, cəmiyyətin Azərbaycan ilə əməkdaşlığı bundan sonra da genişlənəcəkdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Böyük Britaniyaya səfərini, oradakı görüşlərini, o cümlədən Baş nazir Toni Bleyrlə keçirdiyi görüşləri, apardığı danışıqları məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev Bakıda keçirilən «Xəzər neft, qaz, neftayırma və neft kimyası–2005» XII beynəlxalq sərgisinin açılışı ilə əlaqədar Böyük Britaniyanın Baş naziri Toni Bleyrin ona məktub göndərməsini məmnunluqla vurğuladı.*

*Dövlətimizin başçısı İngiltərə – Azərbaycan Cəmiyyətinin ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi, xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə verdiyi töhfəni yüksək qiymətləndirdi. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Böyük Britaniya arasındakı əlaqələr bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.*

# HİNDİSTANIN NEFT SƏNAYESİ VƏ QAZ NAZİRİ MANİ ŞANKAR AYYAR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 iyun 2005-ci il*

*Azərbaycana səfərindən və prezident İlham Əliyevlə görüşündən məmnun qaldığını bildirən qonaq Hindistanın Baş naziri Manmohan Sinqhin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*O, Bakıda keçirilən «Xəzər neft, qaz, neftayırma və neft kimyası–2005» XII Beynəlxalq sərgi və konfransında iştirak etməsini məmnunluqla vurğuladı.*

*Prezident İlham Əliyev Hindistan nazirinin başçılıq etdiyi nümayəndə heyətini ölkəmizə səfərindən və beynəlxalq sərgi və konfransda iştirakından məmnun qaldığını bildirdi. Dövlətimizin başçısı onun salamlarını Hindistanın Baş naziri Manmohan Sinqhə çatdırmağı xahiş etdi.*

## İTALİYA SENATININ XARİCİ ƏLAQƏLƏR VƏ MİQRASİYA MƏSƏLƏLƏRİ DAİMİ KOMİTƏSİNİN SƏDRİ, SENATIN AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASINDAKI NÜMAYƏNDƏ HEYƏTİNİN ÜZVÜ FİORELLO PROVERA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev cənab Fiorello Provera ilə yenidən görüşməyindən şad olduğunu bildirdi, mayın 25-də Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə İtaliyanın Baş naziri cənab Berluskoninin təbrik məktubu göndərməsini məmnunluqla vurğuladı.*

*İtaliyaya səfərini razılıqla xatırlayan dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.*

*Prezident İlham Əliyev beynəlxalq təşkilatlarda, o cümlədən Avropa Şurası Parlament Assambleyasında Azərbaycan ilə İtaliya nümayəndə heyətləri arasında yaxşı əməkdaşlıq edildiyini nəzərə çatdırdı.*

*Azərbaycan prezidenti ilə görüşdən şərəf duyduğunu söyləyən qonaq ölkələrimiz arasında əməkdaşlığın, o cümlədən parlamentlərarası əlaqələrin daha da genişlənməsi üçün böyük perspektivlər olduğunu vurğuladı. O, Avropa Şurası Parlament Assambleyasında bundan sonra da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini dəstəkləyəcəklərini bildirdi. Qonaq Azərbaycan xalqının bu münaqişədən böyük əziyyət çəkdiyini söylədi.*

*Dövlətimizin başçısı İlham Əliyev cənab Fiorello Proveranın bu mövqeyini yüksək qiymətləndirdi.*

**İSLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLAVUR RAQNAR QRİMSSONA**

Hörmətli cənab Prezident!

İslandiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Ümidvar olduğumu bildirirəm ki, Azərbaycan ilə İslandiya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizlə əlaqələrimizin əhatə dairəsinin daha da genişlənməsinə nail olacağıq.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İslandiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 iyun 2005-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYAYA RƏSMİ SƏFƏRİ

*10 iyun 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyunun 10-da Xorvatiyaya rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev həmin gün Xorvatiya Respublikasının paytaxtı Zaqrebə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş hava limanında respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanı Xorvatiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmətlə qarşıladılar. Dövlətimizin başçısına və xanımına gül dəstələri təqdim olundu.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış dövlət iqamətgahına gəldi.*

### Prezident sarayında rəsçmi qarşılanma mərasimi

*İyunun 10-da Xorvatiya prezidentinin sarayında Azərbaycan prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Dövlətimizin başçısının şərəfinə sarayın qarşısında fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Xorvatiya prezidenti Stipe Mesiç və xanımı Azərbaycan prezidenti İlham Əliyevi və xanımını avtomobilin yanında böyük hörmət və ehtiramla qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi. Azərbaycanın və Xorvatiyanın dövlət himnləri səs-*

ləndi. Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev Xorvatiya əsgərlərini salamladı.

Xorvatiyanın rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Stipe Mesiçə təqdim olundu.

Dövlət başçıları Prezident sarayının salonunda xatirə şəkli çəkdirdilər.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA PREZİDENTİ STİPE MESİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

*10 iyun 2005-ci il*

*Dostluq və səmimilik şəraitində keçən görüşdə dövlət başçıları ölkələrimizdə ictimai-siyasi, sosial-iqtisadi inkişaf, regional və ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi apardılar.*

*Prezidentlər yeni qlobal çağırışlara və təhlükələrə qarşı birgə fəaliyyətdə və səylərin birləşdirilməsində, habelə müxtəlif regional təşəbbüslər çərçivəsində əməkdaşlıqda, iqtisadi-ticarət münasibətlərinin keyfiyyətcə yeni səviyyəsinə nail olunmasında və bu sahədə beynəlxalq standartlara uyğun faydalı əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını bildirdilər. Sərmayələrin qarşılıqlı təşviqinin, kooperasiyanın müxtəlif formalarının və işgüzar sahədə birbaşa təmasların genişləndirilməsinin vacibliyi də vurğulandı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi edildi.*

* * *

*Təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə Azərbaycan prezidenti İlham Əliyevin və Xorvatiya prezidenti Stipe Mesiçin geniş tərkibdə görüşü olmuşdur.*

*Prezidentlər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsində Avropa Birliyinin*

*və Avropa Şurasının səylərinin fəallaşmasını alqışladılar, bunun problemin aradan qaldırılmasına müsbət təsir göstərəcəyinə ümidvar olduqlarını vurğuladılar.*

*Tərəflər özlərinin üçüncü ölkələrdəki diplomatik nümayəndəlikləri arasında əməkdaşlığın təşviq edilməsi barədə razılığa gəldilər.*

*Dövlət başçıları Avratlantik Tərəfdaşlıq Şurası, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı və Azərbaycanın təqdim etdiyi «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı» çərçivəsində regional təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsində hər iki ölkənin mühüm rol oynayacağını vurğuladılar.*

*Beynəlxalq terrorizimin yaratdığı təhlükəni xatırladan prezidentlər BMT ilə hərtərəfli əməkdaşlıq şəraitində bu bəlanın aradan qaldırılmasında qlobal səylər göstərilməsinə tərəfdar olduqlarını bildirdilər.*

*Azərbaycanın Avropa yeni qonşuluq siyasətinə qoşulmasının regionda sülhün və əmin-amanlığın bərpasına töhfə verəcəyi fikir ilə razılaşan Xorvatiya tərəfi, eyni zamanda bunun ölkəmizin və regionun digər dövlətlərinin Avropaya inteqrasiyasına müsbət təsir göstərəcəyini də vurğuladı. Xorvatiya tərəfi Azərbaycanın Dünya Ticarət Təşkilatına üzv olmaq niyyətini dəstəklədiyini və ölkəmizin bu sahədə göstərdiyi səyləri alqışladığını bildirdi.*

*Azərbaycan tərəfi ölkəmizdə aparılan iqtisadi islahatların nəticələri, o cümlədən sürətli inkişaf meylləri, yoxsulluğun azaldılması proqramının həyata keçirilməsi, Avropa Birliyi ilə əlaqələrin dərinləşməsi haqqında məlumat verdi. TRASEKA, İNOQEYT proqramlarının, Qars–Tbilisi–Bakı dəmir yolu layihəsinin həyata keçirilməsi üçün əməkdaşlığın əhəmiyyəti də qeyd edildi. Bakı–Tbilisi–Ceyhan neft və Cənubi Qafqaz qaz kəmərlərinin işə salınmasının beynəlxalq əhəmiyyəti xüsusi vurğulandı.*

*Dövlət başçıları kiçik və orta müəssisələrin fəaliyyətinin dəstəklənməsinin vacibliyini nəzərə alaraq hər iki ölkənin dövlət və özəl müəssisələri, mülkiyyət növündən asılı olmayaraq maliyyə–bank*

*idarələri arasında əməkdaşlığa və kooperasiyaya əlverişli şərait yaradılmasına ehtiyac olduğunu bildirdilər.*

* * *

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Xorvatiya prezidenti Stipe Mesiçin iştirakı ilə ikitərəfli sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası və Xorvatiya Respublikası arasında mədəni əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Xorvatiya Respublikasının Xarici İşlər və Avropa İnteqrasiyası Nazirliyi arasında əməkdaşlıq haqqında protokol, Azərbaycan Respublikasının və Xovatiya Respublikasının Aviasiya hakimiyyəti orqanları arasında əməkdaşlıq memorandumu imzalandı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN VƏ XORVATİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*10 iyun 2005-ci il*

### Xorvatiya prezidenti Stipe Mesiçin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli mətbuat nümayəndələri!

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev Xorvatiya Respublikasına ilk rəsmi səfərə gəlmişdir. Biz onunla və nümayəndə heyəti ilə həm Azərbaycan, həm də Xorvatiya üçün vacib sayılan məsələlər ətrafında fikir mübadiləsi apardıq. Biz bütün sahələrdə, xüsusən də iqtisadi sahədə qarşılıqlı əməkdaşlığı daha da intensivləşdirmək və möhkəmləndirmək arzumuzu ifadə etdik. Eyni zamanda bildirdik ki, ikitərəfli əməkdaşlığımızın genişləndirilməsi və gücləndirilməsi məqsədi ilə hüquqi baza yaradılmalıdır və bu gün həmin istiqamətdə ilkin addımlar atılmışdır. Tərəflər həm ölkələrimiz arasında mövcud olan münasibətləri, həm də regionlarımızdakı vəziyyəti müzakirə etmişdir. Biz terrorizmin hazırda bütün dünya ictimaiyyəti üçün təhlükə doğuran ən böyük bəlalardan biri olmasını qeyd etdik. Terrorizm probleminin aradan qaldırılması məqsədi ilə ayrı-ayrı terrorçular və ya terrorçu qruplara qarşı mübarizə aparmaq üçün onların sadəcə, maliyyə mənbələrini kəsmək kifayət deyildir. Eyni zamanda, siyasi məsələləri də həll etmək lazımdır. Xüsusən də qaynar nöqtələrdə olan problemlərin, yoxsulluq probleminin həllinə çalışmaq lazımdır. Tamamilə aydındır ki,

həll olunmamış siyasi məsələlər terrorçu fəaliyyətə bəraət qazandırmır. Əksinə, siyasi problemlərin aradan qaldırılması terrorizmə son qoymağa imkan yaradır.

Mənim həmkarım, Azərbaycan Respublikasının prezidenti bildirdi ki, ölkəsinin böyük potensialı var və bu potensial gələcəkdə ikitərəfli münasibətlərin inkişafı məqsədi ilə istifadə olunmalıdır. Xəzər dənizindən hasil olunacaq Azərbaycan neftinin böyük bir hissəsi bu yaxınlarda istismara verilmiş yeni neft boru kəməri vasitəsilə dünya bazarlarına çatdırılacaqdır. Beləliklə, bu layihə Azərbaycanın büdcəsinə milyardlarla dollar gətirəcək və Azərbaycan hökuməti ən mühüm məsələləri həll etməyə qadir olacaqdır. Bu fürsət həmçinin bizim şirkətlər üçün Azərbaycanda fəaliyyət göstərmək imkanları yaradacaqdır. Xorvatiya isə, öz növbəsində, Azərbaycanda istehsal olunan məhsullar üçün bazarlarını açıq elan edəcəkdir. Biz eyni zamanda turizm sahəsində əməkdaşlıq imkanlarını və vətəndaşlarımızın bir-birini daha yaxından tanıması məsələsini müzakirə etdik.

Azərbaycan Respublikasının prezidenti məni Xorvatiyanın iş adamları ilə birgə Azərbaycana rəsmi səfərə dəvət etdi. Mən bu dəvəti böyük məmnuniyyətlə qəbul etdim. Sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə, ölkənizə məni dəvət etdiyinə görə Xorvatiya prezidentinə minnətdarlığımı bildirmək istəyirəm. Burada olmağımdan çox şadam. Biz bu səfəri ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişafı istiqamətində atılmış çox vacib bir addım kimi qəbul edirik.

Cənab Prezidentin dediyi kimi, biz ikitərəfli münasibətlərə, regiondakı, dünyadakı vəziyyətə aid məsələləri müzakirə etdik. Sizə deyə bilərəm ki, biz müzakirə etdiyimiz bütün məsələlərdə

konsensusa nail olduq və onların həlli ilə bağlı ümumi mövqedə olduğumuzu bir daha hiss etdik.

Ölkələrimiz arasında oxşarlıqlar çoxdur. Hər iki ölkə – Xorvatiya və Azərbaycan uzun illər ərzində müstəqillikdən məhrum olmuşlar və digər ölkələrin bir hissəsi idilər. Ölkələrimiz digər ölkələrin hərbi təcavüzünə məruz qalmışlar. Əgər biz bu gün sülhün Balkanlarda bərpa olunduğunu görürüksə, Cənubi Qafqaz regionunda bu, hələ ki, belə deyildir. Digər sözlə desək, biz ölkələrimizin üzləşdiyi problemləri yaxşı anlayırıq və problemlərimizi və Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi ilə bağlı mövqeyimizi anladığına görə mən cənab Prezidentə çox minnətdaram. Mən ümid edirəm ki, Balkanlarda olduğu kimi, bizim regionda da ədalət bərpa olunacaq və bir milyon azərbaycanlı qaçqın öz yurd-yuvasına qayıdacaqdır.

Biz həm də iqtisadi əməkdaşlığa dair məsələləri müzakirə etdik və deyə bilərəm ki, nümayəndə heyətimizdə iş adamları da var. Onlar xorvatiyalı həmkarları ilə birgə biznes layihələrinin həyata keçirilməsi ilə bağlı lazımi danışıqlar apara bilərlər. Bizim enerji sektorunda, turizm, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrində əməkdaşlıq etmək üçün çox yaxşı potensialımız var. Əminəm ki, ölkələrimiz arasında bu gün qurulan tərəfdaşlıq xalqlarımızın rihafı naminə davam edəcək və Avropa ailəsinə inteqrasiya olunmaqda bizə yardımçı olacaqdır.

Cənab Prezident bildirdiyi kimi, mən onu və onun nümayəndə heyətini Azərbaycana səfərə dəvət etdim və ümidvaram ki, biz bu səfərə qədər siyasi və iqtisadi sahədə istədiyimiz nailiyyətləri əldə edəcəyik.

Çox sağ olun!

* * *

**S u a l: Mənim birinci sualım Xorvatiya prezidentinədir. Bir neçə il bundan əvvəl Sizin ölkə hərbi yolla və güclü beynəlxalq dəstəklə ərazi bütövlüyünü bərpa edə bildi. Siz buna**

**necə nail oldunuz? İkinci sualım hər iki prezidentədir. Səfirlikləri nə vaxt açmağı planlaşdırırsınız?**

**S t i p e M e s i ç:** Bildiyiniz kimi, keçmiş Yuqoslaviyada baş vermiş müharibənin əsas səbəbi torpaq iddiaları ilə bağlı idi. Əsas problem ondan ibarət idi ki, Yuqoslaviyanın ən böyük respublikası sayılan Serbiya öz ərazilərini Xorvatiya, Bosniya və Hersoqovinanın hesabına genişləndirməyi planlaşdırırdı. Müharibənin başlanmasına bəhanə isə Xorvatiyada, Bosniya və Herseqovinada yaşayan serblərin hüquqlarının guya Serbiya tərəfindən qorunması olmuşdur. Aydın məsələdir ki, bu, reallıqdan tamamilə uzaq olan bir mövqe idi. Beləliklə, Yuqoslaviyanın parçalanması ilə Serbiya öz sərhədlərini genişləndirmək istəyinə düşdü. Burada baş vermiş bütün müharibələr artıq qurtarıbdır. Lakin düzünü desək, Xorvatiyada da müəyyən dairələr hesab edirdilər ki, Serbiya Bosniya və Hersoqovinanın parçalanmasına nail olacaq və beləliklə, Xorvatiyanın milli sərhədləri genişlənəcəkdir.

Bütün bunlara baxmayaraq, hərbi əməliyyatlara son qoyuldu və respublikalar arasındakı sərhədlər zərrə qədər də dəyişmədi. Siz düzgün qeyd etdiniz ki, Xorvatiya ərazisinin bir hissəsi işğal olunmuşdu və onun əsas hissəsi hərbi yolla azad edilmişdir. Qalan ərazilər isə dinc reinteqrasiya yolu ilə qaytarıldı. Biz etnik azlıqların hüquqlarını qoruyan qanun qəbul etdik. Bu qanunun müddəaları ən yüksək Avropa standartlarına cavab verir. Qaçqınların qayıtması prosesi artıq başlanıbdır. Biz həmin prosesi daha da möhkəmləndirmək və intensivləşdirmək istəyirik, çünki bu bizim dövlət və milli marağımıza uyğundur. Etnik mənsubiyyətdən asılı olmayaraq, bütün vətəndaşlarımızın Xorvatiyaya qayıtmasını istəyirik. Xorvatiya dövləti onların yaşayış yerlərini bərpa etməlidir. Hazırda biz vaxtilə hərbi əməliyyatlar aparılmış zonalarda iqtisadi həyatın canlandırılması üçün böyük səylər göstəririk. Sülh yalnız o vaxt bərqərar ola bilər ki, hökumət təsisatları lazımınca işləsin. Biz indi Xorvatiyada məhz bu işləri görürük. Hamı üçün bərabər hüquqları təmin olunur. Biz islahatları həyata keçiririk. Polis və

hərbi qüvvələrin islahatına nail olmuşuq. İndi apardığımız islahatlar hökumət idarəçiliyi və məhkəmə sisteminə aiddir. Ən vacib meyar isə odur ki, hamı qanun qarşısında bərabərdir. Yalnız qanunun aliliyi bütün vətəndaşların bərabər səviyyədə olmasını təmin edir. Eyni zamanda, çox vacib olan başqa amil də var. Konkret olaraq cinayət törədən insanlar qanun qarşısında cavab verməlidirlər. Bu yolla insanlar arasında ədavətə son qoyulmasına nail olmaq olar. Çünki konkret insanlar tərəfindən törədilmiş cinayətlərə görə xalqlar cavab verməməlidir.

O ki qaldı sizin ikinci sualınıza, prezident Əliyevlə bu məsələni müzakirə etdik və belə razılığa gəldik ki, əvvəlcə biz ölkələrimizdə fəxri konsulluqlar açmalıyıq. Sonrakı mərhələdə isə, qarşılıqlı əməkdaşlıq sahəsində irəliləyiş əldə edilməklə, fəxri konsulluq səviyyəsində olan nümayəndəliklərimiz səfirlik səviyyəsinə qaldırılacaqdır. Prezident mənə gələcəkdə neftdən alınacaq gəlirlərin və onun daşınmasından əldə olunacaq vəsaitlərin səviyyəsi haqqında məlumat verdikdən sonra bir daha gördüm ki, Azərbaycanın bu sahədəki çəkisi çox artacaqdır. Beləliklə, qarşılıqlı əməkdaşlığımızın daha da genişləndirilməsi üçün əlavə imkanlar açılacaqdır. Ölkəniz yeni Norveç olacaqdır.

**İlham Əliyev:** Mən də səfirlik məsələsinə toxunmaq istərdim. Biz bu məsələni cənab Prezidentlə müzakirə etdik. Mənim regiona səfərimin ilk növbədə məhz Xorvatiyaya edilməsi ikitərəfli münasibətlərimizə verdiyimiz böyük əhəmiyyəti bir daha sübut edir. Əlbəttə ki, biz bu yaxınlarda daimi nümayəndəliklərin açılmasını nəzərdən keçirəcəyik. Mən eyni zamanda, cənab Prezidentin verdiyi cavabla bağlı öz mülahizələrimi bildirmək istərdim. Bir daha demək istəyirəm ki, ölkələrimiz arasında çoxlu oxşarlıqlar var. Azərbaycan da xarici təcavüzdən əziyyət çəkmiş, Ermənistanın təcavüzünün qurbanı olmuşdur. Bunun üçün də bəhanə Azərbaycanda yaşayan ermənilərin «qorunması» məsələsi olmuşdur. Lakin Dağlıq Qarabağdakı erməniləri qorumağa ehtiyac yox idi, çünki

ermənilər bizim ölkədə yüz əlli ildən çox yaşamışdılar və heç vaxt problemləri olmamışdır. Əsl səbəb isə Azərbaycanın ərazisini işğal etmək olmuşdur və ermənilər xarici yardım hesabına buna nail ola bildilər. Biz Dağlıq Qarabağda yaşayan ermənilər üçün dünyada mövcud olan ən yüksək muxtariyyət statusunun və təhlükəsizlik zəmanətinin verilməsinə hazırıq. Bu bizim edə biləcəyimiz maksimum güzəştdir. Biz əminik ki, burada, Xorvatiyada olduğu kimi, Azərbaycanda da ədalət bərpa ediləcək və torpaqlarımız işğaldan azad olunacaqdır.

**S u a l: Azərbaycanın böyük gələcəyini nəzərə alaraq, Siz Xorvatiyanın təcrübəsini Azərbaycanın Avropaya inteqrasiya yolunda nümunə kimi qəbul edirsinizmi?**

**İ l h a m  Ə l i y e v:** Biz münasibətlərimizin inkişafını bir neçə istiqamətdə görürük. İlk növbədə, ikitərəfli münasibətlərimizi nəzərdə tuturuq və onların hazırda sürətlə möhkəmlənməsindən məmnunuq. Biz eyni zamanda, bu gün cənab Prezidentlə ölkəmizin Avropaya inteqrasiya prosesini çox böyük maraqla və diqqətlə izlədiyimizi müzakirə etdik. Əldə etdiyiniz uğurlar bizi sevindirir. Biz bu təcrübəni nəzərdən keçirdik və ümid edirik ki, Xorvatiya Avropa Birliyinin daimi üzvü olduqdan sonra sizin ölkə Azərbaycanın Avropaya daha da yaxınlaşmasına yardım edəcəkdir.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATIYA PARLAMENTİNİN SƏDRİ VLADİMİR ŞEKS İLƏ GÖRÜŞÜ

*10 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 10-da Xorvatiya parlamentinin – Saborun binasına gəldi.*

*Saborun sədri Vladimir Şeks və parlamentin digər rəhbərləri prezident İlham Əliyevi böyük hörmətlə qarşıladılar.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev ilə Xorvatiya Saborunun sədri Vladimir Şeks arasında görüş oldu. Cənab Şeks Azərbaycan prezidentinin Xorvatiyaya rəsmi səfərini, xüsusilə parlamentə gəlməsini çox əlamətdar hadisə kimi qiymətləndirdi. O, ölkə parlamentinin fəaliyyəti haqqında məlumat verərək bildirdi ki, çoxpartiyalılıq əsasında ilk demokratik seçkilər 1990-cı ilin yazında keçirilmiş, 1991-ci il iyunun 25-də isə parlament Xorvatiyanın müstəqilliyi və suverenliyi haqqında bəyannamə qəbul etmişdir. Xorvatiya parlamentinin sədri Azərbaycan Milli Məclisi ilə əməkdaşlığın yaxşı perspektivləri olduğunu da vurğuladı.*

*Xorvatiyaya rəsmi səfərini və prezident Stipe Mesiç ilə görüşlərin nəticələrini yüksək qiymətləndirən prezident Ilham Əliyev ikitərəfli əlaqələrin inkişafında parlamentlərin mühüm rol oynadığını bildirdi. Dövlətimizin başçısı Azərbaycan Milli Məclisində Xorvatiya parlamenti ilə dostluq qrupunun fəaliyyət göstərdiyini də xatırlatdı və əmin olduğunu bildirdi ki, ölkələrimizin qanunvericilik orqanları arasında əməkdaşlıq daha da güclənəcəkdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYA HÖKUMƏTİNİN SƏDRİ İVO SANADER İLƏ GÖRÜŞÜ

*10 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 10-da Xorvatiya Respublikası hökumətinin binasına gəldi.*

*Xorvatiya hökumətinin sədri İvo Sanader prezident İlham Əliyevi binanın önündə böyük hörmətlə və səmimiyyətlə qarşıladı.*

*Sonra Azərbaycan prezidenti ilə Xorvatiya hökumətinin sədri arasında görüş oldu. Cənab İvo Sanader prezident İlham Əliyevin rəsmi səfərindən və onu hökumətin binasında salamlamaqdan məmnunluğunu söylədi. O dedi ki, Azərbaycan prezidentinin səfəri və Xorvatiya prezidenti ilə keçirdiyi görüşlər ölkələrimizin ikitərəfli əlaqələrinin inkişafında yeni mərhələ olacaqdır. Xorvatiya hökumətinin sədri Bakı–Tbilisi–Ceyhan neft kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə prezident Ilham Əliyevi təbrik edərək dedi ki, onun tam işə düşməsi Azərbaycanın iqtisadi qüdrətinin daha da güclənməsinə kömək edəcəkdir.*

*Ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün böyük potensial olduğunu vurğulayan prezident İlham Əliyev bildirdi ki, enerji, turizm, ekologiya, kənd təsərrüfatı sahəsində əlaqələri inkişaf etdirmək üçün bu gün Zaqrebdə Azərbaycan və Xorvatiyanın dövlət qurumları, özəl şirkətləri, bank-maliyyə idarələri nümayəndələrinin iştirakı ilə biznes forumu keçirilmişdir. Biznes forumunda iş adamları arasında ikitərəfli qaydada müqavilələr də imzalanmışdır. Dövlətimizin başçısı vurğuladı ki, gələcəkdə əlaqələrin inkişaf etdirilməsi zəruridir və bu, ölkələrimizin, xalqlarımızın daha da yaxınlaşmasına xidmət edəcəkdir.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ STİPE MESİÇİN ADINDAN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*Xorvatiya dövlət başçısının sarayı*

*10 iyun 2005-ci il*

Hörmətli cənab Prezident!
Xanım Milka Mesiç!
Xanımlar və cənablar!
Əziz dostlar!

Hörmətli cənab Prezident, məni Xorvatiya Respublikasına rəsmi səfərə dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkür edir, Xorvatiya torpağında mənə və bütün nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün Xorvatiya ilə Azərbaycan arasında münasibətlərin yeni səhifəsi açılır, bütün sahələrdə əməkdaşlığın inkişafı üçün səmərəli dialoq aparılır. Artıq inamla deyə bilərəm ki, səfər uğurludur və ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır.

Şübhə etmirəm ki, səfər zamanı keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və imzaladığımız sənədlər qarşılıqlı fəaliyyətimiz üçün yeni sahələr müəyyən edəcək, əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafı və genişlənməsi üçün güclü potensial vardır. Bu potensialı

reallaşdırmaq üçün siyasi, iqtisadi, turizm və digər sahələrdə əlavə səylərin göstərilməsini məqsədəuyğun hesab edirəm.

Məmnunluqla demək istəyirəm ki, Xorvatiya Azərbaycanın müstəqilliyini tanıyan ilk Avropa dövlətlərindən biridir. Bizim siyasətimizdə Azərbaycanın Avropa və Avroatlantik strukturlarına inteqrasiyası önəmli yer tutur. Biz Avropa ilə əməkdaşlığa böyük əhəmiyyət verir, Avropa ittifaqı ilə münasibətlərin genişləndirilməsi və təkmilləşdirilməsinə xüsusi diqqət yetiririk.

Azərbaycan Avropa Şurasının üzvüdür. «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində NATO və Avropa təhlükəsizlik sisteminin strukturları ilə əməkdaşlıq edir. Azərbaycan «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı»nı NATO rəhbərliyinə təqdim edən iki ölkədən biridir. Avropa Ittifaqı Azərbaycanı «Genişlənmiş Avropa və qonşuları» təşəbbüsünə daxil etmişdir.

Bu gün dünyanın ən böyük enerji layihələri Azərbaycanda həyata keçirilir. Xəzər hövzəsi enerji daşıyıcılarının Qərbə nəqli, TRASEKA proqramı, Böyük İpək Yolunun bərpası, Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələri bunun parlaq nümunəsidir. İndi Azərbaycan transmilli, qlobal enerji–kommunikasiya layihələrinin mərkəzidir.

Eyni zamanda Azərbaycanda siyasi, sosial-iqtisadi, hüquqi islahatlar həyata keçirilmiş, vətəndaş cəmiyyətinin qurulması istiqamətində ciddi addımlar atılmışdır. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə böyük nailiyyətlər qazanılmışdır.

2004-cü ildə iqtisadiyyatda artım 10 faizdən artıq olmuşdur. 2005-ci ilin beş ayı ərzində sənaye istehsalı 16 faiz, ümumi daxili məhsul 15 faiz artmışdır. Son 7 ildə Azərbaycan iqtisadiyyatına 17 milyard dollar vəsait qoyulmuşdur.

Azərbaycan Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin bərqərar olması və əməkdaşlığın inkişafı üçün səylərini əsirgəmir, regionun bütün dövlətləri ilə sıx əməkdaşlıq

edir. Yalnız Ermənistan özünü bu əməkdaşlıqdan təcrid etmişdir. Bu ölkənin hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Münaqişə ilə bağlı BMT-nin 4 qətnaməsi, ATƏT-in və Avropa Şurasının qərarları icra olunmamış qalır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüquq normaları çərçivəsində həll oluna bilər və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasına rəsmi səfərimə böyük əhəmiyyət verdiyimi bir daha qeyd etmək istərdim. Çox məmnunam ki, səfər zamanı olduqca səmərəli görüşlər keçirildi, danışıqlar aparıldı, sənədlər imzalandı.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm və inanıram ki, səfəriniz ölkələrimiz arasında hərtərəfli münasibətlərin genişlənməsinə xidmət edəcək, ikitərəfli əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.

Bu badəni Azərbaycan və Xorvatiya arasında möhkəmlənən dostluq əlaqələrinin, xorvat xalqının, Xorvatiya Respublikasının prezidenti Stipe Mesiçin və xanım Milka Mesiçin şərəfinə qaldırmaq istəyirəm.

Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN XORVATİYA PREZİDENTİNİN XANIMI MİLKA MESİÇ İLƏ GÖRÜŞÜ

*10 iyun 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri çərçivəsində dövlətimizin başçısının xanımı Mehriban Əliyeva üçün ayrıca proqram tutulmuşdu.*

*Dövlət başçılarının xanımları mədəniyyət, onun ayrılmaz qolu olan folklor sənətinin təbliği və bu sahədə əməkdaşlıq, habelə səhiyyə, kimsəsiz və əlil uşaqlara dövlət qayğısı məsələləri barədə fikir mübadiləsi etdilər.*

*YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva həmin gün Zaqrebdəki mərkəzi uşaq evinə də gəldi. Uşaq evinin müdiriyyəti və burada tərbiyə alan balacalar Azərbaycan prezidentinin xanımını böyük səmimiyyətlə qarşıladılar. Hörmətli qonağa məlumat verildi ki, dövlət himayəsinə götürülmüş 120 əlil və kimsəsiz uşağın təlim-tərbiyəsi, hərtərəfli inkişafı üçün burada hər cür şərait yaradılmışdır.*

*Mehriban xanım Əliyeva bu uşaq müəssisəsinin kollektivinə nəcib və xeyirxah işlərində uğurlar dilədi, eyni zamanda, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ölkəmizdə uşaq evləri və internat məktəblərinin problemlərinin həlli, gənc vətəndaşlarımızın sağlamlığının qorunması sahəsində həyata keçirdiyi proqramlar haqqında məlumat verdi.*

*Dövlətimizin başçısının xanımının adından xorvatiyalı uşaqlara hədiyyələr təqdim olundu.*

*Mehriban xanım Əliyeva uşaq evinin müdiriyyəti və uşaqlarla xatirə şəkli çəkdirdi.*

## ZAQREB ŞƏHƏRİNİN TARİX–MƏDƏNİYYƏT ABİDƏLƏRİ İLƏ TANIŞLIQ

*11 iyun 2005-ci il*

*Xorvatiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ölkənin paytaxtı Zaqrebin görməli yerlərini gəzmiş, tarix–mədəniyyət abidələri ilə tanış olmuşlar.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, tarixi mənbələrdə şəhərin adı ilk dəfə 1094-cü ildə yepiskopluğun mərkəzi kimi çəkilir. Şəhərin indiyədək qalan qala divarları 1226-cı ildə inşa edilmişdir.*

*Dövlətimizin başçısı «Daş qapı» adlanan yerə gəldi. 1760-cı ildə tikilmiş bu kompleksdə şəhər sakinləri «böyük yanğın» zamanı Zaqrebi xilas etmiş qadının xatirəsinə şamlar yandırırlar.*

*Sonra Azərbaycan prezidenti və xanımı Zaqreb yepiskopluğunun əsaslı bərpa işləri aparılan binasına gəldilər. 1217-ci ildə tikilmiş bu kompleks 1242-ci ildə monqol-tatar qoşunları tərəfindən dağıdılmış, 1284-cü ildə isə qotika üslubunda yenidən bərpa edilmişdir. Binanın bir hissəsi 1880-ci ildə zəlzələ nəticəsində dağılsa da, 1902-ci ildə hazırkı görkəmində bərpa olunmuşdur. On bir hissədən ibarət kompleksdə orqan salonu olan kilsə, mehrab və onun arxasında apostolların, yepiskopların və qəhrəmanların şəkilləri vardır. Pəncərələrdəki rəngli mozaikalar 1847-ci ildə Münhendən gətirilmişdir.*

*Prezident İlham Əliyev və Mehriban xanım şəhərin qədim hissəsindəki digər abidələrə də tamaşa etdilər və mərkəzi meydanda Zaqreb sakinləri ilə birgə çay içdilər.*

* * *

*İyunun 12-də Azərbaycan Respublikasının prezidenti Ilham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hava limanında Xorvatiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev elə həmin gün Vətənə qayıtmışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ

*13 iyun 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 9-cu Beynəlxalq iqtisadi forumunda iştirak etmək üçün iyunun 13-də Sankt-Peterburqa yola düşmüşdür.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev həmin gün Sankt-Peterburqa gəlmişdir.*

*Rusiyanın və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş Pulkovo hava limanında prezident İlham Əliyevi Sankt-Peterburqun qubernatoru Valentina Matviyenko, ölkəmizin Rusiya Federasiyasındakı səfiri Ramiz Rizayev, Sankt-Peterburqdakı Baş konsulu Qüdsi Osmanov və digər rəsmi şəxslər, Azərbaycan diasporunun nümayəndələri qaşıladılar. Milli geyimli uşaqlar dövlətimizin başçısına gül dəstəsi təqdim etdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVIN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

*Sankt-Peterburq,*
*Tavriya sarayı*

*14 iyun 2005-ci il*

*Ölkələrimiz arasında istər iqtisadi, istərsə də siyasi sahədə əməkdaşlığın çox sanballı olduğunu vurğulayan Rusiya prezidenti dedi ki, son illər bu əməkdaşlıq yüksələn xətlə inkişaf edir və zənnimcə, biz bu meyli gələcəkdə də saxlayacağıq. Münasibətlərimizin inkişaf meyli bunu göstərir.*

*Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin durmadän artdığını xatırladan prezident Vladimir Putin bunun hər iki ölkənin xalqlarına fayda gətirəcəyinə əmin olduğunu söylədi.*

*Prezident Putin Rusiya–Azərbaycan münasibətlərinin inkişafına göstərdiyi böyük diqqətə, habelə IX Sankt-Peterburq iqtisadi forumunda iştirakına görə prezident İlham Əliyevə təşəkkür etdi.*

*Peterburq iqtisadi forumunu çox faydalı tədbir kimi səciyyələndirən Azərbaycan prezidenti İlham Əliyev forum çərçivəsində respublikamızın, iqtisadi münasibətlərimizin təqdimatını xüsusi vurğuladı.*

*Ölkələrimiz arasında münasibətlərin çox sıx olduğunu xatırladan dövlətimizin başçısı bunu qarşılıqlı etimad və qarşılıqlı hörmət əsasında qurulan mehriban qonşuluq münasibətlərinə yaxşı nümunə kimi qiymətləndirdi. Prezident İlham Əliyev dedi ki, biz çoxtərəfli əlaqələrimizin bundan sonra da inkişaf etməsinə çalışacağıq.*

## IX SANKT-PETERBURQ BEYNƏLXALQ İQTİSADİ FORUMUNUN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*Sankt-Peterburq,*
*Tavriya sarayı*

*14 iyun 2005-ci il*

Hörmətli forum iştirakçıları!

Əziz dostlar!

İlk növbədə, forumda iştirak etmək barədə dəvətə görə onun təşkilatçılarına təşəkkürümü bildirmək istərdim. Biz Azərbaycanın belə mötəbər beynəlxalq hadisədə iştirakına böyük əhəmiyyət veririk. Forum öz mövcudluğu illərində inteqrasiya əməkdaşlığının çox mühüm elementinə çevrilmişdir. Forumda bir çox ölkələrin nümayəndələri, iri şirkətlərin rəhbərləri iştirak edirlər, burada aparılan müzakirələr, fikir mübadiləsi, diskussiyalar bizdə böyük maraq doğurur. Bu forum bizim üçün bir də ona görə böyük əhəmiyyətə malikdir ki, onun çərçivəsində Azərbaycanın iqtisadi inkişafının, iqtisadi nailiyyətlərinin təqdimatı olacaq, bundan əlavə, nailiyyətlərimiz də bu gün açılan sərgidə nümayiş etdiriləcəkdir.

Azərbaycan öz iqtisadiyyatını, ümumən dinamik inkişaf etdirir. 1996-cı ildən 2004-cü ilədək dövrdə iqtisadiyyatın orta artım səviyyəsi 10 faizdən çox olmuşdur. Beləliklə, həmin dövr ərzində ümumi daxili məhsul iki dəfə artmışdır. İndi biz yeni mərhələdə, çox fəal inkişaf mərhələsindəyik. Beynəlxalq Valyuta Fondunun məlumatına görə, cari ildə Azərbaycan iqtisadiyyatının artım sürəti 18 faiz olacaqdır ki, bu da dünya ölkələri arasında ən yüksək göstəricidir. Azərbaycanda çox yaxşı sərmayə mühiti, sərmayəçilər üçün maksimum əlverişli

şərait, habelə milli mənafelərimizi tamamilə təmin etməyə imkan verən mexanizm yaradılmışdır. Belə sərmayə siyasəti isə ona gətirib çıxarmışdır ki, son 10 ildə Azərbaycan iqtisadiyyatına 24 milyard dollar məbləğində sərmayə qoyulmuşdur. Bu, adambaşına götürdükdə, regionda ən yüksək göstəricilərdən biridir. Iqtisadiyyatın inkişafının yüksək sürəti bizə sosial məsələləri də həll etməyə imkan verir. Əhalinin sosial müdafiəsi ilə bağlı məsələlərə də böyük diqqət yetirilir. 2005-ci ilin büdcəsində bu xərclərin, o cümlədən səhiyyə üçün xərclərin 44 faiz, təhsil xərclərinin 25 faiz artırılması nəzərdə tutulmuşdur. Ümumiyyətlə, büdcənin planlaşdırılan dəqiqləşdirmələrlə artımı təxminən 40 faiz olacaqdır.

Biz ölkəmizin regional inkişafına da böyük əhəmiyyət veririk. İstəyirik ki, ölkəmiz dinamik və hərtərəfli inkişaf etsin, o cümlədən də Azərbaycan regionları müsbət dəyişiklikləri hiss etsin. Bu məqsədlə il yarım əvvəl regional inkişaf proqramı qəbul olunmuşdur. O, regionlarda müasir infrastrukturun inkişaf etdirilməsini nəzərdə tutur. Proqram həmçinin yoxsulluğun azaldılmasına və işsizliyin səviyyəsinin aşağı salınmasına yönəldilmişdir. Deməliyəm ki, bu dövr çox uğurlu olmuşdur: son il yarımda Azərbaycanda 217 min yeni iş yeri yaradılmışdır, onların böyük əksəriyyəti qeyri-neft sektorunda və regionlardadır. Son il yarımda yoxsulluğun səviyyəsi 9 faiz azaldılmışdır. Buna baxmayaraq, bu məsələ böyük narahatlıq doğurur. Biz qarşımıza məqsəd qoymuşuq ki, ölkəmizdə yoxsullar olmasın, vətəndaşların maddi rifah səviyyəsi ildən-ilə yüksəlsin. Bir sözlə, Azərbaycanın inteqrasiya proseslərində fəal iştirakı, iqtisadiyyatımızın açıqlığı, yaxşı sərmayə mühiti kifayət qədər qısa müddətdə iqtisadiyyatı bərpa etməyə, 1990-cı illərin əvvəlinin ağır nəticələrini aradan qaldırmağa və davamlı iqtisadi artıma nail olmağa imkan vermişdir. Ümid edirik ki, bu inkişaf sürəti gələcəkdə də saxlanılacaq və bu bizə, ölkəmizə iqtisadi cəhətdən güclü dövlət olmağa imkan yaradacaqdır.

Regional əməkdaşlıq çərçivəsində Azərbaycanda iri beynəlxalq layihələr həyata keçirilir və biz xarici sərmayəçilərlə

gələcəkdə də fəal əməkdaşlığa ümid bəsləyirik. Deməliyəm ki, Rusiya ilə Azərbaycan arasında iqtisadi əlaqələr hazırda sürətli inkişaf dövrünü keçirir. 2004-cü ilin əvvəlində hər iki ölkənin prezidentləri əmtəə dövriyyəsinin iki dəfə artırılmasını qarşıya vəzifə qoymuşlar. Indi, aradan iki ildən az keçdiyi bir vaxtda məmnuniyyətlə qeyd etmək olar ki, biz bu vəzifəni, demək olar, yerinə yetirmişik. Əmtəə mübadiləsinin artım sürəti çox yüksəkdir, təxminən 50–60 faizdir. Ən başlıcası isə, ölkələrimizin potensialı daha böyük artıma nail olmağa imkan verir. Azərbaycanda Rusiya kapitalı ilə 400 şirkət işləyir və Rusiya şirkətləri ölkəmizdə sərmayə proseslərində fəal iştirak edirlər. Hesab edirik ki, iqtisadi əlaqələrin sürətlə inkişafı mənafelərimizə cavab verir, Rusiya ilə Azərbaycan arasında hərtərəfli münasibətlər üçün çox ciddi bünövrə qoyur. Biz bu münasibətlərin inkişaf səviyyəsindən razıyıq, indi onlar strateji tərəfdaşlıq səviyyəsinə çıxmışdır. Bu həm Rusiyanın, həm də Azərbaycanın mənafelərinə uyğundur. Ümidvaram ki, iqtisadi əlaqələrin, siyasi əlaqələrin, humanitar sahədə əlaqələrin daha da inkişaf tapması birgə layihələri daha sıx həyata keçirməyə və regional səviyyədə daha fəal əməkdaşlıq etməyə imkan verəcəkdir. Sirr deyil ki, Rusiyanın da, Azərbaycanın da iqtisadi potensialı ildən-ilə artır və bu bizə iqtisadi əməkdaşlıq üçün bütün mexanizmləri daha səmərəli şəkildə işə salmağa imkan verir. Biz gələcəkdə də belə əməkdaşlığa ümid bəsləyir və inanırıq ki, o, Rusiyaya da, Azərbaycana da böyük fayda gətirəcəkdir. Bu mühüm forumda iştirak etmək barədə dəvətə görə təşkilatçılara bir daha təşəkkürümü bildirmək və forumun işinə uğurlar arzulamaq istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

## SANKT-PETERBURQDA XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN XATİRƏ LÖVHƏSİNİN AÇILIŞ MƏRASİMİ

*14 iyun 2005-ci il*

*Sankt-Peterburqda Qoroxovaya küçəsindəki 6 nömrəli ünvanda, ümummilli lider Heydər Əliyevin vaxtilə, 1949–1950-ci illərdə təhsil aldığı keçmiş DTK-nın Ali məktəbinin binasında ulu öndərimizin xatirə lövhəsinin açılışı olmuşdur. Xatirə lövhəsinin müəllifi tanınmış Sankt-Peterburq heykəltəraşı Yan Neymandır.*

*Açılış mərasimində Azərbaycan prezidenti İlham Əliyev, Sankt-Peterburqun vitse-qubernatoru Sergey Tarasov, MDB-nin icraçı katibi Vladimir Ruşaylo, Azərbaycan prezidentini Sankt-Peterburq səfərində müşayiət edən nümayəndə heyətinin üzvləri iştirak edirdilər.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Mərasimi Sankt-Peterburqun vitse-qubernatoru Sergey Tarasov açaraq dedi:*

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Dostlar!

Bu gün mənə Sankt-Peterburqun qubernatoru adından, Sankt-Peterburq hökuməti adından, bütün peterburqlular adından sizi burada, şəhərimiz üçün əlamətdar hadisə – Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlı olan binada xatirə lövhəsinin açılışında salamlamaq şərəfi nəsib olmuşdur. O, gənc yaşlarında burada, bu binada təhsil almış və bütün ömrü boyu şəhərimizə, Leninqrada, Sankt-Peterburqa məhəbbət bəsləmişdir. Azərbaycan prezidenti olarkən də dəfələrlə buraya gəlmişdir. Onun şəhərimizə, şəhərimizin sakinlərinə, bu nadir abidəyə

münasibətində böyük sevgi və ehtiram vardı. Bu gün bu binada xatirə lövhəsinin açılışı bizim hamımız üçün çox mühüm, çox əhəmiyyətli hadisədir.

Sankt-Peterburqun 300 illiyi şənliklərinə hazırlıq zamanı Petroqrad rayonunda Nizaminin heykəli açılmışdı. Bu bizim şəhər üçün çox yaxşı, çox əhəmiyyətli hədiyyə idi. Bu gün xatirə lövhəsinin açılışı isə təkcə Azərbaycan xalqının dahi oğlunun xatirəsinə ehtiram deyil, həm də ölkələrimiz arasında, xalqlarımız arasında münasibətlərə göstərilən ehtiramdır. Əminəm ki, bu hadisə yaxşı münasibətlərimizin möhkəmlənməsinə xidmət edəcəkdir. Bu hədiyyə – lövhənin açılışı hamımız üçün səmimi münasibətlərimizin rəmzi olacaqdır.

Çox sağ olun.

**Prezident İlham Əliyevin çıxışı**

Əziz dostlar!

Bu gün çox əlamətdar gündür.

Bu gün gözəl Sankt-Peterburq şəhərində Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyevin xatirə lövhəsi açılır. Bu çox əlamətdar hadisə, çox mühüm hadisədir. Bu, bir tərəfdən, Heydər Əliyevin xatirəsinə ehtiram əlamətidir. Digər tərəfdən isə, onun xidmətlərinə göstərilən ehtiramdır. Bu həm də Rusiya ilə Azərbaycan arasında ikitərəfli dostluq münasibətlərinin bundan sonra da və daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Heydər Əliyev Azərbaycan xalqının görkəmli lideridir. Yaşadığı və Azərbaycana rəhbərlik etdiyi dövrdə ictimai-siyasi formasiyadan asılı olmayaraq, o, respublikanın möhkəmlənməsi, siyasi sistemdə öz mexanizmlərini təkmilləşdirməsi, iqtisadi cəhətdən inkişaf etməsi üçün hər şey etmişdir, hər şey edirdi ki, Azərbaycan xalqı daha yaxşı yaşasın. Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə də, müstəqil Azərbaycanın prezidenti olduğu dövrdə də bütün həyatını öz xalqına xidmətə həsr etmişdi.

Heydər Əliyevin həyatının bir çox illəri Rusiya, Sankt-Peterburq, Moskva ilə bağlı olmuşdur. O, gənclik illərində Sankt-Peterburqda oxumuşdur və bu şəhər haqqında həmişə böyük səmimiyyətlə danışırdı. Yadımdadır, bu söhbətlər çox olmuşdur. O həmin illəri xatırlayaraq Sankt-Peterburqdan, o vaxtkı Leninqraddan, öz dostlarından, burada birlikdə oxuduğu və ünsiyyətdə olduğu insanlardan həmişə böyük məhəbbətlə, səmimiyyətlə söhbət açırdı.

Xatirimdədir, mən o vaxt Leninqrada gələrkən mənə həmişə deyərdi: «Qoroxovaya küçəsinə get, mənim oxuduğum binaya bax». Yadımdadır, mən buraya gələrkən bu binanın qarşısında şəkil çəkdirir, sonra bu şəkilləri gətirib ona göstərirdim. Bütün bunlar Heydər Əliyevin Sankt-Peterburqa ömrünün sonunadək bəslədiyi dərin şəxsi hissləri nümayiş etdirirdi. O, artıq Azərbaycanın prezidenti olduğu dövrdə bu şəhərə dəfələrlə gəlmişdi və ona həmişə məhəbbətlə yanaşırdı.

Bu gün Azərbaycan və Rusiya öz münasibətlərində keyfiyyətcə tamam yeni bir mərhələni – strateji tərəfdaşlıq, dostluq, iqtisadi münasibətlərin fəal inkişafı dövrünü yaşayırlar. Bu yeni mərhələnin bünövrəsini iki prezident – prezident Putin və prezident Heydər Əliyev qoymuşlar. Məhz onların səyləri sayəsində 2000-ci ilin əvvəllərindən başlayaraq ölkələrimiz arasında münasibətlər yeni mərhələyə çıxdı və indi çox fəal inkişaf edir və möhkəmlənir. Vladimir Vladimiroviç Putinlə mənim bugünkü görüşüm və forumda iştirakım buna daha bir əyani sübutdur.

Heydər Əliyev tərəfindən Azərbaycanda əsası qoyulan ənənələr yaşayır, onun siyasəti bütün istiqamətlərdə, o cümlədən Rusiya ilə ikitərəfli münasibətlərimizdə davam etdirilir. Biz çox məmnunuq ki, bu münasibətlər qarşılıqlı etimad, hörmət və qarşılıqlı dəstək əsasında qurulur.

Heydər Əliyev Azərbaycan üçün ən çətin anda, 1993-cü ildə xalqın iradəsi ilə respublikaya rəhbərlik etməyə başlayanda Azərbaycanın gələcəyi böyük sual altında idi. Olkəni daxili ziddiyyətlər, vətəndaş müharibəsi didib-dağıdırdı, qan tökülürdü, ucdantutma qarmaqarışıqlıq və tam iqtisadi tənəzzül hökm sürürdü.

Onun rəhbərliyinin 10 ili ərzində Azərbaycan siyasi və iqtisadi cəhətdən tam tənəzzülə uğramış ölkədən indi regionun dinamik inkişaf edən dövlətinə çevrilmişdir. İndi Azərbaycan həm iqtisadi inkişaf sürətinə, həm sənaye məhsulu istehsalının artımına, həm bazar iqtisadiyyatı əsaslarının inkişaf sürətinə, həm də yeni iş yerlərinin açılması, yoxsulluğun azaldılması, inteqrasiya proseslərinin sürətinə görə, habelə adambaşına düşən sərmayələrin həcminə görə regionda və postsovet məkanında qabaqcıl yerlərdən birini tutur.

Bax, liderin gücü budur, xalqın tarixində liderin rolu budur. Ən ağır dövrdə, əslində ümidsiz bir vəziyyətdə ölkəni böhrandan çıxarmaq, ayağa qaldırmaq və sabit inkişafa nail olmaq deməkdir! Bu gün biz, Azərbaycan vətəndaşları, onun ardıcılları bütün bunların hamısına malikik, vəzifəmiz də ölkəmizin bütün istiqamətlərdə firavan yaşaması və tərəqqisi üçün bu siyasəti inkişaf etdirməkdən və möhkəmlətməkdən ibarətdir.

Əlbəttə ki, Rusiya ilə münasibətlər gələcəkdə də bizim üçün çox mühüm rol oynayacaqdır. Umidvarıq ki, bu münasibətlər çox fəal inkişaf etdiriləcək və möhkəmləndiriləcəkdir. Əlbəttə ki, Bakı ilə Sankt-Peterburq arasında münasibətlər də. Tarixən bu münasibətlər həmişə yaxın, səmimi olmuşdur və bu gün də belədir. Heydər Əliyevin xatirəsinə bu lövhənin açılması da dostluğumuza daha bir sübutdur. Bu həm prezidentimizin xatirəsinə hörmət, həm onun xidmətlərinin qiymətləndirilməsi və həm də sadəcə, Sankt-Peterburq hökumətinin çox insani bir təşəbbüsüdür. Azərbaycan xalqı bunu qiymətləndirir və həmişə xatırlayacaqdır.

Bu xatirə lövhəsinin açılışına görə şəhərin rəhbərliyinə bir daha təşəkkürümü ifadə edir və əmin olduğumu bildirmək istəyirəm ki, bizim münasibətlərimiz əbədi olaraq bu zəmində qurulacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev və Sankt-Peterburqun vitse-qubernatoru Sergey Tarasov xatirə lövhəsinin üzərindən örtüyü götürdülər.*

*Xatirə lövhəsinin önünə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının prezidenti Vladimir Putinin, Rusiya Dövlət Dumasının, Sankt-Peterburqun qubernatoru Valentina Matviyenkonun, Rusiya Federasiyası Prezidentinin Şimal–Qərb Federal dairəsi üzrə səlahiyyətli nümayəndəsinin, Azərbaycanın Rusiyadakı səfirliyinin, ölkəmizin Sankt-Peterburqdakı Baş konsulluğunun, Azərbaycan diasporunun adından gül-çiçək dəstələri qoyuldu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQDA GÖRÜŞLƏRİ

*14 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev «Bakı» restoran-muzeyində tikinti işlərinin gedişi və «MBA–Moskva» Bankı filialının işi ilə tanış olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev Sankt-Peterburqda Sadovaya küçəsindəki 12 nömrəli binada yerləşən «Bakı» restoran-muzeyində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Azərbaycanın Sankt-Peterburqdakı Baş konsulu Qüdsi Osmanov ümummilli liderimiz Heydər Əliyevin hələ Sovet İttifaqı rəhbərliyində ali dövlət vəzifəsi tutduğu vaxtlarda onun təşəbbüsü ilə açılan «Bakı» restoranı barədə dövlətimizin başçısına məlumat verdi. Sonralar restoran fəaliyyət göstərməmişdir. Hazırda isə Azərbaycan və Sankt-Peterburq hökumətləri arasında əməkdaşlığa dair protokola uyğun olaraq Rusiyanın şimal paytaxtında Azərbaycan mətbəxi restoran-muzeyləri şəbəkəsi açmaq planlaşdırılır. Qüdsi Osmanov tərtibatında milli motivlərdən istifadə olunacaq gələcək Azərbaycan mədəniyyət ocağının maketini prezident Ilham Əliyevə nümayiş etdirdi. Restoranı bu ilin payızında açmaq nəzərdə tutulur.*

*Sonra prezident İlham Əliyev Azərbaycan Beynəlxalq Bankı – Moskva bankı «MBA–Moskva» Sankt-Peterburq filialının fəaliyyəti ilə tanış oldu. Azərbaycan Beynəlxalq Bankı idarə Heyətinin sədri Cahangir Hacıyev dövlətimizin başçısına 2003-cü ildə açıimış filialın işi barədə məlumat verdi. Bildirildi ki, filial Rusiyanın maliyyə qurumları ilə yaxından əməkdaşlıq edir. Prezident İlham Əliyev filial əməkdaşlarının iş şəraiti ilə maraqlandı.*

### Avropa Yenidənqurma və İnkişaf Bankının

## prezidenti ilə görüş

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 14-də Yevropa mehmanxanasında Avropa Yenidənqurma və Inkişaf Bankının prezidenti, IX Sankt-Peterburq iqtisadi forumunun təşkilat komitəsinin həmsədri Jan Lemyer ilə görüşmüşdür. Görüşdə ölkəmizin bu beynəlxalq maliyyə təşkilatı ilə ikitərəfli əməkdaşlığının inkişafına dair məsələlər müzakirə edildi.*

## Azərbaycan Prezidenti Çexiya parlamenti senatının sədri ilə görüşmüş

*Elə həmin gün Azərbaycan prezidenti İlham Əliyev Çexiya parlamenti senatının sədri Prşemisel Sobotka ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Çexiya arasında əməkdaşlığın inkişafı, habelə ölkəmizin Avropa Birliyinə inteqrasiyası prosesinin fəallaşdırılması məsələləri barədə fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Sankt-Peterburq,*
*«Yevropa» mehmanxanasının konfrans salonu*

*14 iyun 2005-ci il*

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu görüşdən çox məmnunam. Çox şadam ki, bu gün sizinlə görüşürəm.

Mən bu gün səhərdən burada müxtəlif tədbirlərdə iştirak edirəm. Burada keçirilən Beynəlxalq iqtisadi forumda iştirak etmişəm, ondan sonra Rusiyanın prezidenti cənab Putinlə görüşüm olubdur. Hələ bundan sonra da görüşlərim nəzərdə tutulubdur. Çox şadam ki, bu gün bir yerdəyik, bir-birimizi görürük, bir-birimizi eşidirik.

Qeyd olundu ki, üç il bundan əvvəl ümummilli lider Heydər Əliyev burada olarkən Azərbaycan diasporunun nümayəndələri ilə görüşmüş, öz ürək sözlərini, tövsiyələrini söyləmişdir. O, bütün xarici səfərləri zamanı haradakı azərbaycanlılar yaşayır, mütləq onlarla görüşürdü, onların problemləri ilə maraqlanırdı, bunları həll etməyə çalışırdı. Bu ənənə Azərbaycanda indi də yaşayır. Bütün başqa sahələrdə olduğu kimi, Heydər Əliyev siyasəti bu sahədə də davam və inkişaf edir. Mən də xarici səfərlərimdə azərbaycanlılarla daim görüşürəm, onlara öz sözlərimi deyirəm, öz dəstəyimi bildirirəm. Hesab edirəm ki, Azərbaycanın başqa ölkələrlə ikitərəfli münasibətlərində bu amil çox mühüm yer tutur. Çünki bu gün azərbaycanlılar dünyanın

müxtəlif yerlərində yaşayırlar və artıq diaspor kimi də formalaşıblar.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Bakıda bir neçə il bundan əvvəl Dünya azərbaycanlılarının qurultayı keçirilmişdir. Diasporların, o cümlədən Rusiyada təşkilatlanma prosesi sürətlə gedir. Rusiyada artıq bir neçə ildir ki, Ümumrusiya Azərbaycan Konqresi fəaliyyət göstərir. Rusiya prezidenti cənab Putin və mən konqresin ikinci qurultayında iştirak etmişik. Bu çox mühüm məsələdir.

Azərbaycanla Rusiya arasında əlaqələr sürətlə inkişaf edir. Bizim aramızda çox gözəl münasibətlər mövcuddur. Həm iqtisadi, həm siyasi, həm humanitar və bütün başqa sahələrdə bizim əlaqələrimiz inkişafdadır. Əlbəttə ki, Rusiyada yaşayan azərbaycanlıların taleyi də bizi daim maraqlandırır və daim danışıqlarımızın, görüşlərimizin mövzusuna çevrilir. Bu gün prezident Putinlə mənim görüşümdə də bu məsələyə toxunuldu və çox şadam, prezident Putin qeyd etdi ki, Sankt-Peterburqda çox güclü Azərbaycan diasporu var. Bu, artıq bir həqiqətdir, reallıqdır, bu, güclü amildir.

Bu, müstəqil Azərbaycanın potensialını gücləndirir. Çünki başqa ölkələrdə yaşayan azərbaycanlılar doğma vətən üçün çalışırlar, əllərindən gələni edirlər. Öz əməkləri ilə, öz bacarıqları ilə ümumi işimizə böyük töhfələr verirlər. Eyni zamanda müstəqil Azərbaycan dövlətinin güclənməsi xaricdə yaşayan azərbaycanlılara da müsbət təsir göstərir. Yəni bu, qarşılıqlı bir prosesdir və mən çox şadam ki, hər iki istiqamətdə gedən işlər çox yüksək səviyyədədir.

Rusiya ilə olan münasibətlərimiz bundan sonra daha da inkişaf edəcəkdir. Bizim iqtisadi əlaqələrimiz güclənir, ticarətimiz artır. Demək olar ki, ticarətimiz son il yarım ərzində təxminən 70 faiz artmışdır. Əminəm ki, burada yaşayan azərbaycanlılar da öz işlərini elə quracaqlar ki, bütün bu yeni yaranmış imkanlardan səmərəli istifadə etsinlər.

Bizim ölkəmiz – sizin vətəniniz, bizim hamımızın doğma vətəni Azərbaycan inkişaf edir. Qarşımızda duran bütün məsələlər öz həllini tapır. Prezident seçkiləri ərəfəsində verilmiş bütün vədlər həyatda öz əksini tapır. Son il yarım ərzində Azərbaycanda 217 min yeni iş yeri açılmışdır. Onların da böyük əksəriyyəti Azərbaycanın regionlarında açılmışdır. Regional inkişaf proqramı da sürətlə həyata keçirilir və mən rayonlara etdiyim bütün səfərlərdə görürəm ki, inkişaf var, abadlıq, quruculuq işləri gedir. Azərbaycanın iqtisadiyyatı dünyada misli görünməmiş sürətlə artır. Bu gün mən iqtisadi forumda bu rəqəmləri diqqətə çatdırdım. Bu il Azərbaycanın iqtisadiyyatı ən azı 18 faiz artacaqdır. Bu, dünyada ən böyük göstəricidir. Azərbaycan bu göstəriciyə görə lider dövlətdir. Çox sevindirici hal ondan ibarətdir ki, 2005-ci ilin ilk beş ayında iqtisadiyyat 16 faiz artıb, onun da 9 faizi qeyri-neft sektorunda müşahidə olunubdur. Bu onu göstərir ki, biz hərtərəfli inkişaf edirik, Azərbaycan iqtisadiyyatı çoxşaxəlidir. Yəqin bilirsiniz, mənim seçkiqabağı platformamın əsas elementlərindən biri də o idi ki, Azərbaycanın regionlarında yeni infrastruktur, yeni iş yerləri yaranmalıdır və paytaxtla rayonlar arasında fərq azalmalıdır.

Yoxsulluqla mübarizə aparırıq. İl yarım ərzində Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayı 9 faiz azalıbdır. Maaşlar qaldırılır, minimum əməkhaqqı 2 dəfədən çox qaldırılıbdır, o cümlədən pensiyalar qaldırılıbdır. Bu yaxınlarda tələbələrin təqaüdləri qaldırılacaqdır. Yəni bütün sahələrdə inkişaf gözlənilir. Bizim nəhəng enerji layihələrimiz ilk bəhrəsini verməkdədir və mən əminəm ki, qısa müddət ərzində Azərbaycan çox zəngin, qüdrətli dövlətə çevriləcəkdir. Azərbaycanda yeni imkanlar yaranır, çoxlu xarici firmalar, sərmayəçilər Azərbaycana işləməyə gəlirlər. Biz iqtisadiyyatımızı bazar münasibətləri əsasında qururuq və bu liberallaşma prosesi daha da sürətlə gedir. Bakıda, Azərbaycanın başqa şəhərlərində çox güclü tikinti işləri gedir. Bütün özəl sektora sərbəstlik ve-

rilibdir. Sahibkarların iş şəraitinin yaxşılaşdırılması üçün əməli addımlar atılır. Büdcədən güzəştli kreditlər ayrılır. Bu il büdcədən birbaşa özəl sektora 40 milyon dollar həcmində güzəştli kreditlər verilibdir. Gələn il biz bunu yəqin ki, iki dəfə qaldıracağıq.

Bir sözlə, bu gün Azərbaycanda iş görmək üçün, yeni müəssisələr yaratmaq üçün çox gözəl şərait var və bundan bizim iş adamlarımız səmərəli istifadə edir, xaricdən gələn sərmayəçilər də maraqlanırlar. Artıq Azərbaycanda orta təbəqə, sahibkarlar sinfi yaranmaqdadır. O da sirr deyil ki, Rusiyada yaşayan azərbaycanlıların əksəriyyəti kommersiya işləri ilə, bizneslə məşğuldur və çox da yaxşı işləyir, çox böyük uğurlar qazanırlar və Azərbaycanda yaşayan qohumlarına kömək edirlər. Bu bizim milli adət-ənənəmizdir. Bilirəm ki, Rusiyada yaşayan azərbaycanlılar artıq Azərbaycan iqtisadiyyatına da sərmayə qoyurlar. Müxtəlif rayonlara etdiyim səfərlər çərçivəsində bunun şahidi olmuşam ki, yeni müəssisə yaranır, yeni iş yeri açılır, soruşuram ki, bu sahibkar kimdir, deyirlər Rusiyada işləyir, yaxud qardaşı Rusiyada işləyir. Çox şadam ki, Rusiyada işləyən azərbaycanlılar, burada kapital əldə edən bizim qardaşlarımız doğma vətənə də sərmayə qoyurlar. Biz hamımız çalışmalıyıq ki, Azərbaycanı daha da gücləndirək, Azərbaycanın regiondakı lider mövqelərini möhkəmləndirək.

Bizim qarşımızda duran ən böyük, ən ağrılı problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bunu da biz həll etməliyik və edəcəyik. Çalışırıq ki, bunu sülh yolu ilə həll edək. Çünki biz müharibə istəmirik. Amma onu da bilməliyik ki, sülh yolu ilə bunu həll etmək üçün gərək bizim gücümüz olsun. Bu gücü biz bu gün yaradırıq. 2005-ci ildə Azərbaycanın büdcəsi 2004-cü ilə nisbətən 30 faiz artıbdır. Səhiyyəyə ayrılan xərclər əvvəlkindən 44 faiz, təhsil xərcləri 25 faiz, ordu quruculuğuna xərclər təxminən 40 faizdən çox nəzərdə tutulubdur və bu meyllər davam etdiriləcəkdir. Əgər biz Dağlıq Qarabağ mə-

sələsini sülh yolu ilə həll etmək istəyiriksə, gərək Ermənistandan onqat güclü olaq və biz buna nail ola bilərik. İndi Azərbaycanın büdcəsi Ermənistanın büdcəsindən 4 dəfə böyükdür. Gələn il 6 dəfə çox olmalıdır. Məqsəd də qoyulub ki, 10 dəfə çox olmalıdır. Azərbaycan öz hərbi potensialını da gücləndirir və ordu quruculuğu istiqamətində böyük işlər görüləcəkdir. Bizim ordumuz bu gün də istənilən vəzifəni həll etməyə qadirdir. Ancaq gərək onu daha da gücləndirək.

Ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün, əlbəttə ki, həm də dövlət siyasəti lazımdır. Bu da var və biz onu həyata keçiririk. Xüsusilə iqtisadi sahədə potensialımız artır. Təbii ki, özəl sektor tərəfindən hərəkət olmalıdır. Mən hesab edirəm ki, sizin burada güclü olmağınız Azərbaycanı gücləndirir, Azərbaycanın güclü olması sizi gücləndirir. Gələcəkdə Azərbaycanın haqq sözünü yüksək kürsülərdən deyəcək insanların sayı daha çox olmalıdır. Yerli icra orqanlarında bizim soydaşlarımızın təmsilçiliyi təmin olunmalıdır, daha da gücləndirilməlidir. Çalışmalıyıq ki, ali qanunvericilik orqanlarında bizim mövqeyimizi müdafiə edən insanlar fəaliyyət göstərsinlər. Biz öz üzərimizə düşən vəzifələri yerinə yetirəcəyik və əminəm ki, siz də bunu edəcəksiniz.

Mən çox şadam ki, Sankt-Peterburqda diaspor çox fəaldır, çox gözəl işlər görür və onun fəaliyyəti Peterburqun rəhbərliyi tərəfindən də bəyənilir. Dünən biz Vaqif müəllimlə, qubernator Valentina Matviyenko ilə birlikdəydik, söhbət edirdik. Mən çox şadam ki, qubernatorun da, yerli orqanların da bizim diasporun nümayəndələrinə böyük hörməti var. Mən bunu Bakıda da onlarla söhbət edərkən hiss etmişdim. Bu gün də bunu görürəm.

Bizim aramızda, Rusiya ilə Azərbaycan və Sankt-Peterburqla Bakı arasında olan əlaqələr bizə lazımdır və biz bunu daha da sürətlə inkişaf etdirməliyik.

Xalqımızın ümummilli lideri Heydər Əliyevə də Rusiyada böyük hörmət var. Prezident Putin tərəfindən böyük şəxsi hörmət var. Mən çox şadam ki, ümummilli liderimizin

xatirəsi burada əbədiləşdirilir. Bu gün xatirə lövhəsi açılacaqdır. Bu da çox böyük hadisədir. Vladimir Putinlə söhbətimizdə bu mövzuya da toxunduq. Bilirsiniz ki, o özü buralıdır və mənə dedi ki, 1703-cü ildə əsası qoyulandan bu günə qədər Sankt-Peterburqda müxtəlif xatirə lövhələri vurulmuşdur. Artıq 300 ildən çoxdur ki, bütün bu lövhələr durur, yerindədir. Ona görə bu gün burada xatirə lövhəsinin açılması da bir tarixdir. Bu, gözəl bir dostluq rəmzi olacaqdır və bu mənim üçün çox əzizdir. Ona görə ki, Heydər Əliyev həm mənim atamdır və həm də ona görə ki, xalqımızın ümummilli liderinin xidməti burada yüksək səviyyədə qiymətləndirilir.

Mən əminəm ki, siz bundan sonra da yaxşı yaşayacaqsınız. Sankt-Peterburqda yaxşı işlər görəcəksiniz. Bütün burada səslənən fikirlərə mən də qoşuluram. Burada məktəblər fəaliyyət göstərməlidir ki, bizim uşaqlarımız ana dilini unutmasınlar, öyrənsinlər, mükəmməl bilsinlər. Eyni zamanda Azərbaycanı təmsil edən mədəniyyət mərkəzləri, ölkəmizi təcəssüm etdirən digər infrastruktur yaradılır. Bu gün «Bakı» restoran-muzeyində tikinti işləri ilə tanış oldum. Sonra bizim Beynəlxalq bankın bu yaxınlarda burada açılan filialının bunasına baş çəkdim. Yəni bu, Azərbaycanın təmsilçiliyidir. Bu bankın filialının qarşısında dalğalanan bayrağımız onu göstərir ki, bura müstəqil Azərbaycanın yeridir.

Bir sözlə, əziz dostlar, mən şübhə etmirəm ki, bizim doğma vətənimiz Azərbaycan hamımızın köməyi ilə, əməyi ilə daha da inkişaf edəcəkdir. Biz öz sözümüzü daha yüksək kürsülərdən deyəcəyik, öz istəyimizə nail olacağıq. Biz elə etməliyik ki, Azərbaycanda kasıb adam olmasın, yoxsulluq aradan götürülsün, işsizlik tamamilə aradan götürülsün və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları daha təhlükəsiz şəraitdə yaşasınlar. Mənim prezident kimi, vəzifə borcum bundan ibarətdir. Mən Azərbaycan xalqının rahat yaşamasının təminatçısıyam. Azərbaycanda hökm sürən sabitliyin, əmin-amanlığın, asayişin də təminatçısıyam və heç kimə imkan

verə bilmərəm ki, bu sabitliyi, bu əmin-amanlığı pozsun. Azərbaycanın çətin anları da olub, 1990-cı illərin əvvəllərində ölkəmiz, demək olar ki, artıq parçalanma ərəfəsində idi. Siz o günləri çox yaxşı xatırlayırsınız. Azərbaycan xalqı da yaxşı xatırlayır. Heç cür imkan verə bilmərik ki, o qara günlər təkrarlansın. Mən prezident kimi, bütün məsuliyyəti öz üzərimə götürmüşəm. Mən bu yoldan dönməyəcəyəm. Elə edəcəyəm ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, biz hamımız buna çalışmalıyıq. Mən bu görüşdən məmnun olduğumu bir daha ifadə etmək istəyirəm, sizə uğurlar arzulayıram, cansağlığı, ailələrinizə xoşbəxtlik arzulayıram. Sağ olun.

## PREZİDENT İLHAM ƏLİYEV «AZƏRBAYCAN RESPUBLİKASININ NAİLİYYƏTLƏRİ VƏ ƏMƏKDAŞLIĞA DAİR LAYİHƏLƏR» SƏRGİSİNDƏ

*Sankt-Peterburq*

*14 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Sankt-Peterburqun Mixaylov manejində açılan «Azərbaycan Respublikasının nailiyyətləri və əməkdaşlığa dair layihələr» sərgisində olmuşdur. Azərbaycan ekspozisiyasının ümumi sahəsi 350 kvadratmetrdir. Burada ölkəmizin 20 müəssisəsi və dövlət qurumunun məhsulları nümayiş etdirilir.*

*Respublikamızın «European Tobacco», «ATAholdinq» şirkətləri, «Gön-dəri» Səhmdar Cəmiyyəti, «Azəri-kimya» Dövlət Konserni, «Azərsun» şirkəti kimi aparıcı sənaye müəssisələri pavilyonlarının nümayəndələri və onların rəhbərləri dövlətimizin başçısına burada nümayiş etdirilən məhsullar barədə məlumat verdilər.*

*Sərgiyə gələnlər milli mətbəximizlə də tanış ola bildilər. Bunu Gənclər, İdman və Turizm Nazirliyi yanında Milli Kulinariya Mərkəzinin əməkdaşları təqdim edirdilər.*

*Sərgiyə gələnlər Azərbaycan Opera və Balet Teatrı artistlərinin ifasında milli musiqimizi də dinlədilər.*

*Prezident İlham Əliyev sərgi ilə tanışlıqdan sonra Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

* * *

*Prezident İlham Əliyev həmin gün gecə Bakıya qayıtdı.*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Lüksemburq Böyük Hersoqluğunun milli bayramı – Böyük Hersoqun Təvəllüd günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Lüksemburq xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 iyun 2005-ci il*

**LÜKSEMBURQ BÖYÜK HERSOQLUĞUNUN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB JAN-KLOD YUNKERƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Böyük Hersoqun Təvəllüd günü münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, Azərbaycan–Lüksemburq dövlətlərarası münasibətlərinin inkişafı xalqlarımızın rifahına daim töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 iyun 2005-ci il*

## MİLLİ QURTULUŞ GÜNÜ MÜNASİBƏTİLƏ YENİ AZƏRBAYCAN PARTİYASININ KEÇİRDİYİ MİTİNQDƏ NİTQ

*15 iyun 2005-ci il*

Əziz bacılar və qardaşlar!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizin hamınızı öpürəm, bağrıma basıram. Sizin hamınızı Milli Qurtuluş Günü münasibətilə ürəkdən təbrik edirəm.

1993-cü il iyunun 15-də müstəqil Azərbaycanın tarixinin yeni səhifəsi açıldı. O vaxt xalqın tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana hakimiyyətə qayıtdı. Azərbaycanda o çətin, ağır vəziyyətdə xalqı səfərbər edərək, ölkəmizi inamla inkişaf etdirməyə başladı. 1993-cü ilə qədər Azərbaycanda baş vermiş mənfi meyllər ölkəni uçuruma aparırdı. Azərbaycan faktiki olaraq dağılmaq ərəfəsində idi, ölkə parçalanırdı. Ölkənin səriştəsiz, xəyanətkar rəhbərliyi Azərbaycanı dünya xəritəsindən sildirə bilərdi. Azərbaycan xalqının müdrikliyi, cəsarəti ona gətirib çıxardı ki, xalqın lideri öz vətəninə qayıdaraq xalqına rəhbərlik etməyə başladı.

Gəlin 1993-cü ildəki Azərbaycanı və bugünkü Azərbaycanı müqayisə edək. O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərcmərclik var idi. Bu gün Azərbaycanda sülhdür, əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüd-

rətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan xalqımızın lideri Heydər Əliyev olmuşdur. Onun zəhmətidir, onun əməyidir və xalqla birlikdə bu gün biz Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk.

Heydər Əliyev siyasəti bu gün də Azərbaycanda yaşayır. Bu siyasətə alternativ yoxdur. Azərbaycan xalqı 2003-cü ildə keçirilmiş prezident seçkilərində bu siyasətə bir daha səs vermişdir. Məhz Heydər Əliyev siyasəti bu seçkilərdə qələbə qazanmışdı və o gündən bu günə qədər bütün verilmiş vədlər, bütün nəzərdə tutulmuş proqramlar uğurla icra edilir. Azərbaycan öz iqtisadi potensialını gücləndirir. Bu il Azərbaycanın iqtisadiyyatı 20 faiz artacaqdır. Bu da dünyada misli görünməmiş göstəricidir. Bu göstəriciyə görə biz dünyada birinci ölkəyik.

Azərbaycanda son il yarım ərzində 200 mindən artıq iş yeri açılıbdır. Bütün bu iş yerləri Azərbaycanı gücləndirir, Azərbaycan vətəndaşlarına yeni imkanlar yaradır. Biz bu istiqamətdə aparılmış siyasətimizi davam etdirəcəyik. Azərbaycanda işsizlik aradan götürüləcək, yoxsulluq aradan götürüləcəkdir.

Biz Heydər Əliyevin neft strategiyasını uğurla həyata keçiririk. Dünyanın ən nəhəng enerji layihəsinin – Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsinə nail olduq. Bütün dünyanın diqqəti Azərbaycanda idi. Azərbaycan bunu da bacardı. Biz qarşımızda duran bütün vəzifələri uğurla icra edəcəyik.

Ermənistanla münaqişədə Azərbaycan artıq danışıqlar prosesində üstünlüyü ələ alıbdır. Siyasi təşəbbüs bizim əlimizdədir. Hüquqi əsaslar bizim əlimizdədir. İqtisadi potensial bizim əlimizdədir. Ordu potensialı bizim tərəfimizdədir. Biz istədiyimizə nail olacağıq, doğma torpaqlarımızı azad edəcəyik. Bütün qarşıda duran vəzifələri yerinə yetirmək üçün Azərbaycanda inkişaf davam etdirilməlidir. Bu inkişafın başlıca şərti də ölkədə hökm sürən sabitlikdir. Biz bu sabitliyi qoruyuruq və bundan sonra da qoruyacağıq. Əgər kimsə bu sabitliyi pozmaq istəyərsə, Azərbaycan xalqı onlara layiqli cavab verəcəkdir.

Bizim siyasətimiz Azərbaycan xalqının iradəsinə əsaslanır. Bizim siyasətimiz Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə istiqamətləndirilir. Bizim siyasətimiz xalq tərəfindən bəyənilir, dəstəklənir və buna arxalanaraq, Azərbaycanı inamla irəliyə aparacağıq.

Əziz bacılar və qardaşlar, bu gözəl bayram münasibətilə bir daha sizi ürəkdən təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram.

Yaşasın müstəqil Azərbaycan Respublikası!

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ

*16 iyun 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Beynəlxalq investisiya forumunda iştirak etmək üçün Ukrayna prezidenti Viktor Yuşşenkonun dəvəti ilə iyunun 16-da Kiyevə yola düşmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Kiyevə gəlmişdir.*

*Azərbaycanın və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş Borispol Beynəlxalq hava limanında prezident İlham Əliyevi Ukraynanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Azərbaycanın Kiyevdəki səfiri Tələt Əliyev böyük hörmət və ehtiramla qarşıladılar.*

*Milli geyimli qızlar prezident İlham Əliyevə Ukrayna adətincə düz-çörək təqdim etdilər.*

*Dövlətimizin başçısı burada Ukrayna jurnalistlərinə müsahibə verdi və hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO İLƏ GÖRÜŞ

*Kiyev,*
*«Mariya» sarayı*

*16 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 16-da Kiyevin «Mariya» sarayında Ukrayna prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür.*

*Azərbaycan və Ukrayna arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluqlarını ifadə edən dövlət başçıları bu əlaqələrin gələcək inkişafı üçün geniş potensial olduğunu vurğuladılar.*

*Prezident Viktor Yuşşenko Ukrayna üçün böyük əhəmiyyəti olan beynəlxalq tədbirdə iştirakına görə Azərbaycan prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi.*

*Dövlət başçıları iqtisadi sahədə, xüsusilə enerji sahəsində əməkdaşlıq, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, regionda təhlükəsizlik və Avratlantik məkanına inteqrasiya məsələləri ətrafında geniş fikir mübadiləsi apardılar.*

## MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİN İLƏ GÖRÜŞ

*Kiyev*
*16 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 16-da Kiyevdə Moldova prezidenti Vladimir Voronin ilə görüşmüşdür.*

*Bu yaxınlarda Moldovaya rəsmi səfərini və Kişinyovda GUAM ölkələri dövlət başçılarının sammitində iştirakını məmnunluqla xatırlayan prezident İlham Əliyev qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin və regional əməkdaşlığın inkişafına xidmət etdiyini bildirdi.*

*Ukraynada keçirilən Beynəlxalq forumun da regional əməkdaşlığa töhfə olduğunu vurğulayan prezidentlər ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər, Avratlantik strukturlarına inteqrasiya haqqında geniş fikir mübadiləsi apardılar.*

*Vladimir Voronin dövlətimizin başçısı İlham Əliyevə Dnestryanı bölgədə münaqişənin həlli ilə bağlı Ukrayna prezidenti Viktor Yuşşenkonun GUAM-ın Kişinyov sammitində irəli sürdüyü təkliflərin həyata keçirilməsi barədə də məlumat verdi.*

## GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*Kiyev,*
*«Nasionalnaya» mehmanxanası*

*16 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Gürcüstan prezidenti Mixeil Saakaşvili ilə görüşmüşdür.*

*Prezidentlər Bakı–Tbilisi–Ceyhan boru kəmərinin tikintisinin bütün maneələrə rəğmən uğurla başa çatdığını vurğuladılar və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin də vaxtında istifadəyə veriləcəyinə əmin olduqlarını bildirdilər.*

*Bəzilərinin əfsanə hesab etdiyi BTC kəmərinin artıq reallığa çevrildiyini vurğulayan prezident İlham Əliyev dedi ki, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi də uğurla başa çatacaqdır və Azərbaycan qazı Gürcüstan ərazisindən keçməklə Avropa ölkələrinə nəql olunacaqdır.*

*Azərbaycanla Gürcüstan arasındakı möhkəm dostluq əlaqələrinin son illər daha da gücləndiyini bildirən dövlət başçıları dünya miqyaslı enerji layihələrinin həyata keçirilməsi və regionda sabitliyin möhkəmləndirilməsi sahəsində ölkələrimizin uğurlu əməkdaşlığını digər dövlətlər üçün nümunə kimi səciyyələndirdilər. Prezidentlər Kiyev forumunda iştiraklarının da regional əməkdaşlığa xidmət etdiyini vurğuladılar.*

*Görüşdə ikitərəfli və regional əməkdaşlığın perspektivləri, beynəlxalq məsələlər, Avrotlantik strukturlarına inteqrasiya məsələləri ətrafında geniş fikir mübadiləsi edildi.*

## BEYNƏLXALQ İNVESTİSİYA FORUMUNUN «FÖVQƏLADƏ UKRAYNA DƏYİRMİ MASASI»NIN BİRİNCİ GENİŞ İCLASININ* AÇILIŞINDA NİTQ

*Kiyev*

*16 iyun 2005-ci il*

Əvvəla, belə bir mühüm beynəlxalq tədbirdə iştirak etmək üçün məni səfərə dəvətinə görə həmkarım prezident Yuşşenkoya minnətdarlığımı bildirmək istəyirəm. Biz Ukrayna ilə ikitərəfli münasibətlərimizə çox böyük əhəmiyyət veririk və mən eyni zamanda, ölkəmizin ünvanına söylədiyi xoş sözlərə görə cənab Prezidentə təşəkkürümü bildirirəm. Biz uzun illər ərzində dost ölkələr olmuşuq. Çox sıx tarixi əlaqələrimiz var və ən mühümü isə odur ki, müstəqilliyini qazandıqdan sonra ölkələrimiz olduqca uğurlu əməkdaşlıq etmişlər. Həmin əməkdaşlıq indi də davam edir, möhkəmlənir və inkişaf edir.

Bu gün mən çox şadam ki, belə mühüm beynəlxalq əhəmiyyətli tədbir Ukraynada keçirilir və dünyanın iş adamları buraya toplaşıblar. Hamının diqqəti buraya yönəlibdir. Bu, ölkənin gələcək inkişafı, xarici sərmayələrin cəlb edilməsi üçün olduqca vacibdir. Sərmayəçilər üçün lazımi mühitin yaradılması çox önəmlidir. Onların etimadını qazanmaq, onlar üçün maksimum dərəcədə rahat iş şəraiti yaratmaq ən vacib məsələlərdən biridir.

---

* Украйна президентинин тяшяббцсц, Дцнйа игтисади форумунун (Давос) щимайяси иля вя «Украйнаны кяшф едирик» девизи алтында кечирилян бу мютябяр тядбирдя 26 юлкядян 250-дяк нцмайяндя, о ъцмлядян дювлят башчылары, бизнес лидерляр иштирак едирдиляр.

Azərbaycan Avropa strukturlarına tam inteqrasiya olunmaq siyasəti yürüdür. Biz artıq bir neçə ildir ki, Avropa Şurasının üzvüyük və Siz qeyd etdiyiniz kimi, mən Avropa Şurası Parlament Assambleyası sədrinin müavini olmuşam. Hazırda, Azərbaycan Avropa İttifaqının «Yeni qonşuluq siyasətinə» daxil edilmişdir. Bizim bu təşkilatla çox yaxşı dialoqumuz var.

Bu xüsusən enerji, nəqliyyat sahələrinə və digər sahələrə aiddir. Şübhəsiz, biz hesab edirik ki, regionumuzun gələcəyi cəmiyyətimizin nə dərəcədə uğurla müasirləşdirilməsindən asılı olacaqdır. Yəni demokratik islahatların inkişaf etdirilməsi, iqtisadi islahatların həyata keçirilməsi siyasi sistemin, cəmiyyətimizin müasirləşdirilməsi siyasətində daha fəal olmağımızdan asılı olacaqdır. Burada sadəcə, iqtisadi inkişaf və ya sənayenin inkişafı nəzərdə tutulmur. Bizim ölkə iqtisadi baxımdan böyük uğurlar əldə etmişdir. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu il ərzində ÜDM-in artımı 18 faiz olacaqdır. Lakin bizim zəngin təbii sərvətlərimiz də var. Bilirsiniz ki, dünyada bir çox ölkənin zəngin təbii ehtiyatları var, amma bu o demək deyil ki, həmin ölkələrin hamısı arzuolunan səviyyədə tərəqqi edir və əhali bu imkandan bəhrələnir. Buna görə də demokratikləşmə prosesi, müasir siyasi sistemin yaradılması uğurumuz və inkişaf üçün əsas ilkin şərtlərdən biridir. Eyni zamanda, biz anlayırıq ki, bu ilkin şərtlər Avropaya yaxınlaşmağımız üçün də vacibdir.

Burada cənab sədr həmçinin maraqlandı ki, biz bu yolun hansı mərhələsindəyik. Ukraynanın dostu və müttəfiqi olaraq, biz Ukraynanın Avropaya yaxınlaşması sahəsində əldə etdiyi uğuru görməkdən çox şadıq. Lakin biz onu da görürük ki, onların arxasınca bizim ölkə gəlir. Ona görə də, biz Ukraynanın keçəcəyi yolu və onun üzləşəcəyi çətinlikləri, problemləri görəcəyik. Əlbəttə, mən inanıram ki, biz eyni istiqamətdə addımlarımızı davam etdirəcəyik.

Hesab edirəm ki, bu gün regionda yeni vəziyyət formalaşır. Mən burada əyləşən bütün prezidentləri görməkdən məmnunam. Bununla belə, mən xüsusilə vurğulamaq istəyirəm ki, GU-

AM dövlətlərinin başçılarını görməkdən çox şadam. GUAM təşkilatı müəyyən bir müddət ərzində durğunluqda olmuşdur. Hazırda biz GUAM-ın inkişafında yeni mərhələyə qədəm qoyuruq. Biz bu təşkilat çərçivəsində vacib iqtisadi layihələri ikitərəfli və çoxtərəfli formatda müzakirə edirik. Regionda tamamilə yeni vəziyyət formalaşmaqdadır. Hesab edirəm ki, Avropaya inteqrasiya prosesi o vaxt asan olar ki, biz hamımız birgə çalışaq. Biz bu marağı bütün tərəfdaşlarımız və qonşularımız tərəfindən duyuruq. Əminəm ki, Avropa ölkələrinin birgə səyləri, güclü dəstəyi və gərgin əməyi sayəsində biz qarşımıza qoyduğumuz məqsədlərə nail ola biləcəyik.

Sağ olun.

* * *

*Kiyevdə beynəlxalq investisiya forumunun «Fövqəladə Ukrayna dəyirmi masası»nın birinci geniş iclasından sonra Azərbaycan prezidenti İlham Əliyevin Estoniya prezidenti Arnold Rüyütel ilə qısa görüşü olmuşdur.*

*Prezidentlər ikitərəfli əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparmışlar.*

* * *

*İyunun 16-da axşam Azərbaycan prezidenti İlham Əliyevin Kiyevə işgüzar səfəri başa çatdı.*

# BRİTANİYANIN CƏNUBİ QAFQAZDAKI XÜSUSİ NÜMAYƏNDƏSİ BRAYAN FOLUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev cənab Brayan Fol ilə son görüşlərindən ötən dövr ərzində Azərbaycanda böyük işlərin həyata keçirildiyini vurğuladı.*

*Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan hissəsinin işə salınması və Bakıda «Xəzərneftqaz–2005» XII beynəlxalq sərgisinin asılışı münasibətilə Böyük Britaniyanın Baş naziri Toni Bleyrin ona təbrik məktubları göndərdiyini və BTC-nin Azərbaycan hissəsinin istifadəyə verilməsi mərasimində Kral ailəsinin üzvü, York hersoqu şahzadə Endruyunun iştirak etdiyini məmnunluqla xatırladan prezident İlham Əliyev Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.*

*Azərbaycanın hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulduğunu xatırladan dövlətimizin başçısı dedi ki, ölkəmiz bu təşəbbüsdə fəal iştirak edir və mühüm tədbirlər həyata keçirir.*

*Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin əlamətdar hadisə olduğunu bildirən qonaq ölkəmizdə neft hasilatı sahəsində çox böyük işlər görüldüyünü vurğuladı.*

*Hasilat sənayesində şəffaflıq təşəbbüsündə Azərbaycanın fəal inkişafını bu təşəbbüsə qoşulan digər ölkələr üçün nümunə olduğunu nəzərə çatdıran cənab Brayan Fol Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edildi.*

## AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİ CANNİ BUKİKKİO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 iyun 2005-ci il*

*Azərbaycanda çox böyük irəliləyişlərin, insanların həyat səviyyəsinin yaxşılaşdığının şahidi olduğunu söyləyən qonaq ölkəmizdə iqtisadi vəziyyətin əhəmiyyətli dərəcədə yüksəldiyini vurğuladı.*

*Ölkəmizdə məhkəmə-hüquq sistemində gedən islahatları dəstəklədiyini söyləyən cənab Bukikkio əmin olduğunu bildirdi ki, keçiriləcək imtahanlar nəticəsində daha peşəkar hakimlər təyin olunacaqdır.*

*Azərbaycanda demokratik, şəffaf, ədalətli seçkilər keçiriləcəyinə əminliyini vurğulayan qonaq siyasi mübarizədə müxalifətin konstruktiv mövqe tutacağına ümidvar olduğunu bildirdi.*

*Cənab Bukikkio dedi ki, o, Bakıdan gedəndən sonra Azərbaycanın gənc siyasi liderləri üçün Avropa Şurası tərəfindən maliyyələşdirilən və təşviq edilən treninqlərin keçirilməsi məsələsini müzakirə edəcəkdir.*

*Ölkəmizdə məhkəmə-hüquq islahatlarının həyata keçirildiyini vurğulayan prezident İlham Əliyev Azərbaycanda cəmiyyətin daha da demokratikləşməsi prosesində irəliyə doğru mühüm addımlar atıldığını bildirdi. Respublikamızda iqtisadi sahədə geniş islahatların həyata keçirildiyini, insanların həyat səviyyəsinin gündən-günə yaxşılaşdığını nəzərə çatdıran dövlətimizin başçısı İlham Əliyev Azərbaycan dövlətinin və hökumətinin bu sahədə ciddi tədbirlər gördüyünü vurğuladı.*

## XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STİPE MESİÇƏ

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Dövlətin elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Xorvatiya arasındakı münasibətlərin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, bu günlərdə ölkənizə rəsmi səfərim çərçivəsində keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, imzalanan dövlətlərarası sənədlər dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafına yeni təkan verəcəkdir.

Fürsətdən istifadə edərək, səfər zamanı mənə və nümayəndə heyətimizə göstərilən diqqət və qonaqpərvərliyə görə bir daha Sizə öz minnətdarlığımı bildirirəm.

Ümidvaram ki, ikitərəfli əlaqələrimizi daha da dərinləşdirmək və genişləndirmək barədə niyyətlərimizin həyata keçirilməsi üçün bundan sonra da qarşılıqlı səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Xorvatiya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*
*Ən səmimi hisslərlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyun 2005-ci il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB YANEZ DRNOVŞEKƏ**

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Sloveniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost Sloveniya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyun 2005-ci il*

**MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ARMANDU EMİLİU GEBUZAYA**

Hörmətli cənab Prezident!

Mozambik Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış dostluq münasibətlərinin inkişafı əməkdaşlıq imkanlarımızın genişlənməsinə öz müsbət təsirini göstərəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Mozambik xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyun 2005-ci il*

## AZƏRBAYCAN MİLLİ MƏTBUATININ 130 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2005-ci ildə zəngin tarixi, mütərəqqi və şanlı ənənələri olan Azərbaycan milli mətbuatının 130 ili tamam olur. 1875-ci il iyulun 22-də «Əkinçi» qəzetinin nəşrə başlaması ilə böyük maarifçi, naşir Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş Azərbaycan milli mətbuatı ölkəmizdə həmişə qabaqcıl ideyaların carçısı, dövrün, ictimai-siyasi həyatın güzgüsü olmuşdur. XIX əsrin sonu – XX əsrin əvvəlində milli azadlıq ideyalarının, milli şüurun, mədəniyyətin, maarifçiliyin inkişafında Azərbaycan mətbuatının rolu danılmazdır. İctimai fikrin digər ifadə vasitələrinin kifayət qədər inkişaf etmədiyi bir zamanda mətbuat qabaqcıl ideyaları cəsarətlə təbliğ etmiş, xalqın geniş dairələrini düşündürən, zehnini məşğul edən problemləri diqqət mərkəzinə gətirmiş, ictimaiyyətin müzakirəsinə çıxarmışdır. Xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında və zənginləşməsində, Azərbaycan ədəbi dilinin inkişafında milli mətbuat müstəsna xidmətlər göstərmişdir.

Azərbaycan Respublikasının müstəqillik qazandığı və suveren dövlət quruculuğu prosesini yaşadığı müasir dövrdə kütləvi informasiya vasitələri, o cümlədən milli mətbuatımızın qarşısında tamamilə yeni vəzifələr durur. Bu gün mətbuat müstəqil dövlət, sivil, demokratik vətəndaş cəmiyyəti quruculuğunda, iqtisadi və sosial islahatların həyata keçirilməsində, cəmiyyətdə sosial ədalət və şəffaflığın təmin edilməsində, insan hüquqlarının müdafiəsində, həmrəylik və tolerantlıq mühitinin yaradılmasında, milli şüurun, siyasi mədəniyyətin və bütövlükdə sağlam mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynamalıdır.

Hazırda ölkəmizdə həyata keçirilən bütün bu proseslərin mətbuatın, kütləvi informasiya vasitələrinin iştirakı olmadan reallaşdırılması təsəvvür edilə bilməz.

Azərbaycanda demokratik, plüralist mətbuatın formalaşmasından, onun hüquqi normativ bazasının yaradılmasından, azad sözün, fikir və məlumat azadlığının təmin edilməsindən danışarkən ümummilli liderimiz Heydər Əliyevin xidmətlərini ayrıca qeyd etmək lazımdır. Azad mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin, o cümlədən senzuranın aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və müasir dünya standartlarına uyğunlaşdırılması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və onlar üçün çoxsaylı güzəştlərin müəyyənləşdirilməsi, bu istiqamətdə verilmiş bir sıra fərman və sərəncamlar, mətbuat işçiləri ilə mütəmadi görüşlər ənənəsinin yaradılması, KİV-lə bağlı problemlərə operativ və prinsipial müdaxilə – bütün bunlar Heydər Əliyevin azad sözə və onun daşıyıcılarına münasibətini səciyyələndirən faktlardır.

Bu gün dövlət–mətbuat münasibətlərində Heydər Əliyevin siyasətini və ənənələrini davam etdirərək, Azərbaycan dövləti mətbuatın fəaliyyətinə normal şərait yaradılması, onun cəmiyyət həyatına təsirinin, demokratikləşmə proseslərində rolunun təmin edilməsi və artırılması, vətəndaşların və jurnalistlərin informasiya almaq hüququnun tam reallaşdırılması üçün ardıcıl tədbirlər görür. Qloballaşma və informasiya əsrində bütün dövlət orqanlarının fəaliyyətində professionallıqla yanaşı, şəffaflıq prinsiplərinin də tətbiq olunmasını təmin etmək zərurəti yaranır, onların ictimaiyyətlə əlaqələrinin fəallaşdırılması üçün təsirli tədbirlər görülür. İndiki şəraitdə dövlət qurumları qarşısında KİV-lə normal, işgüzar münasibətlərin qurulması, jurnalistlərin informasiya almaq hüquqlarına hörmətlə yanaşılması, mətbuatla hərtərəfli əməkdaşlıq edilməsi vəzifəsi qoyulmuşdur. Bundan başqa, mətbuatın müstəqilliyinin, maddi bazasının, maliyyə təminatının möhkəmləndirilməsində, jurnalistlərin peşəkarlıq səviyyəsinin, jurnalist nüfuzunun yüksəldilməsində dövlətin maraqlı olduğu bəyan edilir və bunun üçün konkret tədbirlər görülür.

Mətbuat və informasiya sahəsində münasibətləri tənzimləyən dövlət qurumunun olmadığı şəraitdə ictimai özünütən-

zimləmə orqanı kimi, Mətbuat Şurasının rolu artırılmalıdır. Mətbuat Şurası dövlət–mətbuat, vətəndaş–mətbuat münasibətlərinin sivil yolla nizamlanmasında, jurnalist etikasına əməl olunmasında, jurnalistlərin hüquqlarının müdafiəsində, informasiya almaq imkanlarının genişləndirilməsində getdikcə daha fəal rol oynamalıdır. Mətbuatdan və bütün kütləvi informasiya vasitələrindən daha çox obyektivlik, peşəkarlıq, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik, aktual problemlərə diqqət yönəldilməsi gözlənilir.

Azərbaycan milli mətbuatının və bütövlükdə kütləvi informasiya vasitələrinin ölkənin ictimai-siyasi həyatında və müasir demokratik cəmiyyətdə rolunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan milli mətbuatının 130 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın:

– Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın digər şəhər və rayonlarında yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

– bir ay müddətində Mətbuat Şurasının, jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı ilə razılaşdırılmaqla, bir ay müddətində Mətbuat Şurasının təqdim etdiyi layihələrin qismən maliyyələşdirilməsi, maddi-texniki təchizatı, ofis, nəqliyyat və s. ilə təmin edilməsi məsələlərinə baxsın.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 iyun 2005-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA STANDARTLARINA CAVAB VERƏN MÜASİR KOMPRESSİYA VƏ SUVURMA PLATFORMASININ (KSP) TƏQDİMAT MƏRASİMİNDƏ

*20 iyun 2005-ci il*

*Böyük Britaniyanın «Ameq», Türkiyənin «Tekfen» və Azərbaycan–Türkiyə birgə müəssisəsi olan «Azfen» şirkətləri (ATA) tərəfindən tikilmiş və Xəzər dənizinin Azərbaycan sektorundakı «Azəri» yatağında sabit hasilatı təmin etməkdən ötrü laylara qaz və su vurmaq üçün nəzərdə tutulmuş bu platformadan sualtı elektrik kabelləri vasitəsilə Qərbi və Şərqi Azəri platformalarına elektrik enerjisi də veriləcəkdir. Layihənin ümumi dəyəri 62 milyon ABŞ dollardır.*

*Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə platformanın hazırlanma prosesini və tamamlama işlərini əks etdirən fotoguşəyə baxdı. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) vitse-prezidenti Fil Hom, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev məlumat verdilər ki, KSP-nin su və qazvurma gücü Mərkəzi Azəri, Qərbi Azəri və Şərqi Azəri platformalarının hasilat strategiyasına uyğun olaraq müəyyənləşdirilmişdir. KSP elektrik enerjisi istehsal edən 2 avadanlıqdan, 4 qazvurma kompressorundan və 4 suvurma nasosundan ibarətdir. Maksimum qazvurma gücü 1 milyard 50 milyon kubfut, suvurma gücü isə 900 min bareldir.*

*KSP-nin İctimai sərmayə proqramı barədə də məlumat verildi. Bildirildi ki, bu sahədə qarşıya qoyulmuş məqsəd Bibiheybət qəsəbəsində sosial və iqtisadi inkişafa kömək etmək, əhalinin ehtiyaclarını ödəməkdir. Proqramın əhatə dairəsinə təhsil və təlim, gənclərin məşğulluğu, icmanın inkişafı,*

infrastrukturun bərpası və icma tərəfindən həyata keçiriləcək müxtəlif layihələr daxildir. Layihələr icmanın özü tərəfindən seçilir və tərtib olunur.

İndiyədək elektrik enerjisi təchizatı sisteminin bərpası, idman salonu və təcili tibbi yardım stansiyasının, tibb məntəqəsinin inşası və bütün lazımi avadanlıqla təchiz olunması, mədəniyyət sarayının bərpası, orta məktəbdə kompüter sinfinin təşkili layihələri tamamlanmışdır.

Azərbaycan prezidenti İlham Əliyev platforma ilə yaxından tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, KSP-nin üst modulları Bibiheybət qəsəbəsində yerləşən ATA istehsal sahəsində hazırlanır. Bu layihəyə mövcud tikinti sahəsinin modemləşdirilməsi və yeni istehsal obyektlərinin tikintisi də daxildir. Plana əsasən, bu il iyunun 28-də üst modullar dənizə çıxarılacaqdır, iyul ayında isə modullar Bakıdan 90 kilometr cənub–şərqdə daimi yerində quraşdırılacaqdır. Platformanın istifadəyə verilməsi 2006-cı ilin fevral ayına planlaşdırılmışdır.

Prezident İlham Əliyev platformanın iş prosesi, təhlükəsizlik sistemləri, avadanlığı ilə maraqlandı. Bildirildi ki, əməyin təhlükəsizliyi KSP-də işləyən bütün şəxslər və podratçılar tərəfindən qəbul olunan hər bir qərarda nəzərə alınır. Qəzaların qarşısını almaq üçün bütün tədbirlər görülür. İş yerləri müntəzəm olaraq təftiş edilir. 2005-ci ilin mart ayından bəri heç bir qəzaya yol vermədən 6,5 milyon adam/saat iş həcminə nail olunmuşdur.

Tikinti işlərinin qızğın çağında 2400-dən çox insan işlə təmin olunmuşdur ki, bunların da 75 faizi Azərbaycan vətəndaşlarıdır. İndiyədək istehsal sahəsinin modemləşdirilməsi və ümumilikdə layihənin icrası ilə bağlı müxtəlif xidmətlərin göstərilməsi məqsədi ilə 75-dən çox Azərbaycan şirkəti subpodrat götürmüşdür. İşçi qüvvəsinin lazımi bacarıq və qabiliyyətlərə yiyələnməsi üçün 200 min saatlıq, texniki təhlükəsizliyə dair isə 120 min saatlıq təlim keçilmişdir. Ölkə daxilində sərf olunmuş xərclərin ümumi həcmi 250 milyon ABŞ dolları təşkil etmişdir. Yerli materialların alınmasına 15,5

*milyon, yerli xidmətlərin göstərilməsinə isə 14,5 milyon ABŞ dolları sərf olunmuşdur.*

*ATA-nın istehsal sahəsi KSP layihəsi üçün tamamilə modemləşdirilmiş, yeni qurğular quraşdırılmışdır. Montaj sahəsi daha hündür yükləri qəbul etmək üçün gücləndirilmişdir. Ətraf mühitə təsiri azaltmaq üçün xüsusi qurğular inşa olunmuşdur. İstehsal sahəsini genişləndirmək məqsədi ilə 5 hektar sahə neft gölməçələrindən təmizlənmiş və nəqliyyat vasitələrinin birtərəfli hərəkətinə imkan yaratmaq üçün 2 kilometr uzunluğunda yol çəkilmişdir. Obyekt beynəlxalq standartlara uyğundur və istehsal sahəsi 25 min tonadək çəkisi olan konstruksiyanın tikintisini təmin etməyə qadirdir. İstehsal sahəsinin modemləşdirilməsi ilə bağlı işlərin yerinə yetirilməsinə 27 min ton beton, 400 min ton doldurucu material və 200 min ton çınqıl istifadə olunmuşdur. İşçiləri yataqxana, yeməklə təmin etmək üçün də şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev Xəzər dənizində ilk bu cür nəhəng Kompressiya və Suvurma platformasının yeni istehsal qurğuları, kompüter, avtomat və digər sistemlərlə tanış oldu, görülən işləri yüksək qiymətləndirdi.*

## QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN PROBLEMLƏRİNİN HƏLLİ İLƏ BAĞLI KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ

*Prezident sarayı*

*21 iyun 2005-ci il*

Bugünkü müşavirə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlıdır. Hesab edirəm ki, bu məsələ gərək geniş müzakirə olunsun. Əldə edilmiş nailiyyətlər haqqında məruzə edilsin və ən önəmlisi, mövcud olan problemlər haqqında da gərək fikir mübadiləsi aparaq.

Azərbaycan üçün bu problem ən çətin, ən ağrılı problemdir. Ermənistan dövlətinin və erməni millətçilərinin Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilib və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq soydaşımız qaçqın və köçkün vəziyyətinə düşübdür. Uzun illərdir ki, danışıqlar prosesi gedir, amma əfsuslar olsun ki, bu günə qədər heç bir nəticə əldə edilməyibdir. Bunun da səbəbi Ermənistan tərəfinin qeyri-konstruktiv mövqe tutması və beynəlxalq ictimaiyyətin, o cümlədən problemin həlli ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun bu məsələdə qəti mövqeyini bildirməməsidir.

Son müddət ərzində Minsk qrupunun fəaliyyətində müsbətə doğru dönüş müşahidə olunur, danışıqlar prosesi intensivləşibdir. Xarici işlər nazirləri səviyyəsində artıq Praqa prosesi adlandırılan danışıqlar prosesi gedir, eyni zamanda, prezidentlər də vaxtaşırı görüşürlər. Son vaxtlar danışıqlar prosesində müsbət meyllər görünməkdədir. İlk növbədə, Azərbaycanın qətiyyətli mövqeyi ona gətirib çıxarıb ki, beynəlxalq ictimaiyyət bu məsələyə daha ədalətli yanaşmağa başladı. Azərbaycanın diplomatik

səyləri nəticəsində dünyanın müxtəlif təşkilatlarında bu məsələ gündəliyə salınır. Birləşmiş Millətlər Təşkilatı bu məsələni gündəliyə salıbdır. Avropa Şurasında reallığı əks etdirən qətnamə qəbul edilibdir və orada açıq-aydın göstərilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edibdir, etnik təmizləmə siyasəti aparıbdır və bu siyasət nəticəsində 1 milyon azərbaycanlı qaçqın, köçkün vəziyyətinə düşmüşdür.

Deyə bilərəm ki, indiyədək beynəlxalq təşkilatlar tərəfindən bu qədər açıq-aydın, kəskin qərar qəbul edilməmişdir. Biz bu səyləri davam etdirəcəyik. Artıq heç kimə sirr deyil və bu, artıq etiraf olunur ki, Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti aparır və ATƏT-in son müddət ərzində bölgədə olmuş fakt-araşdırıcı missiyası da bunu təsdiq edir. Eyni zamanda, işğal olunmuş torpaqlarda ermənilərin qeyri-qanuni məskunlaşdırılması faktı da öz təsdiqini tapıbdır.

Ermənistan üçün bu işğalçılıq siyasətini aparmaq gələcəkdə çox çətin olacaqdır. Çünki dünya tam başqa istiqamətdə inkişaf edir. Dünyada gedən qloballaşma prosesləri, bizim Avropa İttifaqı ilə sıx əməkdaşlığımız, dünyada gedən demokratikləşmə prosesləri artıq təcavüzə əsaslanan siyasəti qəbul etmir və onu inkar edir. Azərbaycanın siyasəti və mövqeyi yalnız və yalnız beynəlxalq hüquq normalarına əsaslanır. O da ondan ibarətdir ki, hər bir ölkənin, o cümlədən Azərbaycanın ərazi bütövlüyü gərək toxunulmaz olsun. Mən şübhə etmirəm ki, görülən işlər, apardığımız siyasət nəticəsində, diplomatik səylərimizin nəticəsində, eyni zamanda Azərbaycanın iqtisadi potensialının güclənməsi nəticəsində biz bu məsələnin danışıqlar, sülh yolu ilə ədalətli həllinə nail olacağıq. Biz buna ümid edirik.

Sülh danışıqlarının potensialı hələ ki, tükənməyibdir. Əgər sülh danışıqlarına ümid varsa, biz gərək bu ümidi axıra qədər sınayaq və çalışaq ki, buna nail olaq. Ancaq eyni zamanda, iqtisadi potensialımızı, o cümlədən hərbi potensialımızı gücləndirməliyik və bu istiqamətdə işlər görülür.

Qaçqınlar və məcburi köçkünlər Azərbaycanda ən ağır vəziyyətdə yaşayan insanlardır. Bizim hamımızın vəzifəsi ondan

ibarətdir ki, həm dövlət tərəfindən, eyni zamanda qeyri-hökumət təşkilatları tərəfindən, özəl sektor tərəfindən onlara öz köməyimizi göstərək. Ancaq əlbəttə ki, dövlətin siyasəti bu sahədə müstəsna rol oynayır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bu məsələyə daim böyük diqqət göstərirdi, çoxlu görüşlər, müşavirələr keçirmişdi. Azərbaycanda bu məsələyə dair çoxlu qanunlar qəbul edilibdir. 1998-ci və 2004-cü illərdə iki dövlət proqramı qəbul olunubdur. Bilirsiniz ki, Azərbaycanda ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Neft Fondundan ilk vəsait məhz qaçqınların və məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmişdir. Ümumiyyətlə, bu günə qədər Neft Fondundan 400 milyard manat vəsait ayrılmışdır və qaçqınların, köçkünlərin yeni şəraitlə təmin olunması prosesi gedir. 2003-cü il oktyabrın əvvəllərində Biləsuvar rayonunda yeni qəsəbənin açılışı oldu. Çox müasir bir qəsəbədir. Orada həm evlər tikilmişdir, həm də infrastruktur mövcuddur. Xəstəxanalar, təhsil ocaqları, işıq xətləri, yol infrastrukturu – yəni hər şey müasir tələbata uyğundur.

Xatırlayıram, o qəsəbənin açılışı zamanı çıxışımda demişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamalıdır. Biz bütün çadır şəhərciklərini ləğv edəcək və onların əvəzində yeni, müasir qəsəbələr, şəhərciklər salacağıq. Həmişə olduğu kimi, öz sözümə sadiq qalaraq bu gün məmnunluq hissi ilə deyə bilərəm ki, bu proses uğurla aparılır. İndi Ağdam rayonunun ərazisində böyük tikinti gedir. Bərdədə çətin, ağır şəraitdə çadırlarda, yük vaqonlarında məskunlaşmış soydaşlarımız yaxın vaxtlarda müasir evlərə köçürüləcəklər. Amma onu da bilməliyik ki, bu da müvəqqəti məskunlaşmadır. Azərbaycan torpaqları işğaldan azad olunandan sonra orada, işğaldan azad edilmiş torpaqlarda yeni şəhərlər tikəcəyik, yeni infrastruktur yaranacaqdır. Çünki orada hər şey dağılıbdır. ATƏT-in faktaraşdırıcı missiyasının qənaətinə və məruzəsinə görə, işğal olunmuş torpaqlarda bir dənə də obyekt, bina qalmayıbdır. Erməni vandalları oradan qəni-

mət kimi, hər şeyi aparmışlar. Nəyi apara bilməmişlərsə, yerlə yeksan etmişlər.

Amma biz torpaqları azad edəndən sonra yeni, gözəl şəhərlər tikəcəyik. Buna bizim imkanımız çatır. Azərbaycanın iqtisadi potensialı günü-gündən artır. Maliyyə imkanlarımız artır. Əlbəttə ki, biz bu imkanları, ilk növbədə, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan insanların güzəranının yaxşılaşmasına yönəltməliyik. Mən şübhə etmirəm ki, biz bu məqsədə çatacağıq.

Saatlı və Sabirabad rayonlarında çadır şəhərciklərində yaşayan soydaşlarımızı da yeni şəhərciklərə köçürəcəyik. Ancaq eyni zamanda onu da bilirik ki, digər qaçqınlar və məcburi köçkünlərin də yaşayış səviyyəsi o qədər də yaxşı deyil. Onlar ictimai binalarda, məktəblərdə, pansionatlarda, yataqxanalarda məskunlaşıblar. Hesab edirəm ki, indiki dövrdə biz yeni qəsəbələrin tikilməsi ilə paralel olaraq həm də yataqxanalarda məskunlaşan soydaşlarımızın köməyinə gəlməliyik. Artıq Dövlətqaçqınkoma müvafiq göstərişlər verilibdir. İndi smeta hazırlanır və hazır olan kimi buna da vəsait ayrılacaqdır. Biz gərək yataqxanaları da yüksək səviyyədə təmir etdirək.

Bu problem bizim hamımızın problemidir və hamımız da həll etməliyik. İndiki mərhələdə əsas problem odur ki, qaçqınların, köçkünlərin vəziyyətini biz maksimum dərəcədə yüngülləşdirək. Bunu etmək üçün hökumət əlindən gələni edir və biz bu işi, bu siyasəti bundan sonra da aparacağıq.

Onu da qeyd etməliyəm ki, qaçqınlar və köçkünlər arasında yoxsulluğun səviyyəsi çox yüksəkdir. Ümumiyyətlə, Azərbaycanda yoxsulluğun azaldılması istiqamətində böyük işlər görülüb və son il yarım ərzində yoxsulluq şəraitində yaşayanların sayı 49 faizdən 40 faizə enibdir. Qaçqın və köçkünlər arasında bu, 72 faiz təşkil edir. Bu çox yüksək rəqəmdir. Biz gərək bu məsələyə də diqqət yetirək.

Bu gün Azərbaycanda özəl sektorun inkişafına böyük diqqət göstərilir, kreditlər ayrılır. Hesab edirəm ki, gələn il bu kreditlərin həcmini gərək iki dəfə artıraq. Əlbəttə ki, bu məsələni həll edərək gərək qaçqın və köçkünləri də yaddan çıxarmayaq və ça-

lışaq ki, onların arasında yoxsulluğun səviyyəsi aşağı düşsün. Biz bütün bu məsələləri bu gün müzakirə edəcəyik və hesab edirəm ki, müzakirənin nəticəsində yeni addımlar atılacaqdır.

İndi isə sözü Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənova verirəm.

**Ə l i  H ə s ə n o v:** Zati-aliləri, möhtərəm cənab Prezident!

Ölkənin ən həssas problemi olan qaçqın və məcburi köçkünlərin sosial problemlərini bu gün belə geniş tərkibdə müzakirəyə çıxarmaqla Siz beynəlxalq ictimaiyyətə və ölkə ictimaiyyətinə bir daha nümayiş etdirirsiniz ki, bu, ölkənin ən vacib, ən ağır və ən prioritet problemidir. Cənab Prezident, fürsətdən istifadə edərək o insanların Sizə olan böyük hörmət və ehtiramını yetirirəm.

Cənab Prezident, Sizin tapşırığınızla biz 1988–2005-ci illər ərzində bu sahədə görülmüş bütün işləri, gedən prosesləri həm siyasi, həm də iqtisadi baxımdan toplu şəkildə təhlil edərək material hazırladıq. Onu Sizə təqdim etmişik. Bu material müşavirə iştirakçılarna da təqdim olunubdur. Bu material 4 hissədən ibarətdir. Birinci hissədə ərazilərin işğalı, erməni təcavüzkarlarının törətdikləri əməllər, bütün infrastrukturun dəyəri, dəymiş ziyan, o dövrdə insanların yerləşdirilməsi, bugünkü vəziyyəti, bütün sosial-texniki infrastrukturun əvvəlki və bugünkü vəziyyəti tam əhatə olunubdur. Yəni, birinci hissədə bu istiqamətdə istənilən suala cavab tapmaq mümkündür. İkinci hissədə xalqımızın ümummilli lideri Heydər Əliyevin 10 il müddətində bu sahəyə ayırdığı diqqət və qayğı, onun gördüyü bütün işlər xronoloji qaydada öz əksini tapıbdır. Üçüncü hissədə Sizin prezidentlik fəaliyyətiniz dövründə görülmüş işlər əhatə olunubdur. Dördüncü hissədə isə beynəlxalq donor ölkələrin və təşkilatların bu istiqamətdə gördüyü bütün işlər öz əksini tapıbdır. Hazırda bu material ingilis, rus, ərəb dillərinə tərcümə olunubdur. Biz bunu ölkəmizdə olan bütün beynəlxalq qurumlara, səfirlərə və xarici ölkələrdə fəaliyyət göstərən bizim səfirlərimizə paylayacağıq. Çünki burada istənilən suala cavab tapmaq mümkündür.

Bu gün dünyada 17 milyondan çox qaçqın və məcburi köçkün var. Təəssüflər olsun ki, onların bir milyonu dünyanın çox kiçik parçası olan 8 milyonluq Azərbaycanın payına düşmüşdür. Dünyada olan qaçqın və köçkünün 6 faizi Azərbaycandadır. Bunun özü bir daha göstərir ki, bu, Azərbaycan üçün nə qədər ağır bir problemdir. Beynəlxalq təşkilatlar və bəzi dövlətlər bu problemin siyasi yolla həllini uzadaraq ondan bir vasitə kimi istifadə etməklə Azərbaycana təsir və təzyiq göstərirlər.

Azərbaycandakı həmin insanların 311 mini qaçqınlardır. Bunun 250 mini Ermənistandan qovulmuş soydaşlarımız, 50 mini 1992-ci ildə Səmərqənd hadisələri ilə əlaqədar Özbəkistandan qovulmuş Axıska türkləridir. Qalan 11 min nəfər isə üçüncü ölkələrdən olan və sığınacaq axtaran şəxslərdir. Bunlar əsasən Çeçenistandan, Əfqanıstandan, İraqdan, Fələstindən və digər ölkələrdən olan qaçqınlardır. Üçüncü qrupa daxil olan çeçenlərlə bağlı bizim bir problemimiz var. Rusiya tərəfinə bir neçə dəfə müraciət etmişik ki, onların şəxsiyyətini müəyyənləşdirmək üçün bizə kömək etsinlər. Çünki onların hamısı Azərbaycana qeyri-leqal yolla daxil olub. Təəssüflər olsun ki, hələ bir müsbət nəticə əldə edə bilməmişik. Lakin məlumat üçün bildirirəm ki, sığınacaq axtaran qaçqınların hamısı bizim qoşulduğumuz beynəlxalq konvensiyanın tələblərinə uyğun olaraq, ölkəmizdə bütün güzəştlərdən istifadə edirlər. Hətta biz onlara qaçqın statusu verilməsinə də başlamışıq.

Cənab Prezident, həm 1988-ci ildə soydaşlarımız Ermənistandan qovularkən, həm də 1992-ci ildə məcburi köçkün problemi yaranarkən o dövrdəki hakimiyyət bu insanların yerləşdirilməsində çox ciddi qüsurlara yol vermişdir. Ona görə də hazırda bu insanların məskunlaşması ilə bağlı demoqrafik vəziyyətdə müəyyən problemlər var. Hətta bəzi bölgələrdə, demək olar ki, qaçqın və məcburi köçkün yoxdur. Yaxud bəzi yerlərdə onların sayı çox cüzidir və son dövrlərdə bir qismi də o ərazilərdən çıxarılıbdır. Hesab edirik ki, bu problemin həllində Sizin müdaxilənizə ehtiyac vardır.

Hazırladığımız materialda işğal olunmuş əraziyə dəymiş ziyan da göstərilibdir. Ziyan 60 milyard dollar həcmindədir. Lakin, cənab Prezident, bizim belə bir təklifimiz var ki, beynəlxalq təşkilatları, donor ölkələri və təşkilatları, beynəlxalq humanitar təşkilatları cəlb edib Azərbaycan hökuməti ilə birlikdə böyük qayıdış proqramını hazırlamaq və dəymiş ziyanı bir daha dəqiqləşdirmək lazımdır. Çünki sabah torpaqlar işğaldan azad olunarkən hər bir donor bizdən bu proqramı istəyəcəkdir. Bu proqram olmadan, təbii ki, heç bir donor vəsait ayırmayacaqdır.

Ümummilli liderimiz Heydər Əliyev xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələndən sonra 10 illik fəaliyyəti dövründə bu sahəyə çox ciddi diqqət və qayğı göstəribdir. Mən vaxt almamaq üçün yalnız bəzi məqamları müşavirə iştirakçılarının nəzərinə çatdırıram.

10 il ərzində cənab Heydər Əliyev xarici ölkələrin prezidentləri, beynəlxalq qurumların rəhbərləri, ATƏT-in, onun Minsk qrupunun rəhbərləri ilə 725 görüş keçiribdir. 43 fərman və sərəncam imzalayıbdır. Bu fərman və sərəncamların icrası üçün Milli Məclis 23 qanun, Nazirlər Kabineti isə 192 qərar qəbul edibdir. Qaçqın və məcburi köçkünlərin sosial probleminin həllinə yönəldilən vəsaitin həcmini on il ərzində 90 dəfə artırıbdır. Yəni 1993–2003-cü illər arasında bu rəqəm 90 dəfə artıbdır. Yemək xərcləri 60 dəfə, kommunal xidmət xərcləri 120 dəfə artırılıbdır. 1994-cü ildə atəşkəsə nail olunubdur. ATƏT-in 1994, 1996, 1999-cu illərdə Budapeşt, Lissabon və İstanbul zirvə toplantılarında çox diplomatik gedişlər edilibdir. Xüsusən Lissabon sammitində cənab Heydər Əliyev tərəfindən atılmış addımın, ümumiyyətlə, müasir dünyanın diplomatiya tarixində analoqu yoxdur. Bunu bütün beynəlxalq təşkilatlar da, dünyanın çox təcrübəli diplomatları da qeyd edirlər.

Cənab Heydər Əliyev tərəfindən birmənalı şəkildə göstəriş verilmişdi ki, ölkəyə gələn bütün nümayəndə heyətlərinin rəhbərləri, xarici ölkənin rəhbərləri məcburi köçkünlərin yaşayış

tərzi ilə mütləq tanış olsunlar. Bu tapşırıq mütləq yerinə yetirilirdi və hesab edirik ki, bunun icrası bu gün də davam etməlidir.

Hamıya məlumdur ki, cənab Heydər Əliyev 3 fərman imzalayaraq qaçqın və məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq üçün çadır şəhərciklərinin ləğvinə başlamışdı. Bu gün biz bu sözü çox asanlıqla deyirik ki, üç fərman imzalayıbdır. Ancaq hamımızın çox yaxşı yadındadır ki, cənab Heydər Əliyev onları imzalayanda Beynəlxalq Valyuta Fondu qəti etirazını bildirdi ki, bu vəsaiti bura yönəltmək olmaz. Ancaq cənab Heydər Əliyev özünəməxsus diplomatik gediş edərək, 2001-ci ildə məhz bugünkü gün Təhlükəsizlik Şurasının iclasını keçirdi və bu məsələni müzakirə etdi. Beynəlxalq ictimaiyyətə bir daha nümayiş etdirdi ki, bu, Azərbaycanın ən ağır problemidir və Azərbaycanın neftdən əldə olunan ilk vəsaiti məhz buna yönəlməlidir.

Cənab Prezident, biz bu gün o fərmanların konkret nəticələrini görürük. Biz burada, sadəcə, iki məqamı göstərmişik. Bu, tikilmiş qəsəbələrin bugünkü vəziyyətidir. Bu isə Sizin səfər etdiyiniz qəsəbədir, yaşıllığın içərisindədir, taxıl əkilib, bir kvadratmetr boş yer qalmayıbdır. Bunlar isə müxtəlif rayonlarda qaçqınlar üçün tikilən qəsəbələrdir.

Bu Sizin səfər etdiyiniz həmin qəsəbədəki məktəbdir. Həmin üç fərman əsasında Ağdamda, Biləsuvarda və Füzulidə tikilən qəsəbələrdir. Bu cür yaşıllığın içərisindədir. İl yarım ərzində bu qəsəbələr, görün necə yaxşı vəziyyətə düşübdür.

Cənab Prezident, Biləsuvar qəsəbəsində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin vəsaiti və Cəbrayıl Rayon İcra Hakimiyyəti ilə birlikdə milli park salınıbdır. Bu stenddə göstərilən isə Ermənistandan olan qaçqınlar üçün salınmış qəsəbələrdir.

**İlham Əliyev:** Goranboy rayonunda?

**Əli Həsənov:** Bəli, tamamilə doğrudur. 2002-ci il sentyabrın 13-də buraya tarixi səfər etdiniz.

**İlham Əliyev:** İndi orada vəziyyət necədir?

**Ə l i  H ə s ə n o v:** Orada iki kiçik problem meydana gəldi. İki evdə qrunt suyu çıxıbdır. Hazırda layihə hazırlanıb, Neft Fondu tərəfindən vəsait ayrılıbdır. Amma insanlar əkib-becərirlər və onlara bütün qayğılar göstərilir. Şəmkirdə, Sumqayıtda, Abşeronda, Mehdiabadda tikilən qəsəbələr yalnız Ermənistandan olan qaçqınlar üçündür. 6410 evdən 1200-ü onlarındır.

**İ l h a m  Ə l i y e v:** Orada evlərin vəziyyəti yaxşıdır?

**Ə l i  H ə s ə n o v:** Cənab Prezident, hesab edirik ki, yaxşıdır.

**İ l h a m  Ə l i y e v:** Amma baxın, əgər təmirə ehtiyac varsa, onları vaxtaşırı təmir etsinlər.

**Ə l i  H ə s ə n o v:** Cənab Prezident, biz komitənin nəzdində Mənzil istismarı departamenti yaratmışıq. Maliyyə Nazirliyi də müəyyən vəsait ayırır, cari təmir aparılır. Hazırda Biləsuvar qəsəbəsindəki xəstəxana fəaliyyət göstərir.

**İ l h a m  Ə l i y e v:** 2003-cü ilin oktyabrında açdığımız qəsəbədə?

**Ə l i  H ə s ə n o v:** Bəli, o qəsəbənin xəstəxanasıdır. Uşaq bağçaları yaxşı fəaliyyət göstərir.

**İ l h a m  Ə l i y e v:** Şərait çox yaxşıdır.

**Ə l i  H ə s ə n o v:** Bəli, o insanların özləri deməyə söz tapmırlar. Həmin qəsəbədə iş adamları öz vəsaitləri hesabına çörək sexi yaradıblar, fermer təsərrüfatı yaradıblar. Bunlar isə onun texniki infrastrukturudur. Yəni yardımçı stansiyalardır, elektrik xətləridir və digər obyektlərdir.

**İ l h a m  Ə l i y e v:** Camaat nə ilə dolanır?

**Ə l i  H ə s ə n o v:** Onların dolanışıq yeri artmışdır. O ərazidəki büdcə təşkilatlarında 5 minə qədər iş yeri yaranıbdır. Əsas dolanışıq mənbəyi torpaqdır. Bu il orada ayrılmış torpağın hamısı əkilibdir. Çox yüksək taxıl məhsulu gözlənilir. Onların yeganə xahişi var ki, kombayn verilsin. Çünki başqa yerdən kombayn gətirsələr, baha başa gələcəkdir. Əgər taxılı özləri yığsalar, onların dolanışığı üçün yaxşı olar. Hərəyə yarım hektar torpaq məhz o məqsədlə ayrılmışdır ki, əksinlər, becərsinlər.

**İ l h a m  Ə l i y e v:** Onlara neçə kombayn lazımdır?

**Ə l i  H ə s ə n o v:** Cənab Prezident, Biləsuvar ərazisinə 2, Füzuliyə 2, Ağdama 2, Goranboy ərazisinə 2, yəni hər rayona 2 kombayn.

**İ l h a m  Ə l i y e v:** 8 kombayn?!

**Ə l i  H ə s ə n o v:** Bəli, bu olsa, çox yaxşı olar, özü də indi yığım başlayır.

**İ l h a m  Ə l i y e v:** Onda kombaynları on ədəd edək.

**Ə l i  H ə s ə n o v:** Bu çox yaxşı olar, Sizin həmin insanlara hədiyyəniz olar.

**İ l h a m  Ə l i y e v:** Tezliklə təşkil edin, onları alıb göndərək.

**Ə l i  H ə s ə n o v:** Cənab Heydər Əliyev bu insanlara – həm qaçqınlara, həm məcburi köçkünlərə, həm də sığınacaq axtaranlara bütün imtiyazları vermişdi. Düzdür, 2001-ci ildə digər sahələrdə olduğu kimi, qaçqınların imtiyazları da ləğv olunubdur. Ancaq onların bəzi imtiyazları qalıbdır. Məsələn, ev alqı-satqısında rüsumdan azaddırlar, bu gün də ondan istifadə edirlər. Sizin tapşırığınızla keçən il Təhsil Nazirliyi kollegiyada qərar qəbul etdi, güzəşt verildi. 1988–1992-ci illərdə anadan olanlar ali məktəblərə qəbul edildikdə pulsuz oxuyacaqlar. Bizim hesablamamıza görə, bu, 2010-cu ilə qədər davam edəcəkdir. Bu da çox böyük güzəştdir. Onların siyasi statusu da qalır. Məcburi köçkünlər isə bütün imtiyazlara malikdirlər.

Cənab Prezident, Sizin rəhbərliyə başladığınız il yarım ərzindəki fəaliyyətinizə də qısa nəzər salmaq istəyirəm. Siz müxtəlif dövlət başçıları, ATƏT-in və Minsk qrupunun nümayəndələri ilə 46 dəfə görüşlər keçirmisiniz. 10 fərman və sərəncam imzalamısınız, bunları icra etmək üçün Nazirlər Kabineti 18 qərar qəbul edibdir. Siz hələ Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan parlamenti nümayəndə heyətinin rəhbəri olarkən 2001-ci il mayın 19-da AŞPA-nın Qaçqınlar, miqrasiya, demoqrafiya komitəsinin səyyar iclasını Azərbaycanda təşkil etdiniz. Hesab edirik ki, bu gün AŞPA-da hansı nailiyyət əldə olunubsa, onun kökü o zaman qoyulubdur. Avropanın müxtəlif ölkələrindən olan 40-dan çox deputat burada idi. Onlar Bakıda

həm müzakirədə iştirak etdilər, həm də bütün rayonlara səfər edərək çadır şəhərciklərini, yük vaqonlarını gözləri ilə gördülər. Düşünürük ki, həmin işlərin təməli bununla qoyuldu. AŞPA-da keçən il qəbul olunmuş qərarın da təməli o vaxt qoyulmuşdur.

Siz qeyd etdiniz, bu qəsəbənin açılışında özünüz bilavasitə iştirak etdiniz. Bütün qaçqınlar bunu məmnuniyyətlə vurğulayır ki, orada verdiyiniz vədə bu gün çox sadiqliklə əməl edirsiniz. Fevralın 4-də Bərdə və Ağcabədi rayonunda olan 4 çadır şəhərciyinin ləğvi ilə bağlı qərar qəbul etdiniz. Digər stenddə həmin sərəncama uyğun gedən işlər əks olunubdur. Orada qırmızı rənglə 13 qəsəbə göstərilmişdir.

**İ l h a m Ə l i y e v:** Ağdam rayonunda?

**Ə l i H ə s ə n o v:** Bəli, 13 qəsəbədə 3860 evdir. Bəzən deyirlər ki, guya cəbhə xəttinə yaxın tikilir.

Məlumat üçün bildirirəm ki, cəbhə xəttindən bütün qəsəbələrə ən yaxın məsafə 8–15 kilometrdir. Bundan əlavə, həmin qəsəbələrlə cəbhə xətti arasında əhali yaşayan kəndlər var. Sizin o vaxt birmənalı tapşırığınız olmuşdur. Ancaq bir məlumatı da vermək istəyirəm ki, biz təhlil etdik: işğal olunmuş ərazidə, həm də Ermənistanla sərhəd olan ərazilərimizdə 125 min əhali cəbhə xəttindən 2,5 kilometr məsafədə yaşayır və işləyir. Yəni bəzi insanlar mətbuatda yazırlar ki, qəsəbələri cəbhə xəttinə yaxın tikirlər, bunlar cəfəngiyatdır. Bu gün 125 min yerli əhali orada yaşayır və işləyir.

Cənab Prezident, keçən il iyulun 1-də növbəti dövlət proqramını sərəncamınızla təsdiq etdiniz. Bu gün qaçqın-köçkün problemi ilə əlaqədar əsas sənədimiz odur. Həmin sənəddə bu problemin bütün aspektləri göstərilib və onun həlli istiqamətləri də müəyyənləşdirilibdir. Siz keçən il fevralın 17-də 10 illik fəaliyyətlə bağlı beynəlxalq konfransda iştirak edərkən ulu öndərimizin «Bu problem Azərbaycanın bir nömrəli problemidir» sözünü təkrar edərək bütün beynəlxalq aləmə nümayiş etdirdiniz ki, insanlar doğma yurdlarına qayıdana qədər bu problem yenə də bir nömrəli problem kimi qalır.

Bərdəyə səfəriniz zamanı bu insanlarla görüşdünüz. Saatlı, Sabirabad çadır şəhərciklərinin ləğvi ilə əlaqədar keçən il vəsait ayırdınız. Layihə işlərinə bu günlərdə başlanacaqdır. Keçən il dekabrın 29-da verdiyiniz sərəncamla yemək xərcini 30 min manata qaldırdınız. Hər ailəyə 30 litr ağ neft paylanıldı. Göstərişinizlə bu, 40 litrə çatdırılıbdır. Bunların hamısı həmin insanların sosial problemlərinin həllinə yönəldilibdir.

Cənab Prezident, Ağdamda tikilən qəsəbələrin bir cəhətini vurğulamaq istəyirəm. Layihədə ciddi dəyişikliklər etmişik. İndi tikilən evlər əvvəlkilərdən fərqlənir. Region üçün çox ciddi bir problem, yəni xarici elektrik təchizatı problemi bu qəsəbələrin tikintisi ilə həll olunacaqdır. Orada 1 ədəd 280 min kilovat gücündə transformator quraşdırılacaqdır. Bu, "Azərenerji"nin texniki şərtinə əsasən edilir. 25 min, 16 min, 10 min kilovatlıq yeddi ədəd transformator qoyulacaqdır. Altı kilovatlıq 146 yardımçı stansiya tikilib, yəni çox böyük texniki infrastruktur yaranıbdır.

Ağcabədi yardımçı stansiyasında 280 meqavatlıq transformator quraşdırılandan sonra 4 rayonun – Ağcabədi, Bərdə, Ağdam, Beyləqanın elektrik enerjisi ilə təchizatı tam sabitləşəcəkdir. Biz bu işi Sizin tapşırığınızdan sonra etdik. Hazırda layihə ilə bağlı müsabiqənin təklifləri açılacaqdır. Bu işə Almaniyanın «Siemens» şirkəti də cəlb olunubdur. Çünki 280 meqavatlıq transformatorun birini onlar quraşdırıblar.

Bundan əlavə, tikintidə, ola bilsin, vəsait çatışmazlığı yaransın. Bu barədə Sizə məruzə olunubdur. Hesab edirik, bu öz həllini tapacaqdır. Bunu problem hesab etmirik. Son 7 il ərzində qaçqın-köçkünlərə ölkənin müvafiq nazirlikləri, komitə və şirkətləri tərəfindən 55 milyard manatlıq yardım edilibdir. Keçən il Sizin xüsusi tapşırığınızdan sonra yerli təşkilatlar 11 milyard manatlıq yardım göstəriblər. Yəni, Sizin tapşırığınızdan sonra fəallaşma olmuşdur.

Biz 94 humanitar təşkilatla bu sahədə əməkdaşlıq edirik. Onun 72-si beynəlxalq təşkilat, 22-si isə milli qeyri-hökumət təşkilatlarıdır. Bunlar son 12 ildə məcburi köçkünlərə 640 milyon dollar yardım göstəriblər. Onun 380 milyon dolları ABŞ

təşkilatlarına, 110 milyon dolları isə BMT qurumlarına məxsusdur. 10 illik konfransda çıxışınız zamanı bizə verdiyiniz tapşırıqdan sonra onların Azərbaycanda sərbəst, şəffaf, azad fəaliyyətləri üçün bütün şərait yaradılıbdır. Məlumat üçün deyim ki, əgər əvvəllər bu təşkilatların sayı azalırdısa, o konfransdan sonra get-gedə çoxalır. Hazırda Azərbaycanda işləmək istəyənlərin sayı xeyli artıbdır. Bunun bir səbəbi var: onlara tam sərbəst iş fəaliyyəti üçün şərait yaradılmışdır.

Mən burada Xarici İşlər Nazirliyinin, diplomatik korpusumuzun bu sahədə fəallığını qeyd etmək istəyirəm. Siz xüsusən XİN-də görüş keçirəndən sonra, naziri, səfirləri dinləyəndən sonra çox fəallaşma var. Xüsusən yeni təyin olunmuş səfirlər bu istiqamətdə çox fəallaşıblar. Cenevrədəki, İtaliyadakı, Küveytdəki, BƏƏ-dəki, ABŞ-dakı səfirlər son bir il ərzində xeyli işlər görüblər.

Cənab Prezident, Siz İtaliyaya səfəriniz zamanı bu problemlə məşğul olmuşdunuz. Ümumdünya Ərzaq Proqramının icraçı direktorunun müavinini qəbul etdiniz. Bilirsiniz ki, yanvar ayında onlar Azərbaycanda fəaliyyəti dayandırmışdılar. Sizin görüşünüzdən sonra Azərbaycana böyük bir missiya göndərdilər, onlar bir ay burada işlədilər. Onların problemləri yaranmışdı, Sizin tapşırığınızla hökumət onu kompensasiya etdi, indi bu iş davam edir. Bu Sizin İtaliyada keçirdiyiniz görüşün konkret nəticəsidir. Bundan əlavə, məhz Sizin Romaya səfərinizin nəticəsi olaraq, İtaliya hökuməti bu günlərdə Azərbaycandakı məcburi köçkünlərə ərzaq göndərmək üçün bir milyon avro vəsait ayırıbdır. İtaliyanın Bakıdakı səfiri bizimlə görüş keçirdi və bu məsələni müzakirə etdi.

Biz beynəlxalq maliyyə təsisatları ilə də işləyirik. Dünya Bankından ayrılmış 10 milyon dollar vəsaitin istifadəsi artıq başa çatır. Sizin sərəncamınızla ikinci 10 milyon dollar kredit sazişi imzalanıbdır. Əvvəlki 10 milyon dollar hesabına 192 mikrolayihə həyata keçirilib, ondan 150 min məcburi köçkün bəhrələnib, 6 min nəfər isə kredit alıbdır. Dünya Bankının regional icraçı direktorunun sözlərinə görə, bu, Dünya Bankına görə çox

yüksək göstəricidir. Ona görə bank çox böyük həvəslə bizimlə ikinci kredit sazişini imzalamağa razılıq vermişdir.

İslam İnkişaf Bankının prezidentinin Bakıya səfərindən sonra Sizin tapşırığınızla yeni bir kredit sazişi üzərində işləyirlər. Asiya İnkişaf Bankı 2,5 milyon dollar vəsait hesabına qəsəbə tikdi və Siz onun açılışında iştirak etdiniz. İndi 7 milyon dollar güzəştli kredit üzərində iş aparırlar. Bunları deməkdə məqsədimiz odur ki, ulu öndərimiz Heydər Əliyevin və Sizin bu istiqamətdə tapşırıqlarınızı yerinə yetirməklə yaranmış, şəffaf, azad, sərbəst şəraitin nəticəsidir ki, beynəlxalq maliyyə təsisatları bizimlə işləmək niyyətindədirlər.

İcazənizlə, bir neçə problemə toxunmaq istəyirəm. Siz qeyd etdiniz, məşğulluq problemi öz həllini tapacaq. Dövlət proqramında bunların hamısı göstərilmişdir. Aidiyyəti təşkilatlar rayonlarda tikintini başa çatdırsalar, yoxsulluq həddi də xeyli aşağı düşəcəkdir. Füzuli rayonu ərazisində Yuxarı Mil kanalı var, bu həm yeni qəsəbələri, həm Beyləqan əhalisinin bir qismini, həm də Xocavənd, Şuşa köçkünlərinin Haramı düzündəki sahələrini su ilə təmin edəcəkdir. Onun 3,6 kilometrinin bərpaya ehtiyacı var. Araşdırma aparılıb, təxminən 13 milyard manat vəsait tələb olunur. Bu məsələ həll olunsa, təkcə köçkünlər yox, bütövlükdə o region kanalın suyundan bəhrələnəcəkdir.

Laçın qış yataqlarında 80 oba var, onun 35-ni içməli su ilə təmin etmişik, qalanlarını yox. Orada da araşdırma aparılıb, Yuxarı Qarabağ kanalından 11 kilometrlik xətt çəkilsə, yaxşı olar. Bunun üçün 4,5 milyard manat vəsait tələb olunur.

Cənab Prezident, Sizə məruzə etmişdik, istəyirik yemək xərcləri üçün pulları almaqdan ötrü bankomat sisteminə keçək. Artıq müqavilə bağlanıb, regionlarda bu işə başlanacaqdır. Burada bir problem yaranır ki, xidmət xərcləri və plastik kartlar üçün hər ailə hesabı ilə 7 dollar vəsait tələb olunur. Bu da 1 milyon dollar edir. Bu, büdcəmizdə nəzərdə tutulmayıb, hazırda Maliyyə Nazirliyi bu məsələni araşdırır. Hesab edirik, bunun həlli tapılacaqdır.

Son vaxtlar məcburi köçkünlərə qarşı zorakılıq halları, hüquq pozuntuları artıbdır. 2004-cü il və bu ilin 5 ayında 310 hüquq pozuntusu aşkar edilibdir. Onun 91-i məhkəmə prosesləri ilə müşayiət olunubdur. Düzdür, biz Ali Məhkəmə ilə birlikdə bunun qarşısını maksimum almışıq. Ancaq belə hallar hələ davam edir. Düşünürük ki, bu yolverilməzdir. Yəqin Ali Məhkəmənin yeni sədri müəyyən tədbirlər görəcəkdir.

Cənab Prezident, son vaxtlar qaçqınlar, məcburi köçkünlər barədə müxtəlif fikirlər söylənilir. Guya bunlar varlanıblar, imtiyazlardan çox istifadə edirlər, hətta deyirlər ki, məcburi köçkünlərin maşınları var, ev alırlar. Bizim üçün bu başadüşülməzdir.

Əvvəla, bu, dövlətin apardığı siyasətdir. Xalqın, o cümlədən məcburi köçkünlərin güzəranı günbəgün yaxşılaşır. Ancaq bu ifadələri işlətmək – təəssüf edirik ki, bu sözlər məmurlar tərəfindən deyilir – köçkünlər barədə ictimaiyyətdə xoşagəlməz fikir formalaşdırır. Bunun qarşısı alınmalıdır. Əminik ki, bugünkü müzakirədən sonra bunun qarşısı birmənalı alınacaqdır. Çünki bu insanlara qarşı o cür fikir formalaşdırmaq yaxşı deyildir.

Əgər ulu öndərimiz Heydər Əliyevin apardığı islahatlar və neft strategiyası olmasaydı, sadaladığım nailiyyətlər, ayrılmış vəsaitlər, ümumiyyətlə, ölkədəki iqtisadi irəliləyişlər, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin yaxşılaşması mümkün olmazdı. Bunların hamısının kökündə məhz cənab Heydər Əliyevin apardığı islahatlar və onun neft strategiyası durur.

Qarşıda bu ilin ən vacib ictimai-siyasi kampaniyası – parlament seçkiləri var. Biz hesab edirik ki, qaçqın və məcburi köçkünlər indiyə qədər bütün ictimai-siyasi proseslərdə fəal iştirak ediblər, dövlətçiliyə sadiq olublar və indi də onlar üçün bütün sərbəst şərait yaradılacaq ki, istədikləri namizədə səs versinlər. Təbii ki, dövlətçiliyə sadiq qalacaqlar.

Mən müxalifətin adını çəkmək istəmirdim. Amma bir misalı deməyi özümə borc bilirəm. Biz hazırladığımız bu materialda çadır şəhərciklərinin şəkillərini əks etdirmişik. Bu həm xaric üçün lazımdır, həm də bunu bu gün qabartmaq istəyirəm ki,

Azərbaycanın son minillik tarixində ölkəmizdə çadır şəhərciyində, yük vaqonlarında yaşayan olmayıbdır. Həmin çadır şəhərciyini, yük vaqonlarını Azərbaycan tarixinə bir ləkə kimi 1992-ci ildə AXCP – Müsavat hakimiyyəti gətiribdir. Cənab Heydər Əliyev və İlham Əliyev 12 ildir onların vurduğu bu ləkəni, yaranı sağaltmaqla məşğuldur. İndiki müxalifətin Azərbaycan xalqına verdiyi o çadır şəhərcikləridir. Ola bilər, ayrı-ayrı adamların alaçıq kimi çadırları olubdur. Amma çadır şəhərciyini Azərbaycan tarixinə onlar yazıblar. Mən onlar haqqında bundan artıq söz demək istəmirəm. Fikrimi əvvəllər bildirmişdim. Müasir, yeniləşmiş Azərbaycana müasir təfəkkürlü müxalifət lazımdır. Bu labüddür və artıq bunu ictimaiyyət tələb edir.

Cənab Prezident, Azərbaycan əhalisinin ən çətin vəziyyətdə yaşayan qisminin problemini belə geniş tərkibdə müzakirəyə çıxardığınız üçün o insanların Sizə dərin, səmimi təşəkkürünü, hörmət və ehtiramını bir daha çatdırıram.

**İ l h a m Ə l i y e v:** O vaxtkı iqtidarın Azərbaycana vurduğu ziyan, təəssüflər olsun ki, təkcə bu çadır şəhərciklərinin yaranması ilə məhdudlaşmamışdır. Ümumiyyətlə, Azərbaycan 1992-1993-cü illərdə dağılmaq ərəfəsində idi. Azərbaycanda gedən mənfi proseslər ölkəmizi tamamilə məhvə aparırdı. Təkcə statistikaya baxmaq kifayətdir görək ki, iqtisadi tənəzzül 100 faizdən artıq idi. Xaos, böhran hökm sürürdü. Əlbəttə, o illərdə Ermənistandan olan qaçqınlara və sonra Qarabağdan gələn məcburi köçkünlərə mənfi münasibət hamımızı çox incidirdi, narahat edirdi. Məhz o illərdə Azərbaycan xalqının mənəviyyatına sığmayan epitetlər meydana gəldi. Ermənistandan gələn soydaşlarımıza müxtəlif adlar, təhqiredici adlar verilməyə başlandı. Ondan sonra Qarabağdan gələn qardaşlarımıza da münasibət çox mənfi idi.

Siz tamamilə düz deyirsiniz ki, Azərbaycanda insanlar heç vaxt çadırlarda, yük vaqonlarında yaşamamışlar. Başqa imkanlar var idi. Başqa siyasət aparılmalı idi ki, insanlar bu əziyyəti çəkməsinlər. O vaxtkı iqtidarın Azərbaycanda törətdiyi əməllərdən indi, demək olar ki, heç biri qalmayıbdır. Azərbaycan artıq

bölgədə çox hörmət olunan bir ölkədir. Azərbaycan öz xarici siyasətini elə qurub ki, dünyada bizə böyük hörmət var. Azərbaycan iqtisadi inkişaf baxımından dünyada aparıcı ölkədir. Ancaq indi müzakirə etdiyimiz məsələ, əlbəttə, hələlik tam aradan qaldırılmayıb, amma biz bunu da edəcəyik. Biz buna nail olacağıq və Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaq, insanlar müvəqqəti olaraq normal şəraitlə təmin ediləcəklər.

Sizin qaldırdığınız məsələlərə də operativ qaydada baxmalıyıq. Son zamanlar qaçqın-köçkünlərə qarşı zorakılıq hallarını da gərək ciddi araşdıraq və buna son qoyulmalıdır. Məni də çox narahat edir, bəziləri deyirlər ki, qaçqınlar varlanıblar, maşın, ev alıblar. Yaxşı, əgər kimsə ev alıbsa, maşın alıbsa, biz buna sevinməliyik. Məqsədimiz də budur ki, Azərbaycan xalqı yaxşı yaşasın, zəngin olsun, maddi cəhətdən inkişaf etsin. Ancaq bunlar necə varlanıblar ki, onların 72 faizi yoxsulluq şəraitində yaşayır? Yoxsulluğun nə demək olduğunu biz çox yaxşı bilirik. Çox çətin, ağır şəraitdə yaşayırlar. Əlbəttə, onların bəziləri ictimai proseslərə də qoşulurlar, cəmiyyətdə də özlərinə yer tapırlar. Bu da təbiidir. Kiminin imkanı var, kiminin dəstəyi var, yaxud başqa amillər də rol oynayır. Əlbəttə, biz buna sevinməliyik. Amma bu məsələni ümumiləşdirib bu insanlara qara yaxmaq, onları ittiham etmək heç kimə yaraşmaz. Buna son qoyulmalıdır. Bizim dövlətimizin siyasəti dəyişməz olaraq qalır. Bu bizim üçün ən prioritet məsələdir, ən ağrılı problemdir.

Yenə də deyirəm, mən bu gün və gələcəkdə Azərbaycan qarşısında ciddi problem görmürəm. Çünki ölkə hər cəhətdən çox sürətlə inkişaf edir. İctimai-siyasi vəziyyət sabitdir. Biz vətəndaş birliyinə, vətəndaş həmrəyliyinə çoxdan nail olmuşuq və bu gün bu mövcuddur. Azərbaycan xalqı Azərbaycan iqtidarını, onun siyasətini dəstəkləyir. Biz bunu gündəlik həyatda görürük. Əgər bu dəstək olmasaydı, bu islahatları aparmaq bizim üçün o qədər də asan olmazdı.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edir, mən bu barədə çox danışmaq istəmirəm, bütün rəqəmlər bəllidir. Dünyanın ən nəhəng enerji layihəsi Azərbaycanda həyata keçirilibdir və

artıq bir neçə aydan sonra Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəcəkdir. Əlbəttə, bizim həm iqtisadi, həm sosial, həm də bütün başqa problemlərimiz öz həllini tapacaqdır. Artıq bu proses gedir və ildən-ilə sürətlənir.

Özəl sektor inkişaf edir. Baxın, son müddət ərzində nə qədər müəssisə yaranıb, nə qədər iş yeri açılıbdır. İl yarım ərzində 200 mindən artıq iş yerinin açılması – 8 milyon əhaliyə malik hansı ölkədə bu, mümkün olubdur? Deyə bilərəm ki, heç bir yerdə! Biz buna sevinirik. Bu bizim gördüyümüz işlərin, əməyimizin nəticəsidir. Ona görə bir daha demək istəyirəm, bu problemdən başqa, torpaqlarımızın azad olunması, qaçqın-köçkünlərin həyat səviyyəsinin yaxşılaşması problemindən başqa, bizim ciddi problemimiz yoxdur. Ona görə gərək hamımız birləşək. Hökumət, dövlət, şirkətlər, ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları – hansılar ki, beynəlxalq təşkilatlarla ünsiyyətdədirlər – mən məsləhət görərdim, ilk növbədə, bu məsələni diqqətə çatdırsınlar.

Azərbaycanın problemləri var, cəmiyyətimiz də kamil deyildir. Bu da təbiidir. Biz keçid dövrünü yaşayırıq. Mən hesab edirəm ki, hər bir vətənpərvər insan, yaxud təşkilatın üzvü, sədri, ilk növbədə, beynəlxalq ictimaiyyətin diqqətinə gərək bu məsələni çıxarsın.

Mən bunu artıq giriş nitqimdə qeyd etdim, biz özəl sektora böyük dəstək veririk. Müvəkkil banklar vasitəsilə büdcədən güzəştli kreditlər ayrılır ki, bu sektor inkişaf etsin və sevindirici haldır ki, inkişaf da edir. Onların da imkanı var kömək etsinlər. Hamımız kömək etməliyik.

Qaldırdığınız problemləri də biz operativ qaydada həll etməliyik. Məşğulluq problemləri ilə bağlı tədbirlər görəcəyik, gərək o kanalların tikintisinə lazımi vəsaiti tezliklə ayıraq. Yuxarı Mil kanalı və Yuxarı Qarabağ kanalının təmirinə birlikdə təxminən 17 milyard manat lazımdır. Bundan əlavə, 10 kombayn tezliklə alınmalıdır. Yataqxanaların təmirinə lazım olan vəsaitin məbləğini də siz müəyyən edin və bunu da dərhal ayıraq.

**H ə s ə n  S a r ı y e v** (*Ağdam Rayon İcra Hakimiyyətinin başçısı*)**:** Möhtərəm cənab Prezident!

Qaçqın və məcburi köçkün problemini belə geniş tərkibdə müzakirə etdiyiniz üçün Ağdam rayonunun məcburi köçkünləri adından Sizə dərin təşəkkürümüzü bildiririk.

Ağdam istər əhalisinin sayına, istərsə də strateji əhəmiyyətinə görə respublikada ən böyük rayonlardan biridir. Rayonumuzun 44 kəndində yaşayan, habelə ölkənin 58 şəhər və rayonunun 875 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmış ağdamlılar dövlətə və dövlətçiliyə sadiq olduqlarını həmişə əməli işlə sübut ediblər.

Atəşkəs rejiminin ermənilər tərəfindən hər gün dəfələrlə pozulmasına baxmayaraq, rayon əhalisi öz doğma yurd-yuvasına möhkəm bağlılığını qətiyyətlə nümayiş etdirir, bütün çətinliklərə dözüm göstərir, yaşayır və işləyir. 8–10 il əvvəl Ağdamın işğal olunmamış ərazisində 15 min nəfərə yaxın əhali yaşayırdısa, hazırda 65 min nəfəri ötmüşdür.

Bütün qaçqın və məcburi köçkünlər kimi, ağdamlılar da xalqımızın ümummilli lideri Heydər Əliyevin daimi diqqət və qayğısından həmişə bəhrələnmişlər. Ulu öndərimizin müvafiq fərmanlarına əsasən, 2002–2003-cü illər ərzində çadır düşərgələrində və dəmir yolu üzərindəki yük vaqonlarında müvəqqəti məskunlaşan 500 ailədən ibarət 3 minə yaxın əhali yeni salınmış 4 qəsəbəyə köçürülmüşdür. Müasir infrastruktura malik həmin qəsəbələr təhsil, səhiyyə ocaqları və digər sosial, kommunal obyektlərlə təchiz olunmuş, hər ailəyə 0,12 ha həyətyanı torpaq sahəsi ayrılmışdır.

Cənab Prezident!

Siz 2003-cü ildə prezident seçkiləri ərəfəsində ağdamlı məcburi köçkünlərlə görüşünüz zamanı demişdiniz ki, heç bir məcburi köçkün çadırlarda yaşamayacaqdır. Bu gün hamımız şahidik ki, bu vədə qətiyyətlə əməl olunur.

Hazırda Bərdə və Ağcabədi rayonları ərazisində çadırlarda və vaqonlarda yaşayan məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq məqsədi ilə rayonun ərazisində 3823 ailə üçün

müasir tipli 12 qəsəbənin tikintisinə başlanılmışdır və onlardan ikisində artıq son tamamlama işləri görülür. Ağdam rayonu bu gün, sözün əsl mənasında, tikinti meydanına çevrilmişdir. Bu işlərə respublikanın tikinti təşkilatlarının işçiləri də daxil olmaqla, 25 min nəfər cəlb edilmişdir. Onların 80 faizi yerli sakinlər və məcburi köçkünlərdir. Həmin qəsəbələrlə cəbhə xəttinə qədər ən yaxın məsafə 15 kilometrdir və onların arasında daimi yaşayış olan kəndlər vardır.

Digər rayonlarda salınan qəsəbələrdən fərqli olaraq, Ağdamın zəngin incəsənət-musiqi mədəniyyəti nəzərə alınmaqla, burada inşa edilən yeni qəsəbələrdə musiqi məktəblərinin də tikilməsi nəzərdə tutulmuşdur. Cənab Prezident, indiki şəraitdə bu amili nəzərə aldığınıza və qeyri-adi diqqətinizə görə Ağdam əhalisinin səmimi minnətdarlığını Sizə çatdırıram.

Cənab Prezident!

Başqa bölgələrlə müqayisədə rayonumuzun elektrik enerjisi ilə təminatı xeyli yaxşıdır və bu Sizin tapşırığınızdan sonra daha da yaxşılaşmışdır. Ancaq rayonun cəbhə bölgəsində yerləşməsini nəzərə alaraq, elektrik enerjisi ilə təminat fasiləsiz olsaydı, daha yaxşı olardı.

Hazırda rayonda yenidənqurma və abadlıq işləri də diqqət mərkəzindədir. Rayon ərazisində Daxili İşlər Nazirliyi tərəfindən 4 yeni müasir tipli məktəb binası tikilmişdir. Quzanlıda yeni məktəb binasının inşasına başlanmışdır və sentyabr ayına kimi istifadəyə veriləcəkdir. İşğaldan Azad Olunmuş Ərazilərin Bərpası və Yenidən Qurulması Agentliyi tərəfindən 15 məktəb binası əsaslı təmir olunmuşdur. 2004-cü ildən Şəki İpək Səhmdar Cəmiyyəti tərəfindən ikinci pambıq emalı zavodu inşa edilir. Yaranmış sağlam rəqabət nəticəsində əvvəlki illərə nisbətən pambığın satınalma qiyməti 500 manat artaraq 1600 manat olmuşdur.

Bütün bunlarla yanaşı, rayonun Ayaqqərvənd, Eyvazlı, Həsənxanlı, I Baharlı, II Baharlı və Yüzbaşılı kəndlərində yeni məktəb binalarının tikilməsinə, Hacıməmmədli və Quzanlı kəndlərində orta məktəb binalarının əsaslı təmirinə ciddi ehtiyac

vardır. Eyni zamanda, ağdamlı gənclərin çoxsaylı müraciətlərini nəzərə alıb, hazırda rayon mərkəzi kimi fəaliyyət göstərən Quzanlı kəndində sadə olimpiya kompleksinin tikintisinə kömək göstərməyinizi Sizdən xahiş edirik.

Cənab Prezident!

Dövlət Proqramına uyğun olaraq, rayonda yeni inşa edilmiş sex və obyektlərdə 671 nəfər daimi işlə təmin edilmiş, 815 nəfər mövsümi işlərə cəlb olunmuşdur. Yeni Dövlət Proqramında məcburi köçkünlər üçün iş yerlərinin yaradılması (kiçik xalçaçılıq, çörəkbişirmə, kərpic, ət, süd və tərəvəz emalı sexləri), kənd təsərrüfatı işləri ilə məşğul olmaq üçün aqroservislərin yaradılması nəzərdə tutulmuşdur. Bu sahədə aidiyyəti nazirliklər tərəfindən müvafiq tədbirlərin həyata keçirilməsinə cari ildən başlanılması məqsədəuyğun olardı.

Sizin imzaladığınız fərman və sərəncamlar xalqımızın rifah halının yaxşılaşdırılmasına, müstəqil dövlətimizin siyasi və iqtisadi qüdrətinin gücləndirilməsinə, yoxsulluğun aradan qaldırılmasına yönəldilmişdir.

Respublikamızda gedən sürətli, hərtərəfli inkişafı gözü götürməyən, həqiqətlərə kor kimi baxıb əks-təbliğat aparmağa çalışan Pənah Hüseynov kimiləri bilməlidirlər ki, AXC–Müsavat hakimiyyəti dövrünü görmüş insanların yaddaşından o illər heç vaxt silinməyəcəkdir. Belə ki, hakimiyyətdə olduğu dövrdə ermənilərlə əlbir olub Ağdam şərabının onların Leninqraddakı "Ararat" firmasına satılmasına rəhbərlik edən Pənah Hüseynovun və onun siyasi həmfikirlərinin cinayətlərini xalq unutmamışdır.

**İ l h a m  Ə l i y e v:** Hara satmışdı, ermənilərə?

**H ə s ə n  S a r ı y e v:** Bəli, cənab Prezident, Leninqradda «Ararat» firması var idi. Onda bütün Ağdam zavodlarının şərablarının Leninqrada daşınıb ermənilərin «Ararat» firması vasitəsilə realizə edilməsi ilə bağlı o vaxtlar prokurorluqda iş qaldırdılar. Mən bunu yazılı şəkildə göndərmişdim. Çoxlarının vəsaitini də vermədilər və yedikləri vəsaiti də dövlət büdcəsindən köçürdülər. Elə bil ki, bu cibdən götürüb o biri cibə qoydular.

**İ l h a m  Ə l i y e v:** Ölkəni dağıdırdılar, ermənilərlə əlbir idilər.

**H ə s ə n  S a r ı y e v:** Bəli. Ermənilərlə əlbir olmaq onların xislətində olmaq deməkdir.

**İ l h a m  Ə l i y e v:** Elədir. Azərbaycan xalqının canı belə ünsürlərdən qurtardı.

**H ə s ə n  S a r ı y e v:** Bəli.

Qarşıdan mühüm siyasi kampaniya – parlament seçkiləri gəlir. Rayonumuzda seçkilərə ciddi hazırlıq gedir. Qanuna əməl olunmaqla seçkilərin tam demokratik və şəffaf keçirilməsi üçün əsaslı iş aparılır. Ümummilli liderimiz Heydər Əliyev həmişə deyərdi ki, demokratik seçkilər Azərbaycan dövlətinin strateji xəttidir. Möhtərəm cənab Prezident, «Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair» 2005-ci il 11 may tarixli sərəncamınız Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin bariz nümunəsidir.

Hörmətli cənab Prezident, ağdamlılar ürəkdən inanırlar ki, Sizin apardığınız məqsədyönlü siyasət nəticəsində respublikamızın ərazi bütövlüyü təmin olunacaq, işğal altındakı torpaqlarımız düşməndən təmizlənəcək, qaçqın və məcburi köçkünlər öz doğma yurdlarına qayıdacaqlar.

Sizi əmin edirəm ki, apardığınız daxili və xarici siyasəti ürəkdən bəyənən və müdafiə edən ağdamlılar, həmişə olduğu kimi, bundan sonra da bütün sahələrdə işgüzarlıq, əzmkarlıq nümayiş etdirəcək, ulu öndərimiz Heydər Əliyevin müdrik, uğurlu siyasi xəttinin ən layiqli davamçısı kimi, Sizin ətrafınızda sıx birləşəcək, ən yaxın köməkçiniz olacaqlar.

Diqqətinizə görə minnətdaram.

**İ l h a m  Ə l i y e v:** Ümumiyyətlə, cəbhə xəttinin yaxınlığında yaşayan insanların problemləri ilə daha da ciddi məşğul olmalıyıq. Əli Həsənov qeyd etdi ki, 125 min nəfər cəbhə xəttinin 2500 metr yaxınlığında yaşayır. Əlbəttə, onlar gərək diqqəti daha da hiss etsinlər. Bilirəm ki, elektrik enerjisi ilə təminatda fasilələr olur. «Azərenerji»nin rəhbərliyi, siz buna da ciddi baxın.

Ümumiyyətlə, Azərbaycanda son illər ərzində, demək olar ki, yeni elektrik stansiyaları az tikilibdir. Ancaq «Şimal» elektrik stansiyası tikilmişdir. O da Azərbaycanın artan tələbatını ödəyə bilmir. Çünki ölkə inkişaf edir, yeni binalar tikilir, müəssisələr açılır. Onların da hamısı elektrik enerjisi tələb edir. Mövcud stansiyaların gücü tələbatımızı tam ödəmir. Bunu aradan qaldırmaq, vəziyyəti yaxşılaşdırmaq üçün tədbirlər görülür, yeni elektrik stansiyalarının tikintisi nəzərdə tutulubdur. Sumqayıtda və Bakıda 400–500 meqavat gücündə yeni stansiyaların tikintisi, güman edirəm ki, iki ildən sonra başa çatacaqdır. Ancaq biz gərək bu iki ili yaşayaq. Ona görə Nazirlər Kabinetinə tapşırıq verilmişdir ki, təxirəsalınmaz tədbirlər görülsün və kiçik həcmli modul tipli elektrik stansiyalarının alınması təmin olunsun.

Bildiyimə görə, artıq müvafiq sazişlər bağlanıb və bu il, gələn il bu stansiyaların quraşdırılması nəzərdə tutulubdur. Onlar bizə təxminən 400 meqavatdan yuxarı əlavə enerji gücü yaradacaqdır. Siz də çalışın, cəbhə xəttində yaşayan insanların elektrik enerjisi təminatını nəzarətdə saxlayın ki, orada heç bir problem olmasın.

Çünki bu həm onların həyat səviyyəsini yaxşılaşdırmaq istiqamətində addım olacaq, eyni zamanda cəbhə xəttindəkilər bir-birini görürlər. Ermənilər görəndə ki, bizim kəndlərimizin işığı yanmır, bu, dözülməz bir haldır.

Biz bütün cəhətlərdə ermənilərdən üstünük. Bu gün Azərbaycan inkişaf edir, Ermənistandan fərqli olaraq, tam mənada müstəqil siyasət aparır. Azərbaycan iqtisadiyyatı sürətlə irəliyə gedir. Büdcəmiz ildən-ilə artır. Bu gün Azərbaycanın büdcəsi Ermənistanın büdcəsindən 4 dəfə böyükdür. Gələn il yəqin ki, 6 dəfə böyük olacaqdır. Məqsəd ondadır ki, 10 dəfə böyük olsun. Əminəm ki, buna da nail olacağıq. Ona görə biz gərək bu amili də nəzərdə saxlayaq.

İdman kompleksinin tikilməsi də nəzərdə tutulmalıdır. İndi Ağdam rayonunda böyük tikintilər gedir, yeni qəsəbələr salınacaqdır. Əlbəttə, orada yaşayan insanların idmanla məşğul olmaq

üçün şəraiti olmalıdır. Hesab edirəm ki, biz bunu da həll edəcəyik.

**N o v r u z N o v r u z o v**(*Goranboy Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident!

Vətənimizin ərazi bütövlüyünün bərpa edilməsi, düşmən təcavüzü nəticəsində öz yurd-yuvalarından didərgin düşmüş insanların taleyi, onların həyat şəraitinin yaxşılaşdırılması ümummilli liderimiz Heydər Əliyevin daim diqqət mərkəzində olmuş, onun səyləri ilə qaçqın, məcburi köçkün probleminə dövlət qayğısının əsaslı təminatı yaradılmışdır.

Ötən il Sizin müvafiq sərəncamınızla qaçqınlara və məcburi köçkünlərə dair təsdiq olunmuş Dövlət Proqramı bu vacib sahəni günün ən əsas strateji məsələsi səviyyəsinə yüksəltmişdir.

Hazırda Goranboy rayonunun 38 yaşayış məntəqəsində 4110 nəfər qaçqın, 9341 nəfər məcburi köçkün (ümumilikdə 13451 nəfər) məskunlaşmışdır.

Xalqımızın ümummilli liderinin strateji əhəmiyyət daşıyan Aşağı Ağcakənd qəsəbəsinin salınması barədə qərarı, onun açılışında iştirakı mühüm tarixi hadisə və burada yaşayan insanların həyatının unudulmaz bir anı kimi daim xatirələrdə yaşayacaqdır. İndi bu qəsəbədə 492 qaçqın və məcburi köçkün ailəsi yaşayır. Sizin qayğı və diqqətiniz nəticəsində qəsəbə daha da inkişaf edir, gözəlləşir. Qəsəbənin inzibati ərazisində yaşayanların sayı isə 7451 nəfərdir.

Burada lazımi səviyyədə sosial-texniki infrastruktur yaranır və inkişaf edir.

Möhtərəm cənab Prezident!

Sizin də iştirak etdiyiniz Aşağı Ağcakənd qəsəbəsinin açılışı zamanı ümummilli liderimiz məktəblə tanış olarkən bizə müraciətlə soruşdu: «Burada olanlar belə də qalacaqmı?» Bu gün Sizə məlumat verirəm, məktəbdə olanlar eləcə də qalıb və biz onları daha da zənginləşdirməyə çalışmışıq.

Aşağı Ağcakənddə, əsasən qaçqınların və məcburi köçkünlərin məskunlaşdığı Gülüstan ərazisində 25 çarpayılıq müasir xəs-

təxana, 2 həkim ambulatoriyası, 1710 şagird yeri olan 8 yeni məktəb tikilib istifadəyə verilmişdir.

Ərazidə 133 kilometr elektrik xətti çəkilmiş, 2 yardımçı stansiya yenidən qurulmuş, müxtəlif güclü 27 yeni transformator qoyulmuşdur. İndi ərazinin ən ucqar hissəsində də etibarlı elektrik təminatı vardır.

Qəsəbə içməli su ilə təmin edilmiş, 10 kilometr uzunluğunda daxili su xətti çəkilmiş, Murovdağdan 14 kilometr uzunluğunda yeni su xəttinin tikintisi gedir. Suvarma üçün isə qəsəbə daxilində 9,4 kilometr su kəməri çəkilmiş, nasos stansiyası tikilmişdir. Qəsəbədə 256 nömrəlik elektron ATS quraşdırılmışdır. Ümumiyyətlə, ötən müddətdə qəsəbənin, onun inzibati ərazisinin tikintisi və infrastrukturunun bərpasına 50 milyard manatdan çox vəsait sərf edilmişdir.

Qaçqın ailələri mənzil-məişət şəraiti ilə tam təmin edilmişdir. Yaşadıqları kəndlərdə yerli əhali ilə eyni qaydada daimi mülkiyyətə torpaq sahəsi almışlar. 38 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmış məcburi köçkünlər üçün də münasib şərait vardır.

Ağcakənd qəsəbəsində yaşayan qaçqınlar rayonun iqtisadi həyatında daha fəal iştirak edirlər. Qəsəbə sakinlərinə 34,8 hektar həyətyanı, 368 hektar əkin üçün yararlı torpaq sahəsi daimi mülkiyyətə verilmişdir. Ötən il 200 ton kartof, 400 ton taxıl istehsal edilmişdir. Sakinlər 1300 başdan çox qaramal, 4000 baş davar saxlayırlar. Rayon üzrə isə qaçqın və məcburi köçkünlərin şəxsi təsərrüfatlarında 10 min başdan çox qaramal, 60 min baş davar vardır. Ötən müddətdə 3910 qaçqın və məcburi köçkün ailəsi 1 milyard manatadək güzəştli kredit almışdır.

Ərazidə eyni vaxtda 30 ailənin dincələ biləcəyi «Turist» istirahət mərkəzi tikilir. Burada 40 nəfər qəsəbə sakini işlə təmin olunmuşdur. Mərkəz iyul ayından fəaliyyətə başlayacaqdır. «Turist» istirahət mərkəzi Goran çayı üzərində tikdiyi kiçik su elektrik stansiyası vasitəsilə özünü elektrik enerjisi ilə təmin edir. Rayonun dağlıq ərazisindən axan Goran çayı və Kürəkçay üzərində daha bir neçə belə stansiya tikmək olar.

Ərazidəki gips yatağında 100 nəfərdən çox qaçqın və məcburi köçkün işlə təmin edilmiş, daha 100 nəfər işlə təmin olunacaqdır.

Gülüstan ərazisində 3500 hektar əkinə yararlı torpaq sahəsi vardır. Hazırda həmin torpaqlar səylə mühafizə olunur. Dövlət Proqramına uyğun olaraq, 2006-cı ildə Yuxarı Ağcakənddə 500 evin tikintisi nəzərdə tutulmuşdur. Əhali məskunlaşdıqca, həmin torpaq sahələri onların istifadəsinə veriləcəkdir.

Çətinliklərimiz, həlli diqqət tələb edən məsələlər də vardır. İstifadəyə verildikdən sonra Ağcakənd qəsəbəsində küçələrdə və yaşayış massivlərində qrunt sularının sızması halları müşahidə edilmişdir. Qrunt sularını yığmaq üçün drenaj tikməkdən ötrü layihə hazırlanmış, işin icrasına başlanmışdır.

Qəsəbədə yeni məktəb binasına, uşaq bağçasına və uşaq musiqi məktəbinə ehtiyac vardır. Əvvəllər Aşağı Ağcakənd qəsəbəsinə təbii qaz verilmişdir. Bəzi səbəblərdən qaz xəttinin 17 kilometri sıradan çıxmışdır.

Cənab Prezident, burada deyildiyi kimi, AXC-Müsavat hakimiyyəti 17 kilometrlik qaz xəttini, Yuxarı Ağcakənddə 1400 evi, Ağcakəndin inzibati ərazisində olan 11 kəndi yerlə yeksan edibdir. Onlar Azərbaycanda törətdikləri bu vandalizm üçün məsuliyyət daşımalıdırlar, nəinki bugünkü əzəmətli hakimiyyətin bünövrəsinə lağım atmaqla məşğul olmalıdırlar. Onlar Azərbaycanda özlərini talançı, dağıdıcı kimi, xalqı fəlakətə aparanlar kimi tanıtdırıblar. Onlara yer yoxdur.

Həmin qaz xətlərinin 22 kilometrini mühafizə edirik, saz vəziyyətdədir. Qəsəbəyə təbii qazın verilməsi bölgədəki 13000 hektar meşənin qorunmasına kömək edərdi.

Fin tipli evlərdən ibarət qəsəbədə 580 ailə – 2137 nəfər məcburi köçkün yaşayır. Qəsəbədə kifayət qədər torpaq sahəsi və su təchizatı vardır. Onun yerində yeni qəsəbənin salınması məcburi köçkünlərin mənzil-məişət şəraitini yaxşılaşdırardı.

Goranboy rayonu uzun bir məsafədə düşmənlə üz-üzədir. Azərbaycan dövlətinə, ölkə prezidentinə etibar və inam bu təmas xəttində yaşayan insanları qətiyyətli, yenilməz edibdir. Bu-

na misal olaraq, düşmənlə 500–1000 metr məsafədə üz-üzə dayanan 6 mindən çox əhalinin yaşadığı Tap, Tap-Qaraqoyunlu, Qaşaltı-Qaraqoyunlu kəndlərini və digər kəndləri göstərmək olar. Onlar yaşayır, inkişaf edir. Qaçqınlar da, məcburi köçkünlər də, rayonumuzun bütün sakinləri də şübhə etmirlər ki, Sizin apardığınız uğurlu siyasət torpaqlarımızın sülh yolu ilə işğaldan azad olunmasını təmin edəcəkdir.

Cənab Prezident!

Aşağı Ağcakənd qəsəbəsinin açılışından ötən müddətdə ölkədə iki mühüm siyasi tədbir – prezident və bələdiyyə seçkiləri keçirilmişdir. Goranboy rayonunun bütün seçiciləri kimi, qəsəbə sakinləri də bu seçkilərdə mütəşəkkil iştirak etmiş, Heydər Əliyev siyasi xəttinə yekdil münasibət bildirmişlər. Bütün goranboylular, o cümlədən ağcakəndlilər bu gün də öz mövqelərində qətiyyətlidirlər. Əmin ola bilərsiniz ki, qarşıdakı parlament seçkilərində bunu bir daha nümayiş etdirəcəklər.

Fürsətdən istifadə edərək, rayonumuzun mövcud sosial və iqtisadi problemlərinin həlli ilə əlaqədar müvafiq dövlət orqanlarına verdiyiniz göstərişlər əsasında həyata keçirilən tədbirlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Sizi əmin edirik ki, işimizi verdiyiniz tapşırıqlara uyğun quracağıq. İnsan amili, vətəndaşlara qayğı və diqqət, xüsusən qaçqın və məcburi köçkünlərin rifah halının yaxşılaşdırılması fəaliyyətimizin əsas prinsipi olacaqdır.

Diqqətinizə görə sağ olun!

**İlham Əliyev:** Goranboyda olarkən siz mənə mövcud olan problemlərlə bağlı müraciət etdiniz. Mən də Baş nazirə tapşırıq verdim ki, o problemlər araşdırılsın və öz həllini tapsın. İndi görürəm ki, başlayıblar.

**Novruz Novruzov:** Bəli, işlərə başlanıbdır.

**İlham Əliyev:** Nə lazımdırsa, bundan sonra da edəcəyik. Aşağı Ağcakəndə indi qaz lazımi həcmdə verilir?

**Novruz Novruzov:** Xeyr. Aşağı Ağcakənddə 17 kilometrlik qaz xəttini o vaxtlar cəbhəçilər yığışdırıblar. 22 kilometrini isə biz mühafizə etmişik, saz vəziyyətdədir. 17 kilo-

metrlik xətt bərpa edilsə, qaz olacaqdır. Oradan da Yuxarı Ağcakəndə 6 kilometrlik qaz xətti çəkmək mümkündür.

**İ l h a m Ə l i y e v:** «Azəriqaz» qarşısında bu məsələ qaldırılıb? Siz bunu bilirsiniz?

**Ə l i x a n M ə l i k o v** *(«Azəriqaz» SC-nin sədri)*: Bəli.

**İ l h a m Ə l i y e v:** Nə etmək lazımdır ki, qazla təmin edək?

**Ə l i x a n M ə l i k o v:** Cənab Prezident, qaz kəmərinin bərpası məsələsi qaldırılıbdır. Təkcə o kəndə yox, qaz xətləri saz vəziyyətdə olan digər kəndlərə də payız–qış mövsümündə qaz vermək imkanı vardır. Bununla bağlı işlər görülür və biz bunu təmin edəcəyik.

**İ l h a m Ə l i y e v:** İcra hakimiyyətinin başçısı mənə demişdi ki, 29 kənddə xətlər hazırdır, sadəcə, qaz yoxdur. Amma indi bunu əldə edirik. «Azəri» yatağından çıxarılan səmt qazı anbarlara doldurulur və qışda kifayət qədər qaz olacaqdır. Bu məsələni araşdırın ki, nə qədər vəsait lazımdır, biz bunu ayıraq, Ermənistandan olan qaçqınlar da qazdan korluq çəkməsinlər.

**Ə l i x a n M ə l i k o v:** Aydındır.

**N o v r u z N o v r u z o v:** Cənab Prezident, reallıq ondan ibarətdir ki, məskunlaşma getməmiş Goranboyda infrastruktur yaranır. Keçən il Yuxarı Ağcakəndə su çəkildi. Amma bu gün istifadə olunmur. Boru var, paylayıcı stansiya var, xətt var. 600 evlik qəsəbə salındıqdan sonra adamlar sudan istifadə edə biləcəklər. Ən ucqar kəndə elektrik xətti çəkilibdir. Əhalinin axınının qarşısını almaq üçün tədbirlər görürük ki, Dövlət Proqramının reallaşması zamanı digər çətinliklər ortaya çıxmasın. Həmin əraziyə qaz da çəkilsə, 13 min hektar meşə də mühafizə olunacaqdır.

**İ l h a m Ə l i y e v:** 1998–2004-cü illərdə dövlət proqramları qəbul edilibdir, mən qeyd etdim. Əlbəttə, orada qlobal məsələlər qoyulubdur. İndi o məsələlər həyatda öz əksini tapır. Amma eləsi var ki, bu, cari məsələdir. Harada ki buna operativ qaydada reaksiya vermək lazımdır, məsələni qaldırmaq gərəkdir ki, biz də bunu operativ şəkildə həll edək. Məsələn, Əli Həsə-

nov deyir 8 kombayn lazımdır ki, kənd təsərrüfatı ilə məşğul olan insanlar işləsinlər. Biz bunu dərhal edəcəyik. Yaxud da kanalların təmiri, qaz xətlərinin çəkilişi. Əlbəttə, bunların hamısını Dövlət Proqramında nəzərdə tutmaq mümkün deyildir. Ancaq bunlar elə məsələlərdir ki, əgər onları həll etsək, dərhal insanlar bunların müsbət nəticəsini görəcəklər. Ona görə biz bunları operativ qaydada mütləq həll edəcəyik.

**S a m i r  Ş ə r i f o v** (*Dövlət Neft Fondunun icraçı direktoru*): Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş müstəqil Azərbaycanın milli neft strategiyasının reallaşmasının uğurlu nəticəsi kimi, ölkəmizin neft və qaz ehtiyatlarının istismarından ölkəyə böyük miqdarda neft gəlirlərinin daxil olması təmin edilmiş, Dövlət Neft Fondu yaradılmışdır. Fondda toplanan neft gəlirlərinin həcmi durmadan, ildən-ilə artmaqdadır. Neft Fondunun qarşısında qoyulan əsas vəzifələrdən biri neft gəlirlərinin gələcək nəsillər üçün toplanaraq artırılmasıdırsa, digəri, neft gəlirləri hesabına ölkə iqtisadiyyatının tarazlı və davamlı inkişaf etdirilməsi və eyni zamanda, bugünkü nəsillərin sosial ehtiyaclarının həllinə yönəldilmiş tədbirlərin maliyyələşdirilməsidir.

Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti nəticəsində öz doğma yurdlarından didərgin salınmış və ağır şəraitdə yaşayan, əhalinin ən həssas sosial təbəqəsi olan qaçqınların və məcburi köçkünlərin üzləşdikləri problemlər prezident Heydər Əliyevin daim diqqət mərkəzində olmuş və bunların həllinə xüsusi önəm verilmişdir. Təsadüfi deyil ki, ulu öndərimiz Neft Fondundan ilk vəsaiti məhz bu təbəqənin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə yönəltmişdir. Bununla bağlı 2001 və 2002-ci illərdə prezident Heydər Əliyev ümumilikdə 359 milyard manat vəsait ayrılması barədə üç fərman imzalamışdır. Bu günədək Neft Fondundan həmin tədbirlərin maliyyələşdirilməsi üçün onları həyata keçi-

rən Dövlətqaçqınkomun hesabına, əlavə dəyər vergisi daxil olmaqla, 340 milyard manat vəsait köçürülmüşdür. O cümlədən:

– «Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında» 2001-ci il 22 avqust tarixli fərman üzrə 66 milyard manat;

– «Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında» 2001-ci il 7 sentyabr tarixli fərman üzrə 78 milyard manat;

– «Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında» 2002-ci il 13 may tarixli fərman üzrə 191 milyard manat.

Bundan əlavə, fərmanlara uyğun olaraq, kənd təsərrüfatı işləri ilə məşğul olmaları üçün məcburi köçkünlərə ümumilikdə 5 milyard manat məbləğində birdəfəlik əvəzsiz maliyyə yardımları ayrılmışdır.

Möhtərəm Prezident!

Son illər ərzində qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılmış məqsədyönlü siyasət hazırda Sizin tərəfinizdən davam etdirilir, onun Azərbaycan dövləti üçün prioritet məsələ kimi qalması bir daha təsdiq olunur. Bu məqsədlə qəbul etdiyiniz bir neçə sərəncam və dövlət proqramlarına uyğun olaraq, Dövlətqaçqınkom və bu məqsədlə yaratdığınız Dövlət Komissiyası tərəfindən müvafiq tədbirlər həyata keçirilir. Həmin tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə Dövlət Neft Fondundan Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun və Dövlətqaçqınkomun hesablarına bu günə qədər 123 milyard manat vəsait köçürülmüşdür.

Sizin 2004-cü il 4 fevral tarixli sərəncamınıza uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində didərgin düş-

müş, Bərdə və Ağcabədi rayonları ərazisində çadır düşərgələrində, eləcə də Bərdə rayonu ərazisində dəmir yolu üzərindəki yük vaqonlarında müvəqqəti yerləşdirilmiş Ağdam rayonundan və digər rayonlardan olan məcburi köçkünlərin sosial, mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi tədbirləri həyata keçirilir. Həmin tədbirlərin maliyyələşdirilməsi fondun büdcəsinə daxil edilib və (2004-cü ildə – 29 milyard manat, 2005-ci ildə – 87 milyard manat) bu layihənin sifarişçisi olan Nazirlər Kabineti yanında Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun hesabına bu günədək 116 milyard manat vəsait köçürülmüşdür. Cari ilin sonuna qədər bu sərəncam üzrə əlavə olaraq 92 milyard manat vəsaitin istifadə edilməsi nəzərdə tutulur.

Sizin 2004-cü il 1 oktyabr tarixli fərmanınıza uyğun olaraq, Naxçıvan Muxtar Respublikasında 100 qaçqın və məcburi köçkün ailəsi üçün fərdi evlərin tikintisinin maliyyələşdirilməsi üçün 8,5 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu məqsəd üçün indiyədək Neft Fondundan Dövlətqaçqınkomun hesabına 7,3 milyard manat vəsait köçürülmüşdür.

2004-cü il iyulun 1-də təsdiq etdiyiniz «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı» çərçivəsində Biləsuvar, Füzuli, Ağdam, Ağcabədi rayonları ərazisində 4179 məcburi köçkün ailəsi üçün yeni qəsəbələrin salınmasına dair tədbirlərin layihələndirilməsinin maliyyələşdirilməsinə başlanmışdır.

2001-ci ildən başlayaraq indiyədək Dövlətqaçqınkomun və Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun hesablarına Dövlət Neft Fondundan köçürülmüş vəsaitin ümumi həcmi 463 milyard manat (bu, ən son rəqəmdir) təşkil edir.

Neft Fondunun vəsaitləri hesabına qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması və məskunlaşması tədbirlərinin maliyyələşdirilməsinin təmin edilməsi məqsədi ilə müvafiq xərclər «Büdcə sistemi haqqında» qanuna uyğun olaraq, icmal dövlət büdcəsinə daxil edilir və ölkə parla-

menti tərəfindən təsdiqləndikdən sonra fond tərəfindən hər il üzrə təsdiq olunmuş büdcə xərcləri çərçivəsində icra edilir.

Yuxarıda qeyd olunmuş vəsait hesabına Azərbaycanın müxtəlif bölgələrində qaçqın və məcburi köçkünlər üçün yeni yaşayış qəsəbələri salınmışdır. 2001-ci ildən indiyədək 6411 yaşayış evi tikilib qaçqın və məcburi köçkünlərin sərəncamına verilmiş, 2522 evin tikintisi isə tamamlanma mərhələsindədir. Göstərilən müddət ərzində yaşayış evləri ilə yanaşı, bütün qəsəbələrdə müvafiq infrastruktur sistemlərinin və digər sosial-mədəni obyektlərin tikintisi də təmin edilmişdir. Eyni zamanda, qəsəbələrdə elektrik yardımçı stansiyaları, yanğınsöndürmə postları, su nasos stansiyaları, inzibati binalar, məktəblər, xəstəxanalar, rabitə qovşaqları, uşaq bağçaları və digər obyektlər tikilmiş, müvafiq yol infrastrukturu, irriqasiya sistemləri yaradılmışdır.

Azərbaycanın müxtəlif bölgələrində qaçqın və məcburi köçkünlər üçün qəsəbələrin salınması həm də ölkənin tikinti sektorunda, habelə inşaat materiallarının istehsalı sahəsində böyük canlanma yaranmasına səbəb olmuşdur. Tikinti işlərinə sifarişlərin çoxalması ölkədə, xüsusilə də bölgələrdə tikinti materiallarına və müvafiq işçi qüvvəsinə tələbatı artırmış, bu isə öz növbəsində rayonlarda əlavə iş yerlərinin yaranmasına təkan vermiş, yerli tikinti təşkilatlarının peşəkarlığının yüksəlməsinə müsbət təsir göstərmişdir. Dövlət satınalmaları haqqında qanunvericiliyə uyğun olaraq, Dövlətqaçqınkomun sifarişçi təşkilatları tərəfindən layihələndirmə və tikinti-quraşdırma işlərinin həyata keçirilməsi üçün 67 yerli təşkilat cəlb edilmiş, 380 müqavilə bağlanmışdır. Digər tərəfdən, bu işlərin yerinə yetirilməsi Sizin fərmanınızla təsdiq edilmiş «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın bölgələrdə həyata keçirilməsinə öz töhfəsini verməkdədir.

Qeyd olunan tədbirlərin həyata keçirilməsinin səmərəsinin daha da artırılması ilə bağlı bir sıra təkliflərin verilməsi yerinə düşərdi.

Bölgələrdə müvafiq inşaat materialları bazalarının, habelə yeni daş karxanalarının, kərpic, qapı, pəncərə və digər tikinti-

konstruksiya materiallarının istehsalı sexlərinin açılmasını təmin etməklə, bir tərəfdən, regionların sosial-iqtisadi inkişafı proqramının əsas hədəflərindən biri kimi, əlavə iş yerlərinin yaradılmasına və bütövlükdə məşğulluğun artırılmasına təkan veriləcək, digər tərəfdən isə, inşaat materiallarının təklifinin daha da artırılması inşaat təşkilatlarının daşınma ilə bağlı izafi xərclərini azaldacaq, bu isə tikintinin ümumi dəyərinin aşağı salınmasına və tikinti müddətinin qısalmasına xidmət edəcəkdir.

Həmin regionlarda beynəlxalq təşkilatlarla yanaşı, məcburi köçkünlər və qaçqınlara yerli maliyyə qurumları tərəfindən də mikrokreditlərin verilməsi təşviq edilməlidir.

Möhtərəm Prezident, Sizin rəhbərliyiniz altında həyata keçirilən sosial-iqtisadi siyasət sayəsində ölkənin daxili resursları hesabına cəmiyyətimizin ən həssas təbəqəsi sayılan qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşması və məskunlaşması problemlərinin aradan qaldırılması, eyni zamanda yoxsulluğun azaldılması istiqamətində nəzərəçarpan irəliləyişlər əldə edilir. Bütün çadır şəhərciklərinin ləğv olunması barədə verdiyiniz tapşırığın tezliklə icra olunması üçün əsaslı zəmin yaranmışdır. Milli neft strategiyasının uğurla reallaşdırılması Azərbaycanın iqtisadi potensialını və maliyyə imkanlarını durmadan artırır. Bu isə ölkəmizin hərbi qüdrətinin möhkəmləndirilməsinə göstərdiyiniz diqqət və qayğınızın, habelə ardıcıl olaraq həyata keçirdiyiniz fəal, qətiyyətli və məqsədyönlü xarici siyasətin mütləq nəticəsi kimi işğal olunmuş torpaqlarımızın erməni təcavüzündən azad edilməsi və köçkünlərin doğma torpaqlara qayıtması vaxtını labüd surətdə yaxınlaşdırır.

Diqqətinizə görə çox sağ olun.

**İlham Əliyev:** Azərbaycanda Dövlət Neft Fondunun yaranması da Heydər Əliyevin adı ilə bağlıdır. Vaxtilə onun təşəbbüsü ilə yaradılmış Neft Fondu bu gün Azərbaycanda böyük işlərin görülməsi üçün çox mühüm bir mexanizm, vasitədir. Təsəvvür edək ki, əgər o vaxt Neft Fondu yaranmasaydı, indi orada yığılan pullar nə olacaqdı. İndi nə qədər vəsait var?

**Samir Şərifov:** 1 milyard 80 milyon dollar.

**İ l h a m  Ə l i y e v:** 1 milyard 80 milyon dollar. Böyük məbləğdir. Eyni zamanda, bizim valyuta ehtiyatlarımız da təxminən o qədərdir. Ona görə Neft Fondu çox mühüm qurumdur və onun fəaliyyəti də çox müsbətdir, şəffafdır. Bildiyiniz kimi, Azərbaycan dünyada hasilat sənayesində şəffaflıq təşəbbüsünə ilk qoşulan ölkələrdən biridir. Bizim bu istiqamətdə fəaliyyətimiz Azərbaycan ictimaiyyəti tərəfindən bəyənilir, beynəlxalq maliyyə qurumları bunu yüksək qiymətləndirir və dünyanın aparıcı ölkələrinin liderləri bu məsələyə dair öz müsbət fikirlərini mənə göndərdikləri məktublarda ifadə edirlər. Bunu çox müsbət hal kimi qiymətləndirirəm. Neft Fondunun əsas məqsədi vəsaiti şəffaf şəkildə saxlamaq, idarə etmək, artırmaq və lazım gələndə, Azərbaycanın qarşısında duran layihələrin həyata keçirilməsində ondan səmərəli istifadə etməkdir.

Neft Fondunun fəaliyyəti artıq yüksək səviyyədə tənzimlənir və qaçqın-köçkünlərə ayrılacaq vəsaitin həcmi də artırılacaqdır. Bütün bu qəsəbələr, yeni şəhərciklər, Biləsuvar qəsəbəsi, Aşağı Ağcakənd qəsəbəsi, indi Ağdam rayonunda tikilən qəsəbələr məhz Neft Fondunun vəsaiti hesabına tikilir. Bu bir daha onu göstərir ki, Azərbaycanda Heydər Əliyevin neft strategiyası həm layihələrin reallaşdırılması məsələlərində, həm də əldə edilmiş vəsaitin idarə olunmasında səmərəli həyata keçirilir. Əgər bu strategiya vaxtilə Heydər Əliyev tərəfindən başlanmasaydı, əgər Neft Fondu yaradılmasaydı, biz bu vəsaiti görməyəcəkdik.

Bəzi hallarda yenə eşidirik ki, neft müqavilələri, neft kəmərləri Azərbaycana nə verdi? Bunu deyənin ya ağlı yoxdur, ya da ki, o, düşmən dəyirmanına su tökməklə məşğuldur. Çünki bizim neft strategiyamızın əleyhinə çıxan qüvvələr ermənilərdir, dünyada mövcud olan erməni lobbisidir və Azərbaycanın xoşbəxt gələcəyini istəməyən qüvvələrdir, bəzi ölkələrin dairələridir. Bu gün Ermənistanla apardığımız danışıqlar prosesində müşahidə olunan müsbət meyllər həm də bizim neft strategiyamızın uğurla həyata keçirilməsindən irəli gəlir. Bunu hamı bilməlidir. Gələcəkdə bu strategiya Azərbaycana çox böyük, bundan da böyük

faydalar gətirəcəkdir. Biz hələ bu strategiyanın həyata keçirilməsinin ilkin mərhələsində yaşayırıq. Bu hələ ilkin addımlardır. Gələcəkdə Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəndən sonra Azərbaycanın iqtisadi potensialı daha da güclü olacaqdır.

**N ə b i  M u x t a r o v***(Füzuli Rayon İcra Hakimiyyətinin başçısı)***:** Zati-aliləri, hörmətli cənab Prezident!

Füzuli rayonu əhalisinin Sizə minnətdarlığını yetirərək, onların birmənalı şəkildə Sizin ətrafınızda birləşdiklərini, Sizin xəttinizi müdafiə etdiklərini, Sizə sədaqətlərini əməli işləri ilə sübut etməyə hazır olduqlarını bildirirəm.

Füzuli rayonu ərazisinin 1382 kvadratkilometri işğal olunmuşdur, 106 min əhali məcburi köçkün kimi, Bakı şəhərində və respublikanın bütün rayonlarında müvəqqəti məskunlaşmışdır.

Ulu öndərimiz Heydər Əliyevin 1993-cü ilin sonu və 1994-cü ilin əvvəlində Füzuli rayonuna gəlməsi həmin vaxt xaotik vəziyyətdə olan ordunun mütəşəkkilliyini, ruh yüksəkliyini təmin etmiş, 21 kənd və Horadiz qəsəbəsi işğaldan azad edilmişdir. 139 min hektar ərazidən 30 min hektarı işğaldan azad edilib, onun da 26 min hektarından istifadə olunur.

Ulu öndərimiz Heydər Əliyevin diqqət və qayğısına güvənən füzulililər, hətta bilavasitə cəbhə xətti yaxınlığında olan kəndlərin əhalisi də geri qayıtmağa başlamışdır. Hazırda rayonun 106 min nəfər əhalisindən 54 min nəfərə qədəri işğaldan azad olunmuş ərazidə yaşayır. Müharibədən əvvəlki statistikaya görə, həmin ərazilərdə 28 min nəfər yaşamışdır. Alxanlı, Şükürbəyli, Mirzənağılı kəndlərində əhali cəbhə xəttindən 300–500 metr məsafədə yaşayır və əkib-becərir.

İşğaldan Azad Olunmuş Ərazilərin Bərpası və Yenidən Qurulması Agentliyinin xətti ilə indiyə qədər 4 minədək ev, mənzil bərpa olunmuş, Dövlət Neft Fondunun vəsaiti hesabına 2 min evdən ibarət 10 qəsəbə, Norveç Qaçqınlar Şurası beynəlxalq humanitar təşkilatının xətti ilə 150 daş evdən ibarət olan 1 qəsəbə salınmışdır.

Bununla belə, məcburi köçkünlər özləri çiy kərpicdən, qarğıdan 7 yaşayış düşərgəsi salmışlar və faktiki olaraq orada 5 mindən çox əhali yaşayır.

İşğaldan azad edilmiş ərazidə 21 məktəb binası Avropa standartlarına uyğun təmir olunmuş və 8 yeni məktəb binası tikilmişdir. Bundan başqa, 100 çarpayılıq xəstəxana binası, doğum evi, 9 feldşer-mama məntəqəsi, mədəniyyət evi, rabitə xidməti üçün bina bərpa olunmuşdur.

İçməli və suvarma suyu, elektrik enerjisi ilə təminat müharibədən əvvəlki illərlə müqayisədə daha yaxşı səviyyəyə çatdırılmışdır.

Ağcabədidən gələn elektrikötürmə xətti Şükürbəyli yardımçı stansiyasına birləşdirilibdir. Bu, böyük yardımçı stansiyadır, Cəbrayıl, Qubadlı, Zəngilan işğaldan azad olunduqda onları elektrik enerjisi ilə təmin etmək üçün ilkin variant yaratmışdır. Ağcabədi xətti də birləşdirilib istifadəyə qoşulsa, Füzulidə fasiləsiz olaraq elektrik enerjisi təminatı həll edilir.

İşğaldan azad olunmuş ərazidə torpaq islahatı aparılaraq, 5250 ailəyə torpaq payı verilmiş, 300-dən artıq fermer təsərrüfatı yaradılmışdır. Hazırda rayonda hər il 20 min tondan artıq taxıl, 16 min tondan çox bostan-tərəvəz, 1200 ton pambıq, 2500 tondan çox kartof istehsal olunur.

Ərazidə məcburi köçkünlər 60 min başdan artıq qoyun-quzu, 20 min başdan çox qaramal saxlayırlar.

İndiyə qədər 678 iş yeri açılmışdır. 2000 başdan artıq ətlik və südlük qaramal saxlanacaq kompleksin yaradılması, 700 hektar sahədə sahibkarlar vasitəsilə üzüm bağları salmaq planlaşdırılmışdır. Bu işləri İqtisadi İnkişaf Nazirliyi ilə başa çatdıracağımız halda, əlavə olaraq 1500-dən artıq iş yeri açılacaqdır.

Geri qayıdan məcburi köçkünlərin, xüsusilə Horadiz qəsəbəsində yaşayanların sosial şəraitini yaxşılaşdırmaq üçün İranla sərhəddə keçid məntəqəsi, gömrük xidməti fəaliyyət göstərməli idi. Bu məsələ dəfələrlə gündəliyə gətirilsə də, hələ həll edilməmişdir.

Hazırda əhalinin qayıdışı davam edir, bununla əlaqədar daha 2300 evdən ibarət qəsəbələrin tikilməsi və 1000-ə qədər fərdi evin bərpası üçün Dövlətqaçqınkomla birlikdə hazırlıq işi görürük.

Mövcud problemlərdən biri Yuxarı Mil kanalının qurtaracağına yaxın hissədə 4 kilometrə yaxın məsafədə suötürmə qabiliyyəti çox aşağı olduğuna görə 635 hektar əkin sahəsinin suvarma suyu ilə təmin edilməməsidir. Bunu həll etmək üçün əlaqədar təşkilatlar qarşısında məsələ qaldırılmış, lakin vəsait olmadığından indiyədək həll edilməmiş qalmışdır.

Əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq üçün Araz çayı üzərində müharibədən əvvəl fəaliyyət göstərən keçid məntəqəsinin açılması da qarşıda duran məsələlərdəndir.

Hesablamalara görə, Yuxarı Mil kanalının Bala Bəhmənli kəndi ərazisində 200 metrdən çox yüksəklikdən sürətli axını orada 24 meqavat gücündə su elektrik stansiyası tikməyə imkan verir. Enerji qıtlığını aradan qaldırmaq üçün onun tikilməsi məqsədəuyğun olardı.

Hörmətli cənab Prezident!

Razılıq hissi ilə bildirirəm ki, Sizin gündəlik qayğınızın və diqqətinizin əməli nəticəsi olaraq, respublikada qaçqın və məcburi köçkünlərə aid hər hansı məsələnin həlli üçün Prezidentin İcra Aparatına, Nazirlər Kabinetinə və istənilən nazirliyə, komitəyə, təşkilata edilən müraciətlərə dərhal baxılır və mümkün olan bütün məsələlər həll olunur.

Hörmətli cənab Prezident!

Füzulililər Sizin qayğınızı daim hiss edirlər və buna əməli işlərlə cavab vermək üçün öz mütəşəkkilliklərini nümayiş etdirməyə həmişə hazırdırlar. Onlar qarşıdan gələn parlament seçkilərində ən layiqli namizədlərin Milli Məclisə seçilməsi üçün seçki məntəqələrinə gələrək, şəffaflıq və demokratiya şəraitində öz iradələrini sərbəst şəkildə ifadə edəcəklər.

**İ l h a m Ə l i y e v:** Füzuli rayonu əhalisinin, demək olar ki, yarısı öz ərazisində yaşayır?

**N ə b i  M u x t a r o v:** Bəli. Onların sosial şəraiti, yaşayışı digər yerlərdə olanlardan qat-qat yaxşıdır. Onlar orada əkir, becərir, maldarlıqla məşğul olur, özləri qazanıb dolanırlar.

**İ l h a m  Ə l i y e v:** Bu çox yaxşıdır. Amma əlavə nə kimi kömək lazımdır?

**N ə b i  M u x t a r o v:** Cənab Prezident, Dövlətqaçqınkomla məsələlər müəyyən mərhələyə qədər həll olunubdur. 2300 evdən ibarət qəsəbələri tiksək, oraya əlavə 10 min nəfər qayıdar.

**İ l h a m  Ə l i y e v:** 2300 ev bizim proqramda var?

**Ə l i  H ə s ə n o v:** Saatlı, Sabirabad çadır şəhərciklərinin ləğvi ilə əlaqədar planda nəzərdə tutulubdur.

**İ l h a m  Ə l i y e v:** Nəzərdə tutulub ki, Füzulidə tikilsin. Oradakılar Füzulidən olan köçkünlərdir?

**Ə l i  H ə s ə n o v:** Saatlı və Sabirabadda Füzuli və Cəbrayıldan olan köçkünlər məskunlaşıblar.

**İ l h a m  Ə l i y e v:** Yəni bu, proqramda nəzərdə tutulub?

**N ə b i  M u x t a r o v:** Bəli, 567 evdir. Fin evlərində yayda və qışda yaşamaq çətindir.

**İ l h a m  Ə l i y e v:** Elektrik enerjisi ilə təminat necədir?

**N ə b i  M u x t a r o v:** Elektrik enerjisi ilə təminat yaxşıdır.

**İ l h a m  Ə l i y e v:** Yox, yayda yaxşıdır, bəs qışda?

**N ə b i  M u x t a r o v:** Cənab Prezident, respublikada olan çətinliklə əlaqədar digər rayonlara nisbətən Füzuli rayonunun vəziyyəti yaxşıdır. Qaldırdığımız məsələlərə çox operativ münasibət göstərirlər. Yayda təchizat daha da yaxşılaşır, rayondaxili şəbəkələr və xətlər tam normal vəziyyətdədir. Elektrik enerjisi Əli Bayramlıdan və Bakıdan kəsilməsə, bu sarıdan çətinlik yoxdur. Amma müəyyən çətinliklər bizə də təsir edir.

**İ l h a m  Ə l i y e v:** Biz onları tədricən aradan qaldıracağıq. Siz su elektrik stansiyasının tikintisinə toxundunuz. Bu nə məsələdir?

**E t i b a r  P i r v e r d i y e v** *(«Azərenerji» SC-nin prezidenti)*: Cənab Prezident, 2000-ci ildən kiçik su elektrik stansiyaları özəlləşdirməyə açıldı. Yəni, o məsələ ilə «Azərenerji» məş-

ğul deyildi. Ancaq yeni su elektrik stansiyasının tikintisi məsələsini öyrənib Sizə məruzə edərik.

**İ l h a m  Ə l i y e v:** Öyrənin. Əli müəllim, Horadiz keçid məntəqəsi haqqında siz mənə demişdiniz. Mən İqtisadi İnkişaf nazirinə tapşırıq vermişdim. Orada vəziyyət niyə dəyişməz olaraq qalır? İran tərəfinin münasibəti necədir?

**F ə r h a d  Ə l i y e v** (*İqtisadi İnkişaf naziri*): Cənab Prezident, ümumiyyətlə, bununla bağlı Xarici İşlər Nazirliyi əlaqə saxlayır.

**İ l h a m  Ə l i y e v:** Əlaqə saxlamaq lazımdır. Çünki bu çox vacibdir. Hər halda, çalışmaq lazımdır ki, buna nail olaq.

Başqa narahat edən problemlər nədir?

**N ə b i  M u x t a r o v:** Cənab Prezident, insanların yaşayışı üçün ulu öndərimizin göstərdiyi qayğı Sizin tərəfinizdən davam etdirilir. Etiraf edim ki, Sizin tapşırığınızla, fərmanınızla hər dəfə verilən 30 min manat yardım orta hesabla hər bir məcburi köçkün ailəsindən bir nəfərin həmişə maaş alması deməkdir. İndi bir nəfərin ziyalı səviyyəsində maaş alması onun dolanışığını təmin edir.

Əli Həsənov, Fərhad Əliyev rayonda olublar. Füzuli rayonunda ələbaxımlılıq yoxdur və rayonumuzun yaşayış səviyyəsi normal rayonların yaşayış səviyyəsi ilə müqayisə olunan tərzdədir. Bu Sizin qayğınızın nəticəsidir. Onlar Sizin bu qayğınızı çox yüksək qiymətləndirirlər. Çox mütəşəkkildirlər. Etiraf edim ki, camaat içərisində müxalifət söhbəti çox kəskin şəkildə dəf olunur.

**İ l h a m  Ə l i y e v:** Biz plastik kartlara nə vaxt keçəcəyik? «Kapital Bank»ın idarə heyətinin sədri buradadır. Gərək biz bu müavinətləri plastik kartlar vasitəsilə ödəyək ki, xoşagəlməz halların qarşısını alaq.

**R a u f  R z a y e v** (*«Kapital Bank»ın sədri*): Cənab Prezident, 28 rayonda infrastruktur tam yaranmışdır, yəni orada bankomatlar quraşdırılıbdır.

**İ l h a m  Ə l i y e v:** Qaçqınlar-köçkünlər ondan necə istifadə etsinlər? Orada bankomatı harada quraşdıracaqsınız?

**R a u f  R z a y e v:** Bu günə kimi sifariş əsasında həmin 28 rayona plastik kartlar verə bilərik, yəni dövlət tərəfindən ayrılan vəsaitləri plastik kart vasitəsilə verə bilərik.

**İ l h a m  Ə l i y e v:** Bu verilir?

**Ə l i  H ə s ə n o v:** Cənab Prezident, 7 dollar hesabı ilə bu xərc 1 milyon dollar edir. Bu barədə Maliyyə Nazirliyinə məktub göndərmişəm. Maliyyə Nazirliyi araşdırır ki, bunu necə etsin.

**İ l h a m  Ə l i y e v:** 7 dollar haradandır?

**R a u f  R z a y e v:** Kartın maya dəyəri 5 dollar 60 sentdir. Digər xərclər də var.

**İ l h a m  Ə l i y e v:** Bu, böyük məbləğ deyil, hökumət onu ödəyə bilər. Əsas odur ki, bu proses başlasın.

**Ə l i  H ə s ə n o v:** Onlar başlaya bilərlər.

**İ l h a m  Ə l i y e v:** Başlayın, biz o vəsaiti ödəyərik, tezliklə başlamaq lazımdır.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Mahmud Quliyevə söz verilir.

**M a h m u d  Q u l i y e v:** Möhtərəm Cənab Prezident!

Ümummilli liderimiz Heydər Əliyev Biləsuvar rayonunun 5 çadır düşərgəsində məskunlaşmış 20 min nəfərə yaxın məcburi köçkünlərimizlə Sizinlə birlikdə 1998-ci ilin oktyabr ayında görüşərkən bildirmişdi ki, ölkənin iqtisadi imkanları yarandıqca onların sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görüləcəkdir. Bunun nəticəsi olaraq, həmin çadırların ləğvi ilə bağlı məlum fərmanı imzaladı. Fərman imzalandıqdan 12 gün sonra başlayan leysan yağışları nəticəsində yaranmış fəlakəti aradan qaldırmaq üçün ulu öndərimiz istirahət günü olmasına baxmayaraq, gecəyarısına qədər iş yerindən getmədi, ətraf rayonları, dövlət qurumlarını və humanitar təşkilatları səfərbər etdi, acınacaqlı vəziyyəti aradan qaldırdı. Ümummilli liderimizin qəti göstərişinə əsasən, yeni qəsəbələr vaxtından 1 il 4 ay əvvəl tikilərək məcburi köçkünlərin istifadəsinə verildi. Beləliklə, o dahi insanın neft strategiyasından ilk bəhrələnənlər məhz məcburi köçkünlər oldular.

Cənab Prezident!

Biz çox həsrətlə gözləyirdik ki, ulu öndərimiz memarı olduğu yeni qəsəbələrin açılışında özü iştirak etsin. Ancaq təəssüflər olsun ki, tale bu xoş məramı nə ulu öndərimizə, nə də onu həsrətlə gözləyən biz köçkünlərə qismət etdi. Lakin biz bununla təsəlli tapdıq ki, həmin qəsəbələrin açılışında ulu öndərimizin siyasi xəttinin ən layiqli davamçısı, həmin dövrdə ölkə prezidentliyinə namizəd kimi, şəxsən Siz iştirak etdiniz və seçicilərlə ilk görüşünüzü də buradan başladınız. Bu görüş bizim üçün yüksək diqqət və qayğının bir nümunəsi olmaqla bərabər, həm də Sizin üçün seçkiqabağı sayalı görüşlərin başlanğıcı oldu. Sizə bildirmək istəyirəm ki, qəsəbələrdəki cəbrayıllı seçicilər verdikləri sözə şərəflə əməl edərək, 96 faiz Sizi dəstəklədilər, hətta oradakı müxalifət də Sizə səs verdi.

12 minə yaxın məcburi köçkünün məskunlaşdığı həmin qəsəbələrdə hazırda sağlam əhval-ruhiyyə vardır. Onlar öz problemlərinin həlli ilə məşğuldurlar. Həmin qəsəbələrdə istifadəyə verilmiş sosial obyektlərin, idarə və müəssisələrin fəaliyyətinin bərpa edilməsi hesabına 700-dən çox iş yerləri açılmışdır. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun mikrokreditləri hesabına çörək sexləri, xırda fermer təsərrüfatları və bir sıra obyektlər yaradılması nəticəsində 300 nəfərdən çox cəbrayıllı köçkün işlə təmin edilmişdir.

Hazırda əhalimizin şəxsi təsərrüfatlarında 92 min başdan çox davar, 8500 başdan çox qaramal, 100 min başdan çox ev quşları və 500 başadək dəvə saxlanılır.

Muğan qışlaqlarında hələ 1906-cı ildə çəkilmiş, lakin yararsız vəziyyətə düşdüyündən istismar edilməyən 28 kilometr uzunluğunda suvarma kanalı bərpa olunaraq istifadəyə verilmişdir.

Cənab Prezident!

Sizə hesabat verərək bildirirəm ki, bu işlər Sizin 600 mindən çox yeni iş yeri açılacağı barədə vədinizin yerinə yetirilməsinin əyani təzahürüdür. Hazırda bu işlər sürətlə davam etdirilir. Qəsəbələrdə məskunlaşmış 2560 ailənin hər birinə 0,12 hektar hə-

yətyanı sahə, 0,60 hektar pay torpaqlarının verilməsi və hər ailəyə 1 milyon manat əvəzsiz maliyyə yardımı edilməsi nəticəsində əhalinin ərzağa olan tələbatı ödənilir. Kənd rayonlarında yeni iş yerlərinin açılması deyəndə, biz hesab edirik ki, kəndli üçün əsas iş yeri torpağın becərilməsi, onun şəxsi təsərrüfatının inkişaf etdirilməsidir. Bu baxımdan həmin qəsəbədə yaşayan əhalinin 5000 nəfərdən çoxu yeni iş yerləri ilə təmin edilmiş hesab olunur. Qəsəbədə bir qarış da əkin sahəsi boş qalmadığından, hər hektardan 50–60 sentner hesabı ilə 6000 tondan çox taxıl məhsulu götürüləcəyi gözlənilir.

Lakin biz xahiş etmək istəyirik ki, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən məcburi köçkünlərə iri istehsal sahələri, fermer təsərrüfatı yaratmaq üçün kredit yarmarkalarının biri bilavasitə həmin qəsəbələrdə keçirilsin. Heç bir əmlakı olmayan məcburi köçkünlərin girov qoymaq qaydalarında güzəştə getsinlər. Torpağa bağlı insanların kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olmaları üçün əvəzsiz texnika verilməsinə ciddi ehtiyac vardır. Cənab Prezident, məcburi köçkünlər adından Sizə minnətdarlığımızı bildiririk ki, müşavirənin gedişində bu məsələnin həlli üçün lazımi göstəriş verdiniz.

Qəsəbə sakinlərinin hamısı cəbrayıllı məcburi köçkün olduğundan, bütün xidmətlər Cəbrayil rayonunun təşkilatları tərəfindən göstərilir və bu, müsbət nəticəsini verir. Yalnız icra nümayəndəlikləri Biləsuvar rayonuna aiddir. Maliyyə Nazirliyinə etdiyimiz bütün müraciətlər öz müsbət həllini tapır, lakin icra nümayəndəliklərinin Cəbrayıl rayon büdcəsində nəzərə alınması üçün Sizin razılığınız lazımdır.

Ulu öndərimizə ehtiram əlaməti olaraq, bizim təşəbbüsümüzlə, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin maliyyə dəstəyi ilə ümummilli liderimizin adını daşıyan mədəniyyət və istirahət parkı salınmışdır və o, məcburi köçkünlərimizin ən müqəddəs saydıqları yerlərdən birinə çevrilmişdir. Qəsəbədə yeni ailə quranlar ilk növbədə oranı ziyarət edirlər.

Möhtərəm cənab Prezident!

Bu ilin ən mühüm siyasi kampaniyası növbəti parlament seçkiləridir. Sizin sərəncamınıza uyğun olaraq, seçicilərin öz iradələrini şəffaf, demokratik şəkildə ifadə etmələrinə şərait yaradılacaq və onlar öz layiq bildikləri namizədlərə səs verəcəklər.

Cənab Prezident, respublikanın 58 şəhər və rayonunun 2000 yaşayış məntəqəsində məskunlaşmış 60 mindən çox cəbrayıllı məcburi köçkünün ümumi fikrini ifadə edərək bildirirəm ki, bütün cəbrayıllılar ulu öndərimizin ideyalarına və onun siyasi xəttinin layiqli davamçısı olan Sizə həmişə sadiqdirlər. Sizin yeritdiyiniz daxili və xarici siyasəti dəstəkləyir və müdafiə edirlər. Bütün cəbrayıllılar inanırlar ki, Sizin apardığınız uğurlu siyasət nəticəsində torpaqlarımız düşmən tapdağından azad ediləcək, bütün məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıdacaq və özünüzün dediyiniz kimi, Siz Cəbrayıla qonaq gələcəksiniz.

Diqqətinizə görə çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Kredit yarmarkasının keçirilməsi ilə bağlı planlarınız varmı?

**F ə r h a d Ə l i y e v:** Cənab Prezident, sərhəd bölgələrində keçiririk.

**İ l h a m Ə l i y e v:** Bilirəm, Ağdamda, Füzulidə keçirmisiniz. Amma yaxın zamanlarda bu qəsəbədə də keçirin. Çalışın keçirin ki, orada da imkanlar yaransın.

**F ə r h a d Ə l i y e v:** Cənab Prezident, bir problem var, icra hakimiyyətinin başçısı da o məsələyə toxundu. Rayonlarda girovqoyma problemi var. Çünki rayonda olan adamın girovu onun torpağıdır, yaxud evidir. Rayondakı adam evini daha baha qiymətləndirir, bank isə onun bu şərtini qəbul etmir. Bank özəldir, krediti istehsala verməlidir. Torpağın qiyməti bugünkü bazar qiyməti ilə uyğun deyildir. Bu, bazara uyğunlaşmalıdır. Onda bank buna kredit verir, torpağı girov götürür. Amma girovsuz kredit verilməsi problemdir.

**İ l h a m Ə l i y e v:** Bunu tənzimləmək lazımdır. Hesab edirəm ki, burada gərək bazar prinsipləri əsas götürülsün. Biz indi bazar iqtisadiyyatı əsasında yaşayırıq. Hər şeyin qiyməti

var. Gərək qiymət reallığı da əks etdirsin. Uyğunsuzluğu aradan götürmək lazımdır.

**F ə r h a d   Ə l i y e v:** Bu uyğunsuzluq aradan götürülsə, kreditlərin verilməsi də asanlaşar, banklar kreditləri daha rahat verə bilərlər. Əslində onda kredit girovsuz yox, girovla olacaq, mülkiyyətə uyğun girov götürüləcək, kredit veriləcəkdir.

**İ l h a m   Ə l i y e v:** Kiminsə başqa sözü var?! Yoxdur.

## YEKUN NİTQİ

Faydalı müzakirə aparıldı, bu günə qədər görülmüş işlər haqqında məlumat verildi. Ən önəmlisi odur ki, həm mövcud problemlər diqqətə çatdırıldı, həm də gələcək planlar haqqında fikir mübadiləsi apardıq.

Burada qaldırılmış bütün məsələləri biz operativ qaydada həll edəcəyik. Yenə də demək istəyirəm ki, Dövlət Proqramında hər şeyi nəzərdə tutmaq mümkün deyildir. Ancaq biz bu məsələləri operativ qaydada həll etməliyik. Lazımi vəsait də ayrılacaqdır. Bu gün Azərbaycan iqtisadiyyatı elə sürətlə inkişaf edir ki, bizdə maliyyə qıtlığı yoxdur, əksinə, əlavə vəsaitlər yaranıbdır. Əlbəttə ki, ilk növbədə, bu vəsaiti Azərbaycanda ən çətin, ən ağır şəraitdə yaşayan insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəltməliyik.

Bütün məsələlər öz həllini tapacaq və hesab edirəm ki, bu müşavirənin yaxşı təsiri olacaqdır. Bundan sonra da bütün məsələlər gərək operativ qaydada öz həllini tapsın. Əgər əlavə vəsaitə ehtiyac olarsa, biz bunu təmin edəcəyik.

2006-cı ilin büdcəsi 2005-ci illə müqayisədə daha da böyük olacaqdır. Bizim imkanlarımız artır, iqtisadiyyatımız inkişaf edir, ümumi daxili məhsul təxminən 18–20 faiz artacaqdır. Ancaq 2006-cı ilə qədər əgər əlavə məsələlər ortaya çıxsa, biz onu da operativ həll etməliyik.

Biz bu gün daha çox iqtisadi, sosial məsələlərə toxunduq. Bu da təbiidir. Çünki hər şey iqtisadiyyatdan asılıdır. Hər bir dövlə-

tin gücü onun iqtisadi potensialından asılıdır. Məhz buna görə biz bu məsələyə çox ciddi diqqət göstəririk. Həm regionlarda gedən abadlıq, quruculuq işləri, yeni iş yerlərinin açılması, həm də Azərbaycanda iqtisadi islahatların davam etdirilməsi istiqamətində mühüm addımlar atılır. Ancaq eyni zamanda, biz humanitar məsələləri də yaddan çıxarmamalıyıq. Bu sahəyə də çox ciddi diqqət göstərilməlidir. Xüsusilə təhsil, səhiyyə məsələlərinə və bu sahələrdə olan problemlər öz həllini tapmalıdır. Xüsusilə təhsil sahəsində. Çünki bizim uşaqlarımız gərək yaxşı, təmir olunmuş məktəblərdə oxusunlar. O cümlədən səhiyyə ocaqlarının təmiri də nəzərdə tutulmalıdır. Biz gərək bu məsələlərə də həmişə diqqət yetirək.

Yeni salınmış qəsəbələrdə bu öz əksini tapır. Bu stenddə də bunu görürük. Ən müasir avadanlıqla təchiz olunmuş tibb məntəqələri və məktəblər. Əlbəttə, indi yeni tikiləcək qəsəbələr də buna bənzər səviyyədə olacaqdır. Ancaq bu bizim ümumi problemimizdir.

Bu günə qədər Azərbaycanın iqtisadi inkişafı, iqtisadi potensialı bizə imkan vermirdi ki, bu sahələrdə olan problemləri həll edək. Avadanlıq köhnəlib, uzun illər təmirsiz qalıbdır. Müstəqillik əldə olunandan sonra ilk illərdə Azərbaycanın iqtisadi vəziyyəti bizim hamımıza tanışdır və bəllidir. Ancaq son illərdə iqtisadi potensial gücləndikcə, bizim imkanlarımız daha da genişlənir. İlk növbədə, yeni yaranmış imkanları biz gərək əhalini daha çox narahat edən sahələrə, insanların sıx ünsiyyətdə olduğu sahələrə yönəldək.

Humanitar sahələrə böyük diqqət göstərilməlidir. Bu ilin büdcəsində bu sahəyə ayrılan xərclər çox böyük həcmdə artıbdır. Amma bu bizi yenə də qane etmir. Əminəm ki, gələn ildən bizim iqtisadi potensialımız gücləndikcə, daha da böyük imkanlar yaranacaqdır.

Mən bütövlükdə razıyam ki, bu müşavirə çox işgüzar, səmərəli şəkildə aparıldı, göstərişlər verildi və əsas məsələ mövcud olan problemlərin həllində daha da fəal olmaqdan ibarətdir. Mən bu məsələni daim diqqətdə saxlayıram və maraqlanıram.

Dövlətqaçqınkomun rəhbəri Əli Həsənovla da əlaqə saxlayıram. Mənə bütün məlumatları verir, məruzələr edir. Bu, gələcəkdə də belə olacaqdır. Bütün dövlət qurumları, dövlət şirkətləri bu məsələyə diqqətlərini əsirgəməməlidirlər. Bilməlidirlər ki, bu bizim üçün ən vacib, ən əsas məsələdir.

Mən bir daha demək istəyirəm, heç şübhə etmirəm ki, bizim doğma torpaqlarımız işğalçı qüvvələrdən azad olunacaq, soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və Azərbaycan vətəndaşları rahat, firavan həyat yaşayacaqlar.

Sağ olun!

## RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ DMİTRİ MEDVEDYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 iyun 2005-ci il*

*Ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini bildirən Azərbaycan prezidenti İlham Əliyev Sankt-Peterburqda keçirilən Beynəlxalq iqtisadi forumda Rusiya prezidenti Vladimir Putinlə görüşünü məmnunluqla xatırladı.*

*Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələrdə, xüsusən iqtisadi sahədə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev ticarət dövriyyəsinin sürətlə artmasını ölkələrimizin əməkdaşlığının yaxşı nümunəsi kimi dəyərləndirdi.*

*Dövlətimizin başçısı bu il Rusiyada Azərbaycan ilinin, gələn il isə Azərbaycanda Rusiya ilinin keçirilməsinin xalqlarımız arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əmin olduğunu vurğuladı.*

*Cənab Dmitri Medvedyev prezidenti Vladimir Putinin səmimi salamlarını prezident İlham Əliyevə çatdırdı. O, 9-cu Peterburq Beynəlxalq iqtisadi forumunda Azərbaycan prezidenti İlham Əliyevin nitqinin iştirakçılar arasında böyük təəssürat doğurduğunu söylədi.*

*Azərbaycanda bütün sahələrdə, o cümlədən iqtisadi sahədə gedən sürətli inkişafı məmnunluqla vurğulayan qonaq əmin olduğunu bildirdi ki, ölkələrimiz arasında əlaqələr bundan sonra da möhkəmlənəcəkdir.*

*Səmimi salamlara görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da səmimi salamlarını prezident Vladimir Putinə çatdırmağı xahiş etdi.*

## GÜRCÜSTANIN MALİYYƏ NAZİRİ VALERİ ÇEÇELAŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdiyini, o cümlədən iqtisadi əməkdaşlığın genişləndiyini bildirdi. Kiyevə son səfəri zamanı Gürcüstan prezidenti Mixeil Saakaşvili ilə görüşünü məmnunluqla xatırladan prezident İlham Əliyev Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri kimi qlobal enerji layihələrinin həyata keçirilməsində ölkələrimizin əməkdaşlığını xüsusi vurğuladı.*

*Prezident İlham Əliyev ölkələrimizin regional kontekstdə, beynəlxalq təşkilatlar, o cümlədən GUAM çərçivəsində uğurlu əməkdaşlıq etdiyini söylədi və əmin olduğunu bildirdi ki, bu işbirliyi gələcəkdə də daim inkişaf edəcəkdir.*

*Vaxt ayırıb onu qəbul etdiyinə görə minnətdarlıq edən qonaq Azərbaycan ilə Gürcüstan arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdiyini bildirdi və qlobal enerji layihələrinin həyata keçirilməsini bunun uğurlu nümunəsi kimi səciyyələndirdi. Valeri Çeçelaşvili dedi ki, bu əməkdaşlığın təkcə iki ölkə üçün yox, bütün regiondan ötrü böyük əhəmiyyəti vardır. Həmin layihələrin həyata keçirilməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin nəticəsidir və bu gün mən dahi şəxsiyyətin məzarını ehtiramla ziyarət etmişəm. Gürcüstan naziri bildirdi ki, hazırda Tbilisidəki Heydər Əliyev parkının yüksək səviyyədə abadlaşdırılması üçün konkret işlər görülür.*

*Valeri Çeçelaşvili dost və qardaş ölkələrimiz arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduğunu söylədi.*

## NATO BAŞ KATİBİNİN MÜAVİNİ CON KOLSTON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 iyun 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer ilə Brüsseldə və Bakıda keçirdiyi görüşləri məmnunluqla xatırladı, onun səmimi salamlarını Baş katibə çatdırmağı xahiş etdi.*

*Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev dedi ki, ölkəmizin «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı»nı təqdim etməsi əlaqələrimizi yeni mərhələyə qaldırmışdır.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Avratlantik strukturlarına inteqrasiya siyasətinə sadiqdir və «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı» NATO ilə Azərbaycanı bir-birinə daha da yaxınlaşdıracaqdır. Biz NATO-nun ölkəmizə eyni münasibət bəsləməsindən məmnunuq. Azərbaycan dünyanın müxtəlif bölgələrindəki sülhməramlı əməliyyatların fəal iştirakçısıdır və NATO-nun etibarlı tərəfdaşıdır. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan ilə NATO arasında əməkdaşlıq bundan sonra da genişlənəcəkdir.*

*Prezident İlham Əliyev ilə görüşdən şərəf duyduğunu söyləyən cənab Con Kolston Azərbaycan ilə NATO arasında əlaqələrin daim genişləndiyini nəzərə çatdırdı. O bildirdi ki, Azərbaycanın «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı»nı təqdim etməsi NATO ilə əlaqələrin gələcəkdə daha da yüksək səviyyədə həyata keçirilməsinə xidmət edəcəkdir.*

*Qonaq dedi ki, NATO dünyanın müxtəlif bölgələrindəki sülhməramlı əməliyyatlarda Azərbaycanın fəal iştirakını yüksək qiymətləndirir. NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında Azərbaycanın fəal iştirak etdiyini söyləyən qonaq bildirdi ki, Bakıda keçirilən və Avratlantik Tərəfdaşlıq Şurası çərçivəsində sərhəd təhlükəsizliyi məsələlərinə həsr olunmuş seminar bunun yaxşı nümunəsidir.*

*Cənab Con Kolston qeyd etdi ki, ölkəmizin «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı»nı təqdim etməsi bir daha sübut edir ki, prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan hökuməti NATO ilə yaxın əməkdaşlıq sahəsində real işlər görür və tədbirlər həyata keçirir. O, əmin olduğunu bildirdi ki, Azərbaycan– NATO əlaqələri bundan sonra daha da genişləcəkdir.*

**KANADANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB POL MARTİNƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Kanada günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Ümidvar olduğumu bildirirəm ki, Azərbaycan ilə Kanada arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da qarşılıqlı mənafelərimizə uyğun şəkildə inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza xoşbəxtlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2005-ci il*

**KANADANIN GENERAL-QUBERNATORU**
**ZATİ-ALİLƏRİ**
**XANIM EDRİEN KLARKSONA**

Hörmətli xanım general-qubernator!

Kanadanın milli bayramı – Kanada günü münasibətilə Sizi və Sizin simanızda bütün Kanada xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında mövcud əlaqələri hərtərəfli inkişaf etdirmək istiqamətindəki addımlarımız xalqlarımızın rifahına yeni-yeni töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost ölkənizə sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2005-ci il*

# HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNİN NÖVBƏTİ BURAXILIŞI MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*25 iyun 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmək üçün məktəbə gəldi.*

*Dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Müdafiə naziri general-polkovnik Səfər Əbiyev və fəxri qarovul dəstəsinin rəisi Ali Baş Komandana raport verdilər.*

*Mərasimdən əvvəl dövlətimizin başçısı Azərbaycanın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə əklil qoydu.*

*Azərbaycan prezidenti İlham Əliyev sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbin növbəti buraxılışı münasibətilə mərasimin keçirildiyi stadiona gəldi. Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Ali Hərbi Məktəbin rəisi general-mayor Heydər Piriyev Ali Baş Komandana raport verərək, şəxsi heyətin buraxılış mərasimi münasibətilə düzüldüyünü bildirdi.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev məzunları «Salam, gənc zabitlər!» sözləri ilə salamladı.*

*Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin və ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

*Müdafiə Nazirliyinin nümunəvi orkestrinin və kursantların ifasında Azərbaycanın dövlət himni əzəmətlə səsləndi.*

*Mərasimi Müdafiə naziri general-polkovnik Səfər Əbiyev açdı.*

**İ l h a m Ə l i y e v:** Əziz kursantlar, zabitlər, generallar!

Əziz məzunlar!

Hörmətli xanımlar və cənablar!

Sizi qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan Milli Ordusuna, Silahlı Qüvvələrinə, ordumuzun bütün şəxsi heyətinə uğurlar arzulayıram.

Bu gün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışıdır. Bu münasibətlə bütün məzunları təbrik edirəm.

Bu məktəb ulu öndər Heydər Əliyevin adını daşıyır. Heydər Əliyevin bütün fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən ibarət olmuşdur. Ümummilli liderimiz Azərbaycan xalqının daha da yaxşı yaşamasını təmin etmək, doğma Azərbaycanı inkişaf etdirmək üçün bütün dövrlərdə böyük səylər göstərmişdir. O cümlədən, ordu quruculuğu istiqamətində də böyük işlər görülmüşdür. Hələ 1970-ci illərdə, Azərbaycan Sovet İttifaqı tərkibində bir respublika kimi yaşayan bir dövrdə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış orta məktəbin yaradılması məhz Heydər Əliyevin təşəbbüsü ilə mümkün olmuşdur. Sanki o bilirdi, hiss edirdi ki, bir gün Azərbaycan müstəqil dövlət olacaq və müstəqil dövlət üçün hazırlıqlı, peşəkar hərbi kadrlar lazım olacaqdır.

O illər bütün istiqamətlərdə müasir bilikli kadrların hazırlanması prosesi sürətlə gedirdi. Azərbaycan gəncləri üçün Sovet İttifaqının aparıcı ali məktəblərinə çoxlu yer ayrılırdı. Həmin bu güclü kadr potensialı indi Azərbaycanın müstəqilliyinə, Azərbaycanın inkişafına xidmət edir. O cümlədən, ordumuzda xidmət edən şəxslərin o illər Naxçıvanski adına məktəbdə təhsil almaları onların fəaliyyəti və xidməti üçün böyük dəstək idi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda ordu quruculuğu prosesi başlanmışdır. Hamımız bilirik ki, ilk illərdə bu proses çox ağır, çətin gedirdi.

Ümumiyyətlə, müstəqillik bərpa olunduqdan sonra Azərbaycanda vəziyyət çox ağır idi və əlbəttə, bu, orduda gedən proseslərə də öz mənfi təsirini göstərirdi. Faktiki olaraq ordumuz çox zəif idi.

Yalnız Heydər Əliyev hakimiyyətə qayıdandan sonra ordu quruculuğu istiqamətində böyük işlər görülməyə başladı, nizamlı ordu yarandı və bu gün o, ən yüksək standartlara cavab verir, qarşıda duran bütün vəzifələri həll edə bilir. Azərbaycanı ağır vəziyyətdən qurtarmaq, ölkədə xaosun, böhranın, vətəndaş müharibəsinin qarşısını almaq, ölkəmizi inkişaf yoluna çıxarmaq xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidməti idi.

Bu gün Azərbaycan inamla inkişaf edir, bölgədə aparıcı dövlətdir. Bütün parametrlərə görə ölkəmiz ən qabaqcıl yerlərdədir. Bunun təməli, əsası məhz 1990-cı illərin ortalarında qoyulmuşdur. İndi bu siyasət davam etdirilir. Azərbaycan inamla inkişaf edir və ordu quruculuğu istiqamətində də böyük işlər görülübdür. Biz bu siyasətə sadiqik və mən prezident seçkiləri ərəfəsindəki çıxışlarımda bunu bəyan etmişdim. Bu gün çox şadam ki, nəzərdə tutulmuş bütün planlar həyatda öz əksini tapır, ordumuz güclənir və qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir.

Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən Azərbaycan üçün. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan hələ də müharibə şəraitində yaşayır, orduya diqqət daim yüksək səviyyədə olmalıdır. Azərbaycanın inkişafı, bölgədəki mövqeyi bizə imkan verir ki, ölkəmizi hərtərəfli inkişaf etdirək və xalqımızın həyat səviyyəsini yaxşılaşdıraq.

Azərbaycanın qarşısında gələcəkdə ciddi problem görmürəm. Ölkə iqtisadiyyatı yüksək sürətlə inkişaf edir. Bu il artım təxminən 18–20 faiz təşkil edəcəkdir. Ölkədə gedən proseslər əhalinin həyat səviyyəsinin yaxşılaşmasına kömək göstərir. Re-

gionların inkişafı proqramı uğurla icra edilir və son il yarım ərzində 220 minə qədər yeni iş yeri açılıbdır. Əmək haqları qaldırılır. Son müddət ərzində minimum əməkhaqqı 3 dəfə qaldırılmışdır.

Azərbaycan öz xarici siyasətini xalqımızın milli maraqlarına uyğun şəkildə həyata keçirir və bu xarici siyasət uğurludur. Bizim bütün qonşularla çox səmərəli, qarşılıqlı surətdə faydalı əlaqələrimiz var. Beynəlxalq təşkilatlarda Azərbaycanın nüfuzu və rolu artır. Yəni bir sözlə, ölkəmizin gələcəkdə üzləşəcəyi problemlər ciddi deyildir. Ən ağrılı, ən ciddi problem torpaqlarımızın işğal altında qalmasıdır, Ermənistanın Azərbaycana etdiyi təcavüz və onun nəticələridir.

Biz çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək. Bilirsiniz ki, danışıqlar gedir və biz ümidliyik ki, danışıqlar məsələnin ədalətli həllinə gətirib çıxaracaq, beynəlxalq hüquq normalarına əsaslanmış sülh müqaviləsi bağlanacaq və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Başqa cür ola da bilməz. Biz başqa mövqeni qəbul etmirik. Öz mövqeyimizdə möhkəm dayanmışıq və geri bir addım da atmaq fikrində deyilik. Çünki bizim mövqeyimiz beynəlxalq hüquqa əsaslanır. Beynəlxalq hüquq da tələb edir ki, hər bir ölkənin ərazi bütövlüyü toxunulmaz olsun, pozulmuş hallarda ərazi bütövlüyü bərpa olunsun.

Azərbaycan siyasi məsələlərdə də artıq üstün mövqe əldə edibdir, müxtəlif mötəbər, beynəlxalq təşkilatlarda bu məsələyə ədalətli yanaşma müşahidə olunur. Qəbul edilmiş qətnamələr, qərarlar deməyə əsas verir ki, beynəlxalq ictimaiyyət bu məsələyə ciddi yanaşmağa başlayır. Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında, İslam Konfransı Təşkilatında, digər təşkilatlarda bu məsələ daim müzakirə olunur və Azərbaycanın ədalətli mövqeyi başa düşülür.

Biz diplomatik səylərimizi bundan sonra da davam etdirəcəyik. O cümlədən siyasi fəaliyyətimizi davam etdirəcəyik. Biz istəyirik ki, bu məsələ sülh yolu ilə, danışıqlar yolu ilə öz həllini tapsın. Bəzi hallarda güzəştlərdən söhbət açılır. Hesab edirəm ki, uzun illər ərzində bizim sülh danışıqlarına sadiq olmağımız

Azərbaycan tərəfindən edilən böyük güzəştdir. Biz çalışırıq və çalışacağıq ki, bütün imkanlardan istifadə edib Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olaq, Azərbaycanın ərazi bütövlüyünü bərpa edək və qaçqın-köçkün vəziyyətində yaşayan soydaşlarımız öz doğma torpaqlarına qayıtsınlar. Amma eyni zamanda, bütün diplomatik və siyasi səylərlə yanaşı, biz onu da gözəl bilirik ki, ölkə güclü olmalıdır. Ölkənin güclü potensialı olmalıdır ki, qarşıda duran vəzifələri həll edə bilsin və bölgədə öz nüfuzunu daha da möhkəmləndirə bilsin. Məhz bu istiqamətdə də bizim siyasətimiz çox ardıcıldır və artıq gözəl nəticələr verməkdədir.

Mən prezident seçiləndən sonra dəfələrlə bəyan etmişdim ki, qarşıda duran mühüm vəzifələrdən biri iqtisadiyyatı gücləndirmək və ordu potensialını gücləndirməkdir. Bu məsələlər bir-biri ilə sıx bağlıdır. Bu gün biz hamımız görürük ki, bu, sadəcə, bəyanatlar deyil, biz əməli-praktiki işlərimizlə buna nail olmuşuq və nail olacağıq. Azərbaycanın iqtisadiyyatı çox sürətlə inkişaf edir, möhkəmlənir. Beynəlxalq maliyyə qurumları ilə əlaqələrimiz genişlənir.

Biz bu yaxınlarda bölgədə və dünyada analoqu olmayan, dünyanın ən böyük enerji layihəsi olan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılışını qeyd etmişik. Bu kəmərin Azərbaycana böyük faydalar gətirəcəyi heç kimdə şübhə doğurmur. Azərbaycan öz iqtisadi potensialını müxtəlif istiqamətlərdə möhkəmləndirir. Həm makroiqtisadi sabitlik mövcuddur, həm də regionların inkişafı proqramı uğurla icra edilir və Azərbaycanın iqtisadi imkanları ildən-ilə artır.

2005-ci ilin büdcəsi 2004-cü ilin büdcəsi ilə müqayisədə 35 faiz artıbdır. O cümlədən, ordu quruculuğu və ordunun potensialının güclənməsi bizim üçün prioritet məsələdir və buna da böyük diqqət göstəririk. Bu sahədə də bizim bəyanatlarımız və əməllərimiz sübut edir ki, uğurlar əldə olunubdur.

2003-cü ildə Azərbaycanda müdafiə xərclərinə 135 milyon dollar, 2004-cü ildə 175 milyon dollar sərf olunubdur. 2005-ci ildə isə 300 milyon dollar ayrılmışdır. Müdafiə xərcləri bir ildə

70 faiz artıbdır. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik. Bilirsiniz ki, bu yaxınlarda mənim tərəfimdən Milli Məclisə göndərilmiş məktuba əsasən hərbi xərclərdə düzəliş edildi. Bunun da səbəbi odur ki, Rusiyanın hərbi bazası Gürcüstandan Ermənistana köçürülür. Düzdür, bu hərbi texnika Ermənistana verilmir, Rusiyanın hərbi bazasında saxlanılacaqdır. Amma onu da bilirik ki, bu, Ermənistan ərazisinə köçürülür. Ona görə adekvat addımların atılması zəruri idi. Biz bunu dərhal atdıq və hərbi xərclərimizi artırdıq. Gələcəkdə bu xərclər daha da artacaq, Azərbaycanın iqtisadi potensialı gücləndikcə Azərbaycanın qarşısında duran bütün məsələlər öz həllini tapacaqdır. Bizim üçün ən önəmli olan məsələnin – Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycanın ordusu güclü olmalıdır.

Bu gün Azərbaycanın ordusu Cənubi Qafqazda ən güclü ordudur. Biz bu hərbi üstünlüyü əldə etmişik və gərək bunu möhkəmləndirək. Bu üstünlük daha da böyük olmalıdır və biz buna da nail olacağıq. Gələn ilin hərbi büdcəsində yeni artımlar nəzərdə tutulub və bütün məsələlər öz həllini tapacaqdır. Bir sözlə, bu münaqişəni həll etmək üçün, işğala son qoymaq üçün həm siyasi-diplomatik səylər göstərilməlidir, həm də düşmən bilməlidir ki, Azərbaycan ordusu istənilən vaxtda öz doğma torpaqlarını azad edə bilər və lazım olan vaxtda bütün gücümüzü səfərbər edərək biz buna nail olacağıq.

Ordunun bütün məsələləri müntəzəm qaydada həll edilir. Mən bunu daim diqqət mərkəzində saxlayıram. Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi, bu mənim borcumdur. Mən bundan sonra da orduya böyük diqqətlə, böyük qayğı ilə yanaşacağam.

Çox sevinirəm ki, orduda hazırlıq səviyyəsi artır. Mənim müxtəlif hərbi hissələrə səfərlərim göstərir ki, hazırlıq yüksək səviyyədədir. Mən bunu şəxsən özüm görürəm, vəziyyətlə özüm tanış oluram və bu, gələcəkdə də davam edəcəkdir.

Biz orduda qulluq edən insanların sosial məsələlərinə də daim diqqətlə yanaşırıq. Bu istiqamətdə də lazımi addımlar atılır.

Ümumiyyətlə, Azərbaycanda sosial sahəyə böyük diqqət göstərilir. Bizim əsas vəzifəmiz odur ki, Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşasın. Bu məqsədlə maaşlar qaldırılır, təqaüdlər qaldırılır, o cümlədən, keçən il hərbçilərin maaşları da qaldırılmışdır.

Artıq gözəl bir ənənə yaranıb – Silahlı Qüvvələr Günü ərəfəsində orduda yüksək nəticələr göstərmiş, xidmət göstərmiş zabitlərə mükafat kimi, mənzillər təqdim olunur. Biz keçən il də bunu etdik, bu gün də edəcəyik. Eyni zamanda, bu gün burada Azərbaycan iqtisadiyyatının inkişafının təzahürü olan, maliyyə imkanlarımızın artımını göstərən hərbi texnikanın nümayişi də nəzərdə tutulubdur. Azərbaycan hərbi texnikanın alınmasını davam etdirir. Biz bunu bundan sonra da edəcəyik. Müasir avadanlıq, silah, sursat alınır, o cümlədən yeni döyüş təyyarələri, vertolyotlar alınır və bu gün hərbçilərimiz burada öz məharətini göstərəcəklər.

Mən hesab edirəm ki, Azərbaycan ordusunun inkişafı çox sürətlə gedir. Bizim beynəlxalq təşkilatlarla əlaqələrimiz güclənir, NATO ilə əlaqələrimiz güclənir. Biz bu əlaqələrə böyük önəm veririk. «Sülh naminə tərəfdaşlıq» proqramının fəal iştirakçısı olmuşuq və bu gün də proqramın iştirakçısıyıq. Eyni zamanda, artıq keçən il NATO rəhbərliyinə «Fərdi Tərəfdaşlıq Üzrə Əməliyyat Planı» təqdim edilibdir və Azərbaycanla NATO arasında olan əlaqələr yeni, yüksək pilləyə qalxır.

Əziz dostlar, bir sözlə, bizim ordumuz daha da güclü, daha da nizamlı olmalıdır. Bunu etmək üçün biz hamımız çalışmalıyıq. Azərbaycanda ordu quruculuğu ümumxalq işidir. Dövlət buna öz qayğısını, diqqətini göstərir. Azərbaycan xalqı, Azərbaycanda yaşayan, işləyən bütün insanlar, bütün qurumlar, özəl sektorun nümayəndələri də bu məsələyə böyük diqqətlə yanaşmalıdırlar. Mən əminəm ki, bizim ordumuz bundan sonra da öz potensialını gücləndirəcək və qarşıda duran bütün vəzifələri yerinə yetirəcək, Azərbaycan torpaqlarını işğaldan azad edəcəkdir.

Əziz dostlar!

Mən sizi Silahlı Qüvvələr Günü münasibətilə bir daha ürəkdən təbrik edirəm. Məzunları təbrik edirəm və sizə Vətən uğrunda xidmətinizdə uğurlar arzulayıram.

Sağ olun.

* * *

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev Ali Hərbi Məktəbdə tədris və intizamda birinci yerləri tutan və təhsili fərqlənmə ilə bitirən məzunlara diplomlar təqdim etdi. Tədrisdə və intizamda birinci yerləri tutan məzunlar qiymətli hədiyyələrlə təltif olundular.*

*Respublikamızın rəhbəri onları təbrik etdi, gələcək xidmətlərində uğurlar arzuladı.*

*Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən bir qrup zabitə mənzillərin orderləri təqdim olundu.*

*Digər məzunlara diplomlar məktəbin müəllim heyəti tərəfindən təqdim edildi.*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Belarus Respublikasının dövlət bayramı – Müstəqillik günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Əminəm ki, Azərbaycan Respublikası ilə Belarus Respublikası arasındakı dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq münasibətləri xalqlarımızın və ölkələrimizin mənafeləri naminə bundan sonra da inkişaf edəcək və dərinləşəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı və dövləti fəaliyyətinizdə uğurlar, dost Belarus xalqına sülh, firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2005-ci il*

**VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HUQO RAFAEL ÇAVEZ FRİASA**

Hörmətli cənab Prezident!

Ölkəmizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Venesuela arasında yaranmış münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Venesuela xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2005-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Biz Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı münasibətlərə xüsusi əhəmiyyət veririk. Tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsi ilə bu gün ölkələrimiz arasında çoxşaxəli və geniş əməkdaşlıq, faydalı işgüzar əlaqələr mövcuddur.

Əminəm ki, ikitərəfli münasibətlərimiz, eləcə də beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı anlaşmaya və dəstəyə əsaslanan əməkdaşlığımız ənənəvi olaraq bundan sonra da inkişaf edərək xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost İran xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2005-ci il*

## GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM, FRANSA BEYNƏLXALQ CƏRRAHLAR AKADEMİYASININ ÜZVÜ, BAKI DÖVLƏT UNİVERSİTETİNİN, AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN FƏXRİ DOKTORU, İRANDA NƏŞR OLUNAN «VARLIQ» JURNALININ BAŞ REDAKTORU DOKTOR CAVAD HEYƏT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2005-ci il*

*Səmimi qəbul üçün təşəkkür edən* doktor Cavad Heyət *Azərbaycan prezidentinin uğurlu xarici səfərlərini yüksək qiymətləndirdi. O dedi ki, mənim səksən illik yubileyimlə əlaqədar Azərbaycanda müxtəlif tədbirlər keçirilir. Azərbaycanda yubileyimin keçirilməsinin təməli* on il *əvvəl ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və* o zaman *yubileyim qeyd edilmişdi. Bu yaxınlarda* Ankarada da *yubiley mərasimləri təşkil olunmuşdur.*

*Sonra* doktor Cavad *Heyət öz kitablarını dövlətimizin başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev* doktor Cavad *Heyəti* anadan *olmasının səksən illiyi münasibətilə təbrik* etdi, ona uzun ömür, *elmi yaradıcılığında və* ictimai *fəaliyyətində yeni-yeni uğurlar arzuladı.*

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda dost Amerika xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən salamlayır və təbrik edirəm.

Bu gün Amerika Birləşmiş Ştatları bütün dünyada sülhün, sabitliyin bərqərar olması, demokratik dəyərlərin təntənəsi naminə ardıcıl səylər göstərir. Qlobal təhlükələrə və çağırışlara cavab olaraq, Birləşmiş Ştatlar beynəlxalq birliyin terrorizmə qarşı mübarizəsində qətiyyətli mövqe tutur və aparıcı rol oynayır. Azərbaycan Birləşmiş Ştatların yeritdiyi bu siyasəti tam dəstəkləyir və bu işə hər zaman öz töhfəsini verməyə çalışır.

Qeyd etmək istərdim ki, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında enerji, təhlükəsizlik məsələlərində və siyasi sahədə əməkdaşlıq uğurla inkişaf edir. Münasibətlərimiz dostluq və əməkdaşlıq zəminində böyük yol keçərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Strateji tərəfdaşlığımızın bariz ifadəsini biz xüsusən Xəzərin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli sahəsində Azərbaycanın həyata keçirdiyi irimiqyaslı transmilli layihələrin gerçəkləşməsində Amerika Birləşmiş Ştatlarının yaxından iştirakında görür və bunu yüksək qiymətləndiririk. Azərbaycanda apardığımız demokratik islahatlara Birləşmiş Ştatların göstərdiyi dəstəyi dəyərləndiririk və bu istiqamətdə əməkdaşlığımızın davam edəcəyinə əminik.

Ümidvar olduğumuzu bildirirəm ki, müstəqillik əldə etdikdən bəri qarşılaşdığımız ən böyük problemlərdən biri olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli məqsədi ilə ATƏT-in Minsk qrupunun həmsədri kimi, Amerika Birləşmiş Ştatları öz səylərini daha da artıracaq və regionumuzda çoxdan gözlənilən sülhün bərqərar olması üçün real nəticələr əldə edilməsinə öz töhfəsini verəcəkdir.

Bu əlamətdar bayram münasibətilə bir daha Sizə, cənab Prezident, ən səmimi təbriklərimi və xoş arzularımı yetirir, dost Amerika xalqına sülh, xoşbəxtlik və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyun 2005-ci il*

**KAMER ADALARI İTTİFAQININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB AZALİ ASSUMANİYƏ**

Hörmətli cənab Prezident!

Kamer Adaları İttifaqının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Kamer Adaları İttifaqının dost xalqına xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyun 2005-ci il*

## CNN–TÜRK TELEKANALININ XƏBƏR MÜXBİRİ GÜRKAN ZƏNGİNƏ VERDİYİ BİRBAŞA YAYIMLA MÜSAHİBƏ

*Prezident sarayı*

*28 iyun 2005-ci il*

**J u r n a l i s t: Azərbaycanın paytaxtı Bakıdan xoş gördük. İndi Bakıda Prezident sarayındayıq və cümhur başqanı İlham Əliyevin qonağıyıq. Son bir neçə həftədə meydana çıxan hadisələr bizim Bakıya gəlməyimizə səbəb oldu. Azərbaycan müxalifətinin təmsilçiləri İstanbulda bir toplantıya qatılmaq üçün Türkiyədə idi, orada bir neçə mesajlar verildi.**

**Bu ilin noyabrında Azərbaycanda parlament seçkiləri keçiriləcəkdir. Xüsusilə Ukrayna, Gürcüstan kimi ölkələrdə inqilabların baş verdiyi bir dövrdə bəziləri tərəfindən gündəliyə gətirilir ki, bunu Azərbaycanda da etmək olarmı? Seçkilər qarşısında müxalifətdəki canlanmanı da görürük.**

**Baş nazir Rəcəb Tayyib Ərdoğan sabah axşam Bakıya gəlir. Bu onun Baş nazir kimi, Azərbaycana ilk rəsmi səfəridir. Bütün bunlar və İranda yeni prezident seçilməsinin hadisələrə təsiri və sair məsələlər ətrafında söhbət aparılacaqdır. Aydındır ki, bu bölgə hər zaman hərəkətlidir. Qafqaz barədə çox danışmağa ehtiyac yoxdur. Təbii qaz, neft ehtiyatlarının mövcud olduğu bir bölgədir. Belə bir məqamda bu bölgədə iş görmək, siyasəti davam etdirmək çox çətindir. Mərhum dövlət başçısı Heydər Əliyev bu işin ustası idi. 2003-cü ildə o, dünyasını dəyişdikdən sonra yerinə oğlu İlham Əliyev gəldi və hazırda prezidentdir.**

**Hörmətli Cümhur başqanı, əvvəlcə bizi qəbul etdiyinizə, belə bir vaxtda müsahibə verdiyinizə görə Sizə təşəkkür edirik.**

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**– Cənab Prezident, atanızdan danışdıq, Siz onun yerini tuta bilirsinizmi?**

– Bunu ilk növbədə Azərbaycan xalqından soruşmaq lazımdır. Mən çalışıram, əlimdən gələni edirəm ki, seçkilərdən öncəki bütün vədləri yerinə yetirim. Azərbaycanı daha da inkişaf etdirək, ölkəmizi zənginləşdirək ki, həm bölgədə öz mövqelərini möhkəmləndirsin, həm də daxildə sabitlik pozulmasın, Azərbaycan iqtisadi cəhətdən daha da güclü olsun.

Bizim çoxlu planlarımız var, çoxlu layihələrimiz var. Deyə bilərəm ki, onların hamısı uğurla icra edilir. Son il yarım ərzində, seçkilərdən keçən dövr ərzində Azərbaycanda çoxlu islahatlar aparıldı.

**– Yəni islahatlar hələ davam etdirilir.**

– Bəli, islahatlar davam edir. Mən sizə bir-iki rəqəm gətirə bilərəm. Son il yarım ərzində Azərbaycanda 220 min yeni iş yeri açılıbdır. Onların tam əksəriyyəti bölgələrdədir. Bu ilin ilk beş ayında iqtisadi artım 16 faiz olubdur. İl ərzində ümumi daxili məhsul 18–20 faiz artacaqdır.

**– Daxili siyasətdə bu islahatlar əsaslı şəkildə davam edir. Bunlar görünür, rəqəmləri də Siz dediniz. Atanız böyük siyasət, dövlət adamı idi. Ən önəmli xüsusiyyəti bu idi ki, İran, Rusiya, Türkiyə kimi bölgə ölkələri, bundan əlavə, Avropa, Amerika ilə tarazlaşdırılmış siyasət yürüdürdü. Deyə bilərsinizmi, Siz necə siyasət yürüdürsünüz, Sizin siyasətiniz nə üzərində qurulubdur?**

– Bu gün Azərbaycanda Heydər Əliyev siyasəti davam etdirilir. Onun strateji xətti dəyişməz olaraq qalır. Çünki bu, Azərbaycan xalqının tələbidir, zamanın tələbidir, məntiqin tələbidir. Azərbaycan xalqı bu siyasəti dəstəkləyir, bəyənir və mənim prezident vəzifəsinə seçilməyimdə də bu amil çox önəmli rol oynadı. Azərbaycan xalqı bu siyasətdə dəyişiklik istəmir. Bu siyasətin əsas mahiyyəti ondadır ki, o, Azərbaycanın milli maraqları zəminində qurulur, Azərbaycanın milli maraqları tam şəkildə təmin olunmalıdır.

**– Tarazlı siyasətə gəlincə, bilirik ki, 70–80 il bu ölkəyə təsiri olmuş Rusiya var. Rusiyanın Azərbaycan üzərində təsiri hələ varmı, varsa nə qədərdir?**

– Azərbaycan üzərində başqa dövlətlərin təsiri çox zəifdir. Əgər biz keçmiş Sovet İttifaqının respublikalarına nəzər salsaq görərik ki, Azərbaycan bu baxımdan ən əlverişli vəziyyətdədir. Bunun da səbəbi məhz Heydər Əliyevin yürütdüyü siyasət idi. Bu gün Azərbaycana təzyiq etmək iqtidarında olan qüvvələrin sayı çox azdır. Bizə kim necə təsir edə bilər, kim öz təsirini necə göstərə bilər? Bu, mümkün deyildir. Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələrin güclənməsində maraqlıyıq və bunu edirik. O cümlədən qonşu dövlətlərlə əlaqələrimiz yaxşıdır. Ancaq Azərbaycan öz siyasətini özü aparır.

**– Sabah axşam Türkiyənin Baş naziri hökumətin başçısı kimi, Azərbaycana ilk dəfə rəsmi səfərə gələcəkdir. Türkiyə ilə əlaqələr sanki atanızın dövründə daha sıx ziyarətlərlə inkişaf edirdi. Soyuqluqmu yarandı, yoxsa ziyarətlər azaldı?**

– Xeyr, xeyr, belə bir şey yoxdur. Bizim aramızda olan əlaqələr çox yüksək səviyyədədir. Mənim cümhur başqanı kimi, ilk səfərlərimdən biri də məhz Türkiyəyə olmuşdu və mən o səfərdən çox məmnunam. Bu günlərdə isə Türkiyənin Baş naziri Azərbaycana gəlir və bizim əlaqələrimiz çox sıxdır. Biz daim əlaqə saxlayırıq, telefonla danışırıq, bütün məsələləri müzakirə edirik. Türkiyədən Azərbaycana, Azərbaycandan Türkiyəyə müxtəlif heyətlər – nazirlər, parlament üzvləri, digər rəsmi şəxslər gəlir-gedir. Bizim aramızda çox sıx əlaqələr var. Deyə bilərəm ki, indiki şəraitdə bu əlaqələr yeni bir müstəviyə keçibdir. Bizim bölgədəki gücümüz, nüfuzumuz artır. Türkiyə və Azərbaycanın həyata keçirdikləri birgə layihələr nəticəsində bölgədə tam yeni bir mühit yaranır, ölkələrimizin önəmi artmaqdadır. Bizim sıx, birgə olmağımız gələcək üçün mühüm üfüqlər aça bilər.

**– Müxalifətin bu günlərdə Türkiyədə olması səbəbi ilə bağlı mülahizələr söylənilir ki, Baş nazirin bu ziyarəti Azər-**

**baycana noyabr seçkiləri yaxınlaşarkən edilir və daha çox demokratikləşmə yolunda mesajlar veriləcəkdir.**

– Mən bu barədə bir şey deyə bilmərəm. Çünki bu bizim üçün müzakirə mövzusu deyildir.

**– Yəni nə mənada?**

– Nədən olsun ki? Azərbaycanın vəziyyəti bu gün çox yaxşıdır. İctimai-siyasi vəziyyət bizi qane edir. Xalqla iqtidar arasında birlik var, vəhdət var. Biz xalqın dəstəyini hiss edirik. Bizim fəaliyyətimiz yüksək qiymətləndirilir. Azərbaycan bölgədə sabit ölkədir. Azərbaycan demokratik təsisatlarını inkişaf etdirir. Biz Avropa Birliyi ilə çox sıx əməkdaşlıq edirik. Avropa Şurası ilə məsələlərimizi həll edirik. Bizim beynəlxalq təşkilatlarla əlaqələrimiz çox yaxşıdır. Eyni zamanda, dediyim kimi, bizim iqtisadiyyatımız çox sürətlə inkişaf edir. Beynəlxalq Valyuta Fondunun verdiyi bəyanata görə, 2005-ci ildə Azərbaycan iqtisadiyyatı artım baxımından dünyada birinci yerdə olacaqdır.

**– Yəni bunumu söyləyirsiniz ki, iqtisadiyyatımız, siyasətimiz, demək olar, yaxşıdır. Türkiyə Baş nazirinin buraya daha çox demokratikləşmə mesajı gətirməsinə ehtiyac yoxdur?**

– Bilirsiniz, hörmətli Baş nazirlə bizim əlaqələrimiz çox səmimidir. Biz dostuq, istənilən məsələni müzakirə edə bilərik və edirik də. Elə məsələ yoxdur ki, biz onu səmimi bir qardaş kimi, dost kimi danışmayaq. Sizə deyə bilərəm ki, bütün beynəlxalq tədbirlərdə biz bir yerdə oluruq, daim görüşürük və saatlarla danışırıq. Ona görə bütün məsələlər müzakirə oluna bilər. Hesab edirəm ki, hansısa məsələni ümumi kontekstdən çıxarıb, ön plana çəkməyə lüzum yoxdur.

**– Bu gün Azərbaycanı bir demokratik ölkə kimi qiymətləndirə bilərsinizmi?**

– Bəli, Azərbaycan demokratik inkişaf baxımından çox sürətlə inkişaf edən ölkədir. Azərbaycanda demokratiyanın inkişafı üçün bütün lazımi şərait mövcuddur. Siyasi partiyalar fəaliyyət göstərir. Söz azadlığı, mətbuat azadlığı, vicdan azadlığı – bütün bunlar mövcuddur. Beynəlxalq təşkilatlarla bizim əlaqə-

lərimiz çox müsbətdir. Xüsusilə, bilavasitə insan haqları ilə məşğul olan Avropa Şurası ilə bizim aramızda heç bir problem yoxdur. Azərbaycanda normal demokratik inkişaf üçün hər cür şərait var. Biz dövlət, hökumət olaraq əlimizdən gələni edirik ki, bunu daha da genişləndirək və bütün imkanları yaradaq.

**– Noyabr ayında Azərbaycanda parlament seçkiləri keçiriləcəkdir. Bu seçkilərin ədalətli keçəcəyinə təminat verə bilərsinizmi?**

– İlk növbədə onu demək istəyirəm ki, prezident seçkilərində Azərbaycan xalqının iradəsi tam şəkildə öz əksini tapıbdır. Bizə müxalif olan bəzi qüvvələr tarixi təhrif etməyə çalışırlar, rəy yaratmaq istəyirlər ki, guya prezident seçkilərində hansısa problem çıxdı. Heç bir problem çıxmadı. Avropa Birliyinin bəyanatına baxın, orada seçkilər çox müsbət qiymətləndirilir. Dünyanın aparıcı ölkələrinin bəyanatlarında da həmçinin. Bu yaxınlarda dünyada tanınmış «Gellap İntərnəşnl» təşkilatı Cənubi Qafqazda bir rəy sorğusu keçirdi.

**– Yəni əhalinin rəyini öyrəndi?**

– Bəli. Rəy sorğusunun nəticəsinin Azərbaycana aid hissəsi ondan ibarətdir ki, əhalinin 77 faizi Azərbaycan prezidentinə inanır və onu dəstəkləyir. Bunu mən demirəm, bizim partiyamızın hansısa mətbu orqanı demir, «Gellap İntərnəşnl» deyir. Prezident seçkilərində qazandığım səslər isə 76 faizdir. Ona görə də prezident seçkiləri ilə bağlı müxalifət tərəfindən səslənən fikirlər uydurmalardır, əsassızdır.

**– Amma Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı prezident seçkilərinin beynəlxalq standartlara uyğun olmadığını açıqladı.**

– Təbii, standartlara uyğun gəlmədi. Amma bizim ölkəmizdə hansı bir məsələ standartlara uyğun gəlir? (***istehza ilə***) Bir də ki, o standart nədir?! Təbii ki, çatışmazlıqlar, qanun pozuntuları olubdur. 600-dən çox məntəqədə seçkilərin nəticəsi ləğv edildi. Amma bu o demək deyil ki, seçkilər ədalətsiz keçirildi, yaxud da seçkilərin nəticələri şübhə altındadır. Heç kim buna şübhə etmir.

O ki qaldı parlament seçkilərinə, bu məsələdə də mən hesab edirəm ki, heç bir problem olmayacaqdır. Bu yaxınlarda mən seçki praktikasının təkmilləşdirilməsinə dair sərəncam vermişəm. Bütün namizədlərə eyni, bərabər hüquqlar, şərait yaranacaqdır və mən şübhə etmirəm ki, parlament seçkiləri tam demokratik, şəffaf keçiriləcəkdir.

**– Müxalifət noyabr seçkilərinə hazırlaşır. Türkiyəyə səfər etdilər, orada türkiyəli yetkililərlə bəzi görüşlər keçirdilər. Bu, yəni onların Türkiyəyə getmələri, orada açıqlama vermələri Sizi narahat edirmi?**

– Xeyr, xeyr. Məni qətiyyən narahat etmir. Ümumiyyətlə, Azərbaycan müxalifəti məni narahat etmir. Çünki onlar bizim üçün rəqib deyildir. Onların siyasi iflası artıq bir neçə il bundan əvvəl baş vermişdir.

İndiki müxalifət Azərbaycanda iqtidarda idi. 1992-ci ildə müəyyən yollarla iqtidara gəlmişdi. Amma cəmi bir il qaldı.

**– Həm Xalq Cəbhəsini, həm də Müsavatı nəzərdə tutursunuz?**

– Təbii, onlar cütlük idi, hakimiyyətə ikisi gəlmişdi. Bir il ərzində onlar hakimiyyəti itirdi. Nə üçün? Çünki Azərbaycan xalqı onların siyasətinə dözmədi, onları inkar etdi. 1993-cü ildən bu günə qədər bütün seçkilərdə – parlament və prezident seçkilərində onlar iflasa uğrayırlar. Sadəcə olaraq, o liderlərdə cəsarət çatmır ki, öz vəzifələrindən çəkilsinlər, yeni nəslə yol açsınlar. Azərbaycanda iqtidarda dəyişiklik baş verdi. 2003-cü ildən Azərbaycanda yeni prezident seçildi və siyasət yürüdür. Müxalifətdə isə eyni simalar, eyni adamlar, eyni sözlər, eyni vədlər və eyni uğursuzluqlar. Ona görə müxalifətin nəyi harada deməsindən asılı olmayaraq, bu bizi narahat etmir. Bu birincisi.

İkincisi, bizim müxalifət başqa ölkələrə də – Avropa ölkələrinə, digər ölkələrə də səfərlər edir. Azərbaycanda demokratiya var. Hər bir insan, siyasətçi istədiyini söyləyə bilər, istədiyi insanla görüşə bilər. Bu bizim üçün əsla bir problem deyildir.

**– Noyabr seçkiləri ədalətli keçərsə, bilmirəm, müxalifət nə qədər səs ala bilər. Xalqa güvənilirsə, seçki ilə bağlı**

**problem olmamalıdır. Siz seçkilərin ədalətli olacağına təminat verirsinizmi?**

– Təbii, 2003-cü ildə keçirilən prezident seçkilərində də...

**– Onda da olmadı.**

– Mən prezident seçkilərində 76 faiz səs almışam, «Gellap İntərnəşnl»in fikrinə görə, məni 77 faiz dəstəkləyir. Əgər orda bir problem olardısa, bu rəqəm başqa olardı. Bu onu deməyə əsas verir ki, o seçkilər Azərbaycan xalqının iradəsini əks etdiribdir. Parlament seçkilərində də eyni qaydada, kimin cəmiyyətdə hörməti var, siyasi biliyi var, getsin, seçilsin. Azərbaycan xalqı müdrik xalqdır. İstədiyi namizədə öz səsini verər.

**– Sanki müxalifətə Amerika dəstək verir kimi bir görüntü var. Gürcüstanda, Ukraynada, Qırğızıstanda olan inqilabların Azərbaycanda da ola biləcəyi yönümdə söhbətlər gəzir. Bunlar Sizi qorxudurmu, yəni orada olanlar burada da ola bilər, deyə qorxursunuzmu?**

– Ümumiyyətlə, məni heç nə qorxutmur. Çünki bu prezident vəzifəsi elə bir vəzifədir ki, əgər bu vəzifədə olan şəxsi nəsə qorxudursa, o bu vəzifədən getməlidir. Mən öz vəzifələrimi cəsarətlə və inamla icra edirəm. Xalqın dəstəyinə, xalqın məhəbbətinə arxalanıram. İkincisi, əlbəttə, paralellər ola bilər. Bəzi ölkələrdə inqilab oldu, bəzi ölkələrdə çevriliş oldu. İndi düşünürlər, əcəba, bu başqa ölkələrdə də mümkündür, yoxsa yox? Hər bir ölkənin öz tarixi var, hər bir ölkədə gedən proseslər o ölkəyə aid proseslərdir.

**– Yəni deyirsiniz ki, orada olub, amma Azərbaycanda olmaz.**

– Mən burada bunun olmasına əsas görmürəm.

**– Məsələn, Ukraynada, Gürcüstanda olanlara təəccübləndinizmi?**

– Xeyr, xeyr.

**– Niyə təəccüblənmədiniz?**

– Mən nədən təəccüblənməliydim?!

**– Yəni orada elə bir potensialmı var idi?**

– Bilirsiniz, orada əsas problem onda idi ki, iqtidarla xalq arasında inam yox idi, yaxud da çox az idi. Çünki orada həm sosial-iqtisadi durum, həm də rəhbərliyin fəaliyyəti artıq xalq tərəfindən o qədər də qəbul edilmirdi. Bir də ki, orada insanlar artıq uzun illər idi iqtidardaydı. Təbii ki, belə uzun zamandan sonra insanlarda bir növ yorğunluq yaranır, adamlar bir dəyişiklik istəyir.

**– Yəni yeni bir lider olmalıdır deyirsiniz?! Deyirsiniz ki, Azərbaycanda dəyişdi, eləmi?**

– Təbii.

**– Dolayısı ilə xalq üçün bir yenilik var.**

– Həm yenilik var, həm də xalqa xidmət var. Mən öz vəzifəmi ilk növbədə, bunda görürəm. Mən xalqımın xidmətçisiyəm. Bütün məmurlara da dəfələrlə açıq bəyan etmişəm ki, siz xalqın xidmətçilərisiniz. Gedin, xalqa ləyaqətlə xidmət edin. Kim xidmət etmirsə, o, vəzifədən dərhal çıxarılır. Ona görə əgər prezident və hansısa başqa bir rəsmi şəxs xalqa ləyaqətlə xidmət edirsə və xalq da onu bəyənirsə, o gərək öz fəaliyyətindən, öz vəziyyətindən arxayın olsun. Bu arxayınlıq, əminlik məndə də var.

**– Deyirsiniz ki, Azərbaycanda inqilabla devirmə ola bilməz?**

– Qətiyyən.

**– Bəs Amerika ilə əlaqələriniz necədir, Amerikaya güvənirsinizmi?**

– Amerika bizim tərəfdaşımızdır, strateji tərəfdaşımızdır. Uzun illərdir Azərbaycan öz siyasətini Avratlantik məkanına inteqrasiya istiqamətində aparır. Bizim Amerika ilə müxtəlif sahələrdə çox sıx əməkdaşlığımız var. İlk növbədə, təhlükəsizlik sahəsində. Antiterror koalisiyasında bizim iştirakımız, enerji sektorundakı əməkdaşlığımız və burada həyata keçirilən böyük layihələr Amerikanın dəstəyi olmadan mümkün olmazdı. Ölkəmizdə demokratiyanın inkişafı sahəsində Amerika ilə biz çox sıx əməkdaşlıq edirik. Yəni bizim əlaqələrimiz çox möhkəm zə-

min üzərində qurulubdur. Biz müttəfiqik və öz müttəfiqliyimizi sözdə deyil, əməldə sübut etmişik.

**– Amma «mən daha çox demokratiya istəyirəm, daha çox demokratik olan müttəfiqlər axtarıram, müttəfiqlərimin daha çox demokratik olmasını istəyirəm» – deyən açıqlamalar var. Belə bir siyasət izləyəcəklərini açıqladılar. Bu önümüzdəki aylarda, günlərdə Sizə çətinlik yaratmaz ki?**

– Mən inanmıram. Çünki bu bizim məramımıza da uyğundur. Biz də istəyirik ki, Azərbaycan daha da demokratik ölkə olsun. Azərbaycan Dünya Birliyində daha da möhkəm yerini tuta bilsin.

**– Siz, İlham Əliyev 2003-cü ildən bəri Cümhur başqanısınız, Azərbaycanın daha demokratik bir ölkə olması üçün nə edirsiniz, son olaraq hansı addımları atdınız?**

– İlk növbədə, biz Azərbaycanda müəyyən siyasi gərginliyə səbəb olan «siyasi məhbuslar» məsələsini həll etdik. Avropa Şurası qarşısında öz öhdəliyimizi yerinə yetirdik və siyasi baxışlara görə Azərbaycanda heç kim təqib olunmur, heç kim həbs olunmur. Biz keçmişdə olan bütün olayların altından sanki bir xətt çəkdik, bütün o insanların hamısını azadlığa buraxdıq. Bunu mən etdim, əfv etdim. Digər tərəfdən, siyasi partiyaların normal fəaliyyəti üçün lazımi şərait yaradılır. Bu da gündəlik bir işdir. Yəni bu, birdəfəlik iş deyil ki, deyim, bu qərar qəbul edildi. Cəmiyyətdə normal siyasi dialoqun aparılması üçün addımlar atılır. Mən dəfələrlə bütün siyasi qurumlara açıq müraciət etdim ki, gəlin siyasi dialoq aparaq. Gəlin məsələni küçələrdə əlində daşla yox, əlində qələmlə masa arxasında çözək. Biz o qədər də böyük ölkə deyilik ki, burada bir-birimizlə mübarizə aparaq. Ona görə hesab edirəm ki, bu addımlar Azərbaycanda demokratiyanın inkişafı üçün çox önəmlidir. Əsas məsələ odur ki, bu addımlar qarşılıqlı olsun. Demokratiyanı Azərbaycanda təkcə iqtidar tətbiq edə bilməz. Əgər başqa tərəf bunu istəmirsə, yaxud başqa tərəf özünü çox davakar aparırsa, təbii ki, bizim də cavabımız ona uyğun olacaqdır.

**– Noyabr ayında parlament seçkiləri keçiriləcəkdir. Əgər müxalifət qələbə qazanarsa, Siz cümhur başqanı kimi, müxalifətlə işləyərsinizmi?**

– Mən istənilən qüvvə ilə çalışacağam. Kim qazanır, qazansın, Azərbaycanda sərbəst seçkilər keçiriləcəkdir. Kim qələbə qazanarsa, o qüvvələrlə çalışacağam.

**– 2008-ci ildə prezident seçkilərində yenidən namizədliyinizi verəcəksinizmi?**

– Əgər Azərbaycan xalqı məni dəstəkləyərsə, verərəm. Görsəm ki, xalq mənim fəaliyyətimi bəyənir, görsəm ki, mən Azərbaycan xalqına istədiyim xidməti etdim və xalq bunu bəyənir, onda təbii ki, verəcəyəm.

**– Müxalifət deyir ki, demokratiya, düzgünlük olmadığına görə, seçki kampaniyamızı mübarizə üzərində quracağıq, Azərbaycanda çox böyük rüşvət var və s. Bu barədə nə deyərdiniz?**

– Müxalifətin deyə biləcəyi məsələlər tükənməkdədir. Artıq bizə heç bir irad tuta bilmir. Çünki bizim xarici siyasətimiz Azərbaycanın maraqlarına uyğundur və biz Ermənistanla danışıqlarda üstün mövqe əldə etmişik. Bizim hərbi potensialımız güclənir, iqtisadiyyatımız, insanların maaşları artır. Mənim dövrümdə, il yarım ərzində minimum əməkhaqqı 3 dəfə qaldırılıbdır. Yəni müxalifətin deyəcəyi bir söz qalmayıbdır. Rüşvət hər bir ölkədə var, o cümlədən Azərbaycanda da var, ən inkişaf etmiş ölkələrdə də var. Bunu heç kim inkar etmir. Amma biz mübarizə aparırıq. Necə? İnzibati yollarla mübarizə aparmaq çox çətindir. Adam dəyişməklə məsələ həll olunmur. Geniş özəlləşdirmə, liberallaşma, özəl sektora dəstək – bütün bu amillər korrupsiyanın və rüşvətin səviyyəsini yavaş-yavaş aşağı salır. Amma bu çox uzunmüddətli bir prosesdir. Baxın, rüşvət hansı ölkələrdə özünü daha da qabarıq göstərir? Postsovet ölkələrində. Postsovet ölkələrini nə birləşdirirdi? Azərbaycanda, Rusiyada, Ukraynada, Moldovada, Baltikyanı ölkələrdə və başqalarında tam fərqli xalqlar yaşayırdı. Amma onları birləşdirən bir sistem idi, bir təfəkkür idi. O təfəkkür bu məsələnin belə kəskinləşməsinə gətirib çıxardı. Bu-

nunla mübarizə aparmaq üçün ciddi proqram hazırlanmalıdır. Biz bu proqramı qəbul etdik. Bizim Milli Məclis Antikorrupsiya haqqında qanun qəbul etdi. Antikorrupsiya qurumu yarandı və indi ciddi işlər aparılır.

**– Cənab Prezident, istərdim söhbətimizin ikinci hissəsində daha çox neft, təbii qaz məsələlərinə toxunaq. Bir əfsanə gerçəkləşdi: Bakı–Tbilisi–Ceyhan layihəsi həyata keçdi. Xeyirli olsun, hazırda neft boru ilə Ceyhana doğru getməkdədir. Sizcə, Ceyhanda keçiriləcək mərasimin vaxtı bəlli oldumu?**

– Hələlik bəlli deyil, hər halda, ilin sonuna qədər bütün işlər tamamlanmalıdır.

**– Yəni bu ilin sonunda neft Ceyhandan daşınacaqdır.**

– Bəli.

**– Qazaxıstan neftinin də Bakı–Tbilisi–Ceyhan boru xəttindən axması sahəsində görüşlər keçirdiyinizi bilirik. Qazaxıstan nefti də gələcəkmi? Qazaxlar bu mövzuda vaxtaşırı açıqlamalar verirlər, müəyyən məsələləri söyləyirlər, lakin hələlik bir anlaşma əldə olunmur. Son vəziyyət necədir?**

– Doğrudur, indi danışıqlar gedir, görüşürük. Qazaxıstan və Azərbaycan qurumlarının mütəxəssisləri görüşürlər. Hökumətlərarası bir saziş hazırlanıbdır. Demək olar ki, onun bütün əsas müddəaları razılaşdırılıbdır. Onun üzərində son işlər gedir. Ümid edirəm ki, yaxın zamanlarda biz onu da imzalayacağıq.

**– Yəni Qazaxıstan nefti bu xətlə axacaqdır.**

– Hər halda, bu bizim üçün də, Qazaxıstan üçün də əlverişli olar. Çünki Qazaxıstan üçün yeni yollar, yeni alternativ yollar lazımdır. Qazaxıstan nefti bu gün ancaq Rusiyadan dünya bazarlarına ixrac edilir. O yol da boğazlardan keçir. Artıq Qazaxıstan çox böyük həcmdə neft ixrac edən ölkəyə çevrilir, 100 milyon ton neft çıxaracaqdır. Boğazlar bu nefti oradan keçirə bilməz. Buna gərək alternativ yol olsun.

**– Çox böyük bir rəqəmdir, Qazaxıstanın bu həcmdə nefti var. Aktau–Bakı–Tbilisi–Ceyhan kimi ayrıca bir neft boru**

**xətti inşa edilə bilərmi? Uzun müddətdən sonra da olsa, buna ümidiniz varmı?**

– İnanmıram ki, ona yaxın gələcəkdə ehtiyac olsun. Çünki Bakı–Tbilisi–Ceyhan boru xəttinin nəqletmə gücü gündə bir milyon bareldir. Əgər əlavə texniki işlər görülərsə, əlavə inşaat işləri görülərsə, onda biz bunu təxminən iki dəfə qaldıra bilərik.

**– Mən paralel olaraq ayrıca bir boru xəttinin inşasının mümkünlüyünü deyirəm. Bu çox böyük vaxtmı tələb edər?**

– Anlayıram, ona görə də deyirəm ki, ayrı xəttə bəlkə o qədər də böyük ehtiyac qalmaz. Çünki əgər biz nəqletmə gücünü ikiqat artırsaq, ayrı xəttə ehtiyac olmaz. Azərbaycan 50 milyon ton neft ixrac edəcəkdir. Qazaxıstan da təxminən 50 milyon ton neft ixrac etmək istəyərsə, bunun üçün əlavə xəttin çəkilməsinə ehtiyac olmaz. Bəlkə, 10 ildən sonra hasilat daha da böyüsə, onda düşünülə bilər.

**– «Şahdəniz» təbii qaz layihəsi sanki işləmir.**

– İşləyir.

**– Ağırmı gedir?**

– Xeyr, xeyr, işləyir.

**– Necə işləyir, yəni 2006-cı ildə inşaat işləri tamamlanmalıdır?**

– Təbii, indi 2005-ci ildir, 2006-cı ilə hələ var.

**– Həmin vaxtadək tamamlamaq mümkün olacaqmı, artıq 2005-ci ilin ortalarıdır.**

– Heç bir şübhə yoxdur. «Şahdəniz» layihəsində işlərin 50 faizi artıq görülübdür. «Şahdəniz» yatağında qazma işləri gedir. Eyni zamanda, xəttin inşası da davam edir. 2006-cı ilin sonunda «Şahdəniz» layihəsi də başa çatacaqdır.

**– Bu layihədə Azərbaycan təbii qazının Ərzurumdan Qərbə, Avropa ölkələrinə göndərilməsi də müzakirə olunur. Türkiyənin yerinə yetirməsi üçün müəyyən vəzifələri varmı, ümumiyyətlə, Sizin bu məsələdə Türkiyədən gözlədiyiniz bir şey, yaxud şikayətiniz varmı?**

– Xeyr, xeyr. Bütün sazişlər imzalanıbdır. Lazım olan bütün qərarlar verilibdir. Mən sizə deyə bilərəm ki, bu sahəni çox yax-

şı bilirəm. Çünki mən 9 il bu sahədə çalışmışam və Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum layihələrində çox fəal iştirak etmişəm. Türkiyə ilə Azərbaycan arasında heç bir zaman hansısa problem ortaya çıxmamışdır. Bu gün də yoxdur. Biz bir komanda kimi çalışırıq, bütün qərarları veririk və ümid edirəm ki, heç bir problem çıxmaz. Azərbaycan qazı vaxtında Türkiyəyə, ondan sonra, ümid edirəm ki, gələcəkdə Türkiyənin üzərindən Yunanıstana və Avropanın digər ölkələrinə nəql ediləcəkdir. Beləliklə, Avropa istehlakçıları əlavə alternativ bir qaz mənbəyinə sahib olacaqlar. Bu layihə təkcə bizim üçün deyil, Avropa üçün də çox önəmlidir. Avropa Birliyi ilə artıq bizim görüşlərimiz başlanıbdır.

**– Mən onu soruşmaq istəyirəm. Türkiyə ilə Azərbaycan arasında belə bir anlaşma varmı? Bildiyimə görə, konsorsium bu qazın Avropaya göndərilməsi sahəsində hər hansı bir qərar verməmişdir.**

– Hələ ki, bir az tezdir. Çünki baxın, Türkiyənin ilkin mərhələdə qaza tələbatı 6 milyard kubmetrdir. Azərbaycanın öz tələbatı da var. Çünki biz bu gün özümüz qaz idxal edirik. Bizə də əlavə 3 milyard kubmetr qaz lazımdır. Gürcüstanın tələbatı artır. Çünki Gürcüstanın prezidenti bizdən rica edibdir ki, onlara da 2-3 milyard kubmetr qaz artıraq. Beləliklə, hələlik Avropaya gedə biləcək qaz yoxdur. Yalnız 2010-cu ildən sonra, qaz hasilatı artdıqca buna nail olacağıq. Hasilat ildə 20–25 milyard kubmetrə çatandan sonra, bəlkə ondan da bir az tez Azərbaycan qazı Avropaya gedəcəkdir.

**– Amma yenə də konsorsium qərara gələ bilməzmi ki, təbii qazın hasilatı artan zaman Türkiyə üzərindən Avropaya göndəriləcəkdir. Bəlkə başqa seçimlər üzərində dayanılıbdır?**

– Bilirsiniz, qaz Avropaya Yunanıstan üzərindən keçə bilər. Bildiyiniz kimi, Türkiyə və Yunanıstan qazpaylayıcı şəbəkələrini birləşdirirlər. Eyni zamanda, Azərbaycanla Yunanıstan arasında artıq bu sahədə məsləhətləşmələr başlanmış, yəni ilkin ad-

dımlar atılıbdır. İndi ehtiyac olarsa, biz bu danışıqları, görüşləri sürətləndirə də bilərik. Çünki prinsipial razılaşma var.

**– Yəni ilkin razılaşma var.**

– Yəni sözdə, prinsipdə var. Biz bu sahədə başqa ölkələrlə də danışırıq. Balkan yarımadasında yerləşən ölkələrlə, Ukrayna ilə, Moldova ilə. Bunun gələcəkdə böyük bir faydası olacaqdır.

**– Siz Azərbaycanın dövlət başçısı olaraq Avropaya göndəriləcək təbii qazın Türkiyə üzərindən göndərilməsi məsələsində qərarlısınız?**

– Təbii.

**– Deyirsiniz ki, bu yol budur.**

– Bəli, budur. Biz bu xətti tikirik. «Şahdəniz» layihəsi məhz bu yolun təntənəsi deməkdir.

**– Amma İranın, Suriyanın da təbii qazı var. Avropaya digər ölkələrdən, Əlcəzairdən və digər bölgələrdən qaz nəqli anlaşmaları ola bilər. Belə olan halda, Siz bu işin gecikməsindən qorxmursunuz ki?**

– Xeyr. İlk növbədə ona görə ki, Avropa Birliyinin qanunlarına görə burada inhisarçılıq ola bilməz. Ona görə bir mənbədən qaz almazlar.

**– Deməli, gərək rəqabət olsun.**

– Digər tərəfdən, bizim qazımız ucuz olacaqdır. Çünki nəqliyyat xərcləri ucuzdur və əlbəttə, biz daha əlverişli qiymət təklif edə bilərik. Ona görə biz rəqabətdən qorxmuruq. Qaza daim bazar olacaq və biz də zamanında bu bazara çox fəal girəcəyik.

**– Təbii qaz məsələsi çox önəmlidir. Bakı–Tbilisi–Ceyhan birinci mərhələdir, ikinci mərhələdə isə Türkmənistan və Azərbaycan qazını Avropaya nəql etmək istiqamətində Türkiyə böyük işlər gözləyir. Amma gördüyümüz kimi, Azərbaycanla Türkmənistan arasında təbii qaz və neft məsələsində fikir ayrılıqları var. Bu sahədə bir uzlaşma varmı, görüşlər keçirilirmi? Bu ixtilaflar həll edilmədən təbii qazın Türkiyə üzərindən Avropaya nəqli də mümkün olmayacaq kimi görünür. Bu, vacib məsələdir. Türkmənistanla müzakirələr aparırsınızmı?**

– Bilirsiniz, mən bir məsələyə aydınlıq gətirmək istəyirəm. Bəzi hallarda yanlış təsəvvür yaranır. Bu məsələnin səbəbkarı Azərbaycan deyildir. Yəni belə çıxmasın ki, Türkmənistan qazı verməyə hazırdır, amma Azərbaycanla ixtilaf olunduğuna görə bu qaz Türkiyəyə, Avropaya getmir. Elə deyildir.

Türkmənistan Rusiya ilə uzunmüddətli alqı-satqı müqaviləsi bağlamışdır. Bu müqaviləyə görə Türkmənistanın bütün qazı Rusiyaya satılır. Ona görə indi Türkmənistanda Türkiyəyə gedə biləcək qaz yoxdur. Bunu etmək üçün o, ya gərək Rusiya ilə anlaşmasını pozsun – mən də buna çox inanmıram – ya da bilmirəm, qazı haradan gətirəcəkdir. Ona görə bizim Türkmənistanla olan bəzi problemlərimiz bu məsələnin əsas səbəbi deyildir. Ancaq eyni zamanda, bu problemlər var. Bunun da səbəbkarı biz deyilik. Biz öz siyasətimizi yalnız beynəlxalq hüquq əsasında qururuq. Beynəlxalq məhkəmə var. Biz oraya getməyə hazırıq. Çünki biz işimizi əsaslı qururuq, ekspertlərlə qururuq. Azərbaycanın neft sənayesinə xarici şirkətlər tərəfindən 10 milyard dollardan çox vəsait qoyulubdur. Əgər onlarda zərrə qədər şübhə olsaydı ki, Türkmənistan iddia etdiyi kimi, bu yataqlar mübahisəlidir, bir manat da qoymazdılar. Ona görə biz hazırıq ki, türkmən qardaşlarımızla bunu danışıqlar  yolu ilə, xoş niyyət çərçivəsində həll edək. Amma bu təkcə bizdən asılı deyildir.

**– Hazırda bu məsələ ilə bağlı bir mexanizm varmı, zaman-zaman görüşürsünüzmü, heyətlər gəlib gedirlərmi?**

– Bəli, danışıqlar davam edir, görüşlər də var, lakin nəticə yoxdur. Amma proses var. Ümid edirik ki, bir nəticəyə gələcəyik.

**– Türkmənistanla bağlı neft sahəsində də bəzi problemlər var. Sizcə, Xəzərin hüquqi statusu ilə bağlı problem nədədir?**

– Ümumiyyətlə, oradakı problem Xəzərin statusu ilə bağlıdır. Yəqin, bilirsiniz ki, Xəzəryanı üç ölkə –Rusiya, Qazaxıstan, Azərbaycan öz aralarında və yenə də beynəlxalq hüquq əsasında anlaşma imzalayıb, bütün məsələləri çözüblər. Türkmənistanla İranın başqa yanaşmaları var. Ona görə ekspertlər indi vaxtaşırı yığışırlar, müzakirələr gedir, görüşlər davam edir.

**– Məlumdur ki, Dağlıq Qarabağ da daxil olmaqla ölkənizin 20 faiz ərazisi erməni işğalı altındadır. Bu işğal bitmədi, danışıqlarda heç bir nəticə yoxdur. Türkiyə–Ermənistan əlaqələri, Türkiyə–Azərbaycan əlaqələri, Azərbaycan–Ermənistan əlaqələri ilə bağlı fərqli düşüncələr var. Sizcə, paket halında bir həll necə ola bilər?**

**Yəni önümüzdəki üç-beş ildə köklü bir çözüm ola bilərmi? Bununla bağlı nə deyə bilərsiniz?**

– Mən düşünürəm ki, bu məsələ Ermənistanla Azərbaycan arasında həll olunmalıdır. Artıq bu format müəyyən edilib və danışıqlar bu formatda aparılır. Ermənistan çox istəyir ki, Dağlıq Qarabağı da bu məsələyə qatsın. Fəqət, biz buna etiraz edirik.

**– Yəni bir tərəf kimi qatmaq istəyir.**

– Bəli. Çünki bizim torpaqlarımızı Dağlıq Qarabağ deyil, Ermənistan işğal edibdir. Hesab edirəm ki, indi görüşlər müsbət istiqamətdə gedir. Çünki artıq beynəlxalq təşkilatlarda, bu məsələ ilə məşğul olan ATƏT-in Minsk qrupunda da artıq real təsəvvür yaranıb ki, Azərbaycan heç zaman Dağlıq Qarabağı güzəştə getməz, heç zaman öz ərazi bütövlüyünün pozulması ilə razı ola bilməz. Biz Qarabağda yaşayan ermənilərə yüksək muxtariyyət statusu verməyə hazırıq. Onların təhlükəsizliyini təmin etməyə hazırıq. O cümlədən beynəlxalq təşkilatlarla birlikdə. Ancaq Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Azərbaycanın suverenliyi pozulmamalıdır və ərazi bütövlüyü bərpa olunmalıdır. Hesab edirəm ki, bu, dünyada qəbul olunmuş təcrübəyə uyğundur. Baxın, dünyada nə qədər muxtariyyətlər var, milli azlıqlar var. Avropada milli azlıqlar var.

**– Yəni Azərbaycan bunları etməyə hazırdır, ancaq ərazi bütövlüyündə güzəştə getməzsiniz.**

– Bəli. Gürcütsanda 400 min erməni var. Onlar orada müstəqillik tələb etmir. 500 min azərbaycanlı var. Onlar da heç bir şey tələb etmir. İtaliyada Avstriya azlığı var. Onlar muxtariyyət kimi yaşayır. Onlar da o ölkəni, o hissəni ayırmaq fikrində deyillər. Nə üçün ermənilər bu iddiada olmalıdırlar və ermənilərin iddiası nə üçün müzakirə mövzusuna çevrilməlidir? Əgər ermənilər yaşadıqları bütün ölkələrdə muxtariyyət yaratmaq istəsələr, onda dünyada bəlkə ondan çox erməni dövləti yarana bilər. Bu heç bir məntiqə və beynəlxalq hüquqa uyğun deyildir. Bizim mövqeyimiz açıqdır. Biz istəyirik ki, məsələni hüquqi çərçivədə həll edək və öz siyasətimizi bu istiqamətdə aparırıq.

**– Cənab Prezident, deyirsiniz ki, illərdir görüşlər davam edir, danışıqlarda müəyyən irəliləmə var.**

– Yəni ümidlər var. Deyə bilmərəm ki, irəliləmə var. İrəliləmə o zaman olacaq ki, biz hansısa bir məsələni, nəyi isə artıq razılaşaq. Amma ümidlər var. Çünki dünyada gedən proseslər ermənilərin xeyrinə deyildir. Bölgədə siyasi mənzərə dəyişir. Azərbaycan Avratlantik məkanın bir tərəfi kimi, artıq sürətlə NATO ilə, Avropa Birliyi ilə,

Amerika ilə çox sıx əlaqədədir. Ermənistanın siyasəti başqadır, Ermənistanın da müttəfiqləri başqa tərəfdədir.

İqtisadi potensial baxımından Ermənistan bizimlə rəqabət apara bilməz, bu, mümkün deyildir. Bu gün bizim büdcəmiz onların büdcəsindən 4 dəfə böyükdür. Mən hökumət qarşısında vəzifə qoymuşam ki, büdcəmiz 10 dəfə böyük olmalıdır. Ermənistanın büdcəsi nə qədərdisə, bizim büdcəmiz ondan 10 dəfə böyük olmalıdır. Buna nail olacağıq.

Onların işğalçı siyasəti artıq beynəlxalq təşkilatlarda qınaq obyektinə çevrilir. Avropa Şurası bir qətnamə qəbul edibdir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edib və etnik təmizləmə siyasəti aparmışdır. Yəni onların çıxış yolu yoxdur.

**– Deməli, bu münaqişədə gedişat Azərbaycanın lehinədir və mütləq nəticə əldə olunacaqdır.**

– Təbii, təbii. Ona görə gərək biz öz mövqelərimizi gücləndirək. Biz – Türkiyə və Azərbaycan siyasi müttəfiqik. Bölgədə yerləşən digər ölkələrlə bizim müttəfiqliyimiz çox önəmlidir. Məsələn, biz indi Qars–Axalkalaki–Tbilisi–Bakı dəmir yolu üzərində çalışırıq. Türkiyə, Gürcüstan və Azərbaycan bölgədə çox önəmli gücə çevrilir. Ona görə mən şübhə etmirəm ki, biz bu məsələni həll edəcəyik. Sadəcə olaraq, mən istəyirəm ki, bunu qansız-qadasız, sülh yolu ilə edək.

**– Cənab Prezident, suallarımıza ətraflı cavab verdiyiniz üçün çox-çox təşəkkür edirik.**

– Sağ olun.

## Q E Y D L Ə R

**1. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 5–19,178.

**2. Varşava** – Rolşa Respublikasının paytaxtı. Ölkənin siyasi, iqtisadi və mədəniyyət mərkəzidir. Varşava ərazisindəki ilk yaşayış məskənləri X əsrə aiddir. 1413-cü ildən Mazoviya knyazlığının, 1596-cı ildən isə Polşanın paytaxtıdır. – 5–19,55.

**3. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 5,77.

**4. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının

«İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 5.

**5. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika–riyaziyyat elmləri doktorudur. – 5.

**6. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 5–19,33,99,111,112,146,151,178,198,210, 211, 245,248,259,313,328,329,341.

**7. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 6,13,258,267,323,340.

**8. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6

diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 6,53,65,66,75,86,87,88,103,106,111,166–167,169,185, 215–234,305,326,327,334,335,339.

**9. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən isə Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 6.

**10. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 6,65,120,185

**11. Mişel Barnyö** (d.1951) – fransız mühafizəkar siyasətçisi. 2004–2005-ci illərdə Fransanın Xarici İşlər naziri olmuşdur. – 6.

**12. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 6,8,12,13,15,18,33,41,46,50,56, 60,65,68,91,98,99,100,143,151,153,164,194,198,205,206,211, 230,231,240,273,313,315,322,340.

**13. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində beynəlxalq təşkilatlar idarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–04-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 6,77,119.

**14. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərqində dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 7–8,24–25,58,60–71,97–98,112,115,116,119,121,122,130,131,142,143,164–165, 185, 255,325–342.

**15. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 7–8.24.68.325.

**16. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 7,17,44,50,51,55,60, 62,63, 79,80,84,85,86,87,90,94,95–96,97–98,101–112,113–121,124,125, 126,127,128,129–131,132,134,135,136,137,147,149,150,153,155, 157,163,168,172,174,176,188,189,194,199,208,210,237,243,247, 275,292,305,314,325–342,335,336,337,338.

**17. Aleksandr Kvasnevski** (d.1954) – Polşanın siyasi və dövlət xadimi. 1991–95-ci illərdə Polşa Seyminin deputatı, 1995–2005-ci illərdə Polşa Respublikasının prezidenti olmuşdur. – 9–10,17.

**18. Avropa Komissiyası,** Avropa Şurası ölkələrinin Komissiyası – AŞ Hökumətlərinin ali icraedici orqanı, AŞ-nın bütün maraqlarına cavab verən siyasi müstəqil institut. Onun tərkibinə üzv olkələrin hökumətlərinin vahid razılığı ilə seçilən 20 komissar daxildir. Komissiyanın tərkibini minimum üzv ölkələrin nümayəndələri təmsil edir. Komissiyanın üzvləri öz ölkələrini yox, bütün AŞ-nı təmsil edirlər. AŞ-nın bütün qərarları Komissiyadan keçməlidir. Qərarların yerinə yetirilməsinə AŞ nəzarət edir. – 9,112,113,128.

**19. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 9,61,146,211, 259,270,313.

**20. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr

palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 9,41,65,66, 107,108,111,113,115,117,119,120,122,124,173–174,177,185,270, 322–323,326,331,332,342.

**21. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,97 milyon km$^2$, əhalisi 29,6 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar palatası) parlamentdir. Paytaxtı Ottavadır. – 9,308,309.

**22. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 45,6 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali Radadır. Paytaxtı Kiyev şəhəridir. – 10,20–21, 120,134–135,239–246,325,331,334,338.

**23. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 10,12,164,194,245,267, 268.

**24. Norveç,** N o r v e ç K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 387 min km$^2$, əhalisi 4,4 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Oslodur. – 10,17,120,136,185.

**25. Rene Vander Linden** (d.1943) – Niderlandiya siyasətçisi, Xristian Demokrat Partiyasının nümayəndəsi. 2005–2008-ci illərdə AŞPA-nın sədri olmuşdur. – 10.

**26. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i k a s ı – Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür.

Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 10,17–18,185.

**27. Avstriya,** A v s t r i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyanadır. – 10,11,12,182–183,185,340.

**28. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 13,151,178,179,245,259.

**29. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min km$^2$, əhalisi 3797 min nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 14–15, 178–179,185.

**30. Valdas Adamkus** (d.1955) – 1998–2003 və 2004–2009-cu illərdə Litva Respublikasının prezidenti olmuşdur. – 14–15.

**31. Moldova,** M o l d o v a  R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət

başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 14,178,242,334, 338.

**32. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 14,20,21,178, 242,246,305.

**33. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropa Atom Enerjisi Birliyi – AAEB. AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) bir neçə mərhələ keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-cı ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi, 1993-cü ildə isə Avropa Şurası yarandı. – 14,15–16,61, 64,65,99,111,112,128,146,198,199,226,328,329,338,341.

**34. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 14,146,178,210,306–307,316,341.

**35. Albaniya,** A l b a n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3,2 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 16.

**36. Alfred Moisiu (**d.1929) – Albaniya dövlət və siyasi xadimi. 2002-ci ildən Albaniyanın prezidentidir. – 16.

**37. Kyel Bundevik –** (d.1947) – 1997–2000-ci və 2001–2005-ci illərdə Norveçin Baş naziri. Hazırda Norveçdə «Sülh və insan hüquqları» mərkəzinin prezidentidir. – 17,120,136.

**38. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 17.

**39. Tur Heyerdal** (1914–2002) – Norveç etnoqrafi və arxeoloqu. Köhnə Dünya (Asiya, Avropa, Afrika) və Yeni Dünya (Amerika) arasında xalqların transogean miqrasiyasının mümkünlüyünü tədqiq etmişdir. 1969 və 1970-ci illərdə papirusdan hazırlanmış «Ra» və «Ra-2» qayıqlarında Afrikadan Amerikaya, 1977–78-ci illərdə qamışdan hazırlanmış «Tiqris» qayığında Əlkürna (İraq) – Cibuti marşrutu ilə ekspedisiyalar təşkil etmişdir. 2 dəfə Azərbaycanda olmuş, Qobustan qaya təsvirlərinə, qədim Şabran şəhərinin qalıqlarına baxmış, bu abidələr barədə qiymətli mülahizələr söyləmişdir. –17.

**40. Tarya Halonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə – Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidentidir. – 17–18.

**41. Çexiya,** Ç e x i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 18–19,226.

**42. Vatslav Klaus** (d.1941) – 2003-cü ildən Çexiya prezidenti. – 18–19.

**43. Boris Tarasyuk** (d.1949) – sovet və Ukrayna diplomatı. 2003-cü ildən Ukrayna Xalq Partiyasının sədridir. 1998–2000 və 2005–2007-ci illərdə Ukrayna Xarici İşlər naziri olmuşdur. – 20–21.

**44. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 20,21,120,134,135,240,241,244.

**45. Gürcüstan,** G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 22,63,65,66,70,86,95–96,102,113,115,116,119,130, 131,180–181,185,242,305,331,337,340.

**46. Mixeil Saakaşvili** (d.1967) – hüquqşünas. 2003-ci ildən Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 22,95–96,113,119,121,181,242.

**47. İordaniya,** İ o r d a n i y a  H a ş i m i l ə r  K r a l l ı- ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət

başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. – 23.

**48. II Abdulla,** A b d u l l a b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniyanın kralıdır. II Abdulla kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 23.

**49. Ülkər Başbuğ** (d.1943) – ordu generalı. 2008-2010-cu illərdə Türkiyə Silahlı Qüvvələri Baş qərargahının rəisi olmuşdur. – 24–25.

**50. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 24,25,97–98,113,119,121,129.

**51. Hilmi Özkök** (d.1940) – ordu generalı. 2006–2008-ci illərdə Türkiyə Respublikası Silahlı Qüvvələri Baş qərargahının rəisi olmuşdur. –24,25.

**52. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 26–27,57,105,108,109,114,161,190,217,245,265, 328.

**53. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 27,104,116,190,260,286,287,288,289, 291,292,293.

**54. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 28–43,47,48,54,55,64.

**55. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talessimiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahı xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub

saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 28,38,39,41,43,44,48,89–90,129, 131,154,186,196,212,213,214.

**56. Eldar Əzizov.** E l d a r Ə z i z o ğ l u (d. 1957) – 2000-ci ildə Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin, 2003–2011-ci illərdə Gəncə Şəhər İcra Hakimiyyətinin, 2011-ci ildən isə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısıdır. – 28,36.

**57. Cahangir Əsgərov,** C a h a n g i r C ə l a l o ğ l u (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 28.

**58. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil

dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu

prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 30,32,38,44,45,46,47,48,49,56,62,68,82,89–90,92,93,97,100,114,116,118,119,120,121,122–123,127,131,132, 146,154,156,157,159,160,165,186,188,190,220–224,227–228, 232,236,237,238,253,260,262,265,271,272,273–276,279,281,286, 291,292,297,305,310–317,325,326,327.

**59. «Şahdəniz»** – Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 35,336.

**60. Cavad xan** (?- 1804) – Gəncə xanı (1785–1804), Ziyadoğluları nəslindən idi. Cavad xan dövründə Qazax, Borçalı, Şəmsəddil, Şamxor və s. yerlər Gəncə xanlığına daxil idi. Gürcüstan Rusiyaya birləşdikdə (1801) Cavad xan Şəmsəddilin qoşununu 29 kəndini Gəncə xanlığına qatdı. 1803-cü ilin noyabrında çar generalı P.D.Sisianovun komandanlığı ilə Gəncəyə qoşun göndərildi. P.D.Sisianovun tabe olmaq tələbini rədd edən Cavad xan döyüşdə qəhrəmancasına həlak oldu. – 38–39,40,41.

**61. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası fəaliyyət göstərir. Fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 39,89–90,154,212.

**62. Şah Abbas məscidi** – Gəncə cümə məscidi – Azərbaycan memarlıq abidəsi. 1606-cı ildə Azərbaycan alim və memarı Şeyx Bəhaəddin tərəfindən inşa edilmişdir. Məscid minbərinin üzərində oyma bəzəkləri olan ağac şəbəkələri şəbəkəçilik sənətinin nadir nümunələrindəndir. – 40–41.

**63. Şeyx Bəhaəddin –** XVI əsrin 2-ci yarısı –XVII əsrin əvvəllərində yaşamış Azərbaycan memarı. Gəncənin XVII əsrin əvvəllərində tikilmiş mərkəzi ansamblının müəllifidir. Bu ansambla daxil olan Cümə məscidinin üzərindəki kitabədə

abidənin 1606-cı ildə (hicri 1015) tikildiyi göstərilmişdir. Şeyx Bəhaəddin həm də alim olmuşdur. Onun dini tərbiyəvi əhəmiyyətli əsərinin bir hissəsi dövrümüzədək qalmışdır. – 40.

**64. Qurani–Şərif,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 40.

**65. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 43,93,168.

**66. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə»

müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 43,221.

**67. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ)** – 1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) dünyanın 11 iri neft şirkəti daxildir. – 44,123,255.

**68. Goranboy** (1991-ci ilə qədər Qasım İsmayılov) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1231 $km^2$, əhalisi 88,7 min nəfərdir. – 44–56,159,266,267,281,282,283.

**69. Səttar Bəhlulzadə,** Səttar Bəhlul oğlu (1909–1974) – böyük Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri. Azərbaycan Respublikası əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq rəssamı. Onun əsərlərində doğma torpağa və onu dəyişdirən zəhmət adamlarına hədsiz məhəbbət motivləri başlıca yer tutur. Azərbaycanın səfalı guşələri onun lirik mənzərələrində real əksini tapmışdır. Bəhlulzadənin mənzərələrində poetik əhvali-ruhiyyə və kompozisiya quruluşu, işlətdiyi boyalarda isə kolorit gözəlliyi çox güclüdür. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. – 45.

**70. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 56,145–147,148–154.

**71. Məmmədəmin Rəsulzadə** (1884–1955) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli ictimai-siyasi və dövlət xadimi, publisist, Müsavat partiyasının yaradıcılarından biri. Onun Azərbaycanın milli-azadlıq hərəkatında müstəsna rolu olmuşdur.1922-ci ildən mühacirətdə yaşamış, 1955-ci ildə Ankarada vəfat etmişdir. – 56.

**72. Ümumdünya Gömrük Təşkilatı** (ÜGT) – dövlətlərarası beynəlxalq təşkilat. ÜGT-na, demək olar kı, bütün dünyanın gömrük xidməti daxildir. ÜGT beynəlxalq ticarətin 98%-nə

nəzarət edir. 1953-cü ildə yaradılmışdır. Mənzil-qərargahı Brüsseldədir (Belçika) – 57–59.

**73. Mişel Dane** (d.1941) – hüquqşünas. 1999–2008-ci illərdə Ümumdünya Gömrük Təşkilatının Baş katibi olmuşdur. – 57–59.

**74. İqtisadi Əməkdaşlıq Təşkilatı**. – Qərargahı Tehrandadır. 1992-ci ildən Azərbaycan Respublikası bu beynəlxalq təşkilatın üzvüdür. – 58.

**75. Asxat Orazbay** (d.1960) – Fövqəladə və Səlahiyyətli səfir. 1992-ci ildən Qazaxıstan Xarici İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə çalışır. 2004–2006-cı illərdə İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi olmuşdur. – 58.

**76. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 62,106,114, 115,117,122,126,129,187.

**77. Bakı– Tbilisi – Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 420 mm, uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 63,152, 190,210,243,305,337.

**78. Qazaxıstan,** Qazaxıstan Respublikası – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 63,77–94,109,110,113,119,122,185,335,336,339.

**79. Nursultan Nazarbayev,** Nursultan Abiş oğ-lu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-cı illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-in prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 63,77–94,113.

**80. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 600 nəfərdən artıq azərbaycanlı qəddarcasına öldürülmüş, 150 nəfər itkin düşmüş, yüzlərlə şəhər sakini yaralanmışdır. – 66.

**81. İran,** İran İslam Respublikası – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 66,87,185,294,320,336, 338,339.

**82. «Gellap İnternasional»** – 1935-ci ildə Corc Gellap tərəfindən yaradılmış Amerika İctimai Rəy İnstitutu. Qərargahı Vaşinqtondadır. İnstitut müntəzəm olaraq əhali arasında daxili və xarici siyasət haqqında rəy sorğusu keçirir. Beynəlxalq aləmdə çox böyük nüfuza malikdir. – 69,329,331.

**83. Monqolustan,** Monqolustan Respublika-sı – Mərkəzi Asiyada dövlət. Sahəsi 1566 min km$^2$, əhalisi 2,3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka, Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan Batordur. – 74.

**84. Ümumdünya Poçt İttifaqı** – Beynəlxalq dövlətlərarası təşkilat. 1948-ci ildə BMT tərəfindən poçt xidmətini təkmilləşdirmək və beynəlxalq aləmdə əməkdaşlığı genişləndirmək məqsədilə yaradılmışdır. 1874-cü ildə Ümumi Seçki İttifaqı kimi əsası qoyulmuşdur. – 75–76.

**85. YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 89,154,212.

**86. TRASEKA,** T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i -z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 92,199,210.

**87. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b -l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 99–100,104,111,185,269.

**88. Gerhard Şröder** (d.1944) – Almaniyanın dövlət və siyasi xadimi. 1980-ci ildən Almaniya Bundestaqının üzvü, 1990–98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir-prezidenti, 2000–06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 99,100.

**89. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i- m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avro-

pada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 104,120,122,125,171,172,185,190, 247,255.

**90. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir**.** – 103,106,120,185.

**91. Almaniya Bundestaqı** – Almaniyada parlamentin aşağı palatası. – 99–100.

**92. Zərifə Əliyeva,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, prezident Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anası. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətləri-

nə görə Rusiya Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 100.

**93. Ernst ənd Yound** –İngiltərə auditor kompaniyası (auditor kompaniyalarının «böyük» dördlüyünə daxildir). 1989-cu ildə Artur Yanq (1906) tərəfindən yaradılan Auditor kompaniyasının əsasında yaradılmışdır. Kompaniyanın dünyanın 140 ölkəsində 695 qərargahı vardır. – 104.

**94. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 105,175–176,270,271.

**95. «Azad Avropa», «Azadlıq» radiostansiyası** – Şərqi Avropanın və başqa regionların bəzi ölkələrində verilişlər aparan ABŞ-ın dövlət radiostansiyası. İlkin mənzil-qərargahı Münhendədir. «Azad Avropa» verilişlərə 1950-ci ildən, «Azadlıq» isə 1953-cü ildən başlamışdır. – 105.

**96. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 105,106,115,188.

**97. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min bareldir. Supsada hər birinin tutumu 250 min barel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 105,106,115,188.

**98. «Transneft»** – Rusiya neft şirkəti. 1992-ci ildə yaradılmışdır. Şirkət xam neftin Rusiyanın neftayırma zavodlarına, eləcə də xarici ölkələrə nəql olunmasını təmin edir. «Transneft» Rusiya Federasiyası hökumətinin tam nəzarəti altındadır. – 106.

**99. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 106.

**100.** ***bp,*** «B r i t i ş P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 113,115,117,121,126–127,129,130,189.

**101. Con Braun** (d.1948) – «Britis Petroleum» şirkətinin prezidenti. 1969–83-cü illərdə Alyaskada, Nyu-Yorkda, Londonda neft və qazın çıxarılması və kəşfiyyatı istehsalı ilə məşğul olan böyük şirkətlərdə müxtəlif məsul vəzifələrdə çalışmışdır. – 113,17,121,126–127.

**102. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 114,118, 189,255.

**103. Devid Vudvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «*bp*–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Birləşmiş Ərəb Əmirliklərində, Norveç, Rusiya və ABŞ-da *bp* şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail» və «Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 118,123.

**104. Salome Zurabişvili** (d.1952) – 2004–2005-ci illərdə Gürcüstanın Xarici İşlər naziri olmuşdur. Fransa vətəndaşıdır. – 119.

**105. Tokayev Qasımcomərd** (d.1953) – Qazaxıstan dövlət xadimi, diplomat. 2002–2003-cü illərdə Qazaxıstan Respublikasının Xarici İşlər naziri və Dövlət katibi olmuşdur.

2007-ci ildə Parlament Senatının sədri, 2011-ci ilin martından BMT Baş katibinin müavini və BMT-nin Cenevrə şöbəsinin direktorudur. – 119.

**106. Hilmi Gülər** (d.1949) – türk siyasətçisi, texnika elmləri doktoru. Bir neçə dəfə Türkiyə hökumətlərində Enerji və Əlvan Metallurgiya naziri olmuşdur. TBMM-nin 22 və 23-cü çağırışlarında Ədalət və İnkişaf Partiyasından millət vəkilidir. – 119.

**107. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 120,322–323.

**108. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci

illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 120.

**109. Toni Bleyr,** E n t o n i  Ç a r l z  L i n t o n (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentin deputatı, 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail ilə Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 120,172,192,247.

**110. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min $km^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 120,138,139,185,194,270,340.

**111. Silvio Berluskoni (**d.1936) – 1994–95, 2001–2006 və 2008–2011-ci illərdə İtaliya Respublikası Nazirlər Şurasının sədri olmuşdur. – 120,139,194.

**112. Dzünitiro Koidzumı** (d.1942) – 2001–2006-cı illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 120.

**113. Endruyu,** Y o r k  H e r s o q u ,  ş a h z a d ə (d.1960) – Britaniya şahzadəsi, kontr-admiral. Britaniya kraliçası II Elizabetin ikinci oğlu. Kral ailəsinin üzvü olduğu üçün Böyük Britaniya gerbinə əsasən, öz xüsusi gerbi var. – 125,247.

**114. Karlo Adzelyo Çampi** (d.1920) – İtaliya siyasi xadimi. 1999–2006-cı illərdə İtaliya Respublikasının prezidenti olmuşdur. – 138.

**115. İsveç,** İ s v e ç  K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 450 min $km^2$, əhalisi 8,9 milyon nəfərdir. İnzibati ərazisi 24 lena bölünür.

Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (riksdaq). Paytaxtı Stokholmdur. – 140,141.

**116. Karl Qustav** XVI (d.1946) – 1973-cü ildən İsveç kralı. O həmçinin «Ümumdünya təbiət» fondunun prezidentidir. – 140.

**117. Yoran Persson** (d.1949) – İsveç siyasi və ictimai xadimi. 1996–2006-cı illərdə İsveçin Baş naziri olmuşdur. 1996-cı ildən İsveçin Sosial-Demokratik Partiyasına başçılıq edir. – 141.

**118. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix–filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 55 ixtisas üzrə 18 minə yaxın tələbə təhsil alır. – 145.

**119. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 146,211,259,260, 329.

**120. Şəki** (1968-ci ilədək Nuxa rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü

ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2397 km$^2$, əhalisi 132,5 min nəfərdir. – 160.

**121. Mustafa Kamal Atatürk,** Q a z i  M u s t a f a  K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 164–165.

**122. Nəriman Nərimanov,** N ə r i m a n  N ə c ə f  o ğ l u (1870–1925) – görkəmli dövlət xadimi, yazıçı və publisist, həkim. 1917-ci ildən Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil olur.

1920-ci il aprelin 27-də Azərbaycanda sovet hakimiyyətinin qələbəsi ərəfəsində Nərimanov qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərbaycan SSR XKS-nin sədri seçildi. O, Azərbaycan xalqının maraqlarını müdafiə etdiyinə görə 1922-ci ildə Moskvaya çağırılır və SSRİ-nin 1-ci Sovetlər qurultayında (1922) SSRİ MİK-nin sədri seçilir. – 166.

**123. P u t i n  V l a d i m i r  V l a d i m i r o v i ç** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya

hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 166, 169,216,222,224,227,228,232,304.

**124. Filippin,** F i l i p p i n  R e s p u b l i k a s ı – Cənub–Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min km$^2$, əhalisi 71,8 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqan ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Maniladır. – 170.

**125. Qloriya Makappaqal Arroyo** (d.1947) – 2001-ci ildən indiyə qədər Filippin prezidenti. Ölkə tarixində ilk prezident qadın. Keçmiş prezident Diosalado Makapaqalın qızı. İqtisad elmləri doktoru. – 170.

**126. II E l i z a b e t** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georgin ölümündən sonra taxt-taca sahib olmuşdur. – 171.

**127. Arturas Paulauskas** (d.1953) – Litva hüquqşünası; siyasi xadim. 2000–2004 və 2004–2006-cı illərdə Litva Seyminin (parlament) sədri olmuşdur. – 178–179.

**128. Litva seymi** – 1922–40 və 1992-ci ildən sonra parlamentdə aşağı palata. – 179.

**129. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h ş ü k ü r  H ü m m ə t  o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 181.

**130. Erix Fayql** (1931–2007) – Avstriya yazıçısı, jurnalist, sənədli filmlər rejissoru, kinoprodüsser. Əsasən Avstriya (ORF) və Bavariya (BR) telekanalları üçün 60 sənədli film çəkmiş, Almaniya (ZDF) və Türkiyə (TRT) ilə əməkdaşlıq etmişdir.

Habsburqlar sülaləsi, Avstriya, «ermənilərin soyqırımını» edən Türkiyə və Azərbaycanın tarixi haqqında kitabların müəllifidir. Fayql 1984-cü ildə erməni soyqırımını tanımadığını bildirən «A Muth of Terror: Armenian Ektremism: İts Causes and İts Historial Context» kitabının müqəddiməsində erməni terrorçu ASALA qrupu tərəfindən Avstriyada Türkiyə diplomatı Ərdoğan Özenin qətlə yetirildiyini sübut etdikdən sonra şöhrət qazanmışdır. – 182–183.

**131. Dağıstan,** D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km$^2$, əhalisi 2094,6 min nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 184.

**132. Məhəmmədəli Məhəmmədov** (d.1930) – Rusiya dövlət və siyasi xadimi. 1983–2006-cı illərdə Dağıstan Respublikasının müxtəlif məsul vəzifələrində çalışmış və 2006–2010-cu illərdə Dağıstan Dövlət Şurasının sədri olmuşdur. – 184.

**133. Lüksemburq,** B ö y ü k L ü k s e m b u r q H e r -s o q l u ğ u – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 415 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar palatasıdır. Paytaxtı Lüksemburqdur. – 185,235,236.

**134. Eksson–Mobil** – amerikan şirkəti. Dünyada ən böyük özəl neft şirkətlərindən biri. Neftin çıxarılması, istehsalı və paylanması ilə məşğuldur. – 185.

**135. Azərbaycan Ticarət və Sənaye Palatası** – 1960-cı ildən fəaliyyət göstərir. Azərbaycanın dünyanın müxtəlif ölkələri ilə ticarət, iqtisadi və elmi-texniki əlaqələrinin inkişafına kömək edir. 1980-ci ildə palata istehsalın və beynəlxalq əməkdaşlığın inkişafında əldə etdiyi müvəffəqiyyətlərə görə

«Qızıl Merkuri» beynəlxalq mükafatına layiq görülmüşdür. – 185.

**136. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 3,3 milyon $km^2$, əhalisi 953 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 193.

**137. Manmohan Sinqh** (d.1932) – 2005–2006, 2006–2009-cu illərdə Hindistanın 14-cü Baş naziri olmuşdur. – 193.

**138. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min $km^2$, əhalisi 4,8 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqrebdir. – 196–214, 249.

**139. Zaqreb** – Xorvatiyanın paytaxtı. Sava çayı sahilindədir. Zaqreb tarixi-memarlıq abidələri ilə zəngindir. Zaqrebdə hər il beynəlxalq yarmarkalar keçirilir. – 196–214.

**140. Mesiç Stipe** (d.1934) – hüquqşünas. 2000–08-ci illərdə Xorvatiya Respublikasının prezidenti olmuşdur. – 196–197,198–200,201–206,209–211,249.

**141. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Havyer Solana ilə görüşündə Azərbaycan Respublikasının

təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 199,210,307,316.

**142. Dünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 199.

**143. İNOQEYT** – neft və qazın Avropaya ixracı proqramı. – 199.

**144. Yuqoslaviya hadisələri** – 1980-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Monteneqro Yuqoslaviya Respublikasını yaratdılar. 1999-cu ildə Serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları şerblərdən qorumaq üçün Kosovaya girdi. 2006-cı ildə keçirilən referendum nəticəsində Monteneqro da Serbiyadan ayrıldı və müstəqil dövlət yaratdı. – 204.

**145. Bosniya və Hersoqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikası tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında

(müsəlman, serb və xorvat) milli-dini zəmində qarşıdurma yarandı və qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında şaziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə, Birləşmiş Bosniya–Hersoqovinadan ibarət federativ respublika yarandı. – 204.

**146. Vladimir Şeks** (d.1943) – Xorvatiya siyasi xadimi və hüquq müdafiəçisi. 2003–2008-ci illərdə Xorvatiya parlamentinin sədri olmuşdur. – 207.

**147. İvo Sanader** (d.1953) – Xorvatiya dövlət və siyasi xadimi. 2003–2009-cu illərdə Xorvatiya hökumətinin başçısı olmuşdur. – 208.

**148. İpək Yolu**, B ö y ü k  İ p ə k  Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 210.

**149. Sankt-Peterburq** (1914-cü ilədək Sankt-Peterburq, 1924-cü ilədək Petro-qrad, 1991-ci ilədək Leninqrad) –1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzidir. Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. – 215–234,304.

**150. Valentina Matviyenko** (d.1949) – Rusiya dövlət xadimi. 1998–2003-cü illərdə Rusiya Federasiyası Baş nazirinin birinci müavini, 2003-2011-ci illərdən Sankt-Peterburqun qubernatoru olmuşdur. Hal-hazırda Rusiya Federasiya Şurasının sədridir. – 215,224,232.

**151. Ramiz Rizayev,** R a m i z H ə s ə n q u l u o ğ l u (d.1939) – kimyaçı, kimya elmləri doktoru, professor. AMEA-nın müxbir üzvü. 1993–2007-ci illərdə Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 215.

**152. Qüdsi Osmanov** (d.1946) – Səlahiyyətli və Fövqəladə səfir, Azərbaycan diplomatı, Sankt-Peterburqda 1997–2004-ci illərdə Azərbaycan Respublikasının fəxri konsulu, 2004-cü ildən Baş konsuludur. – 215,226–227.

**153. Ruşaylo Vladimir** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildən Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildən nazir, 2001-ci ildə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 220.

**154. Azərbaycan Beynəlxalq Bankı (ABB)** – 1992-ci ildə Xarici İqtisadi Bankın əsasında yaradılmışdır. ABB beynəlxalq və daxili bazarda mövcud olan bütün bank xidmətlərini yerinə yetirir. – 225.

**155. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 226.

**156. Anri** (d.1955) – 1998-ci ildən Lüksemburq Hersoqluğunun hökumət naibi, 2000-ci ildən isə böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 235.

**157. Jan – Klod Yunker (d.1954) –** 1995-ci ildən Lüksemburqun Baş naziri, 1989–2009-cu illərdə Maliyyə naziri və Avropa qrupunun başçısıdır. – 236.

**158. Kiyev** – Ukrayna Respublikasının paytaxtı. VI əsrdə salınmışdır. IX–XII əsrlərdə Kiyev Rus dövlətinin mərkəzi idi. 1654-cü ildə Ukrayna Rusiya ilə yenidən birləşdikdən sonra Kiyev Ukraynanın iqtisadi və mədəni mərkəzi kimi inkişaf etmişdir. 1934-cü ildə Ukraynanın paytaxtı Xarkovdan Kiyevə köçürüldü. Kiyev Ukraynanın ən iri sənaye, mədəniyyət və elmi mərkəzidir. – 240–246.

**159. Vladimir Voronin** (d.1941) – Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti olmuşdur. – 242.

**160. Venesiya Komissiyası –** 1990-cı ildə Avropa Şurasında Konstitusiya qaydalarına uyğun – hüquqi demokratiya uğrunda rəsmi Avropa Komissiyası – konsultativ orqan yaradıldı. 2002-ci ildən Avropa Şurasına daxil olmayan ölkələr də bu komissiyada iştirak edə bilərlər.

Hər bir iştirakçı ölkə komissiyaya 4 il müddətinə bir ekspert təyin edir. Ekspertlər dövlət nümayəndəsi kimi yox, müstəqil mütəxəssis kimi işləməlidir. Qaydaya görə tam halda ildə dörd sessiya keçirilir. Sessiyalar Venesiyada olur. 2010-cu ildə

komissiyada AŞ-nın 47 üzv - ölkəsi var idi. Komissiyanın sədri Canni Bukikkiodur (İtaliya). –

Komissiyanın əsas işi – iştirakçı ölkələrin Konstitusiya hüquqlarına aid qanunlarının və qanun layihələrinin analizi, həmçinin standart seçkilər və azlıqların hüquqlarının müdafiəsidir. – 248.

**161. Sloveniya,** S l o v e n i y a   R e s p u b l i k a s ı – Mərkəzi Cənubi Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 1,96 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyandır. – 250.

**162. Yanez Drnovşek** (1950–2008) – Yuqoslaviya və Sloveniya siyasətçisi. 1992–2000,2000–2002-ci illərdə Baş nazir, 1989–1990-cı illərdə Yuqoslaviya Ali Məclisinin sədri, 2002–2007-ci illərdə Sloveniya prezidenti olmuşdur. – 250.

**163. Mozambik,** M o z a m b i k   R e s p u b l i k a s ı – Cənub–Şərqi Afrikada dövlət. Sahəsi 802 min km$^2$, əhalisi 17,9 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Respublika Assambleyasıdır. Paytaxtı Maruti. – 251.

**166. «Əkinçi»** – Azərbaycanda ilk milli qəzet. 1875–77-ci illər Bakıda (iki həftədən bir) nəşr edilmişdir. İlk nömrəsi 1875-ci il iyulun 22-də çıxmışdır. Cəmi 56 nömrə (1875-ci ildə 12, 1876-cı ildə 24, 1877-ci ildə 20) buraxılmışdır. Azərbaycanda dövri mətbuatın başlanğıcı sayılan «Əkinçi»nin banisi, redaktoru, naşiri, korrektoru, bəzən də mürəttibi H.Zərdabi olmuşdur. «Əkinçi» elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriyyətinə aid materiallar dərc edirdi. «Əkinçi»nin ətrafına toplaşmış mütərəqqi ziyalılardan M.F.Axundov, S.Ə.Şirvani, Nəcəf bəy Vəzirov, Ə.Gorani və başqaları qəzetdə fəal iştirak etmiş, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər. Çar

senzurası tərəfindən təqib olunan «Əkinçi»nin nəşri 1877-ci ilin sentyabrında dayandırılmışdır. – 252.

**164. Həsən bəy Zərdabi,** M ə l i k o v H ə s ə n b ə y S ə l i m b ə y o ğ l u (1842–1907) – Azərbaycan maarifçi-demokrat, təbiətşünas alim, publisist və pedaqoq. H.Zərdabi Azərbaycan professional teatrının yaradıcılarındandır. O, Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani ilə birlikdə 1873-cü ildə M.F. Axundovun «Hacı Qara» pyesini tamaşaya qoymuşdur.

Azərbaycan demokratik mətbuatının banisi olan Zərdabi «Əkinçi» qəzetini nəşr etdirmişdir (1875–77). «Əkinçi» qəzetini nəşr etməsi ilə Zərdabi Azərbaycan xalqının maariflənməsinə çox böyük xidmət göstərmişdir. – 252.

**165. Natiq Əliyev,** N a t i q A g a ə l i o ğ l u (d.1947) – 1993–2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir.

I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 255.

**166. Saatlı** – Azərbaycan Respublikasında inzibati rayon. 1943-cü ildə təşkil olunmuşdur. 1963-cü ildə ləğv edilib ərazisi Sabirabad rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1135 km$^2$, əhalisi 58,9 min nəfərdir. – 261,295.

**167. Sabirabad** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1598 km$^2$, əhalisi 140,6 min nəfərdir. – 261,295.

**168. Əli Həsənov,** Ə l i Ş a m i l o ğ l u (d.1948) – mühəndis-mexanik. 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 262–303.

**169. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 km$^2$, əhalisi 101,6 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri

tərəfindən işğal edilmişdir. – 260,265,267, 269,276,277,278,279,281,287,288,291,300.

**170. Biləsuvar** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1938-ci ilədək Biləsuvar rayonu, 1938-ci ildən Puşkin rayonu adlanmışdır. 1963-cü ildə ləğv edilərək ərazisi Cəlilabad rayonu ilə birləşdirilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. SSRİ-nin süqutundan sonra – 1991-ci ildə rayona öz tarixi adı qaytarılmışdır. Sahəsi 1393 km$^2$, əhalisi 78,0 min nəfərdir. – 265, 267,288,291,297.

**171. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1386 km$^2$, əhalisi 80,2 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 265,267,271,288,292,295,296,300.

**172. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1050 km$^2$, əhalisi 45,8 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 265,293,295,297,299,300.

**173. Şəmkir** (1930–91-ci illərdə Şamxor rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Kiçik Qafqazın şimal–şərq yamacında, Gəncə–Qazax düzənliyində və Acınohur öndağlığında yerləşir. Sahəsi 1656,8 km$^2$, əhalisi 183,5 min nəfərdir. –

**174. Ağcabədi** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib. Ərazisi Ağdam rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1756 km$^2$, əhalisi 110,4 min nəfərdir. – 268,269,277,288,293.

**175. Bərdə** – Azərbaycan Respublikasında rayon.1930-cu ildə təşkil edilmişdir. SAhəsi 957 km$^2$, əhalisi 132,9 min nəfərdir. – 260,268,269,277,288.

**176. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bö-

lüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 269, 280, 296.

**177. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal–qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 231,1 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 280.

**178. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı zəbt etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 271.

**179. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılmışdır. Mənzil qərargahı Maniladadır (Filippin). Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük auksionerləri Yaponiya, ABŞ, Çindir. – 271.

**180. Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 273,278,283,330.

**181. Müsavat partiyası** – 1911-ci ildə Bakıda yaradılmışdır. 1920-ci ildə Bakıda fəaliyyəti qadağan edilib. 1992-ci ildən yenidən fəaliyyətə başlayıb. – 273,278,283,330.

**182. Samir Şərifov,** S a m i r R a u f o ğ l u (d.1961) – iqtisadçı. 2006-cı ildən Azərbaycan Respublikasının Maliyyə naziridir. – 286.

**183. Qubadlı** – Azərbaycan Respublikasında inzibati rayon. 1933-cü ildə təşkil edilmişdir. Sahəsi 802 $km^2$, əhalisi 27,2 min nəfər. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal olunmuşdur. – 293.

**184. Zəngilan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 707 $km^2$, əhalisi 28,4 min nəfər. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 293.

**185. Dmitri Medvedyev** (d.1965) – Rusiya dövlət və siyasi xadimi, Rusiya Federasiyasının 2008–2012-ci illərdə prezidenti, 2012-ci ilin may ayından Baş naziridir. – 304.

**186. Yaap de Hoop Sxeffer (**d.1948) – Niderland siyasi xadimi. – 306.

**187. Pol Martin** (d.1938) – Kanada siyasi xadimi və biznesmen. 2003–2006-cı illərdə Kanadanın Baş naziri olmuşdur. – 308.

**188.** E**drienn Klarkson** (d.1939) – Kanada jurnalisti və siyasi xadimi. 1999–2005-ci illərdə Kanadanın general-qubernatoru olmuşdur. – 309.

**189. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min $km^2$, əhalisi 10442 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 318.

**190. Lukaşenko Aleksandr Qriqoryeviç** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 318.

**191. Venesuela Respublikası** – Cənubi Amerikanın şimalında dövlət. Sahəsi 916,4 min km$^2$, əhalisi 22,3 milyon nəfərdir. Venesuela – federasiya 21 ştata bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir (Deputatlar palatası və Senat). Paytaxtı Karakasdır. – 319

**192. Huqo Rafael Çaves Frias** (d.1954) – 1999-cu ildən Venesuela prezidenti. – 319.

**193. Səfər Əbiyev,** Səfər Axundbala oğlu (d.1950) – general-polkovnik. 1995-ci ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. – 310–317.

**194. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatıdır. – 313.

**195. Mahmud Əhmədinejad** (d.1956) – 2005-ci ildən İran İslam Respublikasının prezidenti. Xarici siyasətdə ABŞ ilə münasibətlərin olduğu kimi qalmasını və heç bir güzəştə gedilməməsini müdafiə edir, BMT-ni fəaliyyətsizlikdə ittiham edir və İranın nüvə proqramının həyata keçirilməsinin labüd olduğunu bildirir. – 320.

**196. Cavad Heyət,** Cavab Əli oğlu (d.1925) – dünya şöhrətli həkim, filosof, istedadlı dilçi, görkəmli ədəbiyyatşünas və publisist. C.Heyət əsasən cərrahlıqla məşğul olur, elmi-təcrübi araşdırmalar aparır, müasir cərrahlıqda bir sıra nadir cərrahi əməliyyatları uğurla başa çatdırmışdır. O, 1979-cu ildən İran İslam Respublikasında Azərbaycan dilində «Varlıq» jurnalını nəşr edir. Cavad Heyət Paris Cərrahlıq Akademiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının üzvüdür. – 321.

## Şəxsi adlar göstəricisi

**Abdulla II** – 23
**Abutalıbov Hacıbala** – 5
**Adamkus Valdas** – 14–15
**Arroyo Qloriya** – 170
**Assimani Azali** – 324
**Atatürk Mustafa Kamal**– 164–165
**Ayyar Mani** – 193
**Bağırov Qalib** – 39
**Barnyö Mişel** – 6
**Başbuğ Ülkər** – 24–25
**Berluskoni Silvio** – 120,139,194
**Bəhlulzadə Səttar** – 45
**Bleyr Toni** – 120,172,192,247
**Bodman Samuel** – 113,119,124
**Bökən Əhməd** – 60–71
**Braun Con** – 113,117,121,126–127
**Bryuqman Matias** – 101–112
**Bukikkio Canni** – 248
**Buş Corc** – 120,322–323
**Bundevik Kyel** – 17,120,136
**Cavad xan** – 38–39,40,41
**Çampi Abzelyo** – 138
**Çeçelaşvili Valeri** – 305
**Dane Mişel** – 57–59
**Dayan Eduard** – 75–76
**Devis Terri** – 9–10,18
**Douset-Koirolo Donna** –175–176
**Drnovşek Yanez** – 250
**Dubnov Arkadi** – 101–112
**Enxbayar Nambarin** – 74
**Elizabet II** – 171
**Endruyu** (*York şahzadəsi*) – 125,247
**Enxbayar Nambarin** – 74
**Əbiyev Səfər** – 310–317
**Əhmədinejad Mahmud** – 320
**Əl-Tuveycri Əbdüləziz** – 155–156

**Əliyev Fərhad** – 258–303
**Əliyev Heydər** – 30,32,38,44,45,46,47,48,49, 56,62,68,82,89–90,92,93,97, 100,114,116,118,119,120,121, 122–123,127,131,132,146,154, 156,157,159,160,165,186,188, 190,220–224,227–228,232, 236,237,238,253,260,262,265, 271,272,273–276,279,281,286, 291,292,297,305,310–317,325, 326,327
**Əliyev Natiq** – 255
**Əliyev Tələt** – 240
**Əliyeva Mehriban** – 28,38,39,41,43,44,48,89–90, 129,131,154,186,196,212, 213,214
**Əliyeva Zərifə** – 100
**Ərdoğan Rəcəb Tayyib** – 7–8,24,68,325
**Əsgərov Cahangir** – 28
**Əzizov Eldar** – 28,36
**Fayql Erix** – 182–183
**Ferrero-Valdner Benita** – 15–16
**Fişer Piter** – 101–112
**Fol Brayan** – 247
**Freyzer** – 192
**Frias Huqo** – 319
**Gəncəvi Nizami** – 43,221
**Gebuza Armandu** – 251
**Gülər Hilmi** – 119
**Hacı Tahir** – 40
**Hacıyev Cahangir** – 225
**Halonen Tarya** – 17–18
**Haşımova Şahnaz** – 38
**Heyerdal Tur** – 17
**Heyət Cavad** – 321
**Heyql Çarlz** – 173–174
**Həsənov Əli** – 258–303
**Hom Fil** – 255
**Hüseynov Pənah** – 278

**İbrahimov Kərəm** – 46–47
**İlian II** – 180–181
**İtiye İsikava** – 101–112
**Jilkin Aleksandr** – 166–167
**Karstens Manfred** – 99–100
**Klarskon Edrienn** – 309
**Klaus Vatslav** – 18–19
**Kramarenko Vitali** – 26–27
**Kolston Con** – 306–307
**Koidzumi Dzünitiro** – 120
**Köçəryan Robert** – 68
**Krauç Syuzan** – 187
**Kvasnevski Aleksandr** – 9–10,17
**Qaraca Hidayət** – 60–71
**Qasımova Kəmalə** – 45
**Qəndilov Lətif** – 77
**Qolan Cianni** – 157–158
**Qustav Karl XVI** – 140
**Quliyev Mahmud** – 258–303
**Lavrov Sergey** – 6
**Lemyer Jan** – 226
**Linden Rene** – 16
**Lozbenko Leonid** – 58
**Lukaşenko Aleksandr** – 318
**Martin Pol** – 308
**Matviyenko Valentina** – 215,224,232
**Medvedyev Dmitri** – 304
**Mehdiyev Ramiz** – 5
**Mesiç Milka** – 211,212
**Mesiç Stipe** – 196–197,198–200,201–206, 209–211,249
**Məlikov Əlixan** – 258–30
**Məhəmmədov Məhəmmədəli** – 184
**Məmmədyarov Elmar** – 6,77,119
**Moisiu Alfred** – 16
**Muxtarov Nəbi** – 258–303
**Nazarbayev Nursultan** – 63,77–94,113
**Neyman Yan** – 220
**Nərimanov Nəriman** – 166

**Novruzov Novruz** – 44,258–303
**Orazbay Asxat** – 58
**Osmanov Qudsi** – 215,226–227
**Ovens Tom** – 177
**Özkök Hilmi** – 24,25
**Özkurt Əli** – 42
**Paşazadə Allahşükür** – 181
**Paulauskas Arturas** – 178–179
**Persson Yoran** – 141
**Pibalqs Andris** – 113,128
**Piriyev Heydər** – 310–317
**Pirverdiyev Etibar** – 258–303
**Provera Fiorello** – 194
**Putin Vladimir** – 166,169,216,222,224,227, 228, 232,304
**Rasizadə Artur** – 5,77
**Raynxardt Albert** – 101–112
**Remi Dominik** – 137
**Reyman Leonid** – 75–76
**Rəsulzadə Məmmədəmin** – 56
**Rizayev Ramiz** – 215
**Ruşaylo Vladimir** – 220
**Rüyütel Arnold** –246
**Rzayev Rauf** – 258–303
**Rzayev Sahib** – 41
**Saakaşvili Mixeil** – 22,95–96,113,119,121,181, 242
**Sanader İvo** – 208
**Saray Mehmed** – 164–165
**Sarıyev Həsən** – 258–303
**Sezər Əhməd Necdət** – 24,25,97–98,113,119,121, 129
**Sxeffer Yaap** – 306
**Simpson Emma** – 101–112
**Sinqh Manmohan** – 193
**Sobotka Prşemisel** – 226
**Şeks Vladimir** – 207
**Şeyx Bəhaəddin** – 40
**Şərifov Samir** – 258–303

**Şərifov Şərif** – 38
**Şirak Jak** – 120
**Şröder Gerhard** – 99,100
**Şukrutov Andar** – 77
**Tarasov Sergey** – 220–224
**Tarasyuk Boris** – 20–21
**Tokayev Qasımcomərd** – 119
**Tural Sadiq Kamal** – 164–165
**Voronin Vladimir** – 242
**Vudvord Devid** – 118,123
**Yunker Jan-Klod** – 236
**Yusifov Mübariz** – 38
**Yuşşenko Viktor** – 20,21,120,134,135,240,241, 244
**Zəngin Gürkan** – 325–342
**Zərdabi Həsən bəy** – 252
**Zurabişvili Salome** – 119

## Coğrafi adlar göstəricisi


**Abşeron** – 226
**Afina** – 158
**Ağcabədi** – 268,269,277,288,293
**Ağdam** – 260,265,267,269,276,277, 278,279,281,287,288,291,300
**Albaniya** – 16
**Alxanlı** – 293
**Almaniya** – 99–100,104,111,185,269
**Amerika Birləşmiş Ştatları** – 9,41,65,66,107,108,111,113, 115,117,119,120,122,124, 173–174,177,185,270,322–323,326, 331,332,341
**Ankara** – 143
**Aralıq dənizi** – 87
**Araz çayı** – 294
**Asiya** – 29,90,185
**Aşağı Ağcakənd** – 281,282,285,291
**Avropa** – 9,10,15,16,18,29,43,90,111, 112,178,183,185,203,206, 210,245,247,268,293,326, 330,336,337,338,339,340
**Avstriya** – 10,11,12,182–183,185,340
**Ayaqqərvənd** – 278
**Baharlı I** – 278
**Baharlı II** – 278
**Bakı** – 16,19,22,23,29,36,37,50,57, 58,59,64,73,74,113,114,138, 139,140,141,142,143,144,

159,160,164,168,169,170, 171,172,179,184,185,192, 195,223,228,232,234,247, 248,249,250,251,254,268, 270,271,280,292,296,306, 308,309,318,319,320,323, 324,325
**Bala Bəhmənli** – 294
**Balkan** (*yarımada*) – 203,338
**Baş Göynük** (*Şəkidə kənd*) – 160
**Belarus** – 318
**Belçika** – 10
**Berlin** – 112
**Beyləqan** – 269
**Bəhreyn** – 185
**Bərdə** – 260,268,269,277,288
**Biləsuvar** – 265,267,288,291,297
**Birləşmiş Ərəb Əmirlikləri** – 185,270
**Bosniya və Hersoqovina** – 204
**Böyük Britaniya** –10,104,120,122,125,171,172, 185,190,247,255
**Braziliya** – 185
**Brüssel** – 11,12,306
**Cenevrə** – 270
**Ceyhan** – 335
**Cəbrayıl** – 265,293,295,297,299,300
**Cənubi Qafqaz** – 12,15,199,203,211,315,329
**Çexiya** – 18–19,226
**Çin** – 185
**Dağıstan** – 184
**Dağlıq Qarabağ** – 6,8,12,13,15,18,33,41,46,50, 56,60,65,68,91,98,99,100, 143,151,153,164,194,198,205, 206,211,230,231,240,273,313,

315, 322,340
**Danimarka** – 185
**Estoniya** – 179,246
**Eyvazlı** – 278
**Əlcəzair** – 338
**Əli Bayramlı** – 296
**Ərzurum** – 63,336
**Filippin** – 170
**Finlandiya** – 10,17–18,185
**Fransa** – 6,65,120,185
**Füzuli** – 265,267,271,288,292,295, 296,300
**Gəncə** – 28–43,47,48,54,55,64
**Goran çayı** – 283
**Goranboy** – 44–56,159,266,267,281,282, 283
**Gürcüstan** – 22,63,65,66,70,86,95–96, 102,113,115,116,119,130, 131,180–181,185,242,305, 325,331,337,340
**Həsənxanlı** – 278
**Həştərxan** (*RF-də vilayət*) – 166–167
**Hindistan** – 193
**Horadiz** – 292,294,296
Xəzər dənizi – 80,87,88,14,122–123,185– 191,202,257,322,339
**Xorvatiya** – 185,196–214,249
**Xocavənd** – 271
**İordaniya** – 23
**İran** – 66,87,185,294,320,326,338, 339
**İslandiya** – 10
**İsveç** – 10,140,141
**İsveçrə** – 10,108,185
**İtaliya** – 120,138,139,185,194,270,

340
**Kamer adaları** – 324
**Kanada** – 9,308,309
**Kişinyov** – 14,21,241
**Kiyev** – 29,239–246
**Küveyt** – 270
**Kürəkçay** – 283
**Qafqaz** – 84,142,179,184,325
**Qara dəniz** – 86
**Qars** – 29
**Qaşaltı–Qaraqoyunlu** – 284
**Qazaxıstan** – 63,77–94,109,110,113,119, 122,185,335,336,339
**Qırğızıstan** – 70,331
**Qubadlı** – 293
**Latviya** – 179
**Litva** – 14–15,178–179,185
**London** – 112
**Lüksemburq** – 10,185,235,236
**Mehdiabad** – 266
**Mərkəzi Asiya** – 84
**Mineralnıye Vodı** – 29
**Mirzənağılı** – 293
**Moldova** – 14,178,241,334,338,24
**Monqolustan** – 74
**Moskva** – 60,76,222
**Mozambik** – 251
**Münhen** – 213
**Naxçıvan** – 29,64
**Norveç** – 10,17,120,136,185
**Orta Asiya** – 70
**Özbəkistan** – 70
**Paris** – 112
**Polşa** – 5–19,178
**Portuqaliya** – 10

**Praqa** – 6
**Roma** – 112
**Rostov** – 29
**Rumıniya** – 10,185
**Rusiya** – 6,53,65,66,75,86,87,88,103, 106,111,166–167,169,185, 215–234,304,305,326,327, 334,335,339
**Saatlı** – 261,295
**Sabirabad** – 261,295
**Sankt-Peterburq** – 29,215–234,304
**Serbiya** – 204
**Səudiyyə Ərəbistanı** – 155–156,185
**Sinqapur** – 185
**Sloveniya** – 250
**Strasburq** – 9
**Sumqayıt** – 280
**Suriya** – 338
**Şəfəq** *(Goranboyda kənd)* – 159
**Şəki** – 160
**Şəmkir** – 266
**Şərqi Avropa** – 72
**Şükürbəyli** – 293
**Tap-Qaraqoyunlu** – 284
**Tbilisi** – 305
**Tehran** – 87
**Təbriz** – 29
**Tirana** – 16
**Türkiyə** – 7–8,10,24–25,58,60–71,97–98,112,115,116,119,121,122, 130,131,142,143,164–165, 185,255,325–342
**Türkmənistan** – 87,338,339
**Ukrayna** – 10,20–21,120,134–135,240–246,325,331,334,338

**Varşava** – 5–19,55
**Vaşinqton** – 173
**Venesuela** – 319
**Volqoqrad** – 29
**Vyana** – 9
**Yaponiya** – 103,106,120,185
**Yuxarı Ağcakənd** –283,285
**Yuqoslaviya** – 204
**Yunanıstan** – 112,185,337
**Yüzbaşlı** – 278
**Zaqreb** – 196–214
**Zəngilan** – 293

# MÜNDƏRİCAT

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VARŞAVAYA SƏFƏRİ

*15 may 2005-ci il*..........5

ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANLA
GÖRÜŞ

*15 may 2005-ci il*..........6

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANLA
GÖRÜŞ

*15 may 2005-ci il*..........7

AVROPA ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN
DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ
ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞI

*16 may 2005-ci il*..........9

AVROPA ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT
VƏ HÖKUMƏT BAŞÇILARININ ÜÇÜNCÜ ZİRVƏ
GÖRÜŞÜNDƏ ÇIXIŞ

*16 may 2005-ci il*..........11

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSLA GÖRÜŞ

*16 may 2005-ci il*..........14

UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRİ
BORİS TARASYUK İLƏ GÖRÜŞ

*18 may 2005-ci il*..........20

GÜRCÜSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ

*18 may 2005-ci il*..........22

İORDANİYANIN KRALI ƏLAHƏZRƏT II ABDULLAYA

*18 may 2005-ci il*..........23

TÜRKİYƏ RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAH RƏİSİNİN MÜAVİNİ, ORDU GENERALI
ÜLKƏR BAŞBUĞ İLƏ GÖRÜŞ

*18 may 2005-ci il .......................................................................................24*

BEYNƏLXALQ VALYUTA FONDUNUN AZƏRBAYCAN ÜZRƏ MİSSİYASININ RƏHBƏRİ VİTALİ KRAMARENKO İLƏ GÖRÜŞ

*18 may 2005-ci il .......................................................................................26*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN GƏNCƏYƏ SƏFƏRİ

*19 may 2005-ci il .......................................................................................28*

GƏNCƏ BEYNƏLXALQ HAVA LİMANININ YENİDƏN QURULMASINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*19 may 2005-ci il .......................................................................................30*

YEKUN NİTQİ .......................................................................................*32*

GƏNCƏDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏ–
MUZEY KOMPLEKSİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*19 may 2005-ci il .......................................................................................38*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
GORANBOY RAYONUNDA

*19 may 2005-ci il .......................................................................................44*

GORANBOY RAYON AĞSAQQALLARI İLƏ GÖRÜŞ

*19 may 2005-ci il .......................................................................................46*

GORANBOY MƏRKƏZİ STADİONUNUN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*19 may 2005-ci il .......................................................................................49*

BAKIDA KEÇİRİLƏN II ÜMUMDÜNYA GÖMRÜK SƏRGİSİ VƏ FORUMUNDA İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*20 may 2005-ci il .......................................................................................57*

TÜRKİYƏNİN «SAMANYOLU» TELEVİZİYASININ BAŞ DİREKTORU HİDAYƏT QARACAYA VERDİYİ MÜSAHİBƏ

*20 may 2005-ci il* ........................................................................................................ *60*

MƏTBUAT ŞURASININ III QURULTAYINA

*20 may 2005-ci il* ........................................................................................................ *72*

MONQOLUSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB NAMBARİN ENXBAYARA

*23 may 2005-ci il* ........................................................................................................ *74*

RABİTƏ SAHƏSİNDƏ REGİONAL ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAKIDA KEÇİRİLƏN 33-cü İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*23 may 2005-ci il* ........................................................................................................ *75*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*24 may 2005-ci il* ........................................................................................................ *77*

AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN
GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*24 may 2005-ci il* ........................................................................................................ *79*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT NURSULTAN NAZARBAYEVİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*24 may 2005-ci il* ........................................................................................................ *82*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV
HEYDƏR ƏLİYEV FONDUNDA

*24 may 2005-ci il* ........................................................................................................ *89*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*24 may 2005-ci il* ........................................................................................................ *91*

GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN
HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS
İXRAC NEFT KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*24 may 2005-ci il* .......................................................................................... *95*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC NEFT KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*24 may 2005-ci il*............................................................................................ *97*

ALMANİYA FEDERATİV RESPUBLİKASI BUNDESTAQININ VƏ FEDERAL KƏŞFİYYAT XİDMƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 may 2005-ci il*............................................................................................ *99*

XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN KEÇİRDİYİ MƏTBUAT KONFRANSI

*24 may 2005-ci il* .......................................................................................... *101*

HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MÜNASİBƏTİLƏ SƏNGƏÇAL TERMİNALINDA KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*25 may 2005-ci il* .......................................................................................... *113*

XƏZƏR ENERJİ MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİ

*25 may 2005-ci il* .......................................................................................... *122*

ABŞ-ın ENERGETİKA NAZİRİ SAMUEL BODMAN İLƏ GÖRÜŞ

*25 may 2005-ci il* .......................................................................................... *124*

BÖYÜK BRİTANİYANIN KRAL AİLƏSİNİN ÜZVÜ, YORK HERSOQU ŞAHZADƏ ENDRUYU İLƏ GÖRÜŞ

*25 may 2005-ci il* .......................................................................................... *125*

*bp* ŞİRKƏTİNİN PREZİDENTİ LORD CON BRAUN İLƏ GÖRÜŞ

*25 may 2005-ci il* .......................................................................................... *126*

AVROPA KOMİSSİYASININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİBALQS İLƏ GÖRÜŞ

*25 may 2005-ci il* ........................................................................................................*128*

HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN NEFT BORU KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN TİKİNTİSİNİN TAMAMLANMASI VƏ AÇILIŞ MƏRASİMİ MÜNASİBƏTİ İLƏ AZƏRBAYCAN PREZİDENTİ ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*25 may 2005-ci il* ........................................................................................................*129*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC NEFT KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MÜNASİBƏTİLƏ MİLLİ PARKDA KEÇİRİLƏN ŞƏNLİKDƏ

*25 may 2005-ci il* ........................................................................................................*132*

UKRAYNANIN YANACAQ VƏ ENERGETİKA NAZİRİNİN BİRİNCİ MÜAVİNİ ALEKSEY İVÇENKO İLƏ GÖRÜŞ

*26 may 2005-ci il* ........................................................................................................*134*

NORVEÇ KRALLIĞININ DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ OLUF ULSET İLƏ GÖRÜŞ

*26 may 2005-ci il* ........................................................................................................*136*

BNP PARİ BANKININ ENERGETİKA, İXRAC VƏ LAYİHƏLƏR ÜZRƏ RƏHBƏRİ DOMİNİK REMİ İLƏ GÖRÜŞ

*26 may 2005-ci il* ........................................................................................................*137*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KARLO ADZELYO ÇAMPİYƏ

*26 may 2005-ci il* ........................................................................................................*138*

İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SİLVİO BERLUSKONİYƏ

*26 may 2005-ci il* ........................................................................................................*139*

İSVEÇİN KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*26 may 2005-ci il* ........................................................................................................*140*

İSVEÇ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YORAN PERSSONA

*26 may 2005-ci il* ..................................................................................*141*

«ERMƏNİ İDDİALARI VƏ AZƏRBAYCAN GERÇƏKLİYİ» İKİNCİ BEYNƏLXALQ SİMPOZİUMUN İŞTİRAKÇILARINA

*26 may 2005-ci il* ..................................................................................*142*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*27 may 2005-ci il* ..................................................................................*145*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN PREZİDENTİ ADINDAN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*27 may 2005-ci il* ..................................................................................*148*

İSLAM ÖLKƏLƏRİ ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TUVEYCRİ İLƏ GÖRÜŞ

*27 may 2005-ci il* ..................................................................................*155*

BEYNƏLXALQ HƏRBİ İDMAN ŞURASININ PREZİDENTİ, BRİQADA GENERALI CİANNİ QOLAN İLƏ GÖRÜŞ

*27 may 2005-ci il* ..................................................................................*157*

GORANBOY RAYONU RƏHİMBƏY QULUBƏYOV ADINA ŞƏFƏQ KƏND ORTA MƏKTƏBİNƏ

*28 may 2005-ci il* ..................................................................................*159*

ŞƏKİ RAYONU GÜLARƏ QƏDİRBƏYOVA ADINA BAŞ GÖYNÜK KƏND 1 NÖMRƏLİ ORTA MƏKTƏBİNƏ

*28 may 2005-ci il* ..................................................................................*160*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ ÇIXIŞ

*30 may 2005-ci il* ..................................................................................*161*

TÜRKİYƏNİN ATATÜRK KÜLTÜR, DİL VƏ TARİX YÜKSƏK QURUMUNUN SƏDRİ PROFESSOR SADİQ KAMAL TURAL VƏ ATATÜRK ARAŞDIRMALAR MƏRKƏZİNİN SƏDRİ PROFESSOR MEHMED SARAY İLƏ GÖRÜŞ

*30 may 2005-ci il* ....................................................................................................*164*

RUSİYA FEDERASİYASININ HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİN İLƏ GÖRÜŞ

*31 may 2005-ci il* ....................................................................................................*166*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ÖLKƏLƏRİNİN TİCARƏT VƏ SƏNAYE PALATALARI RƏHBƏRLƏRİ ŞURASININ 3-cü İCLASININ İŞTİRAKÇILARINA

*1 iyun 2005-ci il* ....................................................................................................*168*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*1 iyun 2005-ci il* ....................................................................................................*169*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM QLORİYA MAKAPPAQAL ARROYOYA

*1 iyun 2005-ci il* ....................................................................................................*170*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*1 iyun 2005-ci il* ....................................................................................................*171*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ

*1 iyun 2005-ci il* ....................................................................................................*172*

SENATOR ÇARLZ HEYQLİN BAŞÇILIQ ETDİYİ ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyun 2005-ci il* ....................................................................................................*173*

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU XANIM DONNA DOUSET-KOİROLONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2005-ci il* ....................................................................................................*175*

ABŞ MÜLKİ TƏDQİQATLAR VƏ İNKİŞAF FONDUNUN PREZİDENTİ TOM OVENSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2005-ci il* ....................................................................................................*177*

LİTVA RESPUBLİKASI SEYMİNİN SƏDRİ ARTURAS PAULAUSKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 iyun 2005-ci il* ..........................................................................................*178*

ÜMUMGÜRCÜSTAN KATOLİKOS-PATRİARXI II İLİAN İLƏ GÖRÜŞ

*6 iyun 2005-ci il* ..........................................................................................*180*

AVSTRİYALI TARİXÇİ ALİM, PROFESSOR ERİX FAYQL İLƏ GÖRÜŞ

*6 iyun 2005-ci il* ..........................................................................................*182*

DAĞISTAN RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ
CƏNAB MƏHƏMMƏDƏLİ MƏHƏMMƏDOVA

*6 iyun 2005-ci il* ..........................................................................................*184*

«XƏZƏR NEFT – QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI – 2005» XII BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*7 iyun 2005-ci il* ..........................................................................................*185*

İNGİLTƏRƏ – AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ, BÖYÜK BRİTANİYA PARLAMENTİNİN LORDLAR PALATASININ ÜZVÜ, SABİQ ENERJİ NAZİRİ LORD FREYZER İLƏ GÖRÜŞ

*7 iyun 2005-ci il* ..........................................................................................*192*

HİNDİSTANIN NEFT SƏNAYESİ VƏ QAZ NAZİRİ MANİ ŞANKAR AYYAR İLƏ GÖRÜŞ

*9 iyun 2005-ci il* ..........................................................................................*193*

İTALİYA SENATININ XARİCİ ƏLAQƏLƏR VƏ MİQRASİYA MƏSƏLƏLƏRİ DAİMİ KOMİTƏSİNİN SƏDRİ, SENATIN AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASINDAKI NÜMAYƏNDƏ HEYƏTİNİN ÜZVÜ FİORELLO PROVERA İLƏ GÖRÜŞ

*9 iyun 2005-ci il* ..........................................................................................*194*

İSLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLAVUR RAQNAR QRİMSSONA

*9 iyun 2005-ci il*............................................................................................*195*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYAYA RƏSMİ SƏFƏRİ

*10 iyun 2005-ci il*..........................................................................................*196*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA PREZİDENTİ STİPE MESİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

*10 iyun 2005-ci il*..........................................................................................*198*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN VƏ XORVATİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*10 iyun 2005-ci il* ..................................................................................*201*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATIYA PARLAMENTİNİN SƏDRİ VLADİMİR ŞEKS İLƏ GÖRÜŞÜ

*10 iyun 2005-ci il207*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYA HÖKUMƏTİNİN SƏDRİ İVO SANADER İLƏ GÖRÜŞÜ

*10 iyun 2005-ci il*..........................................................................................*208*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ STİPE MESİÇİN ADINDAN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*10 iyun 2005-ci il*..........................................................................................*209*

AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYE-VANIN XORVATİYA PREZİDENTİNİN XANIMI MİLKA MESİÇ İLƏ GÖRÜŞÜ

*10 iyun 2005-ci il*..........................................................................................*212*

ZAQREB ŞƏHƏRİNİN TARİX–MƏDƏNİYYƏT ABİDƏLƏRİ İLƏ TANIŞLIQ

*11 iyun 2005-ci il*..........................................................................................*213*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ

*13 iyun 2005-ci il*..........................................................................................*215*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVIN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

*14 iyun 2005-ci il*..........................................................................................*216*

IX SANKT–PETERBURQ BEYNƏLXALQ İQTİSADİ FORUMUNUN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*14 iyun 2005-ci il*.............................................................................................*217*

SANKT-PETERBURQDA XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEY-DƏR ƏLİYEVİN XATİRƏ LÖVHƏSİNİN AÇILIŞ MƏRASİMİ

*14 iyun 2005-ci il*.............................................................................................*220*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQDA GÖRÜŞLƏRİ

*14 iyun 2005-ci il 225*

AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİT-Q

*14 iyun 2005-ci il*.............................................................................................*227*

PREZİDENT İLHAM ƏLİYEV «AZƏRBAYCAN RESPUBLİKASININ NAİ-LİYYƏTLƏRİ VƏ ƏMƏKDAŞLIĞA DAİR LAYİHƏLƏR» SƏRGİSİNDƏ

*14 iyun 2005-ci il*.............................................................................................*234*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*15 iyun 2005-ci il*.............................................................................................*235*

LÜKSEMBURQ BÖYÜK HERSOQLUĞUNUN BAŞ NAZİRİ ZATİ-ALİ-LƏRİ CƏNAB JAN-KLOD YUNKERƏ

*15 iyun 2005-ci il*.............................................................................................*236*

MİLLİ QURTULUŞ GÜNÜ MÜNASİBƏTİLƏ YENİ AZƏRBAYCAN PAR-TİYASININ KEÇİRDİYİ MİTİNQDƏ ÇIXIŞI

*15 iyun 2005-ci il*.............................................................................................*237*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ

*16 iyun 2005-ci il*.............................................................................................*240*

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO İLƏ GÖRÜŞ

*16 iyun 2005-ci il*.............................................................................................*241*

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİN İLƏ GÖRÜŞ

*16 iyun 2005-ci il* ........................................................................................*242*

GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ
İLƏ GÖRÜŞ

*16 iyun 2005-ci il*........................................................................................*243*

BEYNƏLXALQ İNVESTİSİYA FORUMUNUN
«FÖVQƏLADƏ UKRAYNA DƏYİRMİ MASASI»NIN
BİRİNCİ GENİŞ İCLASININ AÇILIŞINDA NİTQ

*16 iyun 2005-ci il*........................................................................................*244*

BRİTANİYANIN CƏNUBİ QAFQAZDAKI XÜSUSİ NÜMAYƏNDƏSİ BRAYAN FOLUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 iyun 2005-ci il*........................................................................................*247*

AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ
KATİBİ CANNİ BUKİKKİO İLƏ GÖRÜŞ

*17 iyun 2005-ci il*........................................................................................*248*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB STİPE MESİÇƏ

*17 iyun 2005-ci il*........................................................................................*249*
SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB YANEZ DRNOVŞEKƏ

*17 iyun 2005-ci il*........................................................................................*250*

MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ARMANDU EMİLİU GEBUZAYA

*17 iyun 2005-ci il*........................................................................................*251*

AZƏRBAYCAN MİLLİ MƏTBUATININ 130 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN SƏRƏNCAMI

*20 iyun 2005-ci il*........................................................................................*252*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA STANDARTLARINA CAVAB VERƏN MÜASİR KOMPRESSİYA VƏ SUVURMA PLATFORMASININ (KSP) TƏQDİMAT MƏRASİMİNDƏ

*20 iyun 2005-ci il*..................................................................................................*255*

QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN PROBLEMLƏRİNİN HƏLLİ İLƏ BAĞLI KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ

*21 iyun 2005-ci il*..................................................................................................*258*

YEKUN NİTQİ ..................................................................................................*301*

RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏH-BƏRİ DMİTRİ MEDVEDYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 iyun 2005-ci il* ..................................................................................................*304*

GÜRCÜSTANIN MALİYYƏ NAZİRİ VALERİ ÇEÇELAŞVİLİ İLƏ GÖRÜŞ

*23 iyun 2005-ci il*..................................................................................................*305*

NATO BAŞ KATİBİNİN MÜAVİNİ CON KOLSTON İLƏ GÖRÜŞ

*23 iyun 2005-ci il* ..................................................................................................*306*

KANADANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB POL MARTİNƏ

*24 iyun 2005-ci il* ..................................................................................................*308*

KANADANIN GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ XANIM EDRİEN KLARKSONA

*24 iyun 2005-ci il* ..................................................................................................*309*

HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNİN NÖVBƏTİ BURAXILIŞI MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*25 iyun 2005-ci il*..................................................................................................*310*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*27 iyun 2005-ci il* ..................................................................................................*318*

VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HUQO RAFAEL ÇAVEZ FRİASA

*27 iyun 2005-ci il* ..................................................................................................*319*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*27 iyun 2005-ci il*......................................................................................320

GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM, FRANSA BEYNƏLXALQ CƏRRAHLAR AKADEMİYASININ ÜZVÜ, BAKI DÖVLƏT UNİVERSİTETİNİN, AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN FƏXRİ DOKTORU, İRANDA NƏŞR OLUNAN «VARLIQ» JURNALININ BAŞ REDAKTORU DOKTOR CAVAD HEYƏT İLƏ GÖRÜŞ

*27 iyun 2005-ci il* ......................................................................................321

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

*28 iyun 2005-ci il* ......................................................................................322

KAMER ADALARI İTTİFAQININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB AZALİ ASSUMANİYƏ

*28 iyun 2005-ci il* ......................................................................................324

CNN–TÜRK TELEKANALININ XƏBƏR MÜXBİRİ GÜRKAN ZƏNGİNƏ VERDİYİ BİRBAŞA YAYIMLA MÜSAHİBƏ

*28 iyun 2005-ci il*......................................................................................325

*Q E Y D L Ə R* ......................................................................................342

*Şəxsi adlar göstəricisi*......................................................................................384

*Coğrafi adlar göstəricisi*......................................................................................389

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*

**Texniki redaktoru** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,5. Uçot vərəqi 25,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.